İsfəhan **Qaimiyyə** kompüter araşdırmalar mərkəzi

# Qaimiyyə





www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir

# Günahlar və cəzalar

HÜSEYN KƏRİMİ ZƏNCANİ

بسم الله الرحمن الرحیم

# GÜNAHLAR VƏ CƏZALAR

:Müəllif

Hüseyn Kərimi Zəncani

:Çap nəşriyyat

Şəhriyar

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

# Mündəricat


Mündəricat ----- ۵
GÜNAHLAR VƏ CƏZALAR ----- ۱۳
KİTAB HAQQINDA ----- ۱۳
MÜQƏDDİMƏ ----- ۱۳
GÜNAHIN TƏ`SİRLƏRİ ----- ۲۱
İşarə ----- ۲۱
۱. Müsibətlər ----- ۲۲
۲. Ruzinin azalması ----- ۲۳
۳. Yağıntının azalması, quraqlıq ----- ۲۳
۴. Ne`mətin kəsilməsi, bədbəxtçiliyin gəlməsi ----- ۲۴
۵. Mədəniyyətlərin viran qoyulması, abadlıqların xaraba qalması ----- ۲۶
۶. Zalım hakimlər qarşısında qorxu və biçarəlik ----- ۲۸
۷. Qıtlıq və bahalıq ----- ۲۹
۸. Ömrün qısalığı ----- ۳۱
۹. Şər insanların rəhbərliyi ----- ۳۲
۱۰. Duaların qəbul olmaması ----- ۳۴
۱۱. Saleh əməl üçün tövfiqin (ilahi yardımın) əldən verilməsi ----- ۳۵
۱۲. Gözlənilməz və əlacsız bəlalar ----- ۳۶
۱۳. Ruhun əzabla çıxarılması ----- ۳۷
۱۴. Ticarətdə kasadlıq, zərər-ziyan ----- ۳۸
۱۵. Qəlbin qaralması ----- ۴۰
۱۶. Həqiqətlərin dərkindən məhrumluq ----- ۴۳
۱۷. Küfr ----- ۴۴
۱۸. Rüsvayçılıq ----- ۴۶

۴۸ ---------- Ailə övlada görə günah .۱۹

۵۰ ---------- !Paklanmayınca behiştə daxil olmazsan .۲۰

۵۲ ---------- !?Ne`mətlər müqabilində itaətsizlik nə üçün .۲۱

۵۴ ---------- Bir günah nəticəsində həmişəlik uzaqlıq .۲۲

۵۸ ---------- NÖV GÜNAHIN NƏTİCƏSİ HAQQINDA İMAM SƏCCADIN (Ə) NƏZƏRİ ۷۵

۶۰ ---------- NƏTİCƏ

۶۱ ---------- (ŞİRK (ALLAHA ŞƏRİK QOŞMAQ

۶۳ ---------- İBADƏTDƏ ŞİRKİN İRFANİ TƏ`RİFİ

۶۴ ---------- İLKİN GÜNAH

۶۵ ---------- TÖVHİDİN (BİR ALLAHA PƏRƏSTİŞİN) BƏRƏKƏTLƏRİ

۷۶ ---------- GÜNAHI KİÇİK SAYMAQ

۸۱ ---------- NƏTİCƏ

۸۱ ---------- DAVAMLI GÜNAH

۸۱ ---------- İŞARƏ

۸۳ ---------- GÜNAHIN DAVAMI NƏTİCƏSİNDƏ RUZİNİN AZALMASI

۸۳ ---------- GÜNAHIN DAVAMI NƏTİCƏSİNDƏ AXİRƏTDƏ SALEH ƏMƏLLƏRİN RƏDD OLUNMASI

۸۴ ---------- ALLAH RƏHMƏTİNDƏN ÜMİDSİZLİK

۸۶ ---------- MƏ`SUMLARIN TÖVSİYƏLƏRİ

۸۸ ---------- HAQQIN LÜTFÜ HAQQINDA TARİXİ BİR HADİSƏ

۸۹ ---------- HAQQIN LÜTFÜ HAQQINDA DİGƏR BİR MACƏRA

۹۴ ---------- ALLAHIN ƏKS-TƏDBİRİNDƏN ASAYİŞ HİSSİ

۹۶ ---------- İSTİDRAC" SÖZÜNÜN LÜĞƏT VƏ TERMİNOLOJİ MƏ`NASI"

۹۶ ---------- İŞARƏ

۹۶ ---------- Ne`mət vasitəsi ilə .۱

۹۸ ---------- Tövbə və istiğfarın unutdurulması .۲

۱۰۲ ---------- Möhlət verilməsi .۳

NAMAZIN TƏRKİ ١٠٣
NƏTİCƏ ١٠٨
ORUCUN TƏRKİ ١٠٩
İŞARƏ ١٠٩
a) Orucun tə`sirləri ١٠٩
١. Təqva əldə edilməsi ١١٠
٢. Səbirli olmaq ١١٠
٣. Sağlamlıq əldə etmək ١١١
۴. Ehsan ruhiyyəsinin güclənməsi ١١١
۵. Dünya bəlaları və axirət əzabı qarşısında sipər ١١٢
۶. Yəqin halının güclənməsi ١١٢
٧. Ruhi, psixoloji aramlığın yaranması ١١٣
٨. Şeytanı qovma vasitəsi ١١۴
٩. Axirət ne`mətlərinə çatmaq ١١۴
١٠. Günahların yuyulma vasitəsi ١١۵
١١. Duaların qəbul olması ١١٧
NƏTİCƏ ١١٨
CİHADIN TƏRKİ VƏ ONUN TƏ`SİRLƏRİ ١١٩
İŞARƏ ١١٩
CİHADIN DÜNYƏVİ TƏ`SİRLƏRİ ١٢٢
CİHADIN QİSMLƏRİ ١٢۴
NƏTİCƏ ١٢٧
HƏCCİN TƏRKİ ١٢٨
HƏCCİN FƏLSƏFƏ VƏ SİRLƏRİ HAQQINDA HƏZRƏT ƏLİNİN (Ə) BUYURUQLARI ١٢٩
KƏ`BƏ ١٣١
NƏTİCƏ ١٣۶

XÜMSÜN TƏRKİ ---------- ۱۳۷
İŞARƏ ---------- ۱۳۷
a) Xümsü tərk etməyin tə`sirləri ---------- ۱۳۹
b) Xüms ödəməyin tə`sirləri ---------- ۱۴۲
NƏTİCƏ ---------- ۱۴۸
ZƏKATIN TƏRKİ ---------- ۱۴۸
İŞARƏ ---------- ۱۴۸
a) Zəkatın xüsusiyyətləri ---------- ۱۴۹
b) Zəkat ödəməyin dünyəvi tə`sirləri ---------- ۱۵۰
v) Zəkat ödəməyin tə`sirləri ---------- ۱۵۱
NƏTİCƏ ---------- ۱۵۲
ƏMR BE MƏ`RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN TƏRKİ ---------- ۱۵۳
NƏTİCƏ ---------- ۱۵۹
TƏVƏLLA VƏ TƏBƏRRANIN TƏRKİ ---------- ۱۶۰
TƏVƏLLA VƏ TƏBƏRRANIN MAHİYYƏTİ ---------- ۱۶۰
MƏ`SUMLARIN NƏZƏRİNDƏ TƏVƏLLA VƏ TƏBƏRRANIN ƏHƏMİYYƏTİ ---------- ۱۶۱
SALEH ƏMƏLLƏRİN QƏBULUNDA TƏVƏLLA VƏ TƏBƏRRANIN ROLU ---------- ۱۶۲
SÜNNƏ ƏHLİ ALİMLƏRİNİN NƏZƏRİNDƏ ƏHLİ-BEYT (Ə) MƏHƏBBƏTİ ---------- ۱۶۴
ƏHLİ-BEYT (Ə) ARDICILLARININ NƏZƏRİNDƏ VİLAYƏT ---------- ۱۶۵
NƏTİCƏ ---------- ۱۶۷
YAXINLARLA ƏLAQƏNİ KƏSMƏK ("QƏT`İ-RƏHİM") ---------- ۱۶۷
İşarə ---------- ۱۶۷
Bəs sileyi-rəhimin xeyiri, qət`i-rəhimin zərərləri nədir? ---------- ۱۷۱
a) Qət`i-rəhimin tə`sirləri ---------- ۱۷۱
b) Sileyi-rəhimin tə`sirləri ---------- ۱۷۴
NƏTİCƏ ---------- ۱۷۷

(SPİRTLİ İÇKİLƏR (ŞƏRABXORLUQ ---- ۱۷۷
İÇKİ DÜŞKÜNLÜYÜNÜN ACI NƏTİCƏLƏRİ ---- ۱۷۸
İşarə ---- ۱۷۸
۱. Abırsızlıq, iffətsizlik ---- ۱۷۸
۲. Həqiqəti anlamamaq ---- ۱۷۹
۳. Bütün pisliklərin kökü ---- ۱۷۹
۴. Sağlamlığa zərəri ---- ۱۸۱
۵. Təfriqə və ayrılıq ---- ۱۸۱
۶. Şəfaətdən məhrumluq ---- ۱۸۱
۷. Namazın qəbul olunmaması ---- ۱۸۲
۸. Evin viran qalması və bərəkətsizliyi ---- ۱۸۲
ŞƏRAB İÇƏNİN CƏZASI ---- ۱۸۲
ŞƏRABXOR ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ İCTİMAİ CƏZALAR ---- ۱۸۳
ZİYALI VƏ ŞƏRAB ---- ۱۸۴
OĞURLUQ ---- ۱۸۶
İŞARƏ ---- ۱۸۶
İSLAMDA OĞURLUĞUN CƏZASI ---- ۱۸۷
OĞURLUĞUN DÜNYA VƏ AXİRƏT TƏ`SİRLƏRİ ---- ۱۸۸
SÖZƏ BAXAN OĞRU ---- ۱۹۲
.MALIN OĞURLUQ OLDUĞUNU BİLİB ONU SATIN ALAN KƏS OĞRU HÖKMÜNDƏDİR ---- ۱۹۲
ZİNA ---- ۱۹۳
İŞARƏ ---- ۱۹۳
a) Zinanın tə`sirləri ilə bağlı İslamın baxışı ---- ۱۹۵
۱. E`dam ---- ۱۹۷
c) Zinadan yaranan qadağalar ---- ۱۹۸
v) İslam qanunlarında zina ---- ۲۰۰

q) Zinanın səbəbləri ---------- ۲۰۰
:Zina amilləri ---------- ۲۰۱
.۱ Atalar, analar və övladlar arasında məhəb-bətin yetərsizliyi ---------- ۲۰۱
.۲ Ərlə arvad arasında məhəbbətin yetərsizliyi ---------- ۲۰۳
.۳ Xasiyyət fərqlərinə diqqətsizlik ---------- ۲۰۴
.۴ Həyat yoldaşını unutmaq ---------- ۲۰۵
.۵ Məcburi və qeyri-münasib evlənmə ---------- ۲۰۵
.۶ İnadkarlıqlar və haqsız rəftarlar ---------- ۲۰۶
.۷ Təhqir ---------- ۲۰۷
.۸ Müvəqqəti ayrılıq ---------- ۲۰۹
ğ) İslamın tövsiyələri ---------- ۲۰۹
QADINLAR ARASINDA HƏMCİNSBAZLIQ ---------- ۲۱۱
İSLAMIN SƏRT MÜNASİBƏTİ ---------- ۲۱۵
İŞARƏ ---------- ۲۱۵
QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN TARİXİ ---------- ۲۱۶
...QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN ---------- ۲۱۷
QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN CƏZASI ---------- ۲۱۸
...QANUN MƏCƏLLƏSİNDƏ QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞA ---------- ۲۱۸
KİŞİLƏR ARASINDA HƏMCİNSBAZLIQ ---------- ۲۱۹
HƏMCİNSBAZLIQ VƏ İLAHİ ƏZAB ---------- ۲۲۰
?TARİX NƏ DEYİR ---------- ۲۲۱
RƏVAYƏTLƏRDƏ HƏMCİNSBAZLIĞIN MƏZƏMMƏTİ ---------- ۲۲۲
İLAHİ ƏMRLƏRİN HƏQİQƏTİ VƏ QİÇS (SPİD) ƏZABI ---------- ۲۲۳
HƏMCİNSBAZLIĞIN HƏDLƏRİ ---------- ۲۲۳
HƏMCİNSBAZLIQDAN YARANAN QADAĞALAR ---------- ۲۲۴
?BÜTÜN BU RÜSVAYÇILIQLARDAN QURTULUŞ YOLU VARMI ---------- ۲۲۴

NƏTİCƏ ---------- ۲۲۵
”QƏZF“ ---------- ۲۲۵
İŞARƏ ---------- ۲۲۵
QUR`ANIN NƏZƏRİ ---------- ۲۲۶
QƏZFƏ GÖRƏ CƏZANIN SƏBƏBİ ---------- ۲۲۶
QƏZFİN CƏZASI ---------- ۲۲۶
QƏZFDƏN DOĞAN QADAĞALAR ---------- ۲۲۷
GÜNAHA VASİTƏÇİLİK ---------- ۲۲۸
İŞARƏ ---------- ۲۲۸
İSLAMIN TƏQDİM ETDİYİ ÇIXIŞ YOLU ---------- ۲۲۸
VASİTƏÇİLİYİN CƏZASI ---------- ۲۲۹
QANUNLAR MƏCƏLLƏSİNDƏ VASİTƏÇİLİYİN CƏZASI ---------- ۲۳۰
PEYĞƏMBƏR VƏ YA İMAMLARIN TƏHQİRİ ---------- ۲۳۰
İŞARƏ ---------- ۲۳۰
YADDAŞ ---------- ۲۳۱
İSLAM QANUNÇULUĞUNDA PEYĞƏMBƏRİ TƏHQİRİN CƏZASI ---------- ۲۳۱
ALLAH EVİ KƏ`BƏYƏ HÖRMƏTSİZLİK ---------- ۲۳۱
İŞARƏ ---------- ۲۳۱
MÜQƏDDƏS YERLƏRDƏ GÜNAH ---------- ۲۳۲
İCTİMAİ RƏ’Y BAXIMINDAN KƏ`BƏYƏ HÖRMƏTİN ZƏRURƏTİ ---------- ۲۳۳
SEHR-CADU ---------- ۲۳۳
İŞARƏ ---------- ۲۳۳
?SEHR-CADUNU NECƏ TANIMALI ---------- ۲۳۴
MƏHƏBBƏT DUASI ---------- ۲۳۵
SEHR-CADUNUN BƏLALARI ---------- ۲۳۵
SEHRBAZ VƏ CADUGƏRİN CƏZASI ---------- ۲۳۵

NƏTİCƏ ---------- ٢٣۶
XÜSUSİ BİR TÖVSİYƏ ---------- ٢٣٨
HARAM YEMƏK ---------- ٢٣٨
İŞARƏ ---------- ٢٣٨
HARAM YEMƏYİN – HARAMXORLUQ MƏFHUMU ---------- ٢٣٩
HARAM YEMƏYİN TƏ`SİRLƏRİ ---------- ٢۴٠
BİR ARİFİN BUYURUĞU ---------- ٢۴٧
HALAL TİKƏNİN VƏ HARAMDAN ÇƏKİNMƏYİN ƏHƏMİYYƏTİ ---------- ٢۴٧
NƏTİCƏ ---------- ٢۴٨
MÜNDƏRİCAT ---------- ٢۵٠
Haqqında mərkəzi ---------- ٢۵٧

## GÜNAHLAR VƏ CƏZALAR

### KİTAB HAQQINDA

Kitabın adı:....Günahlar və cəzalar

Müəllif:......Hüseyn Kərimi Zəncani

Tərcümə edən:..........Əli Nur

Nəşr edən:....Şəhriyar

Tiraj:........۵۰۰۰

Çap növbəsi:...Birinci

Çap tarixi:...........۲۰۰۷

۹۷۸-۹۶۴-۵۹۳۴-۰۳

səh:۱

### MÜQƏDDİMƏ

Yer kürəsindəki bütün insanların əməl və rəftarlarını araşdırsaq, onlar arasında sanki bir müsabiqənin olduğunu görəcəyik. Bu müsabiqə rəqabət şirinliyi ilə qızışmış, baxmalı bir savaşa çevrilmişdir. Mə`lum olduqda ki, bu müsabiqə yaşamaqdan çox üstünlük əldə etməyə hesablanıb, təəccüb daha da artır. Hamı qalib olmaq istəyir. Amma bu qələbə qəlblərin odunu söndürmür. Çünki məqsəd rəqabət meydanının !qəhrəmanı olmaqdır

İnsanlarda qəhrəmanlıq, qeyd-şərtsiz qələbə əldə etmək arzusunu doğuran nədir? Bəlkə onlar bu müsabiqədə məğlubiyyəti yoxluq sayırlar? Bəlkə onlar yubanıb qələbədən məhrum qalmağı fəna hesab edirlər? Cavab budur ki, insanların həris !təlaşlarının arxasında “ya qələbə, ya ölüm” kimi bir vahimə dayanır

:Bu səbəbdən də görürük ki

;Elm və bilik meydanında bütün düşüncələr cəhalət üzərində qələbəyə yönəlmişdir

Siyasət meydanında siyasətçilər və diplomatik korpus öz məqsədlərinə çatmaq üçün ;müxtəlif proqramlar hazırlayır

İş meydanında fəhlələr gecə-gündüz tər axıtmaqla məhsuldarlıq və keyfiyyəti yüksəltməyə çalışır. Nümunə olmağa göz dikmiş fəhlə sinfi yalnız bunu düşünür ki, ;zəhmətlərinin bəhrəsi sahibkar tərəfindən qəbul olunsun

İrfan və eşq aləmində də salik (yolçu) və aşiq cəhalət səddini aşıb mə`şuqa ;qovuşmaq, mə`rifət və eşq yolunu adlamaq üçün daim təlaşdadır

səh:٣

Hətta gənc zümrənin ən aşkar fəaliyyət səhnəsi olan idman dünyasında bütün idmançılar qəhrəmanlıq düşüncəsindən bir an uzaqlaşmır. Onlar məğlubiyyət acısını nəinki başqalarından çox hiss edir, hətta məğlubiyyət ağrılarından keçərək .qəhrəmanlıq kürsüsünə yol açmağa çalışırlar

İstənilən halda məqam, mövqe, ictimai nüfuz, var-dövlət, rifah üçün çalışan bütün insanlar istisnasız olaraq qələbəyə can atır, məqsədə çatmaq ümidi ilə yorulmadan sə`y göstərirlər. Bəli, qətiyyətlə iddia edə bilərik ki, bütün yer üzündə qələbə barədə düşünməyən insan yoxdur. Yə`ni bütün insanlar qələbə istəyindədir və məğlubiyyətə nifrət edir. Amma bir məqamı nəzərdən qaçırmaq olmaz ki, bütün insanlar qələbə yolunu getməkdə əzm göstərsə də, hər bir şəxsin öz məqsədi var. Yə`ni qələbə dedikdə hər kəs öz düşüncəsinə uyğun bir məqsədi nəzərdə tutur. Bə`ziləri elə düşünür ki, əsl qələbə var-dövlət, məqam əldə etməkdir. Bir başqaları öz siyasi nəzəriyyələrinin həyata keçməsini qələbə sayır. Növbəti bir dəstə elmi olimpiadalarda birinci yeri tutmağı qələbə sayır. Nəhayət, başqa bir dəstə əmin-aman bir həyata nail .olmağı öz həyatı üçün ən böyük qələbə hesab edir

Amma İslam maarifində bütün zahiri qələbələr yalnız Allah-təalaya itaətə əsaslanır. .Allah razılığından uzaq istənilən zahiri qələbə, əslində labüd məğlubiyyətdir

Başqa sözlə, əminliklə demək olar ki, qüdrət və məqam, var-dövlət, savaş meydanında qələbə, iqtisadi məqamların kəsbi, idmanda çempionluq və bir çox başqa nailiyyətlər Allahın razılığı üçün və ona itaət əsasında olarsa, qələbə sayılar. Əks-təqdirdə əldə olunan

qələbədə bir məğlubiyyət rəngi olasıdır. Deyilənləri vəhydən əlavə qəlb də təsdiqləyir. Belə bir qəlb aramlıq içindədir və əlbəttə ki, başqa bir dəlilə ehtiyac duymur. Zənnimcə, bu sözlər Jan Jak Russoya aiddir: "Qəlb hissi məntiqdən ucadır." İndi görək, Allahın razılığını necə əldə edə bilərik? Necə və hansı yolla bütün işlərdə Allahın razılığını ?mehvər seçmək olar

Şübhəsiz ki, tövhid düşüncəsində Allahın razılığı sırf Onun göstərişlərinə əməl etməklə əldə olunur. Bu göstərişlərsə İslam Peyğəmbəri (s) tərəfindən xalqa çatdırılmışdır. Şəriətin Peyğəmbər (s) tərəfindən bəyan olunmuş əmr və qadağaları iki fəsildən .(ibarətdir: Vacibat (vacib əmrlər) və mühərrəmat (haramlar

Vacibat dedikdə hər bir insanın əməl etməli olduğu namaz, oruc, həcc kimi hökmlər nəzərdə tutulur. Mühərrəmat dedikdə isə insanların oğurluq, fırıldaqçılıq, zina, şərabxorluq kimi çəkinməli olduğu işlər nəzərdə tutulur. Qeyd edək ki, vacibat və haramlarla yanaşı müstəhəbbat və məkruhat kimi əməllər də var. Müqəddəs şəriət müstəhəbbata əməl etməyi, məkruhatdan çəkinməyi tövsiyə edir. Ancaq biz bu iki .mövzu haqqında danışmayacağıq

Qarşınızdakı kitabda müqəddəs şəriətin fövqəl`adə əhəmiyyətə malik olan məsələlərindən biri araşdırılır. Çünki bu məsələ insanların fərdi və ictimai həyatında mühüm rol oynayır və əksəriyyət onun əhəmiyyətini dərk edir. Uzun illər dini mənbələri araşdıran müəllif belə bir qənaətə gəlib ki, insanların bir çox problemləri günah və onun ağrılı nəticələrindən xəbərsizlikdən qaynaqlanır. Əminəm ki, günahın şəxsə və cəmiyyətə vurduğu ziyanlardan xəbərdar olan insan heç vaxt günaha yol .verməz, hətta ona yaxınlaşmaqdan çəkinər

Müqəddimənin birinci hissəsində müəyyən məsələləri nəzərinizə çatdırdıqdan sonra söhbəti başqa çalarla davam etdirək. Olsun ki, bu, oxucuların müəllifin əsl məqsədini .anlamasına kömək göstərə

Şübhəsiz e`cazkar varlıq aləmini bir qədər mütaliə etdikdən sonra başa düşəcəyik ki, kainat ən kiçik zərrəsindən ən böyük planetlərinədək məqsədli yaradılmış, möhkəm nizama tabe edilmişdir. İnsan yaranmışlar arasındakı üstünlük və kamilliyi, gözəl biçimi ilə öndə gəlir. Beləcə, insanın təbiəti ram etməsi, yer üzünün abadlığı üçün çalışması, .eyni zamanda öz xaliqinin iradəsinə təslim olması üçün münasib şərait yaranmışdır

Digər tərəfdən, bilirik ki, Xaliq insandan pak bir həyata nail olmasını, ədalətli bir cəmiyyət üçün çalışmasını, əmr və qadağalara əməl etməklə əzəli və pak cövhərini çirkinliklərdən təmizləyərək öz Rəbbinə yaxınlaşmasını istəmişdir. Yə`ni Adəm övladı yaranış ağacının meyvəsi hesab olunur. O, xilqətin zərifliyi sayılır. Bu hesabla agah insanın üzərinə böyük məs`uliyyət düşür. Bu məs`uliyyət ilk gündən ona tapşırılmışdır. .Göylərin götürmədiyi bu əmanət insanın üzərinə qoyulmuşdur

Bu missiyanın icrası əslində mə`rifət və bəsirət əldə etməkdən, qoyulmuş şərtləri yerinə yetirməkdən ibarətdir. Bu iş cismin sağlamlığı, ruhun tərbiyəsi ilə başa çatır. Bu .halda insan həyatı pak, təbii nailiyyətlərdən faydalanmış sayılar

Artıq öyrənmək lazım gəlir ki, ilahi vəhydə qeyd olunan “pak ağac” və “çirkin ağac” ?nədir

Bəli, bu, iki növ həyatdır. Allah-təala insanın həyatını, inkişaf mərhələlərini ağaca bənzədir. Bu ağac

həm şirin və pak, həm acı və çirkin meyvə verə bilər. Necə ağac olmaq insanın öz ixtiyarındadır. O həm elm və mə`rifət bəhrəli, həm də cəhalət və şər bəhrəli bir ağac ola bilər. Sözümüzün canı budur ki, Allahın əmr və qadağalarına təslim olmaq, vacib əmrləri yerinə yetirib haramlardan çəkinmək, haqqında danışılan ağacın necəliyini .tə`yin edən amillərdəndir

İnsan vücudunu bir ağac olaraq qəbul etdiksə, bu ağac üçün bəlalar olduğunu da rədd etməməliyik. İnsan vücudu ağacının bəlası günahdır. Bu günah onun kökünü, gövdəsini qurudur, nəinki səmərəsinə, hətta varlığına tə`sir göstərir. Belə bir bəla ilə .birlikdə pak həyata çatmaq mümkünsüzdür

Heç şübhəsiz, günahın insan həyatına ciddi tə`sirləri var. Günah öz dağıdıcı tə`siri ilə cism və ruhu, aşkar və gizlini, dünya və axirəti məhv edir. Günah qəlbi sıxıntıya düçar edir, ruhu kədərləndirir, insanlıq dəyərlərini qiymətdən salır. Günah ruhun daimi qərarsızlığına, asayişin aradan götürülməsinə, psixoloji narahatlığa səbəb olur. Günah ixtilaf, kin-küdurət, savaş, höcətləşmə səbəbidir və bir çox ictimai problemlər ondan qaynaqlanır. Müəllif ayə və rəvayətlərə, mö`təbər İslam mənbələrinə müraciət edərək günahları sadalamış, insan həyatında müxtəlif günahların dağıdıcı tə`sirini açıqlamışdır. Ümid edirik ki, möhtərəm oxucular bu kitabı mütaliə edib günahın şəxsiyyət və cəmiyyətdə dağıdıcı tə`sirləri ilə tanış olacaq, günahlardan uzaqlaşaraq doğru yolu tutacaqlar. Allahın yardımı ilə insan vücudunun müqəddəs ağacı «bar» .verəcək, şirin və tamlı meyvələr yetirəcək

Sonda qeyd edək ki, qarşınızdakı kitabda günahları sadalamaqla yanaşı onların fərdi və ictimai həyatdakı səh:٧

dağıdıcı tə`sirləri qeyd olunmuşdur. Arzumuz budur ki, əziz oxucular günahdan uzaqlaşmaqla yanaşı başqalarını da ondan çəkindirsinlər. Günahın zərərləri o qədər böyükdür ki, onları asanlıqla sadalayıb qurtarmaq olmur. Bunu demək olar ki:

Günah millətləri məhv edir, mədəniyyətləri viran qoyur;

Günah yaxşılıqları aradan qaldırır, pisliklərə meydan verir;

Günah insan ömrünü qısaldır, gənc yaşda ölüm qapını döyür;

Günah asayişi aradan qaldırır, cəmiyyətdə qarşıdurma hakim olur;

Günah abadlıqları xaraba qoyur, viranlıq ətrafı bürüyür;

Günah şadlığın yerinə qəm-qüssə gətirir;

Günah çöhrələrin gözəlliyini alıb, onlara çirkinlik verir;

Günah insanın rahatlığını əlindən alıb, onu iztiraba salır;

Günah insanı ne`mətdən məhrum edib, onu yoxsulluğa düçar edir;

Günah insanı sağlamlıqdan məhrum edib, onu əlacsız xəstəliklərə yoluxdurur...

Günahın həddi aşan və ziyanlı tə`sirlərini ətraflı şəkildə qarşıdakı söhbətlərimizdə sadalayacağıq.

Hüseyn Kərimi Zəncani

## GÜNAHIN TƏ`SİRLƏRİ

### İşarə

Günah dedikdə itaətsizlik, qanunu pozmaq, dünyanın təbii nizamına qarşı qiyam mə`naları nəzərdə tutulur. Bu baxışa əsasən, yaranış aləminin tam qanuni zərurətlərini görməməzliyə vuran şəxs günahkar sayılır. Çünki yaranış nizama əsaslanır, hər bir nizam qanundan qaynaqlanır. Qanunsuzluq özü günahdır və günah xaliqə qarşı üsyan kimi başa düşülür. Bu gün bəşəriyyət mə`nəviyyat qaynağından uzaqlaşaraq itaətsizliyə üz tutmaqla yerdə və göydə bir çox bəlalar ərsəyə gətirmişdir. İnsan isə faciəyə düçar olmasının səbəbini anlamır. Doğrudan da, bəşəriyyət nə üçün ?bir bu qədər bəlaya düçar olmuşdur? Hansı bəladan danışaq

Bə`zən dəhşətli bir sel şəhərləri və əkin sahələrini xaraba qoyur, sunami şəklində ;cənub-şərqi Asiya sahillərini bürüyür, milyonlarla insan ev-eşiksiz qalır

Bə`zən göy yerə açılmış bacalarını bağlayır, yaşıl aləm dodağını islatmaq arzusunda ;qalır. Quraqlıq, qəhətlik, aclıq, məcburi mühacirətlərlə sonuclanır

Bə`zən od, bə`zən külək, bə`zən torpaq sürüşməsi, bə`zən su elə fəlakətlər yaradır .ki, buna savaşlar, qətl-qarətlər də əlavə olunsa bəşər nəslinə son qoyular

Əgər bu hadisələrin, təbii və qeyri-təbii bəlaların səbəbini araşdırsaq belə bir qənaətə !gələrik ki, biz öncədən yolumuzu seçmişik: Mə`nəviyyatdan uzaqlaşmaq

Bu iddia üçün sözsüz ki, dəlillərimiz var. Birinci dəlil tam məntiqi və asan anlaşılandır: Hər kəs əkdiyini biçir. Yə`ni müsibət əkən, torpağa günah toxumu səpən rahatlıq və xoşbəxtlik görmür. İkinci dəlil vəhy və

mə`sumların buyurduqlarında əks olunur. İslami mənbələrdə bəd əməllərin acı nəticələrinə aşkar işarələr var. Qarşıdakı söhbətlərimizdə deyilənlər ətraflı şəkildə :açıqlanacaq, günahın tə`sirləri araşdırılacaq

**Müsibətlər .۱**

İtaətsizlik və azğınlıq müsibət və bəlalarla sonuclanır. Allah-təala buyurur: "Anlamadılarmı ki, onlardan öncə bir çoxlarını məhv etdik? Hansı ki, onlara yer üzündə sizə vermədiyimiz imkanı vermişdik. Onlar üçün yağış yağdırır, yaxınlıqlarından çaylar axıdırdıq. Sonra günahlarına görə onları məhv etdik və başqa bir dövrün insanlarını (yaratdıq."(۱

Mə`sum imamlar da bu nöqtəyə işarə etmişlər. İmam Sadiq (ə) buyurur: "Allahın çətinliklərindən gecə-gündüz Onun özünə pənah aparın." Rəvayətçi deyir ki, çətinliklər deyərkən imamın nəyi nəzərdə tutduğunu soruşdum. Həzrət (ə) buyurdu: ("İtaətsizliklərinə görə bəndələrin tutulması."(۲

Digər bir rəvayətdə imam Sadiq (ə) buyurur: "Agah olun, bilin ki, günaha batmadan bir damar titrəməz, heç bir müsibət və xəstəlik qarşıya çıxmaz. Allah buyuruğunun məfhumu yalnız budur ki, sizə üz tutan hər bir müsibətin səbəbi sizin öz əməllərinizdir. Amma Allah sizin çox xətalarınızı bağışlayır." Sonra İmam (ə) buyurur: "Hər halda Allah (daha çox bağışlayır, nəinki cəzalandırır!"(۳

(İmam Sadiqdən (ə) nəql olunmuş digər bir rəvayətdə deyilir: Əmirəl-mö`minin Əli (ə



---

.Ən`am surəsi, ayə ۶ [۱] -۱

.Üsuli-Kafi, ۲-ci cild, səh.۲۶۹ [۲] -۲

.Bihar, ۷۳-cü cild, səh.۳۱۷ [۳] -۳

buyurmuşdur: “Şadlıq zamanı elə gülmə ki, dişlərin görünsün. Günaha yol verən kəs gecə göndəriləcək ilahi əzabdan heç vaxt amanda qalmayacaq.”(١)

### Ruzinin azalması .٢

Günah ruzini azaldır və dünyanı insana dar edir. İmam Baqir (ə) buyurmuşdur: “Allahın bəndəsi günaha batdığı vaxt ruzinin azalması bəlasına düçar olar.”(٢) İmam Sadiq (ə) buyurmuşdur: “Həqiqətən, günah bəndəni ruzidən məhrum edən səbəbdir.”(٣) İmam Baqir (ə) buyurmuşdur: “İnsanlar günaha batdığında ruzi onlardan uzaqlaşır.” Sonra İmam (ə) bu ayəni tilavət etmişdir: “Bir dəstə and içdi ki, sübhlər bağın məhsulunu yığarıq. Amma “inşaəllah” demədilər. Onlar yuxuda olduğu vaxt Allahın istəyi ilə bəla bağı məhv etdi.”(٤)

### Yağıntının azalması, quraqlıq .٣

Yağış təbii ne`mətlərdəndir. O quru torpağı isladıb, gülüstana çevirir. Torpağın yağışdan öz payı var. Haraya nə qədər yağış yağması iqlimdən asılıdır. Amma bə`zən göyün üzü elə bağlanır ki, təbiətin dodağı quruyur. Əlbəttə ki, bunun səbəbləri var.

Göyün yerdən küsmə səbəblərindən biri insanların günahkarlığı, Allah qanunlarına qarşı qiyam qaldırmasıdır.

Əbu-Həmzə imam Baqirin (ə) dilindən belə nəql edir: “Heç bir ilin yağış payı o biri ilkindən az deyil. Amma yağışı istədiyi yerə yağdıran Allahdır. Allah



---

١- [٤] Bihar, ٧٣-cü cild, səh.٣١٧.

٢- [٥] Bihar, ٧٠-ci cild, səh.٣١٨.

٣- [٦] Bihar, ٨١-ci cild, səh.١٩۴.

۴- [٧] Üsuli-Kafi, ٢-ci cild, səh.٢٧١.

günahkar insanların yağış payını kəsib, onu dağlara və dənizlərə yağdırır. İnsanlar günah etdikləri yerdə Allah təzək qurduna əzab verər, yağışı kəsər və onu günaha yol verilməyən yerlərə yağdırar.” Sonra həzrət (ə) buyurdu: “Ey bəsirət sahibləri, ibrət götürün!” (İnsanların günahına görə dili bağlı canlı cəzalandırılırsa, günahkarların halı (necə olacaq?!)(١)

## Ne`mətin kəsilməsi, bədbəxtçiliyin gəlməsi .۴

Yer üzünün əhatəli iqlimi ilahi kərəmin geniş süfrəsidir. Bütün məxluqun, güclü və zəif .varlıqların bu iqlimdən payı var

,Onun süfrəsidir bütün yer üzü

.Yaxşı, yaman yeyir, hələ yox sözü

,Bu süfrə o qədər genişdir, inan

,Quş da dənsiz qalmır yol gedən zaman

,Təpərsiz canların yoxsa da sayı

.Hərənin ruzidən vardır öz payı

Bununla belə, günahkar ne`mətin kəsilməsi ilə cəzalandırılır. İndi isə uyğun müddəanın təsdiqi üçün Səmaə və Əbu-Əmrdən nəql olunmuş rəvayətlərə nəzər :salaq

a) Səmaə deyir: İmam Sadiqdən (ə) belə buyurduğunu eşitdim: “Allah öz bəndəsinə ne`mət əta etmir ki, özü həmin ne`məti geri alsın. Bəndə günaha batır və bu (səbəbdən ne`mət kəsilir.”(٢)

b) Əbu-Əmr Mədaini imam Sadiqin (ə) dilindən belə nəql edir: “Atam imam Baqir (ə) buyurdu: Həqiqətən, Allahın qərarı budur ki, bəndəsinə əta etdiyi



---

.Bihar, ٧٣-cü cild, səh.٣٢٩ [٨] -١

.Bihar, ۷۳-cü cild, səh.۳۳۹ [۹] -۲

ne`məti ondan almasın. Bəndə yalnız günaha yol verməklə Allahın qəzəbinə gəlir. ((Günaha yol verib özünü ne`mətdən məhrum edir.)"(١)

**Mədəniyyətlərin viran qoyulması, abadlıqların xaraba qalması .۵**

Yer kürəsi neçə yüzilliklər, minilliklərdir ki, ömür sürür. Bu müddətdə saysız hökmranlar, hakimlər, sultanlar və imperatorlar gəlib getmişdir. Onlar əbədilik eşqi ilə uca qəsrlər inşa etmişlər, amma bu qəsrlərdən çoxlarının məhv olub getdiyi göz qabağındadır. Babil bağları, Çin səddi, Misir ehramları bu qəbildəndir. Əksər imarətlər .isə bəlalar, təbiət hadisələri nəticəsində uçulub-dağılmışdır

Əgər desək ki, tarixi tikililər zaman ötdüyü üçün viran qalmışdır, bunu da unutmamalıyıq ki, bir çox tarixi əsərlər zamana görə yox, insanların günahlarına görə məhv olmuşdur. Çünki abadlığın viran qalması günahın acı sonluqlarından biridir. Məsələn, bir vaxt Sasani imperatorlarının taxt-tacı yerləşmiş bu günki Mədain xarabalıqlarına ibrət gözü ilə baxmaq lazımdır. Həmin əzəmətli sarayın qalıqlarına :Xaqani Şirvani ilə birlikdə nəzər salmaq lazım gəlir

Ey könül, nəzər sal ibrət gözüylə

?Mədain gözəli hardadı söylə

,Çağır o gözəli göz yaşlarınla

.Cavab batindədir, gözünü bağla

,Bu qəsrin hər tacı ibrətdir, ibrət

.Qoy danışsın sənə nədir cinayət

,Zalımların zülmü uçurdu bizi



---

.Bihar, ٧٣-cü cild, səh.٣٣۴ [١٠] -١

!Qəsri uçan sultan nə çəkdi özü

Göylərin hökmüylə uçan imarət

.Başqa bir hökmlə tapmaz dəyanət

,Bu torpaq şahları çəkdi kamına

.Dayanmaz, hərisdir zalım qanına

Bəli, Fir`onun, Kəsranın bütün müstəbid sultanların sarayları torpaqla bir oldu. Bu mədəniyyətlərin məhv olmasının səbəbi həm zaman, həm də günahkarların əməlidir. İmam Musa ibn Cəfər (ə) buyurur: "İçərisində günahlar edilən abadlıqlar Allah tərəfindən viran qoyulmağa layiqdir. Onlar xaraba qaldıqdan sonra pak günəş heç bir maneəsiz torpağın üzünə gülür və onu günahdan paka çıxarır."(١)

Fiqhdə pakedicilərdən biri də günəşdir. Günəş öz şəfəqi ilə murdarı paka çıxarır. Rəvayətdə günahdan törəmiş mə`nəvi çirkinliklərin paklanmasına işarə olunur. İndi isə günah nəticəsində mədəniyyətlərin və abadlıqların məhv olmasından danışan iki rəvayətə nəzər salaq:

a) Sudəyr belə nəql edir: Qur`ani-kərimdə belə bir ayə var: "Dedilər ki, Pərvərdigara, bizim səfərlərimizi uzat və bununla özlərinə zülm etdilər." Bir şəxs imam Sadiqdən (ə) bu ayə haqqında soruşdu. Həzrət (ə) buyurdu: "Onlar ne`mət və bir-birinə bitişik abadlıq sahibi idilər. Bir-birlərini görürdülər, sulu çeşmələri və çoxlu malları vardı. Amma nankorluq etdilər və günaha batmaqla öz vəziyyətlərini dəyişdilər. Allah da ne`mətlərini onlardan aldı, ora güclü bir sel göndərməklə abadlıqlarını qərq edib, mənzillərini



---

١- [١١] Bihar, ٧٣-cü cild, səh.٣٢٩.

xaraba qoydu, mal-mülklərini yoxa çıxardı, ne`mətli və bəhrəli bağlarını iki meşəyə çevirdi. Bu cəzanı doğuran isə onların nankorluğu idi. Ağır bir cəza nankorların intizarındadır."(١)

b) Həysəm ibn Vaqit imam Cəfər Sadiqdən (ə) belə nəql edir: Allah peyğəmbərlər arasından bir peyğəmbəri öz qövmünə məb`us etdi. Həmin peyğəmbərə vəhy etdi ki, qövmünə desin: "Mənə itaət edib vəzifəsini yerinə yetirən insanlara bol ne`mət verdim. Elə ki, itaətimdən çıxıb mən istəmədiyim halda günaha yol verdilər, mən də ne`mətimi geri götürüb onlar istəmədiyi halda bəla nazil etdim. Kim mənə qarşı günaha yol versə günahları səbəbindən onları bəla və yoxsulluğa düçar edərəm. Günahı ibadətlə əvəz etdikdə, mən də bəlanı ne`mətlə əvəz edərəm. Onlara de ki, mənim rəhmətim qəzəbimdən irəlidir. Rəhmətimdən mə`yus olmasınlar, günahın böyüklüyü mənim mərhəmətimə mane olmur. Onlara de ki, inadkarlıq götstərib qəzəb istəməsinlər, mənim dostlarımı kiçik saymasınlar. Çünki mənim qəzəbim nazil olanda, bəlalar və müsibətlər onlara yetişəndə kimsə onun qarşısında dayanıb müqavimət göstərə bilməyəcək."(٢)

### ۶. Zalım hakimlər qarşısında qorxu və biçarəlik

İtaətsizlik və tüğyan insanla bir doğulub. Psixoloji baxımdan insan malik olduğu tüğyan gücünü özündən üstün qüdrət qarşısında işə salmaq əzmindədir. Əgər o Allaha qarşı e`tiraz mövqeyində dayansa, bir növ tüğyan yükünü boşaltmış olur, zalım hakimlər qarşısında təslim olub çarəsiz vəziyyətdə qalır. Olsun ki, Yunis ibn



---

١- [١٢] Bihar, ٧٣-cü cild, səh.٣٣۴.
٢- [١٣] Bihar, ٧٣-cü cild, səh.٣۴٢.

:Yəqubdan nəql olunmuş rəvayətdə uyğun psixoloji duruma işarə olunmuşdur

Yunis ibn Yaqub imam Sadiqin (ə) dilindən belə nəql edir: “Sizlərdən hansı biriniz zalım hakimdən çox qorxarsa, bilsin ki, bunun səbəbi onun günahıdır. Bacardıqca günahdan uzaqlaşsın və onu davam etdirməsin (bu yolla zalım hakimin boyunduruğundan azad (olar).”(١)

Bir sözlə, günahın böyük fəsadları var və onlardan biri də təslimçiliyə vərdişdir. Allah-təala buyurur: “İnsanların günahı səbəbindən səhra və dəryada fəsad yaranmışdır.” İmam Sadiq (ə) uyğun ayənin izahında buyurur: “Dəniz heyvanları yağış suyunun bərəkəti ilə yaşayır. Yağış azaldıqda dənizdə və səhrada fəsad yaranır. Bunun səbəbi (isə insanların günaha çox yol verməsidir.”(٢)

### Qıtlıq və bahalıq .٧

Keçmişdəkilər rifah, ne`mət, ruzi bolluğunu həmdərdlikdən, qarşılıqlı yardımdan, həmkarlıqdan asılı bilmişlər. Yə`ni öncə fərdi, daha sonra ictimai yardımı tə`sirli saymışlar. Əlavə etmişlər ki, xoş aqibət yalnız təlaş, həmdərdlik, xeyir əməllər vasitəsi ilə tə`min edilir. Savab işlərin ruzi qapılarının açılmasında da rolu var. Daxilində fitnə-fəsad olan cəmiyyətlə təbiət və dünya da çarpışmadadır. Əməllərimiz xeyir olsa həyatımız da yetərincə qaydasında idarə olunar. İtaətsizlik və günaha üz tutsaq .dövran da bizdən üz çevirəsidir



---

.Bihar, ٧٣-cü cild, səh.٣۴٢ [١۴] -١
.Bihar, ٧٣-cü cild, səh.٣۴١ [١۵] -٢

:Deyilənlərin aydınlaşması üçün iki rəvayəti nəzərdən keçirək

a) Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Ümmətim nə qədər ki, bir-birini sevir, sülh və əmin-amanlıq içində yaşayır, əmanəti sahibinə qaytarır, haramdan çəkinir, qonaqpərvərdir, namaz qılıb zəkat ödəyir xeyir içində olacaq. Bu xeyir işləri tərk etdikdə qıtlığa və bahalığa düçar olasıdır."(١)

b) Həzrət Əli (ə) buyurmuşdur: "Günahdan çəkinin. Çünki bütün bəla və qıtlıqların səbəbi günahdır. Hətta bədənin qaşınması, yerə yıxılmaq, çətinliyə düşmək günahla bağlıdır. Allah-təala Qur`anda buyurur: "Düçar olduğunuz hər bir müsibətin səbəbi öz əməllərinizdir." Hansı ki, Allah bir çox günahları ötürüb bağışlayır."(٢)

Qıtlıq və maddi sıxıntı bütün cəmiyyəti bürüyən cəzalardandır. Belə ki, fərdin günahı cəmiyyətə də tə`sir göstərir. Qıtlıq zamanı varlı və yoxsul qıtlığın acısını birlikdə dadır. :Sə`di Şirazi öz şe'rində bu nöqtəni belə işıqlandırır

,Bir qıtlıq düşdü ki, qurudu hər yan

Aşiqlər mə`şuqu çıxartdı yaddan

,Göylər üz döndərib bağladı gözün

.Dodağı çatladı təşnə nərgizin

,Bağçalar qurudu düşdü nə kökə

.Çəyirtkə bağ yedi, insan çəyirtkə



---

.Bihar, ٧٣-cü cild, səh.٣٥٢ [١۶]-١

.Bihar, ٧٠-ci cild, səh.٣٥٠ [١٧]-٢

## Ömrün qısalığı .٨

Ağac sudan təravət aldığı kimi, insanın ömür ağacı da xeyir əməldən güc alır. Şair :deyir

Tövbə qıl keçmişə dönmə bir də sən

,Ömür ötübsə də kökü bu dəmdir

.Ver tövbə suyundan, yoxsa sitəmdir

,Kötüyünə içir həyat suyundan

.Bəhrə götürərsən cücərən zaman

:Başqa bir şe`rdə oxuyuruq

,Haqq ilə ömür də, ölüm də xoşdur

.Allahsız bir həyat sinədə daşdır

,Xoş ömür Allaha yaxınlıqdadır

.Pis ömür peyinlə qurdu aldadır

Şairin dilində həqiqət düzgün istiqamətdə yol getməkdir. Həqiqət mehvərində ötüşən ömür həm xoşdur, həm də uzun. Amma dirilik suyu Allah zikrindən kənarda oda .çevrilir. Demək, ömrün uzunluğu yaxşı əməldən asılıdır və pis əməl ömrü qısaldır

Ömür yay günəşinin qızdırdığı qar olduğundan və hər nəfəs ömrü qısaltdığından insan xeyir əməl və günahdan uzaqlıqla onu artırmalıdır. Allah-təala insan ömrünün son .nöqtəsini onun əməlindən asılı bilir

Həzrət Peyğəmbər (s) buyurur: "Mö`minin Allah qarşısında kəramət və izzətlərindən biri də budur ki, onun əcəli üçün vaxt müəyyənləşməmişdir. İnsan pis iş

(görmək istədiyi vaxt (günah etməsin deyə) Allah onun ruhunu çıxarır."(۱)

İmam Sadiq (ə) buyurur: "Allah mö`min üçün ölüm vaxtını müəyyənləşdirməmişdir. Nə qədər ki, onun həyatı xoşdur, diri saxlanılır. Allah biləndə ki, mö`min pis bir əməllə (dinini puça çıxaracaq, onun kəramətini qoruyub ruhunu çıxarır."(۲)

İmam Cəfər Sadiq (ə) buyurur: "Çirkin işlərdən çəkinin ki, ömrünüz uzun olsun."(۳) Digər bir məqamda İmam (ə) buyurur: "Günah səbəbindən ölənlərin sayı təbii əcəllə ölənlərin sayından çoxdur. Ehsan səbəbi ilə yaşayanların sayı təbii ömrünü sürənlərin (sayından daha çoxdur."(۴)

### Şər insanların rəhbərliyi .۹

Xalqın Allah qanunlarına riayət etməsi ictimai nizama da tə`sir göstərir. İnsanlar günaha batmaqla doğru yoldan çıxdıqda cəmiyyət üçün təhlükələr yaranır. Xalqın günahından qaynaqlanan ən kiçik ictimai fəsad alçaq insanların onlara hakim .olmasıdır. Zalımların rəhbərliyi insanların öz azadlığını itirməsi ilə müşayiət olunur

Əsbəğ Nəbatə həzrət Əlidən (ə) nəql edir ki, həzrət Peyğəmbər (s) belə buyurmuşdur: "Allah bir xalqa qəzəblənib ona əzab nazil etməyəndə, bu əzabın əvəzində qiymətlər ,bahalaşır, ömürlər qısalır, tacirlər alış-verişdən fayda götürmür, meyvələr xarab olur



---

.Üyunul-əxbar, ۲-ci cild, səh.۳۶ [۱۸]-۱
.Mustədrəkul-vəsail, ۱۱-ci cild, səh.۳۲۶ [۱۹]-۲
.Bihar, ۷۳-cü cild, səh.۳۵۴ [۲۰]-۳
.Bihar, ۷۳-cü cild, səh.۳۵۶ [۲۱]-۴

(çayların və quyuların suyu azalır, yağış yağmır, şər insanlar xalqa hakim olur.”(١

İmam Sadiq (ə) Allah-təalanın belə bir buyuruğunu nəql edir: “Məni tanıyan şəxs günaha yol versə, məni tanımayan birini ona hakim edərəm.”(٢)

Bir zaman Allaha qarşı üsyan edən Misir Fir`onu tanrılıq iddiasına düşdü. Harun Ər-Rəşid Misirə hakim olduğu vaxt məmləkətin idarəçiliyini ən cahil insanlara tapşırdı. O misirlilər və Fir`onun üsyanına belə cavab verdi.(٣)

Tarixdə nəql olunur ki, Əmirəl-mö`minin (ə) tüğyan qoparan insanlara buyurdu: “Əgər dini vəziyyətinizi və əməllərinizi dəyişməsəniz, Allah sizə “səqif qulamı” (səqif tayfasından bir şəxsi) hakim edəcək.” Həzrət (ə) bə`zən də belə deyirdi: “Pərvərdigara, bu camaata səqif qulamı hakim buyur!” Nəhayət, xalqın İslama və İslam hökmlərinə diqqətsizliyi, Əhli-beytə (ə) e`tinasızlığı nəticəsində Allah-təala tarixin zalım hakimi Həccac ibn Yusif Səqəfini onlara hakim etdi. Tarixdə nəql olunur ki, bu şəxs yetmiş min günahsız insan öldürdü. Onun günahından savaşda öldürülənlər bu yetmiş minə daxil deyil. Onun özünün belə dediyi nəql olunur: “Şiənin başı kəsilərkən onun çırpınması səhnəsini müşahidə edə-edə yediyim xörək mənim üçün ən dadlı yeməkdir!”

Tarix boyu həccacların cinayətləri adətən xalqın müqəddəs İslam dininə e`tinasızlığından, dini şəxsiyyətlərin və alimlərin hörmətinin saxlanmamasından, müsəlman xalqın günahlarından



---

١- [٢٢] Ət-Təhzib, ٣-cü cild, səh.١۴٨.
٢- [٢٣] Üsuli-Kafi, ٢-ci cild, səh.٢٧۶.
٣- [٢۴] Hekayələr gülüstanı, səh.۴٠.

qaynaqlanmışdır. Bütün bu hadisələr nəql olunmuş rəvayətlərin düzgünlüyünü təsdiqləyir. İslama e`tinasızlıq göstərən, nəfs istəklərinə tabe olan, dinin ziddinə addım atan müsəlmanlar bilməlidirlər ki, onları zalım sultanların, amansız .sitəmkarların hökmranlığı gözləyir

Bilməliyik ki, xalq günaha yol verdiyi vaxt Allah onları günahkarların hökmranlığı ilə cəzalandırır. Necə ki, əksər peyğəmbər ümmətləri günahları səbəbindən Allahın .qəzəbinə gəldilər, onlara Qur`an ayələrində bəyan olunmuş bəlalar nazil oldu

### Duaların qəbul olmaması .۱۰

Mövləvinin "Məsnəvi"sində maraqlı bir hekayədə nəql olunur ki, günah və günahkarların xüsusi bir qoxusu var və bu qoxu əsasında günahkarı günahsızdan seçmək olar. Bir hekayədə müqəssirlərin ağız qoxularından onların hansının günahkar, hansının günahsız olduğu müəyyənləşdirilir. Sonra nəticə çıxarılır ki, günahkarın nəfsi .çirkaba batdığından onun duası rədd edilir

,Dualar rədd olur qoxusu ilə

.Bulaşıq nəfs xətər yetirir dilə

,Günah kəsir duanın nəfəsini

.Ha çağırır, eşidən yox səsini

İmam Baqir (ə) buyurur: "Həqiqətən, bir bəndə Allahdan nəsə diləyir və Allah onun diləyini yaxın bir zamanda yerinə yetirmək istəyir. Bu arada bəndə günaha batır. Allah-təala öz mələyinə buyurur: Onun istəyini yerinə yetirmə, onu məhrum et. Çünki o (öz

(günahı ilə) mənim qəzəbimə gəldi və rəhmətimdən məhrum qaldı.”(١)

İmam Baqirin (ə) dilindən belə nəql olunur: Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Məndən sonra zina aşkar şəkil aldıqda qəfil ölüm artar. Alış-verişdə ölçü və çəki azaldılanda Allah insanları qıtlığa düçar edər. Sileyi-rəhim (yaxınları yoxlamaq) kəsildiyi vaxt var-dövlət şər insanların əlinə düşər. Əmr be mə`ruf və nəhy əz münkər (yaxşılıq əmri və pisliyə qadağa) tərk olunanda və mənim Əhli-beytimə (ə) arxa çevriləndə Allah həmin insanlara zalımları hakim edər. Onlar dua edər, amma duaları qəbul olunmaz.”(٢)

## ١١. Saleh əməl üçün tövfiqin (ilahi yardımın) əldən verilməsi

Kimsə şübhə etmir ki, günah günah gətirir, savab savaba səbəb olur. Şər iş öz ardınca şər, xeyir iş öz ardınca xeyir gətirir. Allah-təala buyurur: “Qəlbi xəstə olanlar çirkinlik üzərinə çirkinlik artırar və kafir ölər.”(٣)

Deməк, günah insanı xeyir əməl tövfiqindən məhrum edirsə, bunun əsası var. Peyğəmbər (s) və imam Sadiqdən (ə) nəql olunmuş iki rəvayət hər günahın ardınca savabın tərk olunduğunu bəyan edir. İmam Sadiqin (ə) tə`birincə, günahın insan şəxsiyyətinə tə`siri bıçağın ətə tə`sirindən daha rəvan, daha asandır. Həzrət Peyğəmbər (s) buyurur: “Günahlardan uzaq olun. Çünki günahlar xeyir işləri məhv edir. (Buna görə də bə`zən) günaha batan bəndə öyrəndiyi elmi yaddan



---

١- [٢٥] Bihar, ٧٣-cü cild, səh.٣٢٩.
٢- [٢٦] Bihar, ٧٣-cü cild, səh.٣٦٢.
٣- [٢٧] Tövbə surəsi, ayə ١٢٤.

çıxarır. Bə`zən bəndə günah səbəbindən gecə ibadətinə müvəffəq ola bilmir. Bə`zən isə insan yol verdiyi günaha görə həmişə dad duyduğu ne`mətin dadından məhrum olur.”(١)

İmam Sadiq (ə) buyurur: “Həqiqətən, bə`zən bəndə günaha batdığından gecə namazından məhrum olur. Doğrudan da, pis əməl öz sahibinə bıçaq ətə tə`sir etdiyindən də sür`ətli tə`sir edir.”(٢)

Mə`sum imamlardan belə nəql olunur: Allaha bəndəlik yolunda çox ciddi və çalışqan olun. Əgər əməl etmirsinizsə, günaha da yol verməyin. Tikdiyini uçurmayanın tikilisi tədricən ucalır. Amma tikdiyini uçuran şəxsin tikilisi heç vaxt yuxarı qalxmır.”(٣)

### ١٢. Gözlənilməz və əlacsız bəlalar

Hər yeni günah yeni bir bəlaya səbəb olur. İnsanlar keçmişdə görünməmiş yeni günaha yol verdikdə Allah-təala da onlara görünməmiş yeni bəlalar göndərər. Keçmişdə misli olmayan və hazırkı cəmiyyətin tanımadığı bu bəlaların qarşısını almaq mümkünsüz olar.

Abbas ibn Hilal Şamlı deyir: İmam Rizadan (ə) belə eşitdim: “Əgər bəndələrdən keçmişdə görünməmiş bir günah baş versə, keçmişdə görünməmiş bəlalar onların sorağına gələr.”(٤)

Uyğun həqiqət bu gün özünü daha çox, daha aşkar göstərməkdədir. Bir zaman bəşəriyyət vəba, taun kimi xəstəliklər görmüşdü. Bu xəstəliklər milyonlarla insanın həyatına son qoymuşdu. Tibb elmi inkişaf etdikcə bu



---

١- [٢٨] İddətud-dai, səh.١٥١.

٢- [٢٩] Bihar, ٧٣-cü cild, səh.٣٣٠.

٣- [٣٠] Bihar, ٨٠-cı cild, səh.٢٨۶.

۴- [٣١] Üsuli-Kafi, ٢-ci cild, səh.٢٧٥.

xəstəliklərdən bə`zilərinə çarə tapıldı. Amma hazırda AİDS, xərçəng kimi çarəsiz xəstəliklərlə üzbəüz dayanmışıq. Son zamanlar isə quş qripi kimi müdhiş bir xəstəlik bəşəriyyəti hədələyir. Axı nə üçün bəşəriyyət mə`sumların buyuruqlarına diqqət yetirib bu müsibətlərin səbəbini öz əməlində axtarmır? Xəcalət dolu həmcinsbazlıq (homoseksualizm) bugünkü mədəni dünyada adi şəkil almışdır. Həmcinsbazlar "seksual azlıq" adı altda qanun tərəfindən müdafiə olunur. Axı bunun «spid»dən başqa nə nəticəsi ola bilər?! Bəli, növbənöv günahlar növbənöv xəstəliklər doğurur. Bütün bu bəlaların kökü günahlarda axtarılmalıdır. Mə`sumların kəlamlarını dərindən araşdırdıqda görürük ki, insanlar mə`nəviyyat yolunu tutub günahdan çəkindikdə, .mehriban Allah öz lütfü ilə onların dərdlərinə çarə qılır. Bəli, Allah hər şeyə qadirdir

## Ruhun əzabla çıxarılması .۱۳

Cisim və ruh arasında elə bir rabitə mövcuddur ki, ruhdan ayrılan cisim təbii şəkildə .məhv olur. Bu rabitə çətinliklə qırılası rabitədir

Günəş qürub edib çəkilən zaman

.Zülmət yer üzünü bürüyür tamam

,Özündən xəbərsiz ruhlar ayaqda

.Haqqa qatılan ruh çeşməli bağda

Amma günahkar cism saleh cisimdən daha çox işgəncəyə mə`ruz qalır. Çünki o həm ruhundan uzaqlığın zülmətinə dözməlidir, həm də saleh əmələ dönüş imkanını birdəfəlik əldən çıxarmışdır. Bəli, günahkar cism ruhdan ayrılarkən qat-qat artıq əzab görür. İmam Sadiq (ə) buyurur: "Ey Müfəzzəl! Günahdan çəkin və

bizim şiələri də çəkindir. And olsun Allaha, günah sizə doğru tələsdiyi kimi kimsəyə doğru tələsmir. Həqiqətən, sizlərdən o kəs ölüm zamanı daha çox sıxıntı keçirir ki, onun yanında olan deyir: Ölümə görə pərişandır, bunun səbəbi yalnız günahlarıdır.”(۱)

Amma ömrünü xeyir işlər görməklə keçirən kəs rahatlıqla can verir.

Hər kəsin ölümü öz təbindədir,

Sevməyən düşməndir, sevən dindədir.

Ey ölümdən qorxan, bu qorxu inan,

Öz içindən gəlir, səndədir dərman.

Ölümdə nə var ki, illət candadır,

Canından arxayın bil amandadır.

Yaxşı da, yaman da gəlir özündən,

Ləzzətin, ağrının səbəbi sənsən.

Ötən gün batdığın çirkin bir günah

Ayrı halda önə çıxası sabah.

### ۱۴. Ticarətdə kasadlıq, zərər–ziyan

Elə insanlar tanıyırıq ki, ticarət və iş onları Allah zikrindən ayırmır. Əlbəttə ki, Allah belə bir diqqəti artıqlaması ilə mükafatlandırır.(۲)

Belələri ilə yanaşı ticarətdən heç vaxt fayda götürməyən tacirlər də var. Əlbəttə ki, bu zərər-ziyanın səbəbi onların günaha yol verməsidir. Günah səbəbindən onların ticarəti kasadlaşır. Əmirəl-mö`minin Əli (ə) həzrət Peyğəmbərin (s) dilindən belə nəql edir: “Allah bir ümmətə günahına görə qəzəbləndikdən sonra əzab

۱- [۳۲] Vəsailuş-şiə, ۱۵-ci cild, səh.۳۰۵.

۲- [۳۳] Nur surəsi, ayə ۳۷.

göndərməsə, onları müxtəlif bəlalara salar: Bahalıq, ömürün qısalığı, ticarətin faydasızlığı, meyvələrin xarab olması, quyuların susuzluğu, yağışın kəsilməsi, (zalımların hakimiyyəti."(۱)

## Qəlbin qaralması .۱۵

Qəlb insan vücudunun ən müqəddəs və ən ali üzvüdür. Qəlbin qaralması ilə insanın həyatı, düşüncə və əməlləri də zülmətə qərq olur. Pak və işıqlı qəlb insan düşüncəsini də işıqlandırır. Müxtəlif hadisələrdə günahın insan qəlbinə mənfi tə`sirlərindən danışılır. Bəşər övladına xəbərdarlıq olunur ki, davamlı günah onun qəlbini zülmətə .bürüyür

İmam Sadiq (ə) buyurur: "Atam buyurdu: "Heç bir şey insan qəlbini günah kimi qaraltmır. Ardıcıl şəkildə günaha batan insanın qəlbi günaha məğlub olub viran (qalır."(۲)

Digər bir rəvayətdə imam Sadiqin (ə) dilindən belə nəql olunur: "İnsan günaha yol verdikdə onun qəlbində qara bir nöqtə peyda olur. Tövbə bu qara nöqtəni məhv edir. Amma günah davam etdikdə həmin qara nöqtə böyüyüb insan qəlbini bütünlüklə əhatə edir. Məhz bu məqamda qurtuluş ümidi həmişəlik dəfn olunur."(۳) Ümumiyyətlə, günah müsəlman üçün təhlükəlidir. Onun maddi və mə`nəvi zərərləri var. Amma nə qədər ki, günah insan qəlbini viran qoymayıb, qurtuluş qapısı bağlanmayıb, günah zülmətindən qurtuluşa ümid var. Günah qəlbə qalib gəldikdə, insan



---

.Təhzibul-li təhzib, ۳-cü cild, səh.۱۴۸ [۳۴] -۱

.Bihar, ۷۳-cü cild, səh.۳۱۲ [۳۵] -۲

.Bihar, ۷۳-cü cild, səh.۳۱۲ [۳۶] -۳

yaxşını pisdən, pisi yaxşıdan seçmədikdə qurtuluş ümidi azalır, süqut təhlükəsi yaranır. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Yaxşını pis, pisi yaxşı təsəvvür etdiyiniz vaxt nə hala düşürsünüz?!"(1)

Tarixdə qəlbi zülmətə qərq olmuş insan nümunələri çoxdur. Həccac ibn Yusif Səqəfinin ən dadlı təam haqqındakı sözlərini xatırlayın. Ariflər də qəlbi yaxşılığa və pisliyə, savab və günaha sövq edən ocaq saymışlar. Pak insanlar bir an olsun belə qəlblərinə diqqətsiz olmamış, onu gözəlləşdirməyə çalışmışlar. Məbada qəlb azğın təsəvvürlər ocağı ola!

Könül bir cəhətə salarsa nəzər

Beş hiss o cəhətdə fırlanıb gəzər.

Əl-ayaq tabedir onun əmrinə,

Necə sultan əmri yetir yerinə.

Qəlbin istəyi ilə rəqs edir ayaq,

Qəlbin fərmanıyla göz qalır oyaq.

Süleyman hökmü var qəlbin işində,

Gəzdirir beş hissi daim dişində.

Könül qətlə dursa öz səfasına

Əlbət ki, çevrilir div yuvasına.

Amma şər səsinə yox deyən zaman

Divə də, şərə də verəsi fərman

Fürsət əldən çıxdı başlanır həsrət,

Əbədi bir əzab gerçək həqiqət!

Göründüyü kimi, insan qəlbi günaha bulaşdıqda div yuvasına çevrilir, günahdan .çəkindikdə şeytan və əhriməni hökmü altına alır

səh:۲۷

---

.Qurubul-əsnad, səh.۲۶ [۳۷] -۱

## Həqiqətlərin dərkindən məhrumluq .۱۶

Günah insandan təbii diqqət qabiliyyətini alır, onda bir növ məstlik yaradır. Nəticədə günahkar fərd həqiqəti müəyyənləşdirə bilmir. Hiss üzvləri zahirən normal vəziyyətdə olsa da dərketmə imkanı aradan götürülür. Həzrət Peyğəmbər (s) buyurur: "Günah məstliyindən çəkinin. Günah da şərab kimi məstlik gətirir. Günahın məstliyi bəlkə də şərabın məstliyindən çoxdur. Allah-təala Qur`anda buyurur ki, günahkarlar kar, lal, kordurlar, heç vaxt səadətə doğru dönməzlər".

Zahirən də müşahidə olunur ki, bə`zi günahlar insanın bə`sirətini əlindən alır, onda məstlik və yersiz qürur yaradır. Amma azca düşündükdə işin fəsadını dərk etmək olar. Günah məstliyi insanın təfəkkür qüdrətini əlindən alır. Bəli, günah məstliyi şərab məstliyindən pisdir. Çünki şərabdan məst olan insan yalnız zahiri hiss üzvlərinə hakim ola bilmir və bu hal az sonra ötüb keçir. Amma günahın məstliyi insan ruhunun dərinliyinə hopur, fitrəti kor edir. Qulağı kar, dili lal, gözü kor edən günahdır. Günah insan varlığını puça çıxarır. Bu hala düşmüş insan günahın onu hara apardığını görmür. Günahı günəş və ay tutulmasına bənzətmişlər. Günah aram-aram bütün qəlb nurunu pərdələyir. Yə`ni günah az olduqda nurani qəlbin bir hissəsi açıq qalır.

Günəş aram-aram tutulduğu tək

Günah kölgəsinə çəkilir ürək.

Belədir fələyin hökmü əzəldən

Zülmət kükrədikcə nur düşür əldən.

Allah-təala insanın insanlıq məqamından düşməsi, ilahi fitrət simasını itirməsi, məst və düşüncəsiz bir

varlığa çevrilməsi ilə nəticələnən günah xəstəliyi haqqında buyurur: “Onların qəlbi var, amma dərk etmirlər. Onların gözü var, amma doğrunu görmürlər. Onların qulaqları var, amma həqiqəti eşitmirlər. Onlar eynən dörd ayaqlılar kimidir, bəlkə daha alçaqdırlar. Daim qəflət və nadanlıq içindədirlər.”(۱)

**Küfr .۱۷**

Mikrob insan orqanizmi üçün təhlükəli olduğu kimi günah da insan əqidəsi üçün təhlükəlidir. Mikorblar zahirən çox kiçik və təhlükəsiz görünür. Amma bu kiçik zərrəciklər insan orqanizminə daxil olan kimi həyat fəaliyyətinə tə`sir göstərir. Qanı zəhərləyən mikroblar bütün insan vücudunu əhatə edir, xüsusi bir üsulla orqanizmdəki nizamı pozur. Qısa bir müddətdən sonra orqanizm müqavimət gücünü itirərək, xəstəliyə təslim olur.

Günahlar da belədir. İnsan elə düşünür ki, bir-iki günahla küfrə uğramaz. Bəli, hətta kəbirə (böyük) günah insanın kafir olmasını göstərmir. Amma bə`zi günahlar insanı axirətdə kafirlə eyni əzaba düçar edir. Buna görə də bə`zi hədislərdə kəbirə günaha yol verənin küfrə uğradığı bildirilir. Olsun ki, küfrə uğrama dedikdə kafirin cəzası ilə cəzalandırma nəzərdə tutulur. Bu da nəzərdə tutula bilər ki, günahlar günahkarın küfrə uğraması üçün şərait yaradır, tədricən onu dindən çıxma dərəcəsinə endirir. Mikroblar da eynən bu yolla orqanizmdəki nizamı tədricən məhv edir.

Buna görə də günahları kiçik saymamalı, günahdan qorxmalıyıq. Məbada özümüzü tədricən kafir



---

۱- [۳۸] Ə`raf surəsi, ayə ۱۷۹.

səviyyəsinə endirək. İmam Baqir (ə) buyurur: "Allaha qarşı çıxmaqla günaha yol verən, kəbirə günahlara batan insan kafirdir. (Yə`ni axirət əzabı baxımından kafirlərlə eynidir.) Allahın dinindən başqa bir din seçən insan müşrikdir."(١)

Əbu Bəsir imam Baqir (ə) və ya imam Sadiqdən (ə) belə eşitdiyini nəql edir: Qur`ani-kərimin "O kəslər ki, iman gətirdilər, sonra kafir oldular, sonra iman gətirdilər, dalınca küfrə uğradılar, belə ki, küfrdə həddi aşdılar" ayəsi haqqında buyurmuşlar: "Ayədə şərabı haram bilib ondan istifadə edənlər, zinanı haram bilib zinaya yol verənlər, zəkatı haqq bilib zəkat ödəməyənlər nəzərdə tutulur."(٢)

Əziz İslam Peyğəmbəri (s) buyurur: "Ey Allah bəndələri! Ayıq olun, günaha qərq olmayın, günaha meyl göstərməyin. Günahı kiçik saymaqdan çəkinin. Çünki hər günah ona yol verəni rüsvayçılığa sürükləyir, həmin şəxs imamların vilayətini inkar edir, peyğəmbərin nübuvvətini qəbul etmir. Bundan da pisi günahın günahkarı tövhidin inkarına və kafirliyə sövq etməsidir."(٣)

Həzrət Əli (ə) buyurur: "Gecə-gündüz tam cəsarətlə günah işlərlə məşğul olub Allahı tanıdığını düşünən yalan deyir."(۴)

Yuxarıdakı hədislərdən mə`lum olur ki, günah mö`min insanı tədricən daha böyük günahlara sövq edir. Tarixdə bu iddianı sübuta yetirən nümunələr çoxdur. Übeydullah ibn Ziyad Ömər ibn Sə`di imam Hüseynlə



---

١- [٣٩] Bihar, ٧٣-cü cild, səh.٣۵٩.

٢- [۴٠] Bihar, ٧٣-cü cild, səh.٣۶٠.

٣- [۴١] Bihar, ٧٣-cü cild, səh.٣۶٠.

۴- [۴٢] Mustədrəkul-vəsail, ١١-ci cild, səh.٣٣٧.

ə) savaşa göndərmək istəyirdi. Bu seçimdə Ömərin şücaəti yox, xalq arasındakı dini) siması əsas götürülmüşdü. Çoxları belə düşünürdü ki, Ömər ibn Sə`d imanlı bir şəxsdir. Übeydullah Ziyad Ömər ibn Sə`din dini simasından bəhrələnmək fikrində idi. Ömər Sə`din dini şəxsiyyəti kölgəsində imam Hüseynə (ə) qarşı dəstə yığma planlaşdırılırdı. Bu fikir doğrudan da baş tutdu. Ömər ibn Sə`din İmam Hüseynlə (ə) savaşa getdiyini görən nadan xalq ona qoşuldu. Amma Ömər ibn Sə`d imamı (ə) şəhadətə yetirdikdən sonra tarix səhifələrində qara ləkəyə çevrilmiş bir cinayətə əl atdı. Göstəriş verdi ki, Peyğəmbər (s) ailəsinin xeymələri yandırılsın. Onun dilə gətirilməyəcək başqa böyük cinayətləri də oldu. Bütün bu günahlar ilk öncə mö`min olan Ömər ibn Sə`di küfrə .sürüklədi

### Rüsvayçılıq .۱۸

Bə`ziləri elə düşünür ki, xəlvətdə günaha yol versələr, həm ləzzət alacaqlar, həm də şəxsiyyətləri qorunacaq. Amma unudurlar ki, günahın səciyyələrindən biri insanı rüsvay edib hörmətdən salmaqdır. Haram əməlləri nəzərə almayıb günaha yol verən kəs ilahi himayədən məhrum olur, öz başına buraxılır. Günah isə öz sahibini rüsvay .edir və cəmiyyət günahkarı barmaqla göstərir

Mə`sum imamlardan uyğun mövzuda xeyli hədis yadigar qalmışdır. Amma onların arasında uyğun halı daha dəqiq bəyan edən bir neçə hədis mövcuddur. İmam Sadiq (ə) buyurur: "Allah hər bir mö`min bəndə üçün ۴۰ pərdə qərar vermişdir. Hər günah bir pərdəni qaldırır. İnsan mö`min qardaşında eyb axtarıb onun pisliyini danışdıqda bütün .۴۰ pərdə kənara çəkilir

Belə bir insan hörmətini itirir, səmalarda mələklər, yerdə insanlar onu rüsvay edir. Onun bütün günahları bilinir və yada salınır. Həmin bəndəni qorumaq əmri almış mələklər ərz edir: Pərvərdigara, Sən bizə bu bəndəni hifz etməyi tapşırmısan, o isə artıq rüsvay olub." Allah xitab edir: Ey mənim mələklərim! Mən bu bəndəmə xeyir istəsəydim onu rüsvay etməzdim. Bu bəndəni qoruyan qanadlarınızı kənara çəkin, o bundan sonra xeyirə doğru getməyəcək."(١)

İmam Baqir (ə) buyurur: "Mö`min bir bəndə pis işə yol verdikdə onun hərəkəti Allaha xoş gəlmir. Bu iş birinci dəfə baş verdikdə Allah onun sirrini örtür, ikinci dəfə baş verdikdə yenə örtür. Üçüncü dəfə isə Allah mələklərdən birini insan surətində göndərir və həmin mələk xalqa bu bəndənin pis işi haqqında danışır. Beləcə bəndə rüsvay olur."(٢)

İslam peyğəmbəri (s) buyurur: "Allah hər mö`min bəndə üçün ٧٢ pərdə qərar vermişdir. Bəndə günaha yol verdikdə pərdələrdən biri çəkilir. Əgər tövbə etsə pərdə yenidən qayıdır və ona daha ٧ pərdə əlavə olunur. Əgər o tövbəsini pozsa və yenidən günaha batsa, bütün pərdələr çəkilir. Növbəti dəfə tövbə qılsa, çəkilmiş pərdələr qayıdır və ٧ qat artıq pərdə əlavə olunur. Yenidən tövbəsini pozub günaha yol versə, bütün pərdələr qalxır və bəndə örtüksüz qalır. Həmin vaxt Allah öz mələklərinə əmr edir ki, bəndəmi qanadlarınızla örtün. Çünki Adəm övladının özü üçün qeyrəti var və başqaları onların qeyrətini çəkmir. səh:٣٢

---

١- [٤٣] Bihar, ٧٣-cü cild, səh.٣٦١.

٢- [٤٤] Bihar, ٧٣-cü cild, səh.٣٦٢.

Başqaları mənə qarşı qeyrət göstərməsə də (günaha yol versə də), mən çox qeyrət çəkənəm."(۱)

Həmin bəndə növbəti dəfə günaha yol verdikdə mələklər Allaha şikayətlənir və qanadlarını çəkib ərz edir: "Pərvərdigara, Sənin bəndən öz günahları ilə bizə əziyyət verdi, bizi narahat etdi. O aşkarda və gizlində günaha yol verdi." Bu vaxt Allah öz mələklərinə əmr edər ki, qanadlarınızı çəkin.

Bundan sonra həmin bəndə gecənin qaranlığında və ya gündüzün işığında, səhrada və ya dənizin dibində günaha yol versə, həmin günahlar gizli qalmır, Allah xalqın dili ilə onu ifşa edir. Allahdan diləyin ki, sirlərinizin üstündən pərdəni götürməsin.

**۱۹. Ailə övlada görə günah**

Bə`zən insan ailə-övladın razılığını əldə etmək üçün günah yola üz tutur. Bununla da ailə-övladı razı salmaq üçün Allahın qəzəbini qazanır. Bu işin dünyada da xoşagəlməz nəticələri var. Amma axirət əzabı daha şiddətlidir. Qiyamətdə insan öz ailə-övladından və yaxınlarından kiçik bir savab istədikdə rədd cavabı alır. Yalnız həmin məqamda insan qəflət yuxusundan ayılır və əbədi bir peşmanlıqla təəssüflənir.

Həzrət Peyğəmbər (s) bu mövzuyla bağlı İbn Məs`uda buyurur: "Ailə-övladın məhəbbəti səni günaha, harama vadar etməsin. Çünki Allah-təala Qur`ani-kərimdə buyurur: (Qiyamətdə) insan üçün nə maldan, nə övladdan bir fayda var. Sağlam qəlblə məhşərə gələn isə başqadır. (Onun qəlbi imanla doludur.)"(۲)



---

۱- [۴۵] Bihar, ۷۳-cü cild, səh.۳۶۲.

۲- Bihar, ۸۷-ci cild, səh.۲۰۰.

Digər bir mö`təbər rəvayətdə İslam peyğəmbərinin (s) dilindən nəql olunur: "Qiyamət günü insanlar hesabın ciddiliyini və əzabın çətinliyini görüb savab əldə etmək fikrinə düşər. Ata oğula üz tutub deyər: "Mən dünyada sənin üçün necə ata oldum? Səni tərbiyə edib, təam vermədimmi? Səni geyindirmədimmi? Sənə hikmət, ədəb, Qur`an öyrətmədimmi? Səni evləndirib özünə və zövcənə xərc çəkmədimmi? Bütün bu işləri sağlığımda gördüm və ölümümdən sonra səni özümdən çox düşünüb mal-mülkümə varis etdim." Oğul ataya belə cavab verər: "Ey ata, doğru deyirsən. Dediklərin həqiqətdir. Bəs indi istəyin nədir?" Ata deyər: "Oğul, xeyir əməlim yüngül gəldi və günahlarım ağır oldu. Mələklər deyirlər ki, əgər bir savab gətirsən işin düzələr. Səndən bir savab istəyirəm ki, bu çətin gündə qurtula bilim." Oğul deyər: "Atacan, bu gün səni qorxudan məsələ məni də qorxudur. Sənə istədiyini verə bilmərəm!" Ata mə`yus olub .ağlar halda geri dönür. O dünyada oğlu üçün çəkdiyi əziyyətlərə təəssüf edir

Ana da öz oğlu ilə görüşür. Ana deyir: "Oğlum, mən səni bətnimdə böyütmədimmi? Sənə süd vermədimmi? Oğul, günahım ağırlıq edir, səndən bir günahımı götürməyini istəyirəm." Oğul anasına belə cavab verir: "Məndən uzaq ol çünki mən də əməlimin .bəlasına düşmüşəm." Ana ağlar vəziyyətdə oğlundan uzaqlaşır

Məhşər əhli arasında yaxınlıq və qohumluq nəzərə alınmaz, biri o birindən bir şey" almaz" ayəsinin mə`nası budur. Məhşər əhli bilir ki, yaxınlarından heç biri ona bir şey verəsi deyil. Ər arvada deyər: "Mən dünyada sənin üçün necə ər oldum?" Arvad öz ərini tə`rifləyib onun ən yaxşı ər olduğunu bildirər. Ər deyər: "Etdiyim

yaxşılıqların müqabilində səndən bir savab istəyirəm. Olsun ki, həmin savab vasitəsi ilə Qiyamət gününün çətinliyindən qurtulam, xeyir əməlim ağır gələ və siratdan ötüb keçəm.” Arvad ərinin cavabında deyər: “And olsun Allaha, mənim hazırda bir savab bağışlamaq gücüm yoxdur. Necə ki, sən qorxursan, mən də qorxuram.” Ər qəmgin halda dönüb gedər. “Kimsə başqasının günah yükünü götürməz” ayəsinin mə`nası budur. Yə`ni, günah yükü ağır olan şəxsin istəyinə cavab verib, onun yükündən qəbul edən olmaz. Həmin gün hamı bir söz deyər: “Pərvərdigara, yalnız özümü xilas et!”(۱)

Qiyamət səhnəsi Qur`ani-kərimdə belə vəsf olunur: “Qiyamət günü günahkar şəxs səmimi qəlbdən arzu edər ki, ey kaş, öz əvəzində övladlarını fəda edə biləydi. O dünyada himayə etdiyi zövcəsini, qardaşını, bütün qohumlarını, bir sözlə yer üzündəki bütün insanları fəda etməyə hazır olar. Təki xilas olub, ilahi əzabdan qurtula bilsin! Amma bu sayaq arzular heç vaxt həyata keçməz.”(۲)

**۲۰. Paklanmayınca behiştə daxil olmazsan!**

Behişt Allah ziyarətinin gerçək və əbədi mərkəzidir. Allah-təala öz saleh bəndələrinə və`d etmişdir ki, saleh əməlləri müqabilində onlara behişt adlanan yerdə mükafat verəcək.

Hər hansı kitabda behişti olduğu kimi vəsf etmək mümkünsüzdür. Çünki saleh əməl müqabilində nəzərdə tutulmuş mükafatlar saya gəlmir. Amma behiştin səh:۳۵

---

۱- [۴۷] Ləalil-əxbar, səh.۵۵۱, Deyləminin “İrşad” kitabından.

۲- [۴۸] Məaric, səh.۱۲.

Qur`anda qeyd olunmuş vəsflərindən biri diqqəti çəkir. Behiştin əsil xüsusiyyəti onun pak olmasıdır. Behişt pak olduğundan pak olmayanlara orada yer yoxdur.(۱)

Qiyamətdə hər şey öz həqiqi simasını alır. Günahın gerçək çöhrəsi çirkaba bulaşmışdır. Günahkar da günah kimi məhşər səhnəsinə çirkin görkəmdə gətirilir. Məhz bu sima onun behiştə getməsinə mane olur. Sadə bir misalla mövzunu açıqlayaq: Təsəvvür edin ki, dünya həyatında səxavətli bir şəxs ziyafət qurmuşdur. Bu ziyafətdə hamının iştirak edəcəyi bəyan edilmişdir. Bu arada bir şəxs çirkin görkəmdə məclisə daxil olmaq istəsə, təbii ki, ona icazə verilməyəcək. Öncə ona təklif olunacaq ki, öz görkəmini düzəltsin. Behişt, Allah evinin ziyafəti də bu cürdür. İnsan günah çirkabından paklanmamış oraya daxil ola bilməz. Çünki behişt pakdır və buna görə də yalnız paklar ora daxil ola bilər.

İmam Baqir (ə) buyurur: "Bütün günahların cəzası çox ağırdır. Ən pis günah isə insanın ətinə qanına hopmuş günahdır. Günahkar iki vəziyyətdən birində ola bilər: Ya ilahi mərhəmətə qovuşar, ya ilahi əzabda qalar. Yalnız günahdan paka çıxanlar behiştə daxil olar."(۲)

Həzrət Peyğəmbər (s) buyurur: "Həqiqətən, bəndə günahlarından birinə görə ۱۰۰ il cəhənnəmdə saxlanılır. Amma çoxlarının behiştdə ilahi ne`mətlərdən bəhrələndiyini görər."(۳)

İmam Kazim (ə) atalarından, həzrət Peyğəmbərdən (s) belə nəql edir: "Həqiqətən, insan bir günah üçün behişt astanasında bir il gözləyər. Hansı ki, öz



---

۱- [۴۹] Bihar, ۷۳-cü cild, səh.۳۱۷.

۲- [۵۰] Bihar, ۷۳-cü cild, səh.۳۱۷.

۳- [۵۱] Bihar, ۷۳-cü cild, səh.۳۱۷.

həmyaşıdlarını həsrətlə müşahidə edər. (Onlar behiştdə ne`mətlərdən bəhrələnər.)”(١)

,Eşqin qapısını döydüm yuxulu

,Bulaşıq libaslı, cırıq yaxalı

,Saqi çıxıb qıldı məni məzəmmət

?Dedi səndə varmı eşqə ləyaqət

,Təmizlən çirkabdan, ətirlən bir az

.Bu görkəmdə eşqdən danışmaq olmaz

Sevgi dəryasında qərq olan insan

.Günah çirkabına bulaşmaz asan

### ٢١. Ne`mətlər müqabilində itaətsizlik nə üçün?!

Bildiyimiz kimi, günah hansı bir şəraitdə, istənilən adla pislənmişdir. Ən pisi odur ki, insan ona verilmiş ne`mətləri onu bəxş edənə qarşı istifadə etsin. Bütün düşüncə sahibləri belə bir əməli məzəmmət etmişlər. Görün Allah insana sağlamlıq, əql, yaddaş kimi necə misilsiz ne`mətlər vermişdir. Bəli, böyük maddi və mə`nəvi ne`mətlər sahibi olan insan günaha yol verib, Allaha qarşı çıxdıqda ən pis şəkildə rəftar etmiş olur. Bu nöqtəni hər gün özünə xatırladan insan xəcalət çəkib şükür edəsi və təslim olasıdır.

Mə`sum imamlardan bu mövzuda dəyərli kəlamlar yadigar qalmışdır. Onlardan bə`zilərini nəzərdən keçirək. İmam Həsən Əsgəri (ə) buyurur: “İmam Sadiq (ə) bə`zilərinə belə yazırdı: “Əgər əməlinin xeyirlə sonuclanmasını, ən yaxşı işlə məşğul ikən ruhunun çıxarılmasını istəyirsənsə Allahın haqqını uca tut. Məbada Allahın ne`mətlərini günah və Ona qarşı üsyan



---

١- [٥٢] Bihar, ٧٣-cü cild, səh.٣١٧.

yolunda sərf edəsən. Qorx ki, Allah günahlarına dözümlə yanaşıb səni dünyada cəzalandırmasın. (Dünyada günahının cəzasını alan, güman ki, axirətdə (cəzalandırılmaz.)"(١)

Əmirəl-mö`minin (ə) buyurur: "Allah tərəfindən gözləməli olduğunuz ən kiçik haqq odur ki, ne`mətlərindən faydalanıb Onun özünə qarşı çıxmayasınız. (Onun ne`mətlərini günah yolunda sərf etməyəsiniz.)"(٢) İmam Sadiq (ə) buyurmuşdur: "Əgər Allah bir şəxsə ne`mət əta etsə və həmin şəxs o ne`mətlərdən istifadə etməklə xoş güzəran keçirib mütriblik etsə, izmar (musiqi aləti) çalsa, əlbəttə ki, nankorluq etmişdir."(٣) Həzrət Əli (ə) buyurur: "Ne`mət verən tərəfindən vacib edilmiş ən kiçik iş odur ki, həmin ne`mət vasitəsi ilə günah edilməsin."(٤) Həzrət Davuda (ə) nazil olmuş Zəbur kitabında deyilir: "Ey Adəm övladı! Bə`zən məndən istədiyini sənə vermirəm. Çünki sənin xeyrini bunda görürəm. Sonra sən yenidən istəyirsən və mən sənin istədiyini verirəm. Ardınca mənim verdiyim ne`mətdən faydalanıb günah edirsən. ((Mənə qarşı günaha yol verirsən)"(٥)

İmam Riza (ə) həzrət Peyğəmbərdən (s) nəql edir ki, Allah-təala buyurmuşdur: "Ey Adəm övladı, insaf etmirsən! Mən ne`mətlər verməklə dostluq üçün müqəddimə yaradıram. Amma sən mənim ne`mətlərim müqabilində ağır günahlara batırsan. Mənim tərəfimdən bərəkət nazil olduğu halda sənin tərəfindən mənə doğru səh:٣٨

---

١- [٥٣] Bihar, ٧٣-cü cild, səh.٣٥١.

٢- [٥٤] Bihar, ٧٣-cü cild, səh.٣٦۴.

٣- [٥٥] Ləaliyul-əxbar, səh.٥٩۴.

۴- [٥۶] Mizanul-hikmə, şükür maddəsi.

٥- [٥٧] Bihar, ٧٣-cü cild, səh.٣٥۶.

şər yüksəlir. O böyük mələk sənin çirkin işlərini hər gecə, hər gündüz mənim hüzuruma gətirir. Əgər öz çirkin işlərin haqqında başqasından eşitsəydin, belə pis əməl sahibinin kim olduğunu bilmədən onu öldürmək istəyərdin. (Hansı ki, bu çirkin işləri sən özün görmüsən və işlərinin çirkinliyindən xəbərsizsən.)”(١)

Peyğəmbərlər deyir: olmasa səbəb

.Əlbət ki, Allahı tanıyası qəlb

,Ne`mət əsər qoyur qəlbin halına

.Nankorluq düşəsi tamah dalına

## Bir günah nəticəsində həmişəlik uzaqlıq .٢٢

Əgər bəsirət gözümüzü açıb varlıq aləminin bir guşəsini nəzərdən keçirə bilsək, çox faydalı və aydın nəticələr əldə edərik. İnsanın qatı düşməni olan şeytanın başına gələnlər günahkarlar üçün ibrət olmalıdır. Şeytan cəmi bir günaha yol versə də həmişəlik qovuldu. İnsan düşünməlidir ki, əgər şeytan bir günah səbəbindən həmişəlik qovulubsa, minlərlə günaha yol verən insanı nə gözləyir?! Şeytanın əhvalatı ibrətamiz olduğundan qədim tarixi mətnlərdən faydalanaraq onun haqqında danışacağıq. Günaha meyilli olanlar bu əhvalatı mütaliə edib ibrət götürsün, imkan həddində :günahdan çəkinsinlər. Bu əhvalatı birlikdə nəzərdən keçirək

İblis yer üzündə ٧٠٠ min il ibadət etdi. Sonra ismi-ə`zəmdən bir ad öyrənmək istədi.“ Allah onun istəyini qəbul etdi. İblis Allahı neçə min il bu adla çağırdı. Sonra Allahdan dilədi ki, onu torpaqdan səmaya qaldırsın. Yenə duası qəbul edildi. Qeyd olunur ki, çox ibadət



---

.Bihar, ٧٣-cü cild, səh.٣٥٢ [٥٨] -١

etdiyindən səma mələkləri də onun səmaya qaldırılmasını istədilər. İblisin əvvəlki adı Haris idi. Allah ona yaşıl zümrüddən iki qanad verdi, o qədər gücləndirdi ki, yerdən birinci səmaya pərvaz etsin. İblis birinci səmada Allaha ۱۰۰۰ il qüsursuz ibadət etdi. Nəhayət ona abid adı verildi. Çox ibadət etdiyindən ikinci səmanın mələkləri ona maraq göstərdi və ikinci səmaya qaldırılmasını dilədi. Allah İblisi ikinci səmaya qaldırdı. İblis orada ۱۰۰۰ il ibadət etdi və zahid adını qazandı. Sonra İblis üçüncü səmadan istənildi. ۱۰۰۰ il də üçüncü səmada ibadət edib saleh adını əldə etdi. Beləcə, ۱۰۰۰ il dördüncü səmada ibadət edib xaşe, ۱۰۰۰ il beşinci səmada ibadət edib vəliyy, ۱۰۰۰ il altıncı səmada ibadət edib əzazil adını qazandı. Nəhayət yeddinci səma əhli onun yuxarı qaldırılmasını istədi. İblis yeddinci səmada ۱۰۰۰ il ibadət etdi, səcdədən qalxanda lövhi-məhfuzdan xəbərdar edilməsini dilədi. İsrafilə əmr edildi ki, lövhəni ona göstərsin. İblis lövhəyə baxıb orada oxudu: "Bə`zən bəndə bir neçə min il Allaha ibadət edər, amma bir səcdədən imtinaya görə haqq dərgahdan qovular və əbədi lə`nətə düçar olar." İblis yenə ibadətə məşğul oldu və ibadətini artırıb bütün mələklərə müəllimlik məqamına qalxdı. Onun üçün yaqutdan minbər qoyuldu. Başının üzərində nurdan bir bayraq bərkidildi. Minbərinin ətrafında sayını Allahdan savay kimsə bilməyən həddə mələk toplandı. İblis onları moizə edir, elm öyrədirdi. Xüsusi .məclislərdə onlara öz fəzilətlərindən danışır, dəlillər göstərirdi

Bir sözlə, bu müddət ərzində mələklər İblisin aqibətindən xəbərsiz oldu. Bəlkə o özü də ibadətindən qürrələnərək hamıdan yuxarıda olduğunu düşünürdü. Ona elə gəlirdi ki, Allah ona bir başqasına itaəti əmr etsə

düz olmaz. Bu səbəbdən də uyğun əmrlərə itaət etməmək qərarına gəlmişdi. Allah-təala Adəmin gilini töküb onu Məkkədə qoydu. Bir gün İblis mələklərlə birlikdə həmin gilin yanından ötüşərkən onlara dedi: “Allah bu gildən bir şəxs yaradacaq. Əgər Allah onu fəzilətli edib itaət əmri versə nə edəcəksiniz?” Mələklər dedilər ki, Allahın əmrinə tabe olacaqlar. Amma İblis qəlbində qərara gəldi ki, belə bir əmrə itaət etməsin. O gili tökülmüş şəxsi həlak etmək qərarına gəlsə də, bunu mələklərə bildirmədi. Nəhayət, Allah Adəmin fəzilətini mələklərə açıqladı və onlar bildilər ki, göylərdə və yerdə onlara qaranlıq qalan bir çox məsələlər Adəmə mə`lumdur. Mələklərə əmr olundu ki, Adəmə səcdə qılsınlar. Yə`ni Adəmin fəziləti e`tiraf edilsin, Allaha səcdə üçün Kə`bə qiblə seçilsin. Çünki Adəm ilahi qüdrət əsəri, Məhəmməd (s) və Əhli-beyt (ə) nurunun təcəssümü idi. Allahın bu əmri bir sınaq oldu. Mələklər yubanmadan səcdəyə düşdülər. Amma təkəbbür zənciri ilə buxovlanmış İblis səcdədən imtina etdi: “Pərvərdigara, məni Adəmə səcdə etməkdə üzürlü bil. Bunun əvəzində sənə yaxın mələklərin və mürsəl peyğəmbərlərin etmədiyi ibadəti edərəm.” İblisə xitab olundu: “Ey İblis, sənin ibadətinə ehtiyacım yoxdur. Mənə ibadət sənin istəyinə yox, mənim istəyimə ”.əsaslanır

Yə`ni ibadət bəndənin istəyinə yox, Allahın əmrinə müvafiq olmalıdır. İblisə xitab olundu ki, ey İblis, səni Adəmə səcdədən çəkindirən nə oldu? Ərz etdi ki, çünki mən ondan üstünəm, məni nurani oddan, onu qara torpaqdan yaratmısan. İblis Adəmin .ondan üstün tutulmasını ədalət və hikmətdən uzaq saydı

,Təkəbbür İblisi aldı qoynuna

?Düşündü nə üçün əyilsin ona

,Əgər bəndədirsə mən də bəndəyəm

?Nədən bir bəndəyə gərək baş əyəm

,Əskik deyiləmsə birindən əgər

?Nə üçün dayanım önündə nökər

,Mən oddan yarandım, Adəm torpaqdan

.Od torpaqdan üstün olub hər zaman

Bütün bu düşüncələr İblisi küfrə uğratdı, o Allahın əmrini hikmətdən uzaq sayıb, (e`tirazını bildirdi.(١

Bu macəradan aydın olur ki, yalnız bir günah insanı həmişəlik məhv edib Allah dərgahından qovulmuşlar cərgəsinə qata bilər. Hesab aparan Allah olduğundan hansı günahın ilahi qəzəb doğurmasını da ilahi elmdən öyrənmək lazımdır. İmam Sadiq (ə) buyurur: "Günah fikrinə düşmüş insan bu günaha yol verməməyə çalışsın. Çünki bir günah səbəbindən Allah belə buyura bilər: "And olsun izzət və cəlalıma, səni heç vaxt bağışlamayacağam!"(٢) Digər bir rəvayətdə imam Riza (ə) buyurur: "Allah öz peyğəmbərlərindən birinə belə vəhy etdi: "Bəndələrim mənə itaət edəndə onlardan razı qalıram. Bəndəmdən razı qaldıqda ona bərəkət nazil edirəm. Mənim bərəkətimin sonu yoxdur. Bəndələrim günah edəndə isə onlara qəzəblənirəm. Qəzəbləndiyim vaxt (onları lə`nətləyirəm və mənim lə`nətim yeddi nəsilə tə`sir göstərir."(٣



---

.Həbibullah Şərif Kaşani, "Muntəxəbu-qəvamisud-durər", səh.١٩٠ [۵٩]-١

.Bihar, ٧٣-cü cild, səh.٣٣١ [۶٠]-٢

.Üsuli-Kafi, ٢-ci cild, səh.٢٧۵ [۶١]-٣

## NÖV GÜNAHIN NƏTİCƏSİ HAQQINDA İMAM SƏCCADIN (Ə) NƏZƏRİ ۷۵

İmam Səccaddan (ə) nəql olunmuş bir rəvayəti yada salmaq yerinə düşər. Bu :rəvayətə əsasən ۷۵ günahın dünyəvi nəticəsi var. Onlardan bə'ziləri bunlardır

Ne`məti kəsən günahlar: "Allahın bəndəyə verdiyi ne`məti kəsən günahlar . ۱ bunlardır: Xalqa sitəm, yaxşılığa sövq edən ruhiyyədən uzaqlıq, xalqa ehsan etməmək, nankorluq və şükürün tərki; Allah-təala buyurur: "Bir qövm öz halını dəyişməyincə ".Allah onların halını dəyişməz

Peşmanlıq gətirən günahlar: "Peşmanlıq gətirən günahlar bunlardır: Allah tərəfindən .۲ qətli haram buyurulmuş insanın qanını axıtmaq; Allah-təala qardaşı Habili öldürüb onu dəfn etməkdə aciz qalmış Qabil haqqında buyurur: "Qətldən sonra peşiman oldu"; qüdrətli olan vaxt qohumları yoxlamamaq, vaxtı ötənədək namazı tərk etmək, vəsiyyət etməmək, məzlumun haqqını verməmək, ölümə qədər, dil bağlananadək .zəkat verməmək

Ne`mətləri puç edən günahlar: Ne`məti zavala uğradan günahlar bunlardır: . ۳ Bilərəkdən günaha yol vermək, xalqın haqqını tapdamaq, insanlara rişxənd, onların .təhqiri

Ruzini azaldan günahlar: Ne`mətin insana çatmasına mane olan günahlar bunlardır: .۴ Yoxsulluq və ehtiyacın izharı, gecənin əvvəlində namazın qəzaya getməsinə səbəb olan yuxu, sübh namazı qəzaya gedənədək yatmaq, ne`məti kiçik saymaq, Allahdan .giley

۵. Abır-həyanı aparan günahlar: “Həya pərdəsini yırtan günahlar bunlardır: Şərab içmək, qumar oynamaq, tələskənlik edib xalqı güldürmək, mə`nasız iş, yersiz zarafat, insanların eybini danışmaq, şərab içənlərlə ünsiyyət.”

۶. Bəla gətirən günahlar: “Bəla nazil edən günahlar bunlardır: Çətinliyə düşmüş insanın çağırışına cavab verməmək, məzluma yardım göstərməmək, əmr be mə`ruf və nəhy əz münkəri (yaxşılığa dəvət və pisliyə qadağanı) tərk etmək.”

۷. Düşmənin rişxəndinə səbəb olan günahlar: “Düşməni qələbəyə çatdıran günahlar bunlardır: Aşkar zülm, göz qabağında günah, haramı halal bilmək, salehlərin itaətindən çıxmaq, bəd əməl sahiblərinə itaət.”

۸. Ölümü tezləşdirən günahlar: “Əcəli yaxınlaşdıran günahlar bunlardır: “Yaxınlarla əlaqəni kəsmək, yalandan and içmək, yalan danışmaq, zina, müsəlmanın yolunu bağlamaq, yersiz rəhbərlik iddiasında olmaq.”

۹. Ümidi qıran günahlar: “İnsanı Allah mərhəmətindən mə`yus edən günahlar bunlardır: Allahın mərhəmətinə ümidsizlik, Allahın lütfünə diqqətsizlik, Allahdan qeyrisinə güvənmək, ilahi və`din təkzibi.”

۱۰. Havanı qaraldan günahlar: “Havanı qaraldan günahlar bunlardır: Sehr-cadu, ulduzların taleyə tə`sirinə inanmaq, ilahi yazının təkzibi, valideynin üzünə qayıtmaq.”

۱۱. İffət pərdəsini yırtan günahlar: “Haqq və bəndə arasındakı hörmət pərdəsini yırtan günahlar bunlardır: Qaytarmamaq məqsədi ilə borc almaq, israfçılıq, ailə-övlada və qohumlara qarşı xəsislik, qabalıq, səbirsizlik, tənbəllik, din əhlinin təhqiri.”

səh:۴۴

Duaların qəbuluna mane olan günahlar: “Duanın qəbuluna mane olan günahlar .۱۲ bunlardır: Pis niyyətlik, qəlbin çirkaba batması, din qardaşlarına qarşı iki üzlülük, duanın qəbuluna şübhə, vaxtı ötüşənədək namazı tə`xirə salmaq, Allaha ”.yaxınlaşdıran saleh işlərdən uzaqlıq, sədəqə verməmək, söyüş söymək

Yağışı kəsən günahlar: “Yağışa mane olan günahlar bunlardır: Hakimlərin zülmü, .۱۳ yalan şəhadət, şahidliyi gizləmək, zəkat və borcun qarşısını almaq, xüsusi ilə qonşuların ehtiyac duyduğu əşyaları onlara verməmək, yoxsullara rəhmsizlik, yetim, ”.dul qadın və yoxsula sitəm, yolçunu qovmaq, gecə vaxtı möhtacı rədd etmək

## NƏTİCƏ

Allah-təala əziz Peyğəmbəri (s) göndərib mö`minlərə minnət qoyduqdan sonra ona xalqı doğru yola də`vət etməyi tapşırdı.(۱) Peyğəmbər (s) tərəfindən xəbərdarlıq başa çatdırıldı və kimsə üçün bəhanə yeri qalmadı. İnsanlar ilahi qanun və şər`i göstərişlərdən xəbərdar oldular. Əgər bəşəriyyət başqa bir yol tutarsa, həmin yolun mükafatını da qəbul etməlidir. Bilərəkdən haqq yoldan çıxan və ilahi ayinlərdən üz çevirən insan, əlbəttə ki, öz cəzasına çatmalıdır. Tüğyan və asiliyin dünya cəzası isə bəlalar, dərdlər, müşküllər, savaşlar, sellər, zəlzələlər, əlacsız xəstəliklər, qıtlıq və quraqlıq, qəfil ölümlər, ictimai böhranlar, cəmiyyət nizamının pozulması, boşanmalardır. Xalq arasında çoxdan belə bir məsəl var ki, Allahın qamçısı səssizdir. Sunami kimi



---

.Mərhum Səduq, “Məaniyul-əxbar”, səh.۲۷۰; “Ali-İmran” surəsi, ayə ۱۶۴ [۶۲] -۱

insanları ağuşuna alıb ölümə sürükləyən hadisələr Allahın səssiz çubuğundan başqa .bir şey deyil

Yaxşı olmazmı ki, mə`sumların ardıcıl göstərişlərini dinləyib qəflətdən oyanaq, günah çirkabından çıxaq, həm qəlbimizə səfa verək, həm də cəmiyyətimizi bəlalardan !?qoruyaq

Məgər insan məhz belə hərəkət etməyə borclu deyilmi?! Söhbətimizin bu yerinədək günahın ümumi nəticələrindən danışdıq. Artıq ayrı-ayrı günahları müstəqil şəkildə araşdırıb onların acı nəticələrini bəyan etmək vaxtı çatıb. Olsun ki, əziz oxucular bu acı nəticələri əsas götürüb günahdan çəkinələr və bu yolla tələb olunan kamala, Allaha .yaxınlığa nail olalar

## (ŞİRK (ALLAHA ŞƏRİK QOŞMAQ

İslamın ilkin və əsas şüarı mübarək “la ilahə illəllah”, yə`ni “yoxdur Allahdan başqa mə`bud” cümləsidir. Girami İslam peyğəmbəri (s) “la ilahə illəllah” şüarı ilə dünyaya :e`lan etdi ki

Allah birdir; Onun tayı-bərabəri yoxdur; Ona oxşar tapılmaz; bütün varlıq aləmini- ;yaradan birdir və bu, Allahdır

;Aləmləri tərbiyə edən Odur və Onun adı Allahdır-

Varlıq aləmində ibadət yalnız Allaha məxsusdur, başqa heç bir varlıq ibadətə layiq- ;deyil

;Bütün mövcudların həyatı və ölümü Allah-təalanın əlindədir-

;Varlıq aləmindəki bütün hərəkətlər Onun iradəsi ilə gerçəkləşir-

;Hər şeyi qoruyan və himayəsinə alan Allahdır-

;Bütün mövcudların ruzisi Allahın əlindədir-

Bütün varlıq aləmində malik, rəhbər, iş görən yalnız Allahdır. Necə ki, hər bir-mövcudun həyatı Allahdandır, həyat əsərləri və bu əsərlərin zühuru da Ona ;məxsusdur

Peyğəmbərlərdən tutmuş mikro canlılaradək bütün varlıqlar, cin və insanlar, bütün-;şüurlu canlılar düşüncəsini Allahdan almışdır

;Mövcudların nəyi varsa Allahdandır və hamı ona möhtacdır-

;Bilik, güc, sərvət, qüdrət, imkan Allahın hədiyyə və lütfüdür-

;İzzət və səadət, xeyir və bərəkət Allahdandır-

Dünyada xeyir və şər, yəzdan və əhrimən adlı iki qüvvənin olmasının səbəbkarı-;insanlardır

;Üç üqnuma, yə`ni ata, oğul və müqəddəs ruha e'tiqad bəsləyən müşrikdirlər-

;Hər sahə üçün bir bütü mə`bud sayan bütpərəstlər müşrikdirlər-

Elmini, malını, gücünü özününkü bilən və özünü Allahdan asılı saymayan insanlar-;müşrikdirlər

Allahın razılığı üçün iş görüb xalqın da razılığını nəzərə alan şəxs bir növ şirkə yol-(verir.(١

Hər növ riya kiçik şirkdir. Başqalarının razılığı üçün iş görən insan onlardan mükafat-gözləməlidir. (Yə`ni beləsinin əli boş qalasıdır.) Yalnız Allahın razılığı üçün iş görənlər mükafatını Allahdan alacaq.(٢) Həzrət Peyğəmbərin (s) buyuruğuna əsasən, Qiyamət günü riyakarlara deyilər ki, əməlinizin mükafatını



---

.Təfsiri-Safi, səh.٣٠٢ [٦٣] -١

.Üsuli-Kafi, ٢-ci cild, səh.٢٩٣ [٦٤] -٢

(xoşuna gəlmək istədiklərinizdən alın; amma onların sizə verməyə bir şeyi yoxdur.(١)

Filankəs olmasaydı, məhv olardım", "filankəs olmasaydı ailə uşağım məhv olardı""-
(demək (və bu əqidədə olmaq) şirkdir.(٢)

Göydə Allah, yerdə siz" kimi tə`birlər şeytani tə`birlərdir və insanı süquta uğradır."-
Həqiqi təkallahçı insan nə özünü, nə də başqasını ne`mət sahibi bilir. Bəli, yeganə ne`mət sahibi Allahdır. Daim bu əqidədə olan peyğəmbərlər "əl-həmdu lillahi rəbbil-
(aləmin" deyə zümzümə etmişlər.(٣)

## İBADƏTDƏ ŞİRKİN İRFANİ TƏ`RİFİ

İbadətdə şirk dedikdə, onun bütün mərhələlərində Allahdan başqasının razılığını düşünmək nəzərdə tutulur. Başqalarının razılığını nəzərdə tutmaq aşkar şirk, fiqhi riyadır. İnsanın ibadətdə öz razılığını izləməsi gizli şirkdir. Elm əhli belə bir münasibəti batil və Allah dərgahında qeyri-məqbul sayır. Məsələn, bir şəxs daha çox ruzi əldə etmək üçün gecə namazı qılarsa, bəladan uzaqlaşmaq üçün sədəqə verərsə, malını artırmaq üçün zəkat ödəyərsə, bütün bunlar düzgün sayılırsa da, Allaha ibadət deyil, çünki xalis niyyətlə yerinə yetirilmir. Belə ibadətlərdə məqsəd dünyanı abadlaşdırmaq, nəfs istəklərinə çatmaqdır. Hətta cəhənnəm qorxusu və ya behişt həvəsi ilə yerinə yetirilən ibadətlər də xalis deyil. Demək olar ki, bu ibadətlər də nəfs üçündür. Nəfs istəklərini təmin etmək üçün ibadət edən insan əslində



---

.İddətul-dai, səh.۲۲۸ [۶۵] -۱
.Səfinə, ۱-ci cild, səh.۶۴۴ [۶۶] -۲
.Cavad Amili, "Təfsiri-Təsnim", ۳-cü cild, səh.۱۹۳ [۶۷] -۳

Allahın razılığını nəzərdə tutmur. Əslində o ən böyük bütə, yə`ni nəfsə pərəstiş etmiş .olur. Necə ki, "Sizin nəfsiniz bütlərin anasıdır" buyurmuşlar

Bu sayaq ibadətləri Allah bizim zəifliyimizi nəzərə alaraq öz geniş rəhməti ilə qəbul edir. Belə ki, insan zahiri şərtlərə əməl etməklə səmimi qəlbdən ibadətə dayanarsa, verilmiş və`dlər yerinə yetər. Bu qəbil ibadətlər qulların ibadətidir. Yalnız Allah sevgisi naminə pərəstiş edən azad insanlar cəhənnəm qorxusu və ya behişt şövqündən güc almır. Deməк, ən üstün məqamda övliyalar və azad insanlar dayanır. Nəfs istəyini dinləyən abidin ibadəti isə xalis deyil. Qəlbi əğyardan qorumaq və onda haqdan (qeyrisinə yer verməmək lazımdır ki, ibadət xalis olsun.(١

**İLKİN GÜNAH**

Şirk məfhumu ilə bir qədər tanış olduq. Aydın oldu ki, tövhid dünya görüşündə ilk bağışlanmayan günah Allaha şərik qoşmaqdır. Qur`ani-kərim bir çox ayələrdə şirki məhkum etmiş, onu böyük zülm kimi tanıtdırmışdır: "(Yada sal) o zaman ki, Loğman oğluna nəsihət edərkən dedi: "Oğlum! Heç vaxt Allaha şərik qoşma, şirk böyük zülmdür."(٢) Digər bir ayədə şirk başqa günahlarla müqayisədə bağışlanmayan günah kimi təqdim olunur: "Allah şirki heç vaxt bağışlamaz. Bundan kiçiyini isə istədiyi kəsə bağışlayar. Allaha şərik qoşan kəs böyük günaha yol vermişdir."(٣) Digər bir ayədə müşriklər zalımlarla bərabər tutulur, onların



---

.İmam Rahil, "۴۰ hədis", səh.۳۲۶ -١

.Loğman surəsi, ayə ١٣ [۶۹] -٢

.Nisa surəsi, ayə ۴٨ [٧٠] -٣

cəhənnəm əhli olduğu bildirilir: “Məsih dedi: Ey İsrail övladları! Mənim və sizin Allahınız olan yeganə mə`buda pərəstiş edin. Çünki Allah Ona şərik qoşan kəsə behişti haram etmişdir. Onun yeri cəhənnəmdir. Sitəmkarlara yardım etməz.”(۱) Şirkdən danışan ayələrdən mə`lum olur ki, şirk kəbirə (böyük) günahlardandır, mə`sumların (nəzərincə, hətta böyük günahların ən böyüyüdür.(۲)

## TÖVHİDİN (BİR ALLAHA PƏRƏSTİŞİN) BƏRƏKƏTLƏRİ

Şirkin məfhumu və onun müxtəlif formaları ilə tanış olduqdan sonra tövhidin :bərəkətlərini nəzərdən keçirək

Öz həyatında yalnız Allahı mehvər seçən insan hansısa hadisədən qorxmur; heç nə-onu vahiməyə salmır; nigaran deyil; iztirab çəkmir; qəlbi üzülmür; tam arxayındır; naümid deyil; gələcək onu qorxutmur; dəhşətə düşmür; arxasız deyil; avara deyil; .boşluq hiss etmir

Öz izzətini, əzəmətini, alnıaçıqlığını, sağlamlığını, əmin-amanlığını Allahın iradəsindən-asılı bilir. İnanır ki, Allah mehribanların mehribanıdır, onu tənha buraxmaz, bütün işlərini idarə edən odur. Allah “ərhəmər-rahimin” olduğundan allahpərəst insan şaddır, .çünki Allah onun üçün yalnız səadət nəzərdə tutur

,Kimisi dərd, kimi dərman bəyəndi

.Kimi vüsal, kimi hicran bəyəndi

Mənsə dərdlər və dərmanlar içində



---

.Maidə surəsi, ayə ۷۲ [۷۱] -۱

.Vəsailuş-şiə, cihad kitabı [۷۲] -۲

.Onu bəyəndim ki, canan bəyəndi

Təkallahçı insan heç vaxt tənhalıq hiss etmir. Çünki özünü daim Allahın hüzurunda .görür

,Qulaq verdim səhra danışdı Səndən

.Çeşmələr, dəryalar Səninlə həmdəm

Dağları-daşları, çölü-çəməni

.Yaradıban yaşadan Sən imişsən

Öz Allahına aşiq olan insan hər yerdə öz mə`şuqunu görür. O nəyə baxırsa Allahın .vəsfini görür. Bu səbəbdən də varlıq aləmində nə varsa onu sevindirir

,Səni yada salır hər gül, hər çiçək

Dağ da, daş da Allah deyir təkbətək

,Hər nəyə baxdımsa, sözü Sən oldun

.Dəryalardan cilvələnib ucaldın

„Sübhanəllah" deyir buludlar dağda"

.Günəş göy üzündə, küləklər bağda

„Sübhanəllah" deyir yağan yağışlar"

.Güllərdən süzülən lətif baxışlar

,Hər nəyə baxdımsa danışdı Ondan

.Varlıq Allah deyir yaranan andan

,Leylini axtarsam Ondan uzaqda

Çətin bəlalardan qalam amanda

,Aşiqlər dolanmaz özgə məhəldə

.Onun zikri gəzir sadiq könüldə

,Olanı olan tək görmək göz istər

Hər zərrə vəsfinə Səndən söz istər

,Baxdığını görən əmindir əmin

.Hər nə var vəsfidir Rəbbül-aləmin

Bir sözlə, müvəhhid (təkallahçı) insan ətrafdakı bütün varlıqlarda haqqın nişanəsini .görür, buna görə də daim “əl-həmdu lillahi rəbbil-aləmin” zikrini zümzümə edir

,Hara baxıramsa tövhid nişanı

.Xaliq danışdırır yeri, səmanı

,Zərrələr danışır öz Xaliqindən

.Qulaq versən, haqqı dinləyəcəksən

,Xaliqin vəsfində bağçalar, bağlar

.Çəmənlər, çiçəklər haqqı soraqlar

,Quşların dilində tövhid nəğməsi

.Hara baxırsansa, tövhid səhnəsi

,Tövhiddən danışır sünbüldə dənlər

.Rəbbindən söz açır yaşıl çəmənlər

,Gözəl süsən öyür yüz dillə Onu

.Yaxşı bax, süsənin sahibin tanı

,Qönçələr, çiçəklər edir zümzümə

.Tövhid dəftərini öyrədir sənə

Hud-hud da, bülbül də kəklik də, sar da

.Rəbbindən oxuyur bu xoş diyarda

,Bu eşqi bülbüllər, güllərdən öyrən

.Pərvanədən, şamdan öyüd götür sən

,Yaxşı bax quşların lələklərinə

.Bax dimdiklərinə, kəkliklərinə

,Varmıdır yaradan Allahdan savay

!?Bu şah əsərlərə tapılarmı tay

.Allahşünas insan özünü himayəsiz saymır. Çünki o inanır ki, qadir Allah onu qoruyur

!?Nə var o dərdə ki, dəvası Səndə

.Asandı o yol ki, Sən varsan öndə

,Səni görən gözlər bəxtəvər olmuş

.Cananı Sən olan canlara alqış

,Qoy rahat döyünsün ümidvar könül

.O könül ki, Sənə salmışdır meyl

Səadət sevincin dadır o insan

.Yeganə istəyi Rəhmandır, Rəhman

,Bir insan ki, Sənə sığınmış tamam

.Divlərlə savaşdan çıxar qəhrəman

Gizlində, aşkarda Səninlə olan

.Gizli dərdlərinə tapası dərman

Hər an öz Rəbbinə üz tutan kəsdən

.İmanın, məzhəbin soruşma gəl sən

Bir ömür mə`şuqçun ömür sürən kəs

.Qəlbini verəndə istəməz əvəz

,Dərmanı mə`şuqda olan dərd gəzər

.Bir bəhanə olsun, salınsın nəzər

,Bu qəlbin çarəsi eşqindir yalnız

.Hicranından uzaq yalqızdır, yalqız

,Eşqin fəna qıldı könül düzənin

.Bu yerdə cücərməz eşqi özgənin

Bəli, Allahşünas insan üçün həmişə, bütün işlərdə üç prinsip var: Təvəkkül (Allaha .(təvəkkül), riza (Allahın razılığı), təslimçilik (Allah qarşısında təslimçilik

Təvəkkül edən insan bütün işlərini Allaha tapşırır, özünü tədbir sahibi bilmir. O, Allahın məsləhətindən razıdır və Onun təqdiri ilə kifayətlənir. Həzrət Əli (ə) bu məqamın :bəyanında buyurmuşdur

,Razıyam Allahın verdiyi paya

.Tapşırdım işimi böyük mövlaya

,Bu günədək xeyir gördüyüm Allah

.Xeyir yetirəsi, əlbət ki, sabah

Özündə bu halı hiss etsən, bil ki, təvəkkül və təslim məqamına nail olmusan. Bu .məqam arif və saliklərin çatmaq arzusunda olduğu uca məqamlardandır

Təvəkkül məfhumunu başqa şəkildə də izah etmək olar. Allaha təvəkkül edən insan anasına göz dikmiş körpə kimidir. Körpə anasından başqasını tanımadığı kimi təvəkkül .edən insan da yalnız Allaha üz tutur

Riza" dedikdə insanın öz qismətindən razı olması nəzərdə tutulur. Riza məqamına" çatmış insan bu əqidədədir ki, Allah ne'mətləri hər kəsə ən gözəl şəkildə əta etmişdir .və onun bu işində heç bir nöqsan yoxdur

Əslində insanı narazı salan və onu əlində olmayanlara həvəsləndirən hikmət və məsləhətdən xəbərsizliyidir. İnsan işlərin hikmətindən xəbərdar olsaydı ona verilənlərdən artıq bir şey istəməzdi. Nəql olunur ki, bir nəfər imam Həsəni (ə) yuxuda :görür və həzrət bu mö'minə onu Əhli-beytə (ə) yaxınlaşdırası bir şe`r öyrədir

,Pərişanlıqları qoy bir kənara

.Tapşır işlərini Pərvərdigara

Səbr edəsi olsan, qarşıda bir gün

.Olsun ki, açıla bəxtində düyün

Bu gün sənə çətin görünən bir iş

.Nəhayətdə olar xeyirli gediş

,Allah edəsidir istədiyini

.Məbada, gileyli görə O səni

,Allahdır tanıdan yaxşı-yamanı

.Sabahla tutuşdur ötən zamanı

Necə düşünürsünüz, deyilənlərə əməl edən bir insan bütün dərdlərinə şəfa tapmazmı?! Müşrik isə daim iztirabdadır. O rahatlıq bilmir, qorxu içindədir, özünə arxa tapmır, avara qalır, boşluq hiss edir, gələcəyə görə narahatdır, əmin-amanlıq hiss .etmir

Ona elə gəlir ki, izzət, əzəmət, alnıaçıqlıq, sağlamlıq, var-dövlət insanların əlindədir və burada Allahlıq bir iş yoxdur. İnsanlardan yaxşılıq görmədikdə müşrik şəxs özünü .bədbəxt sayır

Yaxşı baxsan görərsən bu dığallar

.Dörd bir yandan şirni-şəkər yığarlar

,Nə qədər şirə var götürməzlər əl

.Tamahları iti, özləri əfəl

,Elə ki, gördülər süfrə qalıb boş

Sürüşərlər aradan yavaş-yavaş

,Yaddan çıxar dostluq, vəfa, məhəbbət

.Kəsilər əvvəlki yaxın ünsiyyət

,Bəxt üzə güləndə gülərlər yenə

.Yığışarlar ne`mət dolu süfrənə

,Sağdan-soldan yüyürərlər çibin tək

.Qarınla ölçülür onlarda istək

,Belələri bazar itinə oxşar

.Səndən çox sümüyü sevirlər onlar

Şair öz şe`rində Allahdan xəbərsiz dostların iç üzünü açır. Bildirir ki, qarından başqa bir .şey tanımayan belələri ilə yaxınlıq aldanışdır və nəhayətdə insan köməksiz qalasıdır

Allahşünas insan daim nikbindir, heç vaxt ümidini itirmir, qəm və şadlığın onun üçün elə bir fərqi yoxdur. İnanır ki, onun üçün həyat yolunu cızan Allah öz bəndəsi üçün .yalnız xoşbəxtlik istəyir

,Dünya Onun olduğundan şadam mən

.Bədbinliyə, düşgünlüyə yadam mən

,Onun verdiyindən şirin nə var ki

.Verdiyi dərdlər də şirindi sanki

,Arifçün fərqi yox sevincin qəmdən

!Süfrə Onun olsun, nə sevinc, nə qəm

Ayətullah Cavadi Amuli "Təfsiri-Təsnim" kitabında Qur`an ayələrinə istinad edərək ilahi hidayət əldə edənlərin və bu hidayətdən məhrum olanların dünya və axirət həyatını gözəl şəkildə təsvir edir: "İlahi hidayət yolunu tutanlar nəhayət əzab-əziyyətdən, iztirabdan, qəm-qüssədən qurtulur. Allah zikrindən üz döndərənlər isə sıxıntıya düşür, asayişini əldən verir, daim qəm-qüssə içində olur. Allah zikrindən üz döndərən insan sıxıntıdadır. Var-dövlət onu bu sıxıntıdan qurtara bilmir. Onun düşdüyü sıxıntı yoxsulluq sıxıntısından çox-çox ağırdır. Yoxsul insan yalnız bir sıxıntı görür. Var-dövlət

hərisi isə iki sıxıntıya mə`ruz qalır: Olanlarını qorumaq nigarançılığı və sərmayəni artırmaq nigarançılığı. Yə`ni o həm qazanmaq, həm də qazandığını qorumaq haqqında düşünür. O heç vaxt asudə deyil. O dünyada da, axirətdə də sıxıntıdadır, hətta cəhənnəmin dar mənzilində qərar tutur. Demək, ilahi hidayətə davamlılıq insanı qəm-qüssə, dünya və axirət bəlalarından qoruyur. Allah zikri və ilahi hidayətdən uzaqlaşmaq isə insana bütün acılıqları daddırır."

## GÜNAHI KİÇİK SAYMAQ

Əgər kimin qarşısında olduğumuzu, kimə qarşı günah etdiyimizi anlasaq heç bir günahı kiçik saymaz, bütün günahlardan çəkinərik. İslama görə günah Allaha qarşı müxalifət, e`tinasızlıq, diqqətsizlikdir. Günah "qadir" və "cəbbar" Allah qarşısında özbaşınalıqdır. Heç bir ağıllı insan məsələn dövlət başçısı qarşısında pis iş görməyə cür`ət etməz. Bəs necə olur ki, "qadir" və "cəbbar" Allah qarşısında günaha yol veririk? Nəinki günahdan qorxmur, yol verdiyimiz günahları kiçik sayırıq. Anlamırıq ki, həmin günah səbəbindən gerçək bir himayədən məhrum olur, dəhşətli bir uçuruma yaxınlaşırıq.

Həzrət Əli (ə) öz günahını kiçik sayanlar haqqında buyurur: "Ən ağır günah odur ki, günahkar onu kiçik saysın."(١) Demək, yaxşı olar ki, ən azı insan öz günahlarını e`tiraf etsin, tövbə edib Allahdan bağışlanma diləsin. İslamda günahı kiçik saymaq özü də böyük günahdır. Mə`sum imamlardan nəql olunmuş bir çox rəvayətlər bu tövhidi baxışı təsdiqləyir:



---

١- [٧٣] Bihar, ٧٣-cü cild, səh.٣٦٤.

١. Əbu Bəsir imam Baqirin (ə) dilindən belə nəql edir: “Kiçik günahlardan çəkinin. Həqiqətən kiçik günahların da hesabı var. Bə`ziləriniz düşünür ki, günah edib sonra tövbə qılsın. Həqiqətən, Allah-təala buyurur: “Ölümdən qabaq gördüyünüz bütün işləri yazırıq, eləcə də əməlinizin ölümünüzdən sonraya qalmış tə`sirlərini qeyd edirik. Hər şeyi hesablayırıq, möhkəm şəkildə qeydə alırıq.” Yenə Allah-təala buyurur: “Bəndənin əməli xardal dənəsindən kiçik, daşlar arasında, göydə və ya yerdə olsa belə Allah həmin əməli sorğuya çəkəcək. Həqiqətən, Allah görən və biləndir.”(١)

٢. Səmaə imam Kazimin (ə) dilindən belə nəql edir: “Çox xeyiri böyük, az günahı kiçik saymayın. Çünki kiçik günahlar toplanıb tədricən böyük olur.”(٢)

٣. Həzrət Əli (ə) buyurur: “Allah öz qəzəbini günahlar arasında gizləmişdir. Heç bir günahı kiçik saymayın. Çünki Allahın qəzəbi elə həmin kiçik günahda ola bilər, siz isə bundan xəbərsiz olarsınız.”(٣)

٤. İmam Riza (ə) buyurur: “Kiçik günahlar böyük günahlara aparan yoldur. Kiçik günahda Allahdan qorxmayan insan böyük günahda da qorxmayacaq.”(٤)

٥. Həzrət Peyğəmbər (s) buyurur: “Heç bir pis işi əhəmiyyətsiz saymayın. Bu, sizin gözünüzdə kiçik ola bilər. Heç bir xeyir əməli böyük saymayın. Çünki bu sizin gözünüzdə böyük ola bilər. Həqiqətən tövbə edib bağışlanma diləyənin böyük günahı olmaz. Günahı təkrarlayıb peşman olmayan insanın isə kiçik günahı



---

١- [٧٤] Bihar, ٧٣-cü cild, səh.٣٢١.

٢- [٧٥] Bihar, ٧٣-cü cild, səh.٣٤۶.

٣- [٧۶] Səduq, “Xisal”, ١-ci cild, səh.١١٥.

٤- [٧٧] Bihar, ٧٣-cü cild, səh.٣٥٣.

(böyük olur. Kiçik günah üzərində israr və onu davam etdirmək böyük günah sayılır.”(1)

6. İmam Baqir (ə) Məhəmməd ibn Müslimə buyurdu: “Ey Məhəmməd, xalqın tə`rifi səni qürrələndirməsin. Çünki əməlinə görə başqaları yox, yalnız özün cəzalandırılacaqsan. Günlərini günahla, boş işlərlə keçirmə. Çünki sənin bütün əməllərini qeydə alan biri var. Heç bir yaxşı işi də kiçik sayma. Çünki onun mükafatı bir gün səni sevindirəcək. Heç bir pis işi kiçik sayma. Çünki istər-istəməz həmin əməlin cəzasını görəcəksən. Daim yaxşı iş gör. Çünki yaxşı əməl köhnə günahları yuyur. Başqa işlərdə bu tə`sir yoxdur.”(2)

7. Əbu Haşim Cəfəri imam Həsən Əsgərinin (ə) dilindən belə nəql edir: “Bağışlanmayan günahlardan biri budur ki, günahkar “kaş günahım təkcə bu olaydı” deyər.” Mən özüm-özümə dedim ki, həzrətin buyurduğu çox dəqiqdir və insan işlərində diqqətli olmalıdır. Bu barədə düşünərkən imam (ə) buyurdu: “Əba Haşim, yaxşı düşündün, özünə diqqətli ol. Bil ki, Allaha qarşı şirk zülmət gecədə qara daşın üzərində qarışqanın hərəkətindən daha məxfidir.”(3)

8. İmam Sadiq (ə) buyurur: “Böyük günaha görə Allahdan bağışlanma diləyib, günahını kiçik sayan bəndəyə düşmən olan şəxsi Allah sevir.”(4)

9. Həzrət Peyğəmbər (s) buyurur: “Həqiqətən, kiçik günahlara yol verdikdə şeytan sizdən razı olur. Bağışlanmayan günah o günahdır ki, onu edən şəxs desin: Bu günaha görə cəzalanmaram.” Yəni günahını



---

1- [78] Bihar, 73-cü cild, səh.355.
2- [79] Bihar, 73-cü cild, səh.356.
3- [80] Bihar, 73-cü cild, səh.359.
4- [81] Bihar, 73-cü cild, səh.359.

kiçik saymış olur."(۱) Xalq arasında tez-tez belə bir söz işlədilir: "Sən bu işi gör, günahı mənim boynuma." Demək, istəyirlər ki, nəzərdə tutulan işin günahı kiçik və əhəmiyyətsizdir. Hansı ki, bütün rəvayətlər bu məntiqi inkar edir. Günah insanın düşmənidir, düşməni kiçik saymaq ağıl, ürf və şəriətə ziddir.

۱۰. Həzrət Əli (ə) buyurur: "Ən böyük günah sahibinə kiçik görünən günahdır."(۲)

۱۱. Həzrət Əli (ə) buyurur: "Allah qarşısında ən böyük günah o günahdır ki, sahibi onu yüngül və əhəmiyyətsiz saysın."(۳)

۱۲. İmam Baqir (ə) buyurur: "Günahı əhəmiyyətsiz və kiçik saymaqdan, mövcud vəziyyətlə razılaşmaqdan böyük müsibət yoxdur."(۴)

۱۳. Həzrət Peyğəmbər (s) Abdullah ibn Məs`uda buyurdu: "Heç vaxt heç bir günahı kiçik sayma, kəbirə günahlardan çəkin. Çünki Qiyamət günü günahlarına baxan bəndənin gözlərindən çirk və qan axar. Allah-təala Qur`anda buyurur: "Qiyamət günü hər kəs pis və yaxşı əməlini önündə hazır görər. Arzu edər ki, pis əməlləri ondan uzaq olaydı!"(۵)

۱۴. Allahın rəsulu (s) buyurmuşdur: "Həqiqətən, mö`min öz günahını böyük bir daş altda qalmış kimi görür. Amma kafir öz günahını burnunda gəzən milçək kimi hiss edir."(۶)



---

۱- [۸۲] Bihar, ۷۳-cü cild, səh.۳۶۴.

۲- [۸۳] "Mizanul-hikmət", Zunub babı.

۳- [۸۴] "Mizanul-hikmət", Zunub babı.

۴- [۸۵] "Mizanul-hikmət", Zunub babı.

۵- [۸۶] "Mizanul-hikmət", Zunub babı.

۶- [۸۷] "Mizanul-hikmət", Zunub babı.

۱۵. Allahın rəsulu (s) buyurur: “Allah-təala bir bəndə üçün xeyir istədikdə onun günahlarını gözü önünə çəkir, çətin və ağır göstərir. Bəndəyə xeyir istəmədikdə isə günahlarını onun yadından çıxarır, həmin bəndə günahlarını unudur.”(۱)

۱۶. İmam Kazim (ə) buyurur: “Həzrət İsa (ə) öz həvarilərinə buyurdu: “Kiçik günahlar (günahların kiçik göstərilməsi) şeytan hiylələrindəndir. Günahlar sizə kiçik göstərilir, ancaq nəticədə bir yerə toplanıb sizi həlak edir.”(۲)

۱۷. Həzrət Əli (ə) buyurur: “Az günahı kiçik saymayın. Həqiqətən, kiçik sayılan günahlar tədricən toplanıb böyük günah olar.”

۱۸. Həzrət Peyğəmbər (s) buyurur: “Allahın həzrət Üzeyrə (ə) vəhyində deyilir: “Günahın kiçikliyinə baxmayın. Baxın görün kimə qarşı etmisiniz.”(۳)

۱۹. Nəql olunur ki, həzrət Peyğəmbər (s) səfərlərinin birində ot-ələfsiz yerdə düşərgə saldı. Həzrət (s) tapşırıq verdi ki, ətrafdan çör-çöp yığılsın. Ərz etdilər ki, biz ot-ələfsiz bir yerdə dayanmışıq. Həzrət (s) buyurdu: “Nə tapsanız bir yerə yığın. Adamlar ətrafa səpələndilər. Kimi bir, kimi iki, kimi daha çox çöp tapa bildi. Bu çöplər o qədər xırda idi ki, külək onları aparırdı. Onlar çöpləri bir yerə topladılar. Nəhayət, böyük bir koma əmələ gəldi. Həzrət (s) buyurdu: “Mən sizə anlatmaq istədim ki, kiçik səh:۶۱

---

۱- [۸۸] “Mizanul-hikmət”, Zunub babı.
۲- [۸۹] “Mizanul-hikmət”, Zunub babı.
۳- [۹۱] “Mizanul-hikmət”, Zunub babı.

xeyir əməllər və kiçik günahlar da toplanıb belə böyüyür. Allah rəhmət etsin əməllərini (görən bəndəyə."(١)

## NƏTİCƏ

Yuxarıdakı misal çox gözəl və ibrətamiz idi. Öncə hamıya elə görünür ki, ətrafda çör-çöp yoxdur. Amma toplanan çör-çöp qırıntılarından böyük bir koma düzəlir. Əgər diqqət yetirsək, insanın yaxşı və pis əməlləri də belədir. Gəlin öz pis əməllərimizi kiçik saymayaq. Dama-dama göl olar. Bilək ki, söhbət pis əməlin kiçikliyindən getmir. Əsas məsələ budur ki, insan kimə qarşı çıxır, kimin qanununu pozur. İlahi əzəmət qarşısında cəsarət, qəhr-qəzəb sahibinin sözünə e`tinasızlıq, qadir Allahın qoyduğu həddi aşmaq .heç vəchlə kiçik günah sayıla bilməz

## DAVAMLI GÜNAH

### İŞARƏ

Öncə xatırlatdıq ki, mə`sumlardan başqa hamının günahı var. Amma əməllərə digər :bir tərəfdən nəzər saldıqda görürük ki, insanlar iki dəstədir

Bə`ziləri günaha yol verdikdə peşman olur, gördüyü işdən vicdan əzabı çəkir, hətta özünə nifrət edir. Məhz bu peşmançılıq səbəbindən tövbə edir və qərara gəlir ki, bir daha belə bir iş görməsin. Beləlıəri günah yükünü yüngülləşdirmək üçün xeyir işlər .görür, günahlarını yumağa çalışır

Digər bir dəstə isə davamlı şəkildə günaha yol verir, amma peşmançılıq çəkmir, tövbə haqqında düşünmür. Onlar sanki gördükləri işin günah olduğundan xəbərsizdirlər. Unudurlar ki, günahın davamı onu böyük səh:٦٢

---

.Bihar, ٧٣-cü cild, səh.٣٦٧ [٩٢] -١

günaha çevirir, hətta Allahın rəhmət qapısını insanın üzünə bağlayır. Davamlı günah nəticəsində insan əbədi əzaba düçar olur. Qur`ani-məciddə belələrinin aqibəti haqqında buyurulur: "Bəli, etdikləri haram əməllər günaha yol verənləri başdan-başa bürüyür. Belələri od əhlidir və orada əbədi qalacaqlar."(۱)

Uyğun mövzu ilə bağlı həzrət Əli (ə) buyurur: "Ən ağır günah o günahdır ki, sahibi onu kiçik saysın."(۲)

Günah Allahla müxalifətçilik, ilahi qanunlara e`tinasızlıq, qəhr-qəzəb sahibi olan Allah qarşısında özbaşınalıqdır. Bə`zən günahkar xilafa yol verdiyini, Allah qarşısında həddi aşdığını, günah vasitəsi ilə təqva və fəzilətdən məhrum olduğunu, bir sözlə, öz xətasını e`tiraf edir və narahat olur. Bə`zən isə günahkar öz günahını kiçik sayır, Allah qanununu pozduğunu düşünmür. O, təsəvvür etmir ki, bu günah vasitəsi ilə himayədən məhrum olub süquta yaxınlaşır. Özünü elə aparır ki, sanki adi bir iş görmüşdür.

Aydındır ki, hər iki şəxs günaha yol vermişdir. Amma onların cəzaları eyni deyil. Birinci şəxs zahirən böyük günaha yol versə də yüngül cəzalandırılar, ikinci şəxs isə kiçik günaha yol versə də ağır cəzalandırılar. Allah qanunlarını pozan insanlar Qiyamətdə əməllərinə görə cəzalandırılar. Saleh iş görənlər öz işinin faydasını əldə edər. İmam Sadiq (ə) həzrət Əlinin (ə) dilindən nəql edir: "Qiyamət günü faydalı olan iş kiçik deyil. Həmin gün ziyanlı olan iş də kiçik sayılmır. Allahın sizə verdiyi xəbərləri öz gözünüzlə görürmüş kimi olun."(۳)



---

۱- [۹۳] Bəqərə surəsi, ayə ۸۱.

۲- [۹۴] "Mizanul-hikmət", Zunub babı.

۳- [۹۵] Üsuli-Kafi, ۲-ci cild, səh.۴۵۶.

İmam Həsən Əsgəri (ə) həzrət Peyğəmbərin (s) dilindən nəql edir: “Ey Allah bəndələri, günahdan, günahı yüngül saymaqdan çəkinin. Çünki günah öz sahibini alçaldıb bədbəxt edir. Belə ki, insan yol verdiyi günahdan da böyüyünə düçar olub daim günah edir. Etdiyi günahı yüngül saydığı üçün, bədbəxt olub böyük günaha batır. Nəhayət, Peyğəmbər (s) vəsisinin (canişinin) vilayətini inkar edir, Peyğəmbər (s) risalətindən üz döndərir. O, Allahın birliyinin inkarı uçurumuna yuvarlananadək günahını davam etdirir.”(۱) Digər bir rəvayətdə həzrət Peyğəmbər (s) günahın davamını günahdan da pis sayır: “Günahdakı dörd şey günahın özündən daha pisdir: Günahı kiçik saymaq, günahla öyünmək, günaha batmaqla müjdələmək, günahı davam etdirmək.”(۲)

## GÜNAHIN DAVAMI NƏTİCƏSİNDƏ RUZİNİN AZALMASI

Hər bir günahın xüsusi təsiri var. Həzrət Əlinin (ə) nəzərincə, günah insanın ruzisini kəsir, onu və ailəsini yoxsulluğa düçar edir: “Günahın davam etdirilməsi ruzinin kəsilməsinə səbəb olur.”(۳)

## GÜNAHIN DAVAMI NƏTİCƏSİNDƏ AXİRƏTDƏ SALEH ƏMƏLLƏRİN RƏDD OLUNMASI

İnsan ruhu xəlq olunduqdan sonra əbədidir. Bu, axirətə aparan bir yoldur. Günahı davam etdirməklə



---

۱- [۹۶] Məcmueyi-Vərram, ۲-ci cild, səh.۱۰۲.
۲- [۹۷] Camei-əhadisul-şiə, ۱۳-cü cild, səh.۳۳۶.
۳- [۹۸] Mustədrəkul-vəsail, ۲-ci cild, səh.۳۱۴.

axirətimizi viran qoymayaq. İmam Sadiqin (ə) nəzərincə, günahın davamı insanı saleh əməllərin mükafatından məhrum qoyur. Yə`ni insan özü öz əli ilə axirətini viran qoyur. İmam (ə) buyurur: "And olsun Allaha, Allah günahın davamı ilə müşayiət olunan heç bir itaəti qəbul etməz."(1)

## ALLAH RƏHMƏTİNDƏN ÜMİDSİZLİK

Şübhəsiz ki, mə`sumlardan savayı kimsə günahdan amanda deyil. Hamı günaha yol verir, xətaya düçar olur. Hətta ariflər, abidlər, gecə ibadət edən təqva sahibləri də hansısa həddə günaha batır.

Əgər insan nəfs pərdələrini yırtıb özünü düzgün dəyərləndirə bilsə, qarşısında bir yığın günah görər. Əgər insan gündə bir günaha yol versə, ۵۰ illik ömrün yetkinlikdə ötən ۳۵ ilində ۱۲۷۷۵ günaha sahib olar. Əgər gündə bir yox, bir neçə günaha yol verilsə, olduqca böyük rəqəm alınar. İnsan bu günah yükünü lazımınca dəyərləndirdikdə xəcalət çəkir. Tarixdə oxuyuruq ki, bə`zi övliyalar belə bir hesabın ağrısından dünyalarını dəyişmişlər.(2)

Əgər həzrət Adəm (ə) bir günaha görə behiştdən qovuldusa, minlərlə günaha yol vermiş bizləri nə gözləyir?!

Səcdə qılınardı önündə hərdəm.

Cəmi bir günaha yol vermiş ikən

Çıxarıldı əmin-aman behiştdən.



---

۱- [۹۹] Mir`atul-uqul, ۱۰-cu cild, səh.۷۳.

۲- [۱۰۰] Şeyx Bəhayi, "Kəşkül", səh.۳۵۶.

,Sənsə min günahla ey üzüqara

.Girmək istəyirsən o gül diyara

Bununla belə, Allah-təala bizə icazə verməyib ki, Ondan ümidimizi üzək. Qur`anda buyurulur: “Azğınlardan savay kim Allahın rəhmətindən ümidini üzər?!”(۱) Digər bir ayədə oxuyuruq: “Yalnız kafirlər Allahın rəhmətindən ümidini üzər.”(۲) Başqa bir ayədə Allah-təala günahkarlara xitabən buyurur: “Ey mənim özünə qarşı israf və sitəmə yol vermiş bəndələrim! Allahın mərhəmətindən ümidinizi üzməyin, Allah bütün günahlarınızı bağışlayar. Çünki O, bağışlayan və mehribandır.”(۳)

Əgər Qur`an ayələrini diqqətlə nəzərdən keçirsək, ۲۷۶ məqamda Allahın rəhmətindən danışıldığını görərik. ۲۳۲ dəfə Allahın ğəfur olması, ۳۵ dəfə əfv və bəxşiş sahibi olması qeyd edilir. Məgər bütün ayələr minlərlə günaha yol vermiş insana ümid vermirmi? .Bəli, insan bütün cinayətlərinə baxmayaraq Allahdan ümidini üzməməlidir

,İçimdə bir ümid şö`ləsi parlar

.Cinayətim varsa, ümidim də var

:Şair digər bir məqamda əməl naməsini qara görsə də, ümidini itirmədiyini bildirir

Naməm qara deyə qovma qapından



---

.Hicr surəsi, ayə ۵۶ [۱۰۱]-۱

.Yusuf surəsi, ayə ۸۷ [۱۰۲]-۲

.Zumər surəsi, ayə ۵۳ [۱۰۳]-۳

.Gör başıma nələr açdı bu dövran

Şair “Zumər” surəsinin ۵۳-cü ayəsinə, “Allah bütün günahlarınızı bağışlayar” :buyuruğuna istinadən bağışlanacağına ümid bəsləyir

,Təşvişə düşmüşəm günahlarımdan

.Günahım artıqdı yağışdan, qardan

,Bağışlanmaq və`di verilməsəydi

.Bağrım yarılardı düşünən zaman

## MƏ`SUMLARIN TÖVSİYƏLƏRİ

Mə`sumlar öz yaxınlarına tövsiyə etmişlər ki, xalqı Allahın rəhmətindən mə`yus etməsinlər. Həzrət Əli (ə) oğlu imam Həsənə (ə) vəsiyyətində buyurur: “Ey oğlum, günahkarın ümidini qırma. Olsun ki, sonda günahkar (tövbə qılıb) xeyir aqibətə çata, vəzifəsinə əməl edən insan isə ömrünün sonunda günaha yol verib oda düşə. Bu vəziyyətdən Allaha pənah aparırıq.”(۱) İmam Sadiq (ə) cəddini təsdiqləyərək buyurur: “Allah öz peyğəmbərlərindən birini göndərərək ona vəhy etdi ki, qövmünə desin: “Həqiqətən, elə bir qövm yoxdur ki, mənə tabeçiliklə xoşhal olsun, sonra vəziyyəti dəyişsin, mənim bəyəndiyim bir haldan, bəyənmədiyim bir hala qayıtsın. Həqiqətən, mənim rəhmətim qəzəbimdən öndədir. Onların mənim rəhmətimə olan ümidini qırmayın. Doğrudan da elə bir böyük günah olmaz ki, onu bağışlamayam. Onlara de ki, mənim qəzəbimdən çəkinsinlər, övliyalarımı qorxutmasınlar. Qəzəbləndiyim vaxt kimsənin müqavimət göstərə bilməyəcəyi



---

.Bihar, ۷۴-cü cild, səh.۲۳۹ [۱۰۴]-۱

qamçılarım var.”(۱) Digər bir rəvayətdə imam Sadiq (ə) Allah-təalanın belə buyurduğunu nəql edir: “Mən xəsis deyiləm ki, bəndəmdən nəyisə əsirgəyəm. Məgər səxavət, bəxşiş, kərəm mənim deyilmi?! Məgər əfv və rəhmət mənim əlimdə deyilmi?! Arzuları yerinə yetirən mən deyiləmmi?! Kimdir məndən ümidini üzən?! Arzu edənlər məndən qeyrisindən istəməyə qorxurmu?! Əgər bütün göy və yer əhli birlikdə nəsə istəsə, sonra onlardan hər biri o biriləri qədər arzulasa, onların istəyini verməklə qüdrət və mülkümdən zərrəcə azalmaz. Mənim mülküm necə azala bilər?! Xalqın mənə ümidini qıranlar necə də bədaqibətdir. Necə də pisdir itaətsizlik edib məni (nəzərə almayanlar!”(۲

Həzrət Əli (ə) “Zumər” surəsinin ۳۶-cı ayəsi ilə bağlı buyurur: Bu ayə həzrət Həmzənin qatili Vəhşi haqqında nazil olmuşdur. Vəhşi İslamı qəbul etmək fikrinə düşəndə tövbəsinin qəbul olmayacağından qorxdu. Ayə nazil olduqdan sonra İslamı qəbul etdi və dedi: “Ey Allahın rəsulu (s) bu ayə Vəhşiyə aiddir, yoxsa bütün müsəlmanlara?” Həzrət (s) buyurdu: “Bütün müsəlmanlara.”(۳) Məşhur “Əbu Həmzə” duasında imam Səccadın (ə) sözlərinə nəzər salaq. Bu duanı hamılıqla oxuyub can-dildən əmin olaq ki, mərhəmətli Allahın dərgahında kimsə naümid qalmaz: “Kitabında hər biri qeyd olunmuş əməllərə görə vay olsun mənə. Əgər kərəm və rəhmətinə ümid etməsəydim, ümidsizliyi qadağan buyurmasaydın, hər an əməllərimə baxıb mə`yus olardım.”; ,“Pərvərdigara



---

.Üsuli-Kafi, ۲-ci cild, səh.۲۷۵ [۱۰۵] -۱

.Üsuli-Kafi, ۲-ci cild, səh.۶۶ [۱۰۶] -۲

.Təfsiri-Nurus-səqəleyn”, ۴-cü cild, səh.۴۹۱“ [۱۰۷] -۳

gözümü Sənin səxavət və kəraminə dikib, həmişə ehsanını gözləyirəm. Məni odda yandırma, Sənsən ümid yerim. Məni cəhənnəm girdabına salma, Sənsən gözümün nuru"; "Ey mənim Allahım, ey mənim ağam, and olsun izzət və cəlalına, məni günahlarıma görə qovsan Səni mərhəmətinə görə çağıraram. Əgər məni oda daxil etsən, od əhlinə Sənə olan məhəbbətimdən danışaram."(١)

## HAQQIN LÜTFÜ HAQQINDA TARİXİ BİR HADİSƏ

Allahın mehribanlığı, lütf və kərəmi o qədər əzəmətli və heyran edicidir ki, bə`zən Allahdan xəbərsiz kafirləri də heyrətə gətirir. Növbəti əhvalat uyğun həqiqətdən danışır:

Bir kafir həzrət İbrahimdən (ə) təam istədi. İbrahim (ə) dedi: "Əgər müsəlman olsan, səni qonaq edib təam verərəm." Kafir getdi. Allah-təala vəhy nazil etdi ki, ey İbrahim, biz bu kafirə ٧٠ ildir ruzi veririk. Əgər ona bir gecə ruzi verib din istəməsəydin, nə olardı?!" İbrahim (ə) həmin kafirin ardınca gedib onu geri çağırdı və təam verdi. Kafir dedi: "Nə oldu ki, geri qayıtdın, mənə təam verdin?" İbrahim (ə) əhvalatı danışdı. Kafir dedi: "Əgər sənin Allahın bu qədər mehribandırsa mənə dinini öyrət, iman gətirib müsəlman olum."(٢)



---

١- [١٠٨] "Əbu Həmzə Somali" duası.

٢- [١٠٩] Kəşful-məhcub, səh.٤٠٩.

## HAQQIN LÜTFÜ HAQQINDA DİGƏR BİR MACƏRA

Həzrət Peyğəmbərin (s) müşriklərlə savaşlarından birində bir uşaq əsir düşdü. Əsirlərin saxlandığı yer olduqca isti idi, günəş birbaşa onların üzərinə düşürdü. Xeymədəki qadınlardan biri onu görüb qaçaraq gəldi və körpəni qucağına alıb bağrına basdı. O, körpəni öz kölgəsində saxlamışdı. Qadın ağlayır, körpəni oxşayaraq deyirdi: "Bu uşaq mənim oğlumdur." Bu səhnəni görənlər də ağlamağa başladı. Qadının bu mərhəməti hamını təəccübləndirdi. Baş verənlər barədə Peyğəmbərə (s) danışdılar. Həzrət (s) müsəlmanların mehribanlıq və canıyananlığından sevinib buyurdu: "Qadının bu körpəyə mərhəməti sizi təəccübləndirdimi?" Dedilər: "Bəli, ya rəsuləllah." Həzrət (s) buyurdu: "Allah öz bəndələrinə bu qadın həmin uşağa mehriban olduğundan da mehribandır." Həzrətin (s) buyuruğu müsəlmanları çox sevindirdi.(۱)

Qəlbini bizə ver, səfası məndən,

Dərdini bizə de, dəvası məndən.

Qəbul açarını itirsən əgər

Axşam mənimlə ol, tapılsın səhər.

Üzünə bağlansa ruzi bacası,

Qalxıb döyəcləsən, sahib açası

Gözündəki yaşa müştəriyəm mən,

Dəryaya döndərrəm damla göndərsən.

Bu günkü ruzinin şükrünü qılsan,

Sabahkı təamın mənlikdir inan.



---

۱- [۱۱۰] Qəzzali, "Məhəmməd Kimyayi", ۲-ci cild, səh.۳۹۶.

,Özünlə hesab çək ölümdən qabaq

.Mənlikdir yaxşını pisdən ayırmaq

,Ümidini üzmə günahda batsan

.Bağışlayan tövbə qılan an

:Şair İslam irfanından ilham alaraq yazır

Yar qovsa qapısından

.Ümidini üzmə sən

Bağlasalar qapını

.Qırma ümid ipini

,Bağlansa yollar əgər

.Gizli bir yol göstərər

Yalnız qəssab kəsəndə

.Gözlər can çıxan həddə

Amma kərəm sahibi

.Gəzər rəhmət səbəbi

,Mülki-Süleyman verər

.İki aləm müyəssər

Şair dünyasını dəyişərkən aşağıdakı üç misranın qəbir daşına yazılmasını vəsiyyət :etmişdir

Ağır günahlarla rəhmət diləyən

Bəndəni əfv edən Sənsən, ya Rəbb, Sən.

Qonağam, yəqin ki, açıqdı süfrən!

səh:۷۱

:Başqa bir məqamda şair deyir

,Axirətə qədər dünya ömrü var

.Hər addımda səni günah soraqlar

Yaxşı yaşa, qazan əbədiyyəti

.İl yaxşı keçəcək yaxşısa bahar

,Deyirlər həşrdə sorğu olacaq

.Hərə öz işinə cavab olacaq

,Gözləmə xeyirdən zərər cücərə

.Sevin, saleh əməl kölgə salacaq

:Can verən məqamda şair deyir

,Qara üz gətirdim hüzuruna mən

.Günah yüküm ağır, savab yüküm kəm

,Qırma ümidimi, nəzər sal bir an

.Sənə sığınmışam, yox başqa imkan

:Başqa bir məqamda şair cənazə üstündə deyir

Dünya cəfa qıldı bir ömür mənə

.Qapına gəlmişəm, bir ümid sənə

,Demisən çətində çatarsan dada

.Bundan da ağırmı, düşmüşəm oda

Bəli, gəlin hamılıqla Allahın rəhmətinə ümid bağlayıb aşiqanə və uca səslə təkrar edək:

Pərvərdigara, sonsuz rəhmətindən mə`yus olmamışıq. Günahlarımızı bağışla, dəyərsiz əməllərimizi qəbul et. Sən özün buyurmusan ki, rəhmətindən ümidimizi üzməyək!

## ALLAHIN ƏKS–TƏDBİRİNDƏN ASAYİŞ HİSSİ

Ötən fəsildə Allah-təalanın geniş rəhmətindən ətraflı şəkildə danışıldı. Belə bir nəticəyə gəldik ki, Allahın rəhmətindən ümidi üzmək özü böyük günahdır. Bu fəsildə isə belə bir həqiqəti aydınlaşdıracağıq ki, ümidsizlik böyük günah olsa da, Allahın rəhmətinə ümid insanı günaha sövq etməməlidir. Günaha yol verən insan düşünməməlidir ki, tam əmin-amanlıqdadır. Allah rəhman və rəhim olmaqla yanaşı, həm də qəhr-qəzəb sahibidir, intiqam alır. Mərhəmətli və Kərim olan Allah həm də əks-tədbir görür. Necə ki, Qur`ani-kərimin ayələrindən birində Allah özünü ən üstün məkr qura bilən kimi tanıtdırır. Bu yolla insanın nəzərinə çatdırılır ki, əks-tədbirdən qəflətdə qalmaq da günahdır. Qur`ani-kərim bu mövzuda buyurur: "(Düşmənlər) məkr etdilər, Allah da (onların cavabında) məkr etdi. Allah məkr edənlərin üstünüdür. Bir vaxt Allah buyurdu: "Ey İsa! Mən səni götürüb özümə doğru qaldırıram, səni kafirlərin pisliyindən pak saxlayıram, sənin ardıcıllarını Qiyamət gününədək kafirlərdən üstün qərar verirəm. Sonra dönüşünüz mənədir. Nəhayətdə ixtilafda olduğunuz məsələlər haqqında hökm verərəm. Amma kafir olanları dünya və axirətdə əzaba düçar edərəm (və onlara heç bir yardımçı tapılmaz."(١)

Deyilən halın günah olmasını qeyd etdikdən sonra "məkərəllah" ("Allahın məkri") tə`birini araşdıraq. Adətən "məkr" dedikdə hiylə, qurğu, yalan nəzərdə tutulur. Filankəs məkr etdi, yə`ni aldatdı, kələk gəldi. Məkr sözü insana aid olduqda uyğun mə`nanı daşıyır. Amma həmin sözü uyğun mə`nada Allaha aid etmək olmaz. Çünki hiylə və yalan acizlik əlamətidir. Bir insan aşkar yolla müvəffəq olmadıqda hiyləyə əl atır, qarşı tərəfi aldadır. Allah isə mütləq qüdrət sahibidir. İstənilən bir iqtidar sahibini bir kəlmə ilə məhv edə bilər. "Məcməul-bəhreyn" kitabının müəllifi "məkəru və məkərəllah" ayəsi haqqında yazır: "Xalq tərəfindən məkr yalan mə`nasını bildirir. Allah tərəfindən məkr isə cəza mə`nasını daşıyır."



---

١- [١١١] Ali-İmran surəsi, ayə ٥٤, ٥٦.

Amma həmin sözü uyğun mə`nada Allaha aid etmək olmaz. Çünki hiylə və yalan acizlik əlamətidir. Bir insan aşkar yolla müvəffəq olmadıqda hiyləyə əl atır, qarşı tərəfi aldadır. Allah isə mütləq qüdrət sahibidir. İstənilən bir iqtidar sahibini bir kəlmə ilə məhv edə bilər. "Məcməul-bəhreyn" kitabının müəllifi "məkəru və məkərəllah" ayəsi haqqında yazır: "Xalq tərəfindən məkr yalan mə`nasını bildirir. Allah tərəfindən məkr isə cəza mə`nasını daşıyır." "Məkərəllah", yə`ni "Allah bəndəni məxfi şəkildə cəzalandırır." Uyğun araşdırmadan mə`lum olur ki, "məkərəllah" tə`birinin müxtəlif :mə`naları var. Bə`zi mə`nalarla tanış olaq

a) Cəza

Günaha yol vermiş insan tövbə edib bağışlanmaq diləməsə, cəzalandırılmalıdır. Bu cəza Qur`ani-kərim və mə`sumların dilində "məkərəllah" adlandırılmışdır. Yə`ni Allah günahkarları cəzalandıracaq. Əlbəttə ki, necə cəzalandırmaq Allahın ixtiyarındadır. Bə`zi cəzalar Qur`an və mə`sumların buyuruqlarında bəyan olunmuş, bə`zi cəzalar isə ümumi şəkildə qeyd edilmişdir. Deyilənlərin aydınlaşması üçün aşağıdakı ayələri nəzərdən keçirək: "Məgər bu şəhərlərdəkilər bizim əzabımızın onları gecə yatdıqları vaxt yaxalamayacağına əmindirlərmi? Məgər bu diyar əhli əzabımızın gündüz vaxtı əyləndikləri zaman onları yaxalamayacağına əmindirlərmi?! Yalnız ziyankarlar (yanılaraq) özlərini Allahın məkrindən amanda bilərlər."(۱) Ayələrdən göründüyü kimi burada "məkərəllah" tə`biri ilahi əzab mə`nasında işlədilmişdir. Allah kafirlərə, sitəmkarlara, günahkarlara anladır ki, kimsə ilahi əzabdan amanda



---

.Ə`raf surəsi, ayə ۹۷, ۹۹ -۱

.deyil. Tövbə etməmiş kafirlər və sitəmkarlar Qiyamətdə cəzalanasıdır

b) İstidrac

Məkərəllah" tə`birinin ikinci mə`nası "istidrac"dır. Bu söz Qur`an terminlərindəndir və" xüsusi bir mə`na daşıyır. Öncə bu sözün lüğəvi və terminoloji mə`naları ilə tanış olaq, .sonra nümunələr göstərək

## İSTİDRAC" SÖZÜNÜN LÜĞƏT VƏ TERMİNOLOJİ MƏ`NASI"

### İŞARƏ

İstidrac" sözü bu mə`naları bildirir: Bir şeyə tədricən yaxınlaşmaq; möhlət vermək;" yavaş-yavaş işə salmaq; Allah bəndəni yavaş-yavaş öz əzabına yaxınlaşdırır; möhlət və ya tədriciliklə ilahi əzaba yaxınlaşma; Allah öz günahkar bəndəsinə ardıcıl və geniş ne`mət əta edir (tədricən əzaba düçar olsun deyə); Allah günahkar bəndəyə o qədər ne`mət verir ki, tövbə və istiğfar yadından çıxsın (asta-asta əzab üçün zəmin yaransın) İstidrac sözünün lüğəvi və terminoloji mə`naları ilə tanış olduqdan sonra :onun nümunələrini nəzərdən keçirək

### Ne`mət vasitəsi ilə .۱

İnsan günah yolunu tutduqda və onun qəlbinə geriyə dönməyə imkan verməyən həddə zülmət çökdükdə Allah ona bol və ardıcıl ne`mət əta edir. Bu yolla günahkarın dünya və axirətdə məhvi üçün zəmin yaranır. Təəccüblüdür ki, bol və ardıcıl ne`mətə çatmış günahkarlar Allaha şükr etmək əvəzinə bütün bu imkanları öz gücləri ilə qazandıqlarını düşünürlər. Onlara elə gəlir ki, yalnız özlərinə borcludurlar və

qazandıqlarını istənilən yolda xərcləyə bilərlər. Bu əsasla da Allahdan üz döndərək eyş-işrətə aludə olurlar. Onlar anlamırlar ki, Allah bu yolla onları tədricən cəhənnəmə (sürükləyir.(۱)

Bəli, kimsənin günah etməyə haqqı yoxdur və kimsə ixtiyarına verilmiş imkanlardan qeyri-şər`i yolda istifadə edə bilməz. Bu nöqtələri aydınlaşdırmaq üçün Bişr Hafinin macərasını yada salaq. Ustad şəhid Mürtəza Mütəhhəri yazır: "Çal-çağır səsi ətrafı bürümüşdü. Səs-küylü evin yanından ötüşənlər bu evdə nələr baş verdiyini anlayırdı. Eyş-işrət baş almışdı, badələrdə şərab paylanırdı. Evin kənizi zibil atmaq üçün bayıra çıxdıqda çöhrəsində abidlik nişanəsi olan, alnındakı səcdə yeri ardıcıl ibadətdən danışan bir şəxs ondan soruşdu: "Bu evin sahibi quldur, yoxsa azad?" Kəniz cavab verdi: "Azad". Həmin şəxs dedi: "Hiss olunur ki, azaddır. Əgər bəndə olsaydı, öz ".ağasından, Allahından qorxub belə bir büsat qurmazdı

Kəniz həmin şəxslə söhbət etdiyindən bir qədər yubandı. Evə qayıtdıqda ağası soruşdu: "Nə üçün bu qədər yubandın?" Kəniz əhvalatı danışdı. Ev sahibi bir qədər fikrə getdi. Yoldan ötən şəxsin son cümləsi onun qəlbinə ox kimi sancıldı. Ayağa qalxıb ayaqyalın həmin şəxsin ardınca qaçdı. Nəhayət özünü ona çatdırdı. Bu, imam Kazim (ə) idi. Ev sahibi imamın (ə) vasitəsi ilə tövbəyə nail oldu və həmin gündən ayağına ayaqqabı geymədi. Bişr ibn Haris adlı bu şəxs həmin gündən "əl-Hafi", yə`ni "ayaqyalın" ləqəbi ilə tanındı. Bu şəxs ömrünün sonunadək əhdinə sadiq qaldı, günaha yol vermədi. Bir ömür əyyaşlarla ömür keçirmiş Bişr Hafi



---

.Ali-İmran surəsi, ayə ۵۴ [۱۱۳]-۱

.ömrünün qalan hissəsini təqvalı və allahpərəst bir insan oldu

## Tövbə və istiğfarın unutdurulması .۲

Qur`an ayələri və mə`sumların buyuruqlarından aydın olur ki, Allah günahkarı məhz peşman olduğu, xəcalət çəkdiyi üçün bağışlayır. Amma bə`ziləri Allahın bu rəhmət və mehribanlığı müqabilində günahını elə bir həddə çatdırır ki, tövbə və istiğfar ləyaqətini itirir. Belələri bir yolluq unudur ki, tövbə edib bağışlanma diləməlidir. Bu hal Qur`anda və mə`sumların dilində istidrac adlandırılmışdır. Növbəti hədisə nəzər salaq: "Əgər Allah bir bəndə üçün xeyir istəsə və həmin bəndə günaha yol versə, Allah onu dərhal bəlaya düçar edər. Bu bəla ona Allahı xatırladar və həmin şəxs tövbə qılar. Allah bir şəxsə xeyir istəmədikdə və həmin şəxs günaha yol verdikdə Allah ona dərhal ne`mət əta edər və bu şəxs ne`mət içində tövbəni yaddan çıxarar. Uyğun ayənin mə`nası (budur."(۱

Abbasi əmirlərindən olan Həmid ibn Qəhtəbənin əhvalatı mə`sumların buyuruğunu təsdiqləyir. Mərhum şeyx Səduq yazır ki, Übeydullah ibn Bəzzaz Nişapuri nəql edir: Həmidlə aramızda bir müamilə oldu. Bir gün onu görmək üçün mənzilinə yola düşdüm. Mübarək ramazan ayı idi. Günorta vaxtı onun evinə daxil oldum. Məni qəbul etdiyi yerdən arx keçirdi. Mən onun yanında oturmuşdum. Həmin vaxt su və ləyən gətirdilər, Həmid əllərini yudu. Sonra məni də əllərimi yumağa də`vət etdi. Nəhayət, süfrə salındı və Həmid yeməyə başladı. Mən öncə ramazan ayı olduğunu unudub əlimi süfrəyə



---

.Təfsiri-Bürhan, ۲-ci cild, səh.۵۳ [۱۱۴] -۱

uzatdım, sonradan oruc olduğumu xatırlayıb süfrədən uzaqlaşdım. Həmid soruşdu ki, nə üçün yemirsən? Dedim ki, ramazan ayıdır. Mən nə xəstəyəm, nə də başqa bir üzrüm var. Olsun ki, sizin bir üzrünüz var. Həmid cavab verdi: “Mənim də üzrüm yoxdur, xəstə deyiləm.” Sonra ağladı. Mən dedim: “Ey əmir nə üçün ağlayırsan?” Dedi: “Harun Tusda olduğu vaxt məni yanına çağırdı. Hüzuruna daxil olanda gördüm ki, qarşısında yalın bir qılınc, yanında bir xadim var. Məni görüb başını qaldırdı və dedi: “Bizə nə dərəcədə tabesən?” Dedim: “Canımla-malımla sizin xidmətinizdəyəm!” Harun başını aşağı salıb bir qədər fikirləşdi, sonra məni hüzurundan mürəxxəs etdi. Çox keçmədi ki, yenidən ardımca adam gəldi. Düşündüm ki, məni öldürmək istəyir. Amma keçən dəfəki söhbət yenidən təkrarlayıb soruşdu: “Bizə nə dərəcədə tabesən?” Cavab verdim: “Canımla-malımla, ailə-uşaqlarımla sizin xidmətinizdəyəm!” Harun təbəssümlə məni yola saldı. Evə çatar-çatmaz üçüncü dəfə arxamca adam gəldi. Harunun yanına getdim. Eyni söhbət təkrarlayıb soruşdu: “Bizə nə dərəcədə tabesən?” Cavab verdim: “Canımla-malımla, ailə-uşaqlarımla və imanımla sizin xidmətinizdəyəm!”Bu dəfə Harun gülümsündü və dedi: “Bu qılıncı götür və xidmətçinin dediyini yerinə yetir.” Xidmətçi qılıncı mənə verdi və qabağa düşdü. Mən də onun ardınca getdim. O məni qıfıl asılmış bir qapıya gətirdi. Qapını açıb həyətə daxil olduq. Həyətin ortasında quyu qazılmışdı. Ətrafda qapısı bağlı üç otaq vardı. Xidmətçi qapılardan birini açdı. Orada zəncirlənmiş iyirmi ələvi seyid (Əli (ə) və Fatimə (ə) övladı) vardı. Xidmətçi dedi: “Xəlifənin əmri budur ki, bunları qətlə yetirəsən.” Sonra xidmətçi onları bir-bir səh:۷۸

qabağa çıxardı və mən boyunlarını vurdum. Xidmətçi başları və bədənləri quyuya tökdü. Sonra ikinci otağın qapısını açdı. Orada da iyirmi ələvi seyid vardı. Onları da eyni cür qətlə yetirib quyuya atdıq. Nəhayət üçüncü otağın qapısı açıldı. Orada da iyirmi ələvi seyid vardı. Onlardan on doqquzunu qətlə yetirdim. İyirminci seyid qoca bir kişi idi. O mənə dedi: "Allah səni məhv etsin! Qiyamət günü cəddimiz Peyğəmbərə (s) nə cavab verəcəksən?! Bu qədər günahsız insanı qətlə yetirmisən." Bu vaxt əlim titrədi, bədənimə üşütmə düşdü. Başımın üstündə dayanmış xidmətçi qəzəblə baxdı və üstümə çımxırdı. Mən qoca kişini də qətlə yetirdim. Xidmətçi onu da o həmin quyuya atdı. Budur mənim əhvalatım. Mən Peyğəmbərin (s) ۶۰ övladını qətlə yetirməklə elə bir cinayətə yol vermişəm ki, orucdan-namazdan fayda gözləmirəm. Əminəm ki, həmişə cəhənnəmdə yanacağam."(۱)

Bu əhvalat aydın göstərir ki, Həmid ilahi istidraca düçar olmuşdur. Allah ondan tövbə və istiğfar ləyaqətini almışdır.

Başqa bir əhvalata nəzər salaq. Allah Malik ibn Dinar adlı bir günahkarı hidayət etmiş, onu şərafətə çatdırmışdır. Bu şəxs öz həyatını belə təsvir edir: "Mən öncə qoşun başçısı və bir şərabxor idim. Bir kəniz aldım və ona çox bağlandım. Allah mənə ondan bir övlad verdi. Qəlbimdəki məhəbbət günbəgün artırdı. Əlimi şəraba uzadanda əlimdən tutur, üstümə dağıdırdı. İki yaşında dünyadan getdi. Onun ölümü məni çox sıxdı. Şə`ban ayının cümə gecəsinədək şərab içdim və işa namazını qılmamış yatdım. Yuxuda gördüm ki,



---

۱- [۱۱۵] Üyuni-əxbarur-Riza, ۱-ci cild, səh.۵۰.

qəbristan əhli ayağa qalxıb və mən də onlarlayam. Qəfildən arxadan bir səs eşitdim. Dönüb böyük bir qara əf`i ilan gördüm. Ağzını açıb sür`ətlə mənə tərəf gəlirdi. Mən qorxu içində yüyürür, o da sür`ətlə məni izləyirdi. Yolda nurani bir qoca ilə rastlaşdım. Salam verdim. Cavabımı aldı. Ondan kömək istədim. Qoca dedi: "Bu ilanın qarşısında acizəm. Amma sən qaç, olsun ki, Allah bir səbəb sala." Yenə də sür`ətlə qaçmağa başladım. Nəhayət Qiyamət mənzillərindən birinə çatdım. Oradan cəhənnəm və cəhənnəm əhli görünürdü. Az qaldı ilanın qorxusundan özümü cəhənnəmə atam. Qəfildən bir səs gəldi: "Qayıt, sən buranın əhli deyilsən." Bundan sonra qəlbim rahatlaşdı. Qayıdanda ilanın da qayıtdığını gördüm. Nəhayət az əvvəlki qoca ilə rastlaşdım. Dedim: "Ey pir! Səndən sığınacaq istədim, e`tina göstərmədin." Qoca ağladı və dedi: "Mən acizəm. Amma get bu dağa tərəf. Orada müsəlmanların əmanətləri var. Əgər sənin də əmanətin olsa kömək görəcəksən. Dağa baxdıqda gördüm ki, orada qızıl və yaqutla bəzənmiş qapılarından pərdələr asılmış otaqlar var. Dağa doğru qaçdım. Bu vaxt ilan da məni tə`qib etməyə başladı. Mən yaxınlaşanda bir səs gəldi: "Pərdələri çəkin, qapıları açın. Bayıra çıxın, bəlkə onun sizdə bir əmanəti ola və bu əmanət onu düşməndən xilas edə." Bu vaxt üzü ay kimi nurlu bir uşaq çıxdı. Əf`i ilan da mənə yaxınlaşmışdı. Uşaq haray çəkdi ki, düşmən yaxınlaşıb tez bayıra çıxın. Otaqdakılar dəstə-dəstə bayıra çıxdı. Bu vaxt dünyadan getmiş qızımı gördüm. Məni görüb ağlayaraq «bu mənim atamdır» dedi. Sol əlini sağ əlimə uzadıb sağ əli ilə əf`i ilana işarə etdi. İlan geri qayıtdı. Sonra mənə yer göstərib özü də dizim üstə oturdu. Sağ əlini saqqalıma toxundurub dedi: "Ey ata!" Sonra

Hədid” surəsinin ۱۶-cı ayəsini oxudu. Mən ağladım və əf`i ilan haqqında soruşdum.“ Dedi ki, bu sənin çirkin əməllərin, günahlarındır. O səni cəhənnəmə qovmaq istəyirdi. Yolda gördüyüm nurani qoca haqqında soruşdum. Dedi ki, o sənin yaxşı əməllərindir, özün onu aciz etmisən; sənin pis əməllərin qarşısında gücü yoxdur. Qızımdan bu dağ haqqında soruşdum. Dedi: “Biz uşaq vaxtı dünyadan köçmüş müsəlman balalarıyıq. Allah bizə burada yer verib ki, Qiyamətədək ata-anamızın yolunu gözləyək. Onlar bura gələndə şəfaət verəsiyik.” Qəfildən oyandım, şərabxorluğu və bütün başqa günahları tərk etdim. Bəli, tövbəmin səbəbi budur.”(۱)

## Möhlət verilməsi .۳

Əgər insanlar dünyəvi rabitələri bir kənara qoyub, aqibətləri barədə düşünsələr, belə bir nəticəyə gələrlər ki, varlıq aləmində zərrədən başqa bir şey deyillər. Amma dar baxışlı, səthi düşüncəli insanlar həqiqətlə mübarizəyə qalxır, imkanları çatan qədər zülm edir, Allahın əmr və qadağalarına əhəmiyyət verməyib nöbənöv günahlara batır, hətta qadir Allah qarşısında tanrılıq iddiasına düşürlər.(۲)

Həlim və səbirli Allah belələrini meydanda azad buraxır ki, əllərindən gələni etsinlər. Amma bu səbr və həlimlik günahkarların xeyrinə deyil. Qur`ani-kərim bu həqiqətin bəyanında buyurur: “Kafir olanlar heç vaxt elə düşünməsinlər ki, verdiyimiz möhlət onların xeyrinədir. Onlara möhlət veririk ki, günah yüklərini artırsınlar.



---

۱- [۱۱۶] Təfsiri-Ruhul-bəyan, ۹-cu cild, səh.۳۶۵.

۲- [۱۱۷] Naziat surəsi, ayə ۲۴.

Onlar üçün üzücü əzab var."(۱) "Bu sözləri (Qur`anı) təkzib edənləri bizim öhdəmizə burax. Biz onları tədricən gözləmədikləri yerdən bəlaya salarıq. Onlara möhlət veririk, (çünki tədbirimiz möhkəm və dəqiqdir."(۲)

Qur`ani-kərimin digər surələrində də günahkarlara əzab məqsədi ilə möhlət verilməsi önə çəkilir: "Məbada, var-dövlət və övladları səni heyrətə sala! Allah onları dünyada bu yolla cəzalandırmaq, küfr halında canlarını almaq istəyir."(۳) Qur`anın yuxarıdakı və digər ayələrində, peyğəmbər əhvalatlarından aydın olur ki, fir`onlar, şəddadlar, nəmrudlar və tarixin digər azğınları var-dövlət, ailə-övlad, cah-cəlal, silah-sursat (vasitəsi ilə istidraca, tədrici cəzaya məhkum edilmişlər.(۴)

## NAMAZIN TƏRKİ

Namaz İslam ümmətinə vacib edilmiş ilk ilahi vəzifədir. İnsan öz ömrünün son anlarınadək bu vəzifəni yerinə yetirməyə borcludur. Namaz digər vacib göstərişlərdən fərqli olaraq ən çətin məqamlarda belə öhdədən götürülmür. İstər ayaq üstə, istər oturaq, istər uzanmış vəziyyətdə, istər dil, istər işarələrlə namaz qılınmalıdır. İnsanla Allah arasında namazdan möhkəm və daimi rabitə yoxdur. Ən mö`min insanlar Allahla namaz vasitəsi ilə rabitə yaratmış, övliyalar namaz vasitəsi ilə Allahla ünsiyyət .saxlamışlar

Büluğ həddinə çatmış bütün insanlara beş vaxt namaz qılmaq vacibdir.(۵) Bu əsasla, ,böyük fəqih



---

.Ali-İmran surəsi, ayə ۱۷۸, ۱۷۹ -۱

.Qələm surəsi, ayə ۴۴, ۴۵ -۲

.Bəraət surəsi, ayə ۸۵ [۱۲۰] -۳

.Ali-İmran surəsi, ayə ۵۶ [۱۲۱] -۴

.Nisa surəsi, ayə ۱۰۳ [۱۲۲] -۵

Cəvahir" kitabının müəllifi belə fətva verir: "Gündəlik vacib namazlar beş vaxtdır." Onların vacibliyini heç nə aradan qaldırmır. Beş vaxt namaz dinin zəruriyyətlərindəndir və bunu Qur`an, icma, Peyğəmbər (s) və imamların (ə) mütəvatir sünnəsi ilə sübuta yetirməyə ehtiyac yoxdur."(۱)

Buna görə də beş vaxt namazı bilərəkdən tərk edən insan günaha batır və cəzalandırılmalıdır. "Cəvahir"in müəllifi namazı tərk edənlər haqqında buyurur: "Namazı tərk edənin kafir adlandırılması təəccüblü deyil. Əgər insanın namaz qılmamağının səbəbi dini yüngül saymaqdırsa bu belədir."(۲) "Ürvətül-vüsqa" kitabının müəllifi belə fətva verir: "Müsəlmanla kafir arasında fasilə yalnız namazın tərkidir. (Yə`ni müsəlman namazı tərk etməklə kafir olur.)"(۳)

Namazın fəlsəfəsi və onun zəruriliyi, dünya və axirət tə`sirləri, tərkinin gətirdiyi ziyan bir kitaba sığası deyil. Buna baxmayaraq, mə`sumların buyuruqlarından faydalanmaqla bə`zi nöqtələri açıqlayaq.

a) Namazın fərdi və ictimai tə`sirləri

Tövhidin, Allah-təalanın rübubiyyətinin, mə`budluq və bəndəliyin e`tirafı; Allahın daim zikri və azğınlıqdan uzaqlıq; qadir və qəhhar Allah qarşısında çarəsizliyin izharı;

Allahı böyük sanmaq; ruzi verən Allah qarşısında şükür üçün vasitə; şeytanla savaş üçün vasitə; azğın nəfs səh:۸۳

---

۱- [۱۲۳] Cəvahirul-kəlam, ۳-cü cild, səh.۱۱.

۲- [۱۲۴] Cəvahirul-kəlam, ۷-ci cild, səh.۳.

۳- [۱۲۵] Ürvətül-vüsqa, ۱-ci cild, səh.۳۸۲.

;istəkləri və zalım qüvvələrlə savaş üçün vasitə; qəlblərin aramlığı üçün vasitə

Problemlərdən qurtulmaq; fəsad və pozğunluğun qarşısını almaq; günahların-yuyulması; ruhu sığortalamaq; zahir və batinin paklanması; Allah rəsulunun (s) .həmişəlik zikri üçün vasitə

b) Namazın tərk olunmasının tə`sirləri

İlahi qəzəbin nazil olması –həzrət Peyğəmbər (s) buyurur: "Namaz qılmayan insan .۱ (Allah qəzəblənən vaxt onunla görüşər."(۱)

Əməllərin puç olması –həzrət Peyğəmbər (s) buyurur: "Bilərəkdən namazı tərk edən .۲ (insanın əməlləri Allah tərəfindən puça çıxarılar."(۲)

Kafirlik –həzrət Peyğəmbər (s) buyurur: "Bilərəkdən namazı tərk edən şəxs aşkar .۳ (küfrə uğramışdır."(۳)

İslamdan xaric olmaq –həzrət Peyğəmbər (s) buyurmuşdur: "Namaz qılmayanın dini .۴ yoxdur."(۴) "Namaz qılmayanın dindən payı yoxdur."(۵) "Namazı tərk edən, onun mükafatına ümid bəsləməyən, əzabından qorxmayan kəsin yəhudi, məsihi və ya (məcusi kimi ölməsi əhəmiyyətsizdir."(۶)

Cəhənnəmə qatılma –Qur`ani-kərim buyurur: "Bağlar arasında günahkarlar . ۵ haqqında bir-birlərindən



---

.Zəxairul-uqba, səh.۲۳۴ [۱۲۶] -۱

.Sunənun-nəsai, ۱-ci cild, səh.۲۳۶ [۱۲۷] -۲

.Əl-mə`cəmul-səğir, ۱-ci cild, səh.۶۱ [۱۲۸] -۳

.Əl-mə`cəmul-səğir, ۱-ci cild, səh.۶۱ [۱۲۹] -۴

.Daimul-əmlam, ۱-ci cild, səh.۱۳۳ [۱۳۰] -۵

.Camiul-əxbar, səh.۱۸۶, ۴۶۲ [۱۳۱] -۶

(soruşarlar: “Sizi oda salan nə oldu?” Deyərlər: “Biz namaz qılanlardan deyildik.”(١

Həzrət Peyğəmbər (s) buyurur: “Namazı bilərəkdən tərk edən kəsin adı cəhənnəmin (qapısında oraya daxil olanlar sırasında yazılar.”(٢

İslam qanunlarının hökm sürdüyü ölkələrdə beş vaxt namaza xüsusi diqqət yetirilir və adətən, bu namazlar cəm şəkildə icra olunur. Amma yenə də namazın bə`zi tə`sirlərinə lazımınca diqqət yetirilmir. Həzrət Fatimeyi-Zəhradan (ə) nəql olunmuş bir :hədisi nəzərdən keçirək. Görün namaza diqqətsizliyin necə acı nəticələri olur

Həzrət Zəhra (ə) atası Peyğəmbərə (s) ərz etdi: “Ey ata, namaza e`tinasızlıq göstərən“ kişi və qadınların aqibəti necə olacaq?” Həzrət Peyğəmbər (s) buyurdu: “Ey Fatimə! Namaza e`tinasızlıq göstərən kişi və qadınları Allah on beş bəlaya düçar edər: Bu bəlalardan altısı dünyada, üçü ölüm zamanı, üçü qəbirdə, üçü isə qəbirdən xaric olan zaman onları yaxalayar. Onların dünya həyatında üzləşəcəyi bəlalar bunlardır: Ömürlərinin, ruzilərinin bərəkəti olmaz, çöhrələrində salehlik siması olmaz, gördükləri iş mükafatlandırılmaz, duaları ilahi dərgaha qalxmaz, salehlərin onlar haqda duasından faydası olmaz. Ölüm zamanı qarşıya çıxan bəlalar bunlardır: Dünyadan zəlilanə gediş, ac-susuz halda can vermək, beləsinə dünyanın suyu içirilsə də yanğısı sönməz. Qəbirdə insanı yaxalayan bəlalar bunlardır: Qəbirdə bir mələyə tapşırılar ki, .ona əzab versin, qəbirdə sıxıntıda olar, qəbiri qaranlıq olar



---

.Muddəssir surəsi, ayə ۴٣ [١٣٢] -١

.Hilyətul-əvliya, ٧-ci cild, səh.٢۵۴ [١٣٣] -٢

Namaza yüngül yanaşanı Qiyamətdə bu bəlalar yaxalayar: Bir mələyə əmr olunar ki, onu xalqın gözü qabağında üzü üstə sürüsün, ağır sorğuya düçar olar. Allah ona lütf nəzəri ilə baxmaz. Beləsi paklanmaz və ağrılı əzaba düçar olar."(١)

Qüdsi bir hədisdə Allah-təala buyurur: "Ey itaətsiz millətlər, asi xalqlar, günahkar cəmiyyətlər! Əgər rüku halında qocalar, dua halında cavanlar, südəmər körpələr, ot-ələf yeyən dörd ayaqlılar olmasaydı günahlarınıza görə başınıza əzab elərdim;(٢) ey günahkarlar, əgər aranızda imanlı, mənim cəlalım vasitəsi ilə bir-birini dost tutan, namazı ilə məscidləri abad edən, mənim qorxumdan sübhlər tövbə qılan insanlar olmasaydı başınıza əzab elərdim."(٣)

Digər bir rəvayətdə həzrət Peyğəmbərin (s) dilindən belə nəql olunur: "Nə qədər ki, mö`min insan beş vaxt namaza əməl edir şeytan ondan qorxur. Elə ki, beş vaxt namaz zaya çıxarıldı, şeytan cür`ətlənir və insanı böyük günahlara sövq edir."(۴)

İmam Baqir (ə) buyurur: "Bəndədən hər şeydən öncə namaz istənilər. Namaz qəbul olunsa, digər əməllər də qəbul olar. Həqiqətən, namaz vaxtında qılınsa, yuxarı ucalıb nurani bir halda sahibinin yanına dönər və deyər: "Məni hifz etdin, Allah səni hifz etsin." Əgər namaz vaxtında qılınmasa yuxarı qalxıb sahibinin yanına zülmət halında dönər və deyər: "Məni zaya çıxardın, Allah səni zaya çıxarsın."(۵)



---

١- [١٣۴] Rəhmani Həmdani, "Fatimətəz-Zəhra", səh.٢٧.
٢- [١٣۵] Kəlimətullah, səh.٧۶.
٣- [١٣۶] Kəlimətullah, səh.۵۵٠.
۴- [١٣٧] Vəsailuş-şiə, ٣-cü cild, səh.١٨.
۵- [١٣٨] Üsuli-Kafi, ٣-cü cild, səh.٢۶٨.

Bir hədisdə imam Riza (ə) buyurur: “Namaz qılmayanın üzünə gülən kəs yeddi dəfə beytül-mə`muru viran qoymuş, yetmiş müqərrəb mələyi və böyük peyğəmbəri (s) qətlə yetirmiş kimidir.” Əbu Bəsir başqa bir hədisdə belə nəql edir: “İmam Sadiqin (ə) şəhadəti münasibəti ilə baş sağlığı vermək üçün Ümmü Həmidə ilə görüşdüm. O ağladı, məni də ağlatdı. Mənə dedi: “Əgər imamın (ə) şəhadəti vaxtı olsaydın, maraqlı bir səhnə görərdin. Həzrət (ə) dünyadan köçən məqamda gözlərini açdı və buyurdu: “Qohumluğu çatan hər bir kəsi çağırın.” Hamı çağırıldı. İmam (ə) gözünü onlara dikib buyurdu: “Namazı yüngül sayan bizim şəfaətimizə nail olmaz.”(۱) İmam Kazim (ə) başqa bir rəvayətdə Əbu Bəsirin dediklərini təsdiqləyir: “Atam həzrət Sadiq (ə) dünyasını dəyişən zaman buyurdu: “Oğlum, namazı yüngül sayan kəs həqiqətən, bizim şəfaətimizə çatmaz.”(۲) Həzrət Peyğəmbər (s) buyurur: “Vacib namazı qəzaya verən kəs Qiyamətdə mənim şəfaətimə nail olmaz.”(۳)

## Nəticə

Namaz fars sözü olub, (ərəbcə “səlat”) tə`zim nişanəsi olaraq baş əymək mə`nasını bildirir. Şübhəsiz ki, namazda öncə eşq hakim olmalı, sonra həmd-sənaya yer verilməlidir. Amma aşiq vaxt tanımır. Onun üçün beş vaxt tə`yin olunsa da o qalan vaxtlarda da mə`şuqu soraqlayır, Onun fikrində olur. Belə bir sual yaranır ki, aşiq öz eşqinin izharını tə`xirə sala bilərmi? Xacə



---

۱- [۱۳۹] İqabul-ə`mal, səh.۲۰۶.

۲- [۱۴۰] Vəsailuş-şiə, ۳-cü cild, səh.۱۵.

۳- [۱۴۱] Vəsailuş-şiə, ۴-cü cild, səh.۱۱۱.

"!?Abdullah Ənsari deyir: "Aşiq mə`şuqla söhbəti necə qəzaya verər

## ORUCUN TƏRKİ

### İŞARƏ

Həzrət Adəmdən (ə) hazırkı dövrədək bütün peyğəmbərlər və ümmətlər azca fərqlə oruc tutmaq göstərişi almış və buna əməl etmişlər.(١) Qur`ani-kərimdə də oruc tutmaq əmr edilir.(٢) Büluğ həddinə çatmış hər bir insana oruc tutmaq vacibdir. İnsan şərtlər ödəndiyi halda oruc tutmazsa günaha batar və cəzalandırılar. Orucun kimə vacib olduğunu, kimin öhdəsindən götürüldüyünü, hansı şərtlərə malik olduğunu .öyrənmək üçün əziz oxucular fəqihlərin risalələrinə müraciət etsinlər

Şiəlikdə oruc məzhəb üsullarından sayılır. İmam Baqirdən (ə) nəql olunmuş bir rəvayət bu dini vəzifənin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir: İslam beş əsas üzərində qurulub: Namaz, zəkat, oruc, həcc və vilayət (mə`sum imamlara tabeçilik)"(٣) Bu əsasla "Ürvətül-vüsqa"nın müəllifi belə fətva verir: "Ramazan ayında orucun vacibliyi (dini zərurətlərdəndir. Bunu inkar edən mürtəddir və qətli vacibdir."(۴

### a) Orucun tə`sirləri

Orucun bir çox tə`sir və faydaları vardır. Bu barədə həm İslam mənbələrində danışılır, :həm də nəzər sahibi olan alimlərin tövsiyələri var. Öncə İslam mənbələrini araşdırırıq



---

.Mərhum Təbərsi, "Cəvameul-came", ١-ci cild, səh.١٠٣ [١۴٢] -١
.Bəqərə surəsi, ayə ١٨٣ [١۴٣] -٢
.Vəsailuş-şiə, ٧-ci cild, səh.٢٨٩ [١۴۴] -٣
.Ürvətül-vüsqa, ٢-ci cild, səh.١۶۶ [١۴۵] -۴

### Təqva əldə edilməsi .۱

Mə`sumların dilində təqva dedikdə vacib əmrləri icra etmək, haramlardan çəkinmək nəzərdə tutulur. Yə`ni insan elə yaşamalıdır ki, günaha aludə olmasın. Oruc insanın daxilən paklaşmasına səbəb olur. Qəlb, göz, qulaq, dil və sair əzalar nəzarət altına alınır. Qur`ani-kərimdə orucun təqvaya böyük tə`siri olduğu qeyd edilir. Əgər orucun yeganə tə`siri bu olsaydı, yenə oruc tutmağa dəyərdi və insan böyük səmərə götürərdi. Çünki hazırkı dövrün bütün bədbəxtlik və faciələrinin səbəbi azğın nəfs istəklərinə nəzarət edilməməsi, Allahdan uzaqlıqdır. Oruc tutub təqva əldə etməklə :nəfs istəkləri nəzarətə alınır, insan Allaha yaxınlaşır. Şair deyir

Bir müddət təamdan çəkinsən əgər

.Qəlbində mə`rifət nuru görünər

### Səbirli olmaq .۲

İslamda səbr üç qismə bölünür: Müsibətlər qarşısında səbr, günahlar qarşısında səbr, ibadətdə səbr. İslam dünya görüşündə qarşıya çıxan çətinliklərə səbrlə yanaşmaq, günahdan uzaqlığın çətinliklərinə dözməyin böyük mükafatı var. Oruc tutmaq ibadətdir və bu ibadət aclıq, susuzluq, çətinliklərlə müşayiət olunur. Amma bu çətinliklərə dözən insan böyük səmərə əldə edir. İmam Sadiq (ə) "səbr və namazla kömək diləyin" ayəsi haqqında buyurur: "Həyatda çətinliklərlə rastlaşdıqda oruc tutun. Çünki Allah səbr və namazla yardım diləməyinizi əmr etmişdir." Hədisdən aydın olur ki, səbr dedikdə oruc nəzərdə tutulur. Digər bir tərəfdən, oruc insanı səbirli edir, .problemləri aradan qaldırır

## Sağlamlıq əldə etmək .۳

(Həzrət Peyğəmbər (s) buyurur: “Oruc tutun ki, sağlam olasınız.”(۱

Həzrətin (s) buyuruğu sağlamlığın dəyərini göstərir. İnsanlara tövsiyə olunur ki, oruc tutmaqla sağlamlıqlarını qorusunlar. Çünki bir çox xəstəliklərin və narahatlıqların (qaynağı qarınquluğuluqdur.(۲

İslamdan neçə əsrlər sonra Amerika və Avropa alimləri orucun bir çox xəstəlikləri aradan qaldırdığını bildirmişlər. Aşağıdakı xəstəliklər bu qəbildəndir: Qan təzyiqinin yüksəlməsi, ateroskleroz, limfa vəzilərinin tutulması, astma, angina, qan xərçəngi, əsəb xəstəlikləri, metabolizm orqanlarının xəstəliyi, qara ciyər xəstəlikləri, xroniki qəbizlik, badamcıq vəzisinin xroniki vərəmi, zökəm, nəfəs borusunun zökəmi, böyrək və sidik kisəsi ağrıları, qadın xəstəlikləri, ekzema, çiban, örə, göz xəstəlikləri, xroniki baş ağrıları, ruh düşgünlüyü, cinsi zəiflik, həyəcan, vəsvəsə, əlacsız xəstəliklər, o .cümlədən ilkin dövrdə xərçəng xəstəliyi

## Ehsan ruhiyyəsinin güclənməsi .۴

Əziz Peyğəmbər (s) yoxsullara ehsanı orucun fəlsəfələrindən biri kimi təqdim edir.(۳) Aydın məsələdir ki, oruc tutan insan acların dərdinə şərik olur. Beləcə, bu ilahi ibadət insandakı mərhəmət hisslərini oyadır, onu ehsana sövq edir. İmam Sadiq (ə) bu barədə buyurur: “Allah orucu vacib edib ki, varlı ilə kasıb arasında



---

.Vəsailuş-şiə, ۷-ci cild, səh.۲۹۸ [۱۴۶] -۱

.Səfinə, beyt maddəsi [۱۴۷] -۲

.Bihar, ۹۳-cü cild, səh.۲۴۵ [۱۴۸] -۳

bərabərlik yaransın. Bu yolla varlı insan acın dərdinə şərik olur, ona mərhəmət göstərir. Varlının hər vaxt istədiyini almağa gücü çatır. Allah oruc vasitəsi ilə bəndələri arasında bərabərlik yaratmaq istəmişdir. Varlı şəxs oruc tutmaqla yoxsulların aclıq və susuzluq dərdini duyur, zəif bəndələrə mərhəmət və yardım göstərir."(۱)

### ۵. Dünya bəlaları və axirət əzabı qarşısında sipər

İnsanlar istisnasız olaraq maddi çətinlik və axirət qayğılarından əziyyət çəkirlər. Onlar bu əziyyəti müəyyən qədər yüngülləşdirmək üçün daim axtarışdadırlar. İmam Sadiq (ə) orucu dünya bəlaları və axirət əzabına sipər kimi tanıtdırır: "Oruc dünya bəlaları qarşısında sipər, axirət əzabı qarşısında pərdədir. Oruc olduğun vaxt niyyət et ki, oruc vasitəsi ilə nəfsini qeyri-şər`i istəklərdən qoruyasan. Şeytan qarşısında təlaşlarına son qoy. Özünü heç nəyə iştahası olmayan xəstə kimi apar. Bu xəstə hər an oruc vasitəsi ilə günahlardan ibarət olan batini xəstəliklərindən qurtulmaq intizarındadır. Buna görə də qəlbini istənilən növ çirkab, qəflət və Allaha diqqətə mane olan zülmətdən pak saxla."(۲)

### ۶. Yəqin halının güclənməsi

İnsanın mühüm problemlərindən biri dünyəvi, xüsusi ilə mə`nəvi məsələlərdə yaranan şəkk-şübhədir. Əgər insan müəyyən məsələyə münasibətdə əminlik əldə



---

۱- [۱۴۹] Muhəccətul-bəyza, ۲-ci cild, səh.۱۲۴.

۲- [۱۵۰] Bihar, ۹۳-cü cild, səh.۲۵۴.

etsə, iztirablarına son qoyular. Əziz Peyğəmbərimiz (s) yəqin halını orucun səmərələrindən biri kimi tanıtdırır. Allah-təala ilə Peyğəmbər (s) arasında belə bir sual-cavab olur: "Həzrət Peyğəmbər (s) soruşdu: "Pərvərdigara, orucun nə faydası var?" Allah-təala buyurdu: "Oruc hikmətə səbəb olur. (Hikmət dedikdə varlıq aləminin sirləri və İslamın nurani hökmləri ilə tanışlıq nəzərdə tutulub) Hikmət mə`rifətə, insanın Allahı tanımasına gətirər. Allah-təalanı tanımaq Ona və axirət aləminə yəqinliklə nəticələnər. İnsan yəqin mərhələsinə çatdıqdan sonra dünya həyatının rahat və ya (çətin olması onu narahat etməz."(١)

**Ruhi, psixoloji aramlığın yaranması .٧**

Yer üzündə özünü narahat hiss edən insanlar saysız-hesabsızdır. Onlar daim pərişan və qəmgin olur. Amma bu pərişanlığın səbəbini anlamırlar. Bütün yaşayış imkanına .malik olmalarına baxmayaraq, hüzn onların qəlbinə hakimdir

Fəxr Razi öz məşhur təfsirində "Rə`d" surəsinin ٢٨-ci ayəsi haqqında danışarkən deyir: "İnsan qəlbi maddi və qeyri-maddi aləmlərə diqqət kimi iki ziddiyyətli hal yaşayır. Dünyəvi məsələlər onu iztiraba salır. Mə`nəviyyat haqqında düşündükdə isə aramlıq əldə edir."(٢) Oruc mahiyyətcə təbiət üstü aləmə diqqətdir. Bu diqqət insan qəlbində aramlıq yaradır. Rəvayətlərdə oxuyuruq ki, Peyğəmbər (s) narahat olduğu vaxt oruc (tutar, namaz qılardı.(٣



---

.Mizanul-hikmət, ٥-ci cild, səh.٦٧٥ [١٥١] -١

.Təfsiri-Kəbir, ١٩-cu cild, səh.٥١ [١٥٢] -٢

.Məcmueyi-Vərram, ١-ci cild, səh.٣٠٣ [١٥٣] -٣

(İmam Sadiq (ə) da şiələrinə bu qəbildən tövsiyələr verir.(١

**Şeytanı qovma vasitəsi .٨**

Şeytan insanla düşmənçiliyə and içmiş yağıdır. Yalnız mə`nəviyyata üz tutmaqla ondan yaxa qurtarmaq olar. Oruc şeytanı insandan uzaqlaşdıran saleh əməllərdəndir. Həzrət Peyğəmbər (s) səhabələrinə bu barədə buyurur: "İstəyirsinizmi sizi məşriqlə məğrib arası qədər şeytandan uzaqlaşdıracaq bir işdən danışım?" Səhabələr dedilər: "Bəli." Həzrət (s) buyurdu: "Oruc şeytanın üzünü qaraldır, sədəqə onun belini qırır. Allaha xatir məhəbbət, saleh əmələ diqqət onu əzir. Tövbə və bağışlanma istəyi (şeytanın şah damarını qırır. Hər şeyin zəkatı var, bədənin zəkatı isə orucdur."(٢

**Axirət ne`mətlərinə çatmaq .٩**

Orucun dünyəvi faydalarla yanaşı, axirət mükafatları da var: İlahi ne`mətlər qazanmaq, əbədi rahatlığa çatmaq, cəhənnəm odu qarşısında sipər əldə etmək, asan can vermək, Qiyamət aclığı və susuzluğundan xilas olmaq, cəhənnəm odundan bəraət almaq, qızıl süfrələrdə behişt ne`mətlərindən istifadə, behiştə xüsusi "rəyyan" (qapısından daxil olmaq, Qiyamətdən öncə behişt ne`mətlərindən istifadə.(٣

Məgər oruc sayəsində yuxarıdakı faydaları əldə etmək yaxşı olmazmı?! Mənfəət məqsədi ilə oruc tutan insan bu qədər fayda əldə edirsə, Allah eşqinə oruc tutan



---

١- [١٥۴] Vəsailuş-şiə, ١٠-cu cild, hədis ١٣٧١۶.

٢- [١۵۵] Bihar, ٩٢-ci cild, səh.٢۴۶, ٢۵۶.

٣- [١۵۶] Mən la yəhzuruhul-fəqih, ٢-ci cild, səh.٢۴۴.

.insanın necə mükafatlandırılacağından danışmağa dəyməz

### Günahların yuyulma vasitəsi .۱۰

İnsanlar adətən şeytanı vəsvəsələri səbəbindən günaha batır. Onlardan bə`ziləri günahlarını yumaq fikrinə düşür. Bə`ziləri isə ömürlərinin sonunadək özlərini elə aparırlar ki, sanki zərrəcə günaha yol verməmişlər. İslamda günahları yumaq vasitələrindən biri də orucdur. Günahını yumaq fikrində olan insan mübarək ramazan ayının bərəkətindən faydalanaraq günahlarını yuya bilər. "Məcməul-kəbir" kitabının müəllifi Təbərani həzrət Peyğəmbər (s) haqqında bir əhvalat nəql edir: Girami Peyğəmbər (s) ilk dəfə minbərə qalxdığı gün hər pilləyə ayağını qoyanda "amin" söylədi. Sanki kimsə dua edir, Peyğəmbər (s) isə amin deyirdi. Xütbə başa çatdıqdan sonra səhabələr bunun səbəbini soruşdular. Həzrət Peyğəmbər (s) buyurdu: "Birinci pilləyə qədəm qoyanda Cəbrail nazil oldu. İkinci və üçüncü pilləyə qədəm qoyanda o mənim yanımda dayanmışdı və belə dua edirdi: "Uzaq olsun Allahın rəhmətindən ağvalideyn insan, uzaq olsun Allahın rəhmətindən , ya Peyğəmbər (s), sənin adın çəkiləndə salavat deməyən, uzaq olsun Allahın rəhmətindən ramazan ayını ötürüb bağışlanmayan kəs." Mən də hər duadan sonra amin dedim."(۱)

Digər bir rəvayətdə həzrət Peyğəmbər (s) buyurur: "Mübarək ramazan ayında oruc tutan, namaz qılan, Kə`bə evini ziyarət edən insanı bağışlamağı Allah öhdəsinə götürmüşdür. Bu şəxs istər Allah yolunda



---

.Əl-Mə`cəmul-kəbir, ۱۲-ci cild, səh.۸۴ [۱۵۷] -۱

mühacirət etmiş olsun, istər dünyaya göz açdığı yerdə məskunlaşsın!"(۱) Başqa bir rəvayətdə də həzrət Peyğəmbər (s) tövbə etmiş günahkarlara böyük bir müjdə verir: "Mübarək ramazan ayının bir gününün orucu insanı anadan olmuş kimi günahlardan təmizləyər. Mübarək ay başa çatdıqda həmin şəxs diri qalsa növbəti ilədək ona günah yazılmaz."(۲)

Bildiyimiz kimi, müqərrəb (Allaha yaxın) mələklərin duası daha tez qəbul olur. Mehriban Allah öz lütfü ilə bəndələrini bağışlamaq istədiyindən bu mələklərə əmr etmişdir ki, oruc tutan bəndələr üçün bağışlanma diləsinlər. İmam Baqir (ə) bu barədə buyurur: "Allah-təalanın oruc tutanlara təhkim olunmuş mələkləri var. Bu mələklər ramazan ayının hər günü oruc tutanlar üçün bağışlanma diləyir, axşam iftar vaxtı isə belə nida edirlər: "Ey Allah bəndələri, müjdə olsun sizə, bir qədər ac qaldınız, tezliklə doyarsınız. Siz özünüz də bərəkətlisiniz, işiniz də. Ramazan ayının son gecəsi çatdıqda mələklər oruc tutanlara deyər: "Siz, Allah bəndələrinə müjdə olsun! Allah sizin günahlarınızı bağışladı, tövbələrinizi qəbul etdi. Gələn günlərinizdə diqqətli olun."(۳)

İmam Riza (ə) uyğun mövzu ilə bağlı buyurur: "Allahın oruc tutan kişi və qadınlara təhkim olunmuş mələkləri var. Bu mələklər oruc tutanları öz qanadları ilə sığallayar, günahlarını tökərlər. Allahın oruc tutanlara dua etmək tapşırığı almış mələkləri var. Onların duasının sayını Allahdan savayı kimsə bilməz."(۴)



---

۱- [۱۵۸] Kənzul-ummal, ۱۵-ci cild, səh.۸۲۸.

۲- [۱۵۹] Camei əhadisul-şiə, ۹-cu cild, səh.۱۰۵.

۳- [۱۶۰] Vəsail, ۱۰-cu cild, səh.۲۴۵.

۴- [۱۶۱] Vəsail, ۱۰-cu cild, səh.۴۰۵.

## Duaların qəbul olması .۱۱

Hər iş üçün münasib vaxt var və işi öz vaxtında görmək daha çox səmərə verir. Dua üçün də münasib vaxtlar var. Dua üçün münasib vaxtlardan biri orucluqdur. İmam Kazim (ə) bu barədə buyurur: “Oruc tutanın duası iftar zamanı qəbul olar.”(۱) Digər bir rəvayətdə imam Sadiq (ə) buyurur: “Oruc tutanın yuxusu ibadət, sakit dayanışı təsbih ((zikr), duası qəbuldur.”(۲

İndi isə orucu tərk etməyin zərərləri haqqında danışaq. Uyğun mövzuda mə`sumlardan xeyli rəvayətlər nəql olunmuşdur. Onlardan bə`zilərini nəzərdən :keçirək

b) Orucu tərk etməyin tə`sirləri

İman ruhunun itirilməsi .۱

Mö`mini başqalarından üstün edən onun imanıdır. Əgər mö`mindən imanı alınsa ona başqa heç nə kömək edə bilməz. İmam Sadiq (ə) buyurur: “Mübarək ramazan ayının bir gününü oruc tutmayan insandan iman ruhu xaric olar.”(۳) Digər bir rəvayətdə (buyurulur: “Mübarək ramazan ayı bir gün oruc tutmayan insan imanını əldən verər.”(۴

Bütün orucların puça çıxması .۲

İnsan ramazan ayı üzrü olmadan bir gün orucu tərk edərsə, bu zərəri onun bir ömür tutduğu oruclar aradan səh:۹۶

---

.Muhəccətul-bəyza, ۲-ci cild, səh.۱۲۴ [۱۶۲] -۱

.Səfinə, ۲-ci cild, səh.۶۴ [۱۶۳] -۲

.İqabul-ə`mal, səh.۵۳۴ [۱۶۴] -۳

.Həmin mənbə [۱۶۵] -۴

qaldıra bilməz. Həqiqətən də, bə`zi zərərləri aradan qaldırmaq olur. Tərk olunmuş orucun zərərini isə aradan qaldırmaq mümkünsüzdür. Həzrət Peyğəmbər (s) bu barədə buyurur: “Mübarək ramazan ayı üzürsüz səbəbdən bir günün orucunu tərk edən insanın düşdüyü zərəri bir ömürün qəzası aradan qaldırmaz.”(١)

.Üç dəfə vacib orucu tərk etmiş insanı e`dam gözləyir .٣

İmam Sadiq (ə) buyurur: “Hər kəs mübarək ramazan ayında orucunu yesə və onun bu işi imama çatdırılsa, bu iş üç dəfə təkrarlandığı təqdirdə həmin şəxsi e`dam gözləyir.”(٢)

## Nəticə

Fürui-din (əməli hökmlər) ünvanı ilə bəyan olunan bir çox hökmlər insanın fiziki və mə`nəvi sağlamlığına tə`sir göstərir. Namaz, cihad, həcc uyğun hökmlərə nümunə ola bilər. İnsan üçün faydalı hökmlərə oruc ən aşkar nümunədir. Orucun həm cismə, həm də ruha faydaları var. Oruc vaxtı cism sanki oyanır, öz dərinliyinə nəzər salır və bu yolla ruh yuxarı ucalır. Ruh vüsal pillələri ilə qalxdıqca cismdə yeni bir həyat üçün şövq .yaranır



---

.Müstərəf, ١-ci cild, səh.١١ [١۶۶]-١

.Camei əhadisul-şiə, ٩-cu cild, səh.١١ [١۶٧]-٢

## CİHADIN TƏRKİ VƏ ONUN TƏ`SİRLƏRİ

### İŞARƏ

Şiəlikdə məzhəb üsullarından sayılan dini vacibatlardan biri cihad, yəni Allah yolunda savaşdır. Bu savaşda məqsəd haqq ayinlərin kafirlərə qəbul etdirilməsi, İslam hakimiyyətinin bərpasıdır. Qur`ani-məcid bir çox ayələrdə cihadı ən həyati bir prinsip kimi önə çəkir. "Ənfal" surəsində isə cihadın fitnə aradan qalxıb, İslam hakimiyyəti bərpa olanadək davam etdirilməsi zəruri sayılır: "Ey mö`minlər, kafirlərlə cihad edin ki, yer üzündə fitnə-fəsad qalmasın, Allah dininin bütün ayinləri bərpa olsun. Əgər küfrlərindən əl çəksələr, Allah onların əməllərindən xəbərdardır və görür."(١)

İslamda heç bir əməl cihad və Allah yolunda şəhadət kimi dəyərli sayılmamışdır. Cihad ən böyük dəyərə malikdir və Allah yanında ən uca məqamdır. Qur`an buyurur: "İman gətirib vətənlərindən hicrət edən, malları və canları ilə Allah yolunda vuruşan kəslər üçün Allah yanında uca məqam var. Onlar aləmin nicat tapmışları və xoşbəxtləridir."(٢)

İslam Peyğəmbəri (s) də uyğun Qur`an baxışı əsasında buyurur: "Sizlərdən birinin bir gün Allah yolunda (dinin hifzi üçün) dayanması öz evində yetmiş il namaz qılmasından üstündür. Bir gün Allah yolunda (savaşda) olmaq adi min gündən üstündür."(٣) Həzrət (s) digər bir rəvayətdə buyurur: "Allah yolunda vuruşanlar gecəni oyaq qalıb namazda qunut halında dayananlar və oruc tutanlar kimidir. Onlar evinə dönənədək bu



---

١- Ənfal surəsi, ayə ٣٩.

٢- [١۶٩] Tövbə surəsi, ayə ٢٠.

٣- [١٧٠] Mustədrəkul-vəsail, ٢-ci cild, səh.٢۴۴.

məqamdadırlar."(۱) Həzrət (s) cihadın fəzilətini bəyan edərkən buyurur: "Allah yolunda (savaş mənim üçün qırx həccdən əzizdir."(۲)

Şübhəsiz, Allah yolunda cihad və şəhadətin fəziləti bəyana sığmır. Bununla belə şəhadət aşiqlərini bu fəzilətlə tanış etmək üçün həzrət Peyğəmbərin (s) bir buyuruğunu nəzərdən keçirək: "Şəhidə Allah tərəfindən yeddi xislət əta olunar: İlk damla qanı yerə düşən kimi günahları bağışlanar; iki huri onun başını dizi üstünə alar, üzünün tozunu təmizləyər, ona «xoş gəldin» deyər və o da hurilərə cavab verər; ona behişt libasları geyindirilər; behişt xəzinədarları tələsərlər ki, şəhid onların xoş ətrini duysun; ona mənzili göstərilər; ruhuna deyilər ki, behiştdə istədiyin yeri seç, istədiyindən dad; haqqın çöhrəsini seyr edər. Haqqın camalını görmək hər peyğəmbər (və hər şəhidə müyəssər olar."(۳)

Cihad və şəhadət aşiqi olan həzrət Əli (ə) bu barədə buyurur: "Həqiqətən, Allah yolunda cihad behişt qapılarından biridir. Allah bu qapını öz dostlarının üzünə açmışdır. Cihad təqva libası, möhkəm zireh və e`tibarlı sipərdir. Allah cihadı xoşlamayıb tərk edən insana zillət libası geyindirər, onu bəla və müsibətə düçar edər, alçaldar. Onun qəlbi azğınlıq pərdəsi altındadır və haqq ondan üz çevirər; cihadı tərk etdiyindən .ədalətdən məhrum, zəlalətə məhkumdur

Agah olun! Mən gecə-gündüz, xəlvətdə və aşkarda sizi şamlılarla mübarizəyə çağırdım. Dedim ki, onlar sizinlə savaşa qalxmamış siz onlarla vuruşun. And olsun



---

.Həmin mənbə, səh.۲۴۳ [۱۷۱] -۱

.Kənzul-ummal, ۴-cü cild, səh.۳۰۴ [۱۷۲] -۲

.Rovzətul-vaizin", ۲-ci cild, səh.۴۲۴ [۱۷۳] -۳

Allaha! Evinin içinə hücum olunan hər bir millət zəlil olacaq. Amma siz süstlük göstərdiniz, zilləti qəbul etdiniz. Nəhayət, düşmən sizə ardıcıl hücuma keçdi, torpaqlarınızı işğal etdi. İndi Müaviyənin sərkərdəsi öz qoşunu ilə şəhərə daxil olub, mənim valim Həssan ibn Həssan Bəkri öldürüb, sizin döyüşçülərinizi sərhəd mövqeyindən çıxarıb. Mənə xəbər çatıb ki, İslam qoşunundan bir kişi bir müsəlman və bir qeyri-müsəlman qadının evinə daxil olub, boyunbağısını, qolbağını, sırğalarını qarət edib. Onların göz yaşı və yalvarışdan başqa müdafiəsi yoxdur. Şam qoşunu böyük bir qənimətlə gedib. Onlardan bir nəfəri belə yaralanmayıb, bir damla qanı yerə düşməyib. Bu hadisənin acılığından bir müsəlmanı təəssüf öldürsə qınanmaz. Mənim nəzərimcə bu daha layiqdir! Heyrət, heyrət! And olsun Allaha! Bu hadisə insanın qəlbini parçalayır, qəm-qüssəyə bələyir. Şamlılar öz batil işlərində yekdildir, siz öz haqq işinizdə pərakəndəsiniz. Üzünüz qara olsun, qəmdən qurtulmayasınız, bəla oxlarına !tuş gəldiniz

Sizə hücum edirlər, siz durub baxırsınız?! Sizinlə savaşırlar, siz savaşmırsınız?! Allaha qarşı bu sayaq günah edilir, siz razılaşırsınız?! Yayda düşmənə doğru hücum əmri veriləndə deyirsiniz ki, istidir, möhlət ver isti ötüşsün. Qışda hücum əmri veriləndə deyirsiniz ki, hava soyuqdur, qoy soyuq ötüşsün. Bütün bu bəhanələr soyuqdan və istidən qaçmaq üçün idi. Bir halda ki, istidən və soyuqdan qaçırsınız, and olsun Allaha, (qılıncdan daha tez qaçarsınız!"(١

səh:١٠٠

---

.Nəhcül-bəlağə, ٢٧-ci xütbə [١٧۴] -١

## CİHADIN DÜNYƏVİ TƏ`SİRLƏRİ

Həzrət Peyğəmbərin (s) və həzrət Əlinin (ə) buyuruqlarından cihadın axirət savabları :mə`lum oldu. İndi isə cihadın dünyəvi tə`sirlərini nəzərdən keçirək

;Cihadı tərk edənə Allah zillət libası geyindirər-

;Cihadı tərk edən bəla və müsibətə düçar olar-

;Cihadı tərk edən zəlil olar-

.Cihadı tərk edən alçalar-

Bir rəvayətdə həzrət Peyğəmbər (s) qətiyyətlə buyurur: "Allah Onun yolunda savaşa qalxmayanı, döyüş vasitəsi hazırlamayanı, döyüşçünün ailəsindən muğayət olmayanı (axirətdən öncə iztirab və müsibətə düçar edər."(۱

Bə`zi rəvayətlərdə cihadın dünyəvi faydalarından danışılmışdır. Onlardan bə`zilərini :nəzərdən keçirək

Sağlamlıq - Həzrət Peyğəmbər (s) buyurur: "Cihada əməl edin, Allah yolunda .۱ (savaşın. Belə etsəniz, sağlam və ehtiyacsız olacaqsınız."(۲

Qəm-qüssədən qurtuluş –Həzrət Peyğəmbər (s) buyurur: "Allah yolunda yaxında və uzaqda, yerinizdə və səfərdə vuruşun. Çünki cihad behişt qapılarından biridir. Cihad (mücahidi qəm-qüssədən xilas edir."(۳

Cihad, onun fəziləti, dünya və axirət təsirləri ilə tanış olduqdan sonra kimlərə cihad .vacib olduğunu və cihadın qismlərini aydınlaşdıraq

Bu ilahi vəzifə başqa vəzifələrdən fərqli olaraq yalnız kişilərə vacibdir. Savaş zamanı ,hər bir müsəlman savaşa qatılmalıdır. Savaşdan çəkinənlər günaha batır

səh:۱۰۱

---

.Riyazus-salihin, səh.۵۱۵ [۱۷۵] -۱

.Kənzul-ummal, ۴-cü cild, səh.۲۸۵ [۱۷۶] -۲

.Mustədrəkul-vəsail, ٢-ci cild, səh.٢۴۵ [١٧٧] -٣

Qiyamətdə cəzalandırılır. Cihadı tərk etməyin (yuxarıda qeyd etdiyimiz kimi) bu .dünyada da tə`sirləri var

## CİHADIN QİSMLƏRİ

:Cihadı beş qismə bölmək olar

Kafirlərə tövhidi qəbul etdirmək üçün ibtidai cihad (allahpərəstliyin, ədalətli ictimai .١ quruluşun bərqərarı, İslamın bərqərarı, məzlumlar və məhrumların zülm-sitəmdən (qurtuluşu, fitnə-fəsadın aradan qaldırılması, haqpərəstlik

Bizim dövrümüzdə mümkün olmayan, mə`sum imamların icazəsi ilə şərtlənmiş .٢ ;cihad

Müsəlmanları öldürmək və ya qarət etmək məqsədi ilə hücum edən kafirlərlə savaş; .٣ ;onların məqsədi İslamın kökünü kəsmək olur

Müsəlmanları öldürmək, onların malını qarət etmək üçün hücum edən kafirlərlə .۴ ;cihad; bu cihadda kafirlərin İslamı məhv etmək məqsədi olmur

Canın, malın və namusun müdafiəsi üçün savaş; bu savaşda məqsəd İslam .۵ torpaqlarını, müsəlmanların can və malını düşməndən qorumaqdır. Bu savaş yalnız düşmənin hücumundan sonra baş verir və siz malınızı, canınızı, namusunuzu, şərəfinizi .qorumaq üçün düşmənlə savaşa qalxmalısınız

.Şiə fiqhində cihad formalarından biri difadır (müdafiə savaşıdır). Difa özü də iki növdür

İslam sərhədlərinin müdafiəsi .١

Müsəlman şəhərləri və sərhədləri düşmənin hücumuna mə`ruz qalarsa, bütün .١ yetkin müsəlmanlara mümkün vasitələrlə müdafiəyə qalxmaq vacibdir. Bu müdafiə savaşında mə`sum imamın (ə) varlığına, ondan və ya onun naibindən icazəyə ehtiyac .yoxdur

Yadellilərin hücum planları ilə bağlı qorxu olsa, İslam torpaqlarını təhlükə hədələsə .۲
.bütün müsəlmanlar mövcud vasitələrlə müdafiəyə qalxmalıdırlar

Yadlar İslam məmləkəti daxilində muzdurlar vasitəsi ilə təxribatlar törədib hakim .۳
olmaq istəsələr, bütün müsəlmanlara vacibdir ki, mövcud vasitələrlə həmin planları
.puça çıxarsınlar, düşmənin nüfuzuna yol verməsinlər

İslam məmləkətlərində belə bir qorxu yarana bilər ki, düşmən siyasi və iqtisadi .۴
təzyiqlərlə İslam və müsəlmanları zəiflədə bilər. Bu vaxt dövlət və millətə vacibdir ki,
oxşar vasitələrlə müdafiə olunub, məsələn, yadlarla iqtisadi münasibətlərə
.məhdudiyyət qoysunlar, onların məhsullarından istifadə etməsinlər

Yadlarla iqtisadi və digər münasibətlər müsəlmanları siyasi cəhətdən asılı edərsə, .۵
.bütün müsəlmanlara vacibdir ki, bu münasibətlərdən çəkinsinlər

İslam dövlətləri ilə yadlar arasındakı siyasi əlaqələr İslam və müsəlmanlara zərərli .۶
olarsa, məs`ulların onlarla əlaqə qurması haramdır, bağlanan müqavilələr etibarsızdır.
.Uyğun əlaqələri qırmaq bütün müsəlmanlara vacibdir

Yad bir dövlət İslam məmləkətinə hücum etdikdə bütün İslam dövlətləri mümkün .۷
.vasitələrlə müdafiəyə qalxmalıdır

Bir müsəlman dövləti yadlarla digər müsəlman dövlətlərinin zərərinə müqavilə .۸
bağlayarsa, həmin müsəlman dövlətləri uyğun müqaviləni ləğv etməyə çalışmalı,
.mübarizə aparmalıdırlar. Bu sayaq müqavilələr İslam baxımından haram və batildir

səh:۱۰۳

۹. Dövlət məs`ullarından və ya deputatlardan hər hansı biri əcnəbilərin nüfuzunun artmasına xidmət edərsə, həmin şəxs xaindir və tutduğu məqamdan uzaqlaşdırılmalıdır. Dövlət üçün yaratdığı təhlükədən asılı olaraq, həmin şəxs cəzalandırılmalıdır.

۱۰. Müsəlman dövlətində yaşayan tacirlər yad tacirlərlə öz dövlətlərinin zərərinə müqavilələr bağlayarsa, bu müqavilələr ləğv olunmalı, ticarət dayandırılmalıdır. Din başçıları dövlətin müstəqilliyinə və inkişafına zidd xarici məhsullara qadağa qoymalı, ümmət həmin mallardan istifadə etməməlidir.

۲. Can, mal və namusun müdafiəsi

۱. Şübhəsiz ki, hər bir insanın ona hücum edən düşməndən müdafiə olunmaq haqqı var.

۲. Əgər oğru və ya təcavüzkar bir şəxs evdə və ya evdən kənarda insana hücum edərsə, hücuma mə`ruz qalan şəxs istənilən bir vasitə ilə özünü müdafiə etməlidir. Bu şəxs təslim ola bilməz və təcavüzkarı öldürərsə cəzalandırılmaz.

۳. Əgər bir şəxsin övladlarına, ata-anasına, qardaş-bacısına və ya xidmətçilərinə hücum olunarsa o müdafiəyə qalxıb təcavüzün qarşısını almalıdır və bu halda təcavüzkar öldürülsə müdafiə olunan müqəssir deyil.

۴. Əgər təcavüzkar bir şəxs insanın ailəsinə hücum edərsə, o istənilən bir vasitə ilə zərərsizləşdirilməlidir. Müdafiə zamanı təcavüzkar öldürülsə, müdafiə olunan tərəf günahkar deyil.

۵. Əgər təcavüzkar bir şəxs insanın mülkünə, var-dövlətinə hücum edərsə müdafiə olunmaq vacibdir və

.müdafiə zamanı təcavüzkar öldürülərsə, müdafiə olunan şəxs məs`uliyyət daşımır

Əgər düşmən bir şəxsi və ya onun ailəsini öldürmək üçün hücum çəksə (və ya onun .۶ namusuna toxunmaq istəsə) onun qarşısında dayanması vacibdir. Belə bir müdafiə təcavüzə mə`ruz qalan tərəfin ölümü ilə nəticələnsə belə vacibdir. Amma mala .təcavüz olunan vaxt qətl ehtimalı olsa, maldan əl çəkmək lazımdır

Əgər bir şəxsə onu öldürmək və ya namusuna toxunmaq üçün hücum olunsa o .۷ düşmənlə vuruşmalıdır. Bu vuruş faydasız olsa belə təslim olmağa icazə verilmir. Mal (üçün təhlükə yarandıqda isə savaş vacib deyil, ehtiyat budur ki, maldan əl çəkilsin.(۱

## NƏTİCƏ

Bir sözlə, cihad batin və xarici pak saxlamaq üçün aparılan savaşdır. Əgər müsəlman İslam sərhəddini və ya öz imanını qorumaq üçün təhlükəyə atılarsa zahiri və ümumi qiyama qalxmışdır. Cismini və ruhunu pak saxlamaq üçün təlaş göstərən insan isə batini və xüsusi cihad aparır. İstənilən bir halda cihad e`tiqadın keşiyində dayanmaqdır. Bu mə`nada cihadsız İslam, yə`ni e`tiqadla kifayətlənmək həqiqi dinin .tələblərinə müvafiq deyil

,Ərlər savaşından uzaq dayansan

.Puç görünər doğru yolda axan qan

,Rahatlıq sevənlər cihaddan uzaq

.Sülh isə yaranır cihadla ancaq



---

.İmam Rahil, “Təhrirul-vəsilə”, ۱-ci cild, səh.۴۸۵, ۴۹۲ [۱۷۸] -۱

Bəli, cihad yuxa qəlblilik, aramlıq, xoş güzəran tanımır. Pak e`tiqadlı qəhrəmanlar Allah !yolunda heç vaxt canını əsirgəmir

## HƏCCİN TƏRKİ

Ali-İmran" surəsinin ۹۷-ci ayəsinə əsasən, gücü ("istitaət") çatanlar ömürlərində bir" dəfə Allah evini ziyarət etməlidir. Gücü çatdığı halda vacib həcdən boyun qaçıran insan günaha batır və onun cəzası var. Nəzərdə tutulan gücün ("istitaət") nədən ibarət .olması təqlid mərcələrinin risalələrində bəyan olunmuşdur

Şiəlikdə həcc məzhəb üsullarından sayılmışdır. Onun nə dərəcədə vacib olduğunu həzrət Peyğəmbərdən (s) nəql olunmuş bir rəvayət yetərincə aydınlaşdırır: "Rəvayətin mətni belədir: "Vacib həcci yerinə yetirməyib ölən insan yəhudi və məsihi kimidir."(۱) Buna əsaslanan imam Rahil belə bir fətva vermişdir: "Həcc dinin sütunlarındandır və onun zəruri əməllərindən sayılır. Həccin vacibliyini bilərək onu tərk etmək kəbirə günahlardandır, onun inkarı küfrə səbəb olur."(۲) Həccin fəlsəfə və sirləri, dünya və axirət təsirləri haqda nə qədər deyilsə başa çatmaz. Amma onun tə`sirləri ilə bir qədər .tanış olmaq üçün mə`sumların buyuruqlarına müraciət edirik



---

.Muhəccətul-bəyza, ۲-ci cild, səh.۱۴۵ [۱۷۹]-۱

.Həcc ayinləri, səh.۱۵ [۱۸۰]-۲

## HƏCCİN FƏLSƏFƏ VƏ SİRLƏRİ HAQQINDA HƏZRƏT ƏLİNİN (Ə) BUYURUQLARI

İslam tarixinin böyük insanı, şiələrin ilk imamı həzrət Əli (ə) həccin fəlsəfəsini belə bəyan edir: “Allah öz möhtərəm evinin həccini sizə vacib etdi. Allah aşiqləri insanlar üçün qiblə seçilmiş bu evə can atar, göyərçin tək ona sığınarlar. Allah-təala Kə`bəni öz əzəməti qarşısında bəndələrin təvazö məkanı, ilahi qüdrətin e`tiraf nişanəsi qərar verdi. İnsanlar arasında eşidən bəndələr seçdi ki, Onun də`vətini qəbul edib, sözünü təsdiqləsinlər və ilahi peyğəmbərlərin məkanına qədəm qoysunlar. Onlar ilahi ərş ətrafında mələklər tək təvaf edərlər. Onlar bu ibadətgahda və ziyarətçilərin müamilə məhəllində böyük faydalar əldə edər, ilahi bağışlanma yerinə tələsərlər. Allah-təala Kə`bəni İslam üçün aydın nişanə, pənah axtaranlar üçün əmin-aman ev qərar verdi. Onun haqqının ədasını vacib etdi, Allah evinin həccini vacib buyurdu və siz insanlar üçün müəyyənləşdirdi ki, onun ziyarətinə gedəsiniz. Allah-təala buyurdu: “Allah evinə getməyə gücü çatan kəsə həcc vacibdir. Kim inkar etsə, (bilsin ki) Allah aləmlərdən (ehtiyacsızdir.”(١)

Həzrət Əli (ə) digər bir xütbədə buyurur: “Görmürsünüzmü ki, həqiqətən, Allah-təala Adəmdən (ə) öncəkilərdən başlamış gələcəkdəkilərə qədər dünyanı Məkkədəki daşlarla sınağa çəkər. Onların nə ziyanı, nə xeyiri var, nə görürlər, nə də eşidirlər. Bu daşları özünə möhtərəm qərar verdi, onu insanların möhkəmliyi üçün amil etdi. Sonra ,Kə`bəni ən daşlı-kəsəkli məkanlarda



---

.Nəhcül-bəlağə, ١-ci xütbə [١٨١] -١

otsuz-ələfsiz yerlərdə, ən yaxın dərələrdə, sərt dağlar arasında, geniş çınqıllıqlarda, az sulu çeşmələrdə, bir-birindən uzaq abadlıqlarda qərar verdi. Həmin yerdə nə dəvənin, nə atın, nə inəyin, nə də qoyunun asayişi yoxdur. Sonra Adəm (ə) və övladlarına əmr etdi ki, Kə`bəyə doğru dönsünlər və oranı ictimai mərkəz, son məqsəd, qayıdış yeri seçsinlər. Belə ki, insanlar qəlblərində eşq sür`ətlə səhralardan, düzənlərdən, şəhərlərdən, kəndlərdən, dərin dərələrdən, pərakəndə adalardan Məkkəyə üz tutsunlar, çiyinlərini çəkərək “la ilahə illəllah” dillərində, Kə`bə ətrafında təvaf etsinlər. Pərişan saçlar, tozlu-torpaqlı bədənlərlə hərəkət etsinlər. Şəxsiyyətlərini göstərən hər növ libaslarını çıxarsınlar, saçlarını daramayıb, qiyafələrini dəyişsinlər. Çünki bu, paklanmaq üçün böyük, çətin və aşkar bir sınaqdır. Allah bunu mərhəmət səbəbi, behiştə çatmaq amili qərar verdi. Əgər Allah öz möhtərəm evini və həcc mərasimi keçirilən məkanları bağlar və çaylar arasında, yaşıl-xürrəm çəmənliklərdə, meyvəli ağacları olan məntəqələrdə, evləri və sarayları olan abad bir yerdə, güllü-çiçəkli bağçalar qoynunda, gözəl və çeşməli mənzərələr arasında, şadlıq yaradan gülzarlar içində, abad yollar üstündə qərar versəydi, sınaq asan olardı. Beləcə, mükafat da yüngülləşərdi. Əgər Kə`bənin bünövrəsi və sütunları, tikintisində işlənmiş daşları yaşıl zümrüddən, qırmızı yaqutdan olsaydı qəlblər daha gec şəkk-şübhəyə düşər, şeytanın təlaşları qəlblərdə daha az əsər qoyardı. Belə halda şeytanın gizli vəsvəsələri insanlara .yol tapmazdı

Hansı ki, Allah öz bəndələrini növbənöv çətinliklərlə sınağa çəkir, ağır ibadətlərə çağırır, müxtəlif müşküllərə mübtəla edir ki, onların qəlbindən

təkəbbürü çıxarıb səmimiyyət versin, öz fəzl və rəhmət qapılarını onların üzünə açsın, əfv vasitələri asanlıqla ixtiyarlarına verilsin.”(١)

Əmirəl-mö`minin Əlinin (ə) uyğun buyuruğundan müxtəsər şəkildə bu nöqtələr aydın olur:

**Kə`bə**

Müsəlmanların qibləgahıdır, əmin-aman evdir, İslamın nişanəsidir, təvaf məhəllidir, müsəlmanların toplanış mərkəzidir, ilahi sınaq məkanı, sığınacaq yeridir.

Nəfsani çirkinliklərdən paklanma, təkəbbür və xüdpəsəndlikdən uzaqlaşmaq, ticarət və qazanc, təvazö əldə etmək, geniş ilahi rəhmətin nazil olduğu və behiştə çatmaq, ixlas əldə etmək və şeytanın vəsvəsələrindən qurtuluş yeridir.

İlahi əzəmət qarşısında insanların təvazö məkanı, insanların ilahi qüdrəti e`tiraf nişanəsidir.

Sadalananlar həccin əsrarəngizliklərinin bir hissəsidir. Digər mə`sumların buyuruqlarında da müəyyən açıqlamalar verilmişdir. Həmin buyuruqlardakı mühüm nöqtələri iki hissədə qruplaşdırmaq olar:

a) Həccin tə`sirləri

١. Sərvətin artması –İshaq ibn Əmmar deyir: İmam Sadiqə (ə) ərz etdim ki, mən hər il həccə getmək və ya ailə üzvlərindən bir nəfəri həccə göndərmək qərarına gəlmişəm. İmam (ə) buyurdu: “Bu iş üçün qəti qərara gəlmisənmi?” Dedim ki, bəli. İmam (ə) buyurdu: “Əgər səh:١٠٩

---

١- [١٨٢] Nəhcül-bəlağə, ١٩٢-ci xütbə.

(belə etsən mal-mülkünün artacağına əmin ol. Müjdə olsun sənə böyük sərvətlə."(۱

Qəlblərin aramlığı –İmam Baqir (ə) buyurmuşdur: "Həcc ayinlərinin icrası qəlblərə .۲ (aramlıq verir."(۲

Qanelik yaranması –Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Həccə gedin, ehtiyacsız .۳ (və qane olun."(۳

Yoxsulluqdan çıxmaq –Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Həcc ayinlərinin icrası .۴ yoxsulluğun aradan qaldırılmasına səbəb olur."(۴) İmam Sadiq (ə) buyurur: "Ehtiyacların tə`min olunmasında və yoxsulluqdan uzaqlaşmaqda həcc kimi ardıcıl (tə`sirli iş görməmişəm."(۵

Bəlaların dəf`i –İmam Sadiq (ə) buyurur: "Həcc ayinlərinin icrasını və ardıcıl həccə .۵ getməyi sizə tövsiyə edirəm. Çünki ardıcıl həccə getmək dünya acıları, qiyamət (gününün qorxusunu sizdən uzaqlaşdırar.(۶

Sağlamlıq, ruzinin artması və imanın islahı –İmam Sadiq (ə) imam Səccadın (ə) .۶ dilindən belə nəql edir: "Həcc və ümrə yerinə yetirin ki, bədənləriniz sağlam, ruziniz bol, imanınız möhkəm olsun, öz yaşayış xərclərinizi, xalqın ehtiyaclarını və ailənizin (ehtiyaclarını ödəyəsiz."(۷

Günahların bağışlanması, dünya və axirət pərişanlığının aradan götürülməsi –İmam .۷ (Sadiq (ə



---

.Bihar, ۹۶-cı cild, səh.۲۵ [۱۸۳] -۱

.Bihar, ۷۵-ci cild, səh.۱۸۳ [۱۸۴] -۲

.Həmin mənbə, ۷۳-cü cild, səh.۲۲۱ [۱۸۵] -۳

.Həmin mənbə, ۷۴-cü cild, səh.۶۲ [۱۸۶] -۴

.Həmin mənbə, ۷۱-ci cild səh.۳۱۸ [۱۸۷] -۵

.Həmin mənbə, ۷۱-ci cild, səh.۱۶۷ [۱۸۸] -۶

.Həmin mənbə, ۹۶-cı cild, səh.۲۵ [۱۸۹] -۷

buyurur: “Hər kəs Kə`bəyə mə`rifətlə baxsa, bizim haqq və hörmətimizi tanısa, Kə`bənin haqq və hörmətini tanımış kimidir. Belə olarsa Allah onun günahlarını bağışlayar, dünya və axirət pərişanlığına son qoyar.”(١)

٨. Cəhənnəm odundan qurtuluş, daimi xeyir –İmam Sadiq (ə) buyurur: “Ömür boyu bir dəfə həccə gedən, vacib həcci yerinə yetirən kəs, həqiqətən, alovdan olan bir kəndiri boynundan açmışdır. Həyatında iki dəfə həccə gedən kəs ömrünün sonunadək xeyir içində olar. Hər kəs üç dəfə ardıcıl həccə getsə və sonra bu işi tə`xirə salsa, hər il həccə getmiş kimidir.”(٢)

٩. Həcc səfərinə hazırlaşmaq Allah yolunda cihada hazırlaşmaq kimidir –İmam Sadiq (ə) buyurur: “Həccə getmək üçün kəcavə hazırlayan kəs Allah yolunda cihada getmək üçün at və silah hazırlayan kəs kimidir.”(٣)

١٠. Kə`bə ətrafında bir həftə təvafın savabı –İmam Sadiq (ə) buyurur: “Allah evini yeddi dövrə edən kəs üçün Allah ۶ min xeyir iş (“həsənə”) yazar və onun ۶ min pis işini pozar. Bu adamın dərəcəsi ۶ min dəfə artırılar. (İshaq ibn Əmmar) Bu şəxsin ۶ min istəyi qəbul olunar. (Sonra buyurur:) Mö`minin istəyini yerinə yetirmək Allah evini on dəfə təvaf etməkdən üstündür.”(۴)

١١. Behişt və`di –Həzrət Əli (ə) buyurur: “Altı nəfər üçün behiştə zəmanət verirəm: Sədəqə və ya xeyir iş üçün evdən çıxan və ölən kəs, xəstəni ziyarət üçün evdən çıxan və ölən kəs, Allah yolunda savaş üçün evdən çıxan və ölən kəs, həcc ayinlərinin icrası üçün evdən çıxan və ölən kəs, cümə namazı qılmaq üçün



---

١- [١٩٠] Fürui-Kafi, ۴-cü cild, səh.٢۴١.
٢- [١٩١] Mən la yəhzuruhul-fəqih, ٢-ci cild, səh.١٣٩.
٣- [١٩٢] Məhasini-bərqi, səh.٧١.
۴- [١٩٣] Muhəccətul-bəyza, ٣-cü cild, səh.٣٧٩.

(evdən çıxan və ölən kəs, bir müsəlmanın dəfni üçün evdən çıxan və ölən kəs!"(١)

Bütün günahların bağışlanması –Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Hacı, Allah .١٢ evinin ziyarətçisi üçün üç haldan biri gözlənilir. Ya deyilər ki, keçmiş və gələcək günahların bağışlandı; ya deyilər ki, keçmiş günahların bağışlandı və yenidən başla; ya (deyilər ki, qohumların və övladların Allahın pənahındadır. Üçüncü ən üstün haldır."(٢)

Şeytana bir daş atmaqla bir kəbirə günahın bağışlanması –İmam Sadiq (ə) buyurur: .١٣ ("Atılan hər daş böyük bir günahı aradan qaldırar."(٣)

Hacının kəsdiyi qurban cəhənnəm oduna sipərdir –İmam Səccad (ə) buyurmuşdur: .١۴ ("Hacının kəsdiyi qurban onu oddan qoruyan sipərdir."(۴)

Mələklərin şəfaəti –İmam Səccad (ə) buyurur: Səfa və Mərvə arasında sə`y edən .١۵ (asta yerişlə qaçan) adamın şəfaəti üçün mələklər ayağa qalxar. Onun şəfaəti qəbul (olunar."(۵)

Səfa və Mərvə arasında sə`y müqabilində yetmiş mö`min bəndəni azad etmək .١۶ savabı –İslam Peyğəmbəri (s) ənsardan olan bir kişiyə buyurdu: "Səfa və Mərvə arasında qaçdığın vaxt şəhərindən çıxıb həccə piyada gedən adamın savabını alırsan, (yetmiş mö`min qulu azad etmiş kimi olursan."(۶)



---

.Vəsailuş-şiə, ۵-ci cild, səh.۵٢ [١٩۴] -١

.Səfinə, səh.٢١١ [١٩۵] -٢

.Məhasin-Bərqi, səh.۶٧ [١٩۶] -٣

.Həmin mənbə, səh.۶٧ [١٩٧] -۴

.Muhəccətul-bəyza, ٢-ci cild, səh.١۴٨ [١٩٨] -۵

.Məhasini-Bərqi, səh.۶۵ [١٩٩] -۶

۱۷. Bir həcc müqabilində bütün dünya –İmam Baqir (ə) buyurur: “Ölülər öz qəbirlərində belə arzu edər: “Kaş dünya və dünyada bizə verilənlər əvəzində bir həccin savabını ala biləydik.”(۱)

۱۸. Həmişəlik əzabdan qurtuluş –İmam Baqir (ə) buyurur: “Hər kəs bu evə (Kə`bəyə) daxil olsa və Allahın ona vacib etdiyi hər şeydən agah olsa, qiyamət gününün əbədi əzabından amanda qalar.”(۲)

۱۹. Dünya və axirəti əldə etmək –Həzrət Peyğəmbər (s) buyurur: “Dünya və axirəti istəyən insan bu evə üz tutsun. Həqiqətən, hansı bəndə oraya gəlib Allahdan dünya istədisə, ona çatdı, Allah onun istəyini yerinə yetirdi. Kim Allahdan axirət istədisə onun da bu arzusu qəbul edildi.”(۳)

۲۰. Nura qatılma -Əbdürrəhman ibn Səmurə deyir ki, bir gün həzrət Peyğəmbərin (s) yanında olduğumuz vaxt o buyurdu: “Mən dünən gecə təəccüblü bir şey gördüm!” Biz soruşduq ki, ey Allahın rəsulu, canımız sənə fəda, nə gördün? Həzrət (s) buyurdu: “Ümmətimdən olan bir kişinin qarşıdan və arxadan, sağdan və soldan, yuxarıdan və aşağıdan zülmətə qərq olduğunu gördüm. Bu vaxt onun həcc və ümrə əməli gəlib onu zülmətdən çıxardı və nura daxil etdi.”(۴)

b) Həcci tərk etməyin tə`sirləri

۱. Əzabın nazil olması -Əbu Bəsir imam Sadiqin (ə) belə buyurduğunu nəql edir: “Əgər insanlar bu evin



---

۱- [۲۰۰] Vəsailuş-şiə, ۱۱-ci cild, səh.۱۰۳.
۲- [۲۰۱] Əvaliyyul-ləali, ۲, ۸۴, ۲۲۷.
۳- [۲۰۲] Sənədul-İami Zeyd, səh.۱۹۷.
۴- Səduq, “Əmali”, səh.۳۰۱, ۳۴۲.

(həccini tərk edərsə, onlara əzab nazil olar və möhlət almazlar.”(١

Dünyada fitnə, axirətdə əzab –İmam Sadiq (ə) buyurur: “Sizlərdən biri (din) . ٢ qardaşının həccini tə`xirə salsa, dünyada görəcəyi fitnədən, axirətdə alacağı əvəzdən (çox qorxsun.”(٢

İstəklərin rəddi -Əmirəl-mö`minin Əli (ə) buyurur: “Hər kəs Allah evinin həccini . ٣ dünya istəklərinə görə tərk etsə, hacıların başı qırxılmış halda həcdən qayıtdığını (görənədək istəyi yerinə yetməz.”(٣

## NƏTİCƏ

Həcc İbrahim (ə) çağırışına cavab verməkdir. O, Kə’bə evini ucaltdıqdan sonra Allah əmrinə əsasən insanları dünyanın hər yerindən süvari və piyada halda Kə`bə evinin ziyarətini və həcc əməllərini yerinə yetirməyə çağırdı. Həcc bütün - xüsusi, fərdi və ictimai, ibadətləri əhatə edən bir vəzifədir. Həcc zəkat və xüms kimi iqtisadi, namaz kimi bədən və dilə aid olan, cihad kimi əməli, oruc kimi pəhrizlə müşayiət olunan bir ibadətdir. Fərdi baxımdan həcc Allah-təala qarşısında təvazö nişanəsidir. Bu baxımdan həcc bəşəriyyətin ən mühüm arzularından olan qurtuluşa çatdırır. Həcci yerinə yetirməkdə günahlar bağışlanır və insan behiştlə mükafatlandırılır. Kə`bə evinin ziyarətçilərinin duaları qəbuldur. İctimai baxımdan həcc bütün digər ibadətlərdən .seçilir. Heç bir başqa ibadət ümmət məsələlərinin həllində həcc qədər tə`sirli deyil

Həcc mə`nəviyyat, bəndəlik, isar, vəhdət, zikr, bir sözlə, Allahla rabitə vasitəsidir. Belə bir səfərə çıxmaq imkanı səh:١١۴

---

.İləluş-şəraye, ٢-ci cild, səh.۵٢٢ [٢٠۴]-١

.Muhəccətul-bəyza, ٢-ci cild, səh.١۵١ [٢٠۵]-٢

.Bihar, ٩۶-cı cild, səh.١٩ [٢٠۶]-٣

Allahpərəstlər üçün münasib fürsətdir. Onlar həcc vasitəsi ilə özlərini islah edir, .ruhlarını zinətləndirirlər

Bu əzəmətli toplantıda müxtəlif irqlərdən olan müsəlmanlar Kə`bə ətrafında bir araya gəlir, bir-birlərinin dərdinə şərik olur, tövhid hissilə birləşirlər. Onlar bu mərasimlərdə xəlilullahın möhkəm imanı, Allah yolunda qurbanı ilə isarı, Hacərin fədakarlığı ilə tanış olurlar. Ən mühümü isə hacı uzun illər üz tutduğu Kə`bə ilə üzbəüz dayanır, özünü İslam tarixinin mühasirəsində görür. Hira dağı, Əbu Talib dərəsi, Ühüd, Beytül-ətiq bu .tarixi abidələrdəndir

!Kə`bə! Aşiq könüllərin sarayı

!Müqəddəs bir məkan, tövhid harayı

Pərvanətək başına dolanan kəs

.Xoşbəxt olar, başqa bir şey istəməz

## XÜMSÜN TƏRKİ

### İŞARƏ

Qur`ani-məciddə xümsün vacib olması və onun ümumi istifadə yerləri aydın şəkildə bəyan olunmuşdur: “Bilin ki, əldə etdiklərinizin beşdə biri Allahın, Onun rəsulu və rəsulunun qohumlarının, yetimlərin, fəqirlərin və yolda qalanlarındır.”(١) Ayənin aşkar göstərişi və mə`sumların buyuruqlarını əsas götürərək bütün şiə fəqihləri yeddi şeyə :xüms düşdüyünü fətva vermişlər

Təcavüzkar kafirlərdən əldə olunmuş savaş qəniməti; bu işdə mə`sum imamın . ١ ;iştirakı şərtdir

Mə`dən; fiqh kitablarında göstərilmiş nisab həddinə çatmış faydalı qazıntılar; . ٢ ;mə`dən xərcləri çıxıldıqdan sonra

.Ənfal surəsi, səh.۴۲ [۲۰۷] -۱

Xəzinə; torpaqda, ağacda, dağda və ya divarda gizlədilmiş xəzinə; belə bir xəzinə .۳ xərclər çıxıldıqdan sonra ۱۰۵ misqal gümüş və ya ۱۵ misqal qızıl həddinə çatarsa xüms ;ödənməsi vacibdir

Harama qatılmış halal mal; bir-birinə qatılmış halal malı haramdan ayırmaq mümkün .۴ ;olmazsa, onun xümsü ödənməlidir. Xümsü verildikdən sonra qalan mal pak sayılır

Üzgüçülük yolu ilə dənizdən çıxarılmış cəvahirat; xərclər çıxıldıqdan sonra bu . ۵ ;cəvahirlərin dəyəri on səkkiz noxud qızıla çatarsa, onun xümsünü vermək vacibdir

Zimmi kafirin müsəlmandan aldığı torpaq; belə bir torpağın özündən və ya . ۶ ;qiymətindən imama xüms ödəmək vacibdir

Qazanc mənfəəti; illik xərclər çıxıldıqdan sonra qazancdan artıq qalarsa, imama . ۷ .xüms ödənməlidir

Demək, yuxarıda sadalananlardan birinə malik olan şəxs cameüş-şərait fəqihə xüms ödəməyə vəzifəlidir. Xüms ödəməkdən boyun qaçıran şəxs təkcə günaha batmır, həm .də qalan malından istifadə etmək hüququndan məhrum olur

**a) Xümsü tərk etməyin tə`sirləri**

Nəql olunmuş rəvayətləri və şiə fəqihlərinin fətvalarını nəzərdən keçirdikdə mə`lum olur ki, xümsdən boyun qaçırmaq həm özü günahdır, həm də başqa günahlara səbəb :olur. Məsələn

Xəyanət nümunələri .۱

Adi danışıqda və terminologiyada “xəyanət” dedikdə bir şəxsin ona əmanət tapşırılmış maldan istifadəsi nəzərdə tutulur. Yə`ni həmin şəxs mal

sahibindən icazə almadan ondan istifadə edir. Həzrət Peyğəmbər (s) savaş qəniməti əldə olunduqda müsəlmanlara xitabən buyurardı: “Qənimətlərə münasibətdə xəyanətlərdən çəkinin. Hesablanmadan və xümsü ödəmədən bir kişi əsir qadınla (izdivac edərsə və ya qənimət ata süvar olarsa, qənimətə xəyanət etmişdir.”(١)

Həzrətin (s) uyğun buyuruğu aşkar şəkildə göstərir ki, xümsü verilməmiş qənimətdən istifadə xəyanətdir. Deməк, xümsü ödənməmiş mal əmanət hökmündədir və ona toxunan xəyanətkar sayılır. Bu əsasla əksər şiə fəqihləri fətvalarında xümsü .verilməmiş maldan istifadəni qadağan edirlər

Qəsb nümunələri .٢

Bildiyimiz kimi, şər`ən icazə almamış başqalarının malına toxunmaq qəsb sayılır. Digər tərəfdən illik gəlirdən artıq qalan qazancın beşdə biri imama çatır. Demək, bir şəxs illik qazancından artıq qalan miqdarın beşdə birini imama təhvil verməsə, onun bu işi qəsb sayılır. İmam Baqir (ə) buyurur: “Bir şəxs xümsü verilməmiş pulla bir şey alarsa, haram bir şey almış sayılır.”(٢) İshaq ibn Əmmar imam Baqirin (ə) belə buyurduğunu nəql edir: “İnsanın xümsü verilməmiş mal ilə bir şey almağa haqqı yoxdur. O deyə bilməz ki, aldığını öz pulu ilə alıb. Yalnız xüms sahibi icazə versə



---

.Bəsairul-dərəcat, ٥, ٢٩ [٢٠٨]-١

.Təhzib, ۴-١٣۶ [٢٠٩]-٢

mümkündür."(۱) Gördüyünüz kimi, imam (ə) hər iki rəvayətdə xümsü verilməmiş maldan istifadəni haram sayır. Nəticədə aydınlaşır ki, xümsü verilməmiş mal qəsb .olunmuş sayılır

Yetimin malını yemək .۳

Yetimin malını yemək ona görə pis sayılır ki, onun özünü müdafiə etmək gücü yoxdur. O özünü güclü bir şəxsin caynağından qurtarmaqda acizdir. İmam Həsənin (ə) bir neçə günlük hakimiyyətindən sonra şiə imamları hakimiyyətdən uzaqlaşdırıldığı üçün xalqın malındın xüms ayıra bilməmişlər. Bu sahədə onlar bir növ yetim sayılmışlar. Əbu Bəsir imam Baqirdən (ə) soruşur: "Bəndəni oda salan ən asan iş nədir?" İmam (ə) buyurur: ("Yetimin malından bir dirhəm yemək. Bizik həmin yetim deyilən."(۲

Malın puça çıxması .۴

Rəvayətlərə əsasən xüms ödəmək nəinki malı əskiltmir, hətta onu artırır. Xüms ödəməmək isə malı puça çıxardır, var-dövləti azaldır. İmam Sadiq (ə) buyurur: "Hər kəs bir dirhəm xümsü sahibinə verməsə, iki dirhəm artıq xərcləyəcək. Hər kəs malında başqasına məxsus olanı qaytarmasa, Allah qiyamət günü həmin malı alovdan ilan şəklində onun boynundan asacaq."(۳) İmam Sadiq (ə) digər bir rəvayətdə buyurur: ("Allahın haqqını ödəməyən kəs batil yolda iki qat artığını sərf edər."(۴

Əhdi pozma nümunələri .۵

səh:۱۱۸

---

[۲۱۰] -۱ .Bihar, ۹۶-cı cild, səh.۱۹۳

[۲۱۱] -۲ .Mən la yəhzuruhul-fəqih, ۲-ci cild, səh.۴۱

[۲۱۲] -۳ .Vəsailuş-şiə, ۶-cı cild, səh.۳۷۸

[۲۱۳] -۴ .Həmin mənbə

Dini qəbul etmək dedikdə onun əmrlərini yerinə yetirmək nəzərdə tutulur. Hər kəs dini qəbul etdikdən sonra onun göstərişlərinə, yəni əhdinə vəfa qılmasa vəfasızlıq göstərmişdir. Xüms ödəmək vacib əmrlərdəndir. İslamı qəbul edən hər bir müsəlman xüms ödəməlidir. Əgər ödəməsə, əhdinə vəfa qılmamışdır. Bu səbəbdən imam Sadiq (ə) "vay olsun əskik satanlara" ayəsini təfsir edərkən buyurur: "Yə`ni, ey Məhəmməd, (sənin xümsünü kəsənlər."(١)

## b) Xüms ödəməyin tə`sirləri

?Xüms ödəməyin zərərləri ilə tanış olduq. Bəs xüms ödəməyin hansı bərəkətləri var

Övladın paklığı .١

İnsanın əsil sərvəti onun övladıdır. Əgər övlad pak doğularsa onun müsbət yöndə inkişafı üçün zəmin yaranar. Pak doğulmamış övlad fitnə-fəsad mənbəyidir. Əslində, insan heç bir mülk sahibi deyil və ona əmanət verilənlər Allaha məxsusdur. Amma Allah mehribanlıq göstərərək verdiyi malın beşdə birini onun yolunda sərf eləməyi tapşırır. Qalan hissədən isə insanlar öz istədikləri kimi istifadə edə bilər. Şübhəsiz ki, xüms ödəməkdən boyun qaçırsalar, həm günaha yol verib Allaha itaətsizlik göstərmiş olur, həm də malları haram olduğundan bu haram övladlarının necəliyinə tə`sir göstərir. Amma xüms ödəsələr, qidaları halal olduğundan övladlar da pak olur. İmam Sadiq (ə) buyurur: "Bir şəxs Əmirəl-mö`mininin (ə) xidmətinə gəlib ərz etdi: "Mən halal-harama göz yumub mal əldə



---

.Bihar, ٩۶-cı cild, səh.١٨٩ [٢١۴]-١

etmişəm. İndi isə tövbə etmək istəyirəm. Amma malımın halalı haramına qarışıb.” Əmirəl-mö`minin (ə) buyurur: “Malının xümsünü ver. İnsanın xüms ödəməsi Allahı razı salar və malın qalan hissəsi halal olar.”(۱) Digər bir rəvayətdə imam Sadiq (ə) buyurur: “Hər kəs qəlbində bizə dostluq və məhəbbətdə sərinlik duysa, Allaha birinci ne`mətlərə görə sitayiş etsin. (“Birinci ne`mətlər” nədir, deyə soruşurlar və imam (ə) belə cavab verir:) Pak doğuş.” Sonra imam (ə) buyurur: “Həzrət Əmirəl-mö`minin (ə) həzrət Fatiməyə (s) dedi: Payına düşəni şiələrimizin atalarına bağışla ki, onlar pak olsun.”(۲)

İmam Sadiq (ə) buyurur: “Biz öz şiələrimizin analarını onların atalarına halal etdik ki, onlar pak olsunlar.” İmam Baqir (ə) və imam Sadiq (ə) yuxarıdakı həqiqət üzərində dayanaraq buyururlar: “İnsanlar üçün qiyamət günü ən böyük çətinlik yaradan odur ki, haqqı tapdananlar qalxıb desin: “Pərvərdigara, bizim xümsümüzü borclulardan al. Biz xümsü şiələr üçün pak etdik ki, doğuşları pak, övladları halal olsun.”(۳)

۲. Var-dövlətin paklığı

Bildiyimiz kimi, qidalanmanın insan sağlamlığına və ruhuna böyük tə`siri var. Təmiz və halal ruzi sağlam düşüncə və sağlam əmələ səbəb olur. Haram qidalardan şeytani düşüncələr, şeytani əməllər qaynaqlanır. Xümsü zəruri edən vasitələrdən biri də var-dövlətin paklanmasıdır. İmam Sadiqdən (ə) soruşurlar: “Bir şəxs halal və haramdan mal qazanıbsa tövbə etmək istədikdə



---

۱- [۲۱۵] Mən la yəhzuruhul-fəqih, ۲-ci cild, səh.۱۸۹.
۲- [۲۱۶] Camei-əhadisi-şiə, ۸-ci cild, səh.۵۹۷.
۳- [۲۱۷] Vafi, ۶-cı cild, səh.۲۷۶.

onu necə ayırmalıdır? İmam (ə) buyurur: “Malının xümsünü verib, onu pak etsin. Allah-təala var-dövləti xümsü ödənməklə paka çıxarır.”(١)

Gördüyünüz kimi, imam Sadiq (ə) xümsü malın paklanma səbəbi sayır. Digər bir rəvayətdə xümsün necə və nə vaxt ödənməsi ilə bağlı suala imam Sadiq (ə) belə cavab verir: “And olsun Allaha, hər gün qazancın xümsü var. Amma atam imam Baqir (ə) şiələrə halal etdi ki, (illik qazancı) pak edələr.”(٢) Qur`ani-məciddə xüms ödənməsi malın təmizlənmə amili sayılır: “Onların malından sədəqə al ki, paka çıxarasan.”(٣)

Bu ayədə xümsün malı paklaması səbəbi aydın şəkildə bəyan olunmuşdur. Amma “Məcməul-bəyan” təfsirinin müəllifi uyğun ayənin zəkat və sədəqə haqqında nazil olduğunu bildirir. “Cəvahir” müəllifi isə bir rəvayətə əsaslanaraq ayədəki “sədəqə” sözünün xüms mə`nası daşıdığını qeyd edir. Ümumi baxışdan və nəql olunacaq rəvayətə əsasən bu fikir həqiqətə daha çox uyğundur. İndi isə “Cəvahir” müəllifinin istinad etdiyi rəvayəti nəzərdən keçirək: İmam Sadiq (ə) buyurur: “İmamın xalqın əlində olan mala möhtac olduğunu təsəvvür edən kəs kafirdir. İmamın bu malı qəbul etməsi xalqın ehtiyacıdır. Allah-təala buyurur ki, onların malının pak olması üçün sədəqə al.”(٤)

Rəvayətdən aydın görünür ki, imam Sadiq (ə) yuxarıdakı ayəyə istinad edərək xüms üçün malın paklanmasını səbəb sayır. Yə`ni bu hökmdə imamın ehtiyacı nəzərdə tutulmur. Digər bir rəvayətdə imam



---

١- [٢١٨] Əl-məqnə, səh.٢٨٣.

٢- [٢١٩] Vafi, ١-ci cild, səh.٢٢٩; Üsuli-Kafi, ١-ci cild, səh.۴٢.

٣- [٢٢٠] Tövbə surəsi, ayə ١٠٣.

۴- [٢٢١] Məcməul-bəyan, ۵-ci cild, səh.١٠٢; Cəvahirul-kəlam, ١۶-cı cild, səh.٣.

Sadiq (ə) Abdullah ibn Bəkirə buyurur: “Özüm Mədinə sərvətlilərindən olduğum halda nə üçün sizdən bir dirhəm istəyim?! Bu işdə məqsədim yalnız sizin paklığınızdır.”(۱)

۳. Ruzinin artması

İnsanın ruzisi, var-dövləti təkcə çalışmaq, elm və bilik yolu ilə əldə olunmur. Mal-mülkün artması üçün başqa səbəblər də var. İmam Riza (ə) buyurur: “Xüms ödəməyiniz sizin ruzi açarınız və günahlarınızın yuyulma səbəbidir. Xüms verməklə möhtac olacağınız gün üçün ehtiyat toplayırsınız.”(۲)

۴. Günahların yuyulması

Bu kitabın ayrı-ayrı fəsillərində bəyan olunduğu kimi mə`sumlardan başqa bütün insanların günahı var. Allah-təala mərhəmət edərək insanlar üçün paklanma yolları müəyyənləşdirmişdir. Bu yolları tanıyıb uyğun istiqamətdə addım atan insan Allahın rəhmətindən bəhrələnir. Allahın uyğun göstərişlərinə əməl edən insan pak cisim və şad ruhla Allahla görüşəsidir. İmam Riza (ə) uyğun məsələyə toxunaraq yuxarıdakı hədisin ikinci cümləsində buyurur: “Xüms verməyiniz günahlarınızın yuyulmasına səbəb olar.”(۳)

۵. Axirət azuqəsi

Hər şey axirətlə sonuclanır. İnsan axirətini abad etsə, aqibəti xeyir olar. Axirətini viran qoyan insan bütün varlığını məhv edir. Biz axirət və ona hazırlığın mühümlüyünü aydınlaşdırmaq üçün müəyyən şərh veririk. Bu şərhdə həm də xümsün rolu bəyan olunur:



---

۱- [۲۲۲] Üsuli-Kafi, ۱-ci cild, səh.۵۳۸.

۲- [۲۲۳] Vəsailuş-şiə, ۶-cı cild, səh.۳۷۵.

۳- [۲۲۴] Həmin mənbə.

Cənadə ibn Əbu Üməyyə deyir: İmam Həsən (ə) zəhərlənib yatağa düşdüyü vaxt onun yanında idim. Onun qarşısında ciyərinin qanı ilə dolu bir teşt vardı. Salam verib dedim: "Ey peyğəmbər övladı, nə üçün özünü müalicə etmirsən?" İmam Müctəba (Həsən) (ə) buyurdu: "Ey Allah bəndəsi! Ölümə nə ilə əlac etmək olar?" Dodağımın altında "inna lillahi və inna iləyhi raciun" deyə zümzümə etdim. İmam (ə) buyurdu: Ey Cənadə! Peyğəmbər (s) bizə xəbər verib ki, mə`sum imamlar ١٢ nəfərdir. Onlardan ١١ nəfəri Əli (ə) və Fatimə (ə) övladlarıdır. Bu övladların hamısı qılınc və ya zəhərlə şəhadətə yetirilər." Sonra qanlı teşti imamın (ə) qarşısından götürdülər. Bu həssas məqamda imama (ə) xitabən dedim: "Ey peyğəmbər övladı, mənə bir nəsihət ver." Həzrət (ə) buyurdu: "Özünü axirət səfərinə hazırla, ölümün çatmamış axirət azuqən hazır olsun."(١)

İmam Həsənin (ə) həyatının son anlarında onun axirətin əhəmiyyətini bəyan edən buyuruğunu oxuduq. Bəs xüms ödəməyin axirətə hansı tə`sirləri var? İmam Riza (ə) qısa bir cümlə ilə xümsün axirətdəki rolunu bəyan edir: "Xüms ödəməyiniz ruzinizin açarı, günahlarınızın yuyulma səbəbidir. Xüms verməklə möhtac olacağınız gün üçün azuqə toplayırsınız."(٢)

Yuxarıdakı qısa cümlədə həzrət (ə) xüms ödənməsini axirət üçün azuqə kimi tanıtdırır. Xatırladılır ki, insanların axirətə olan ehtiyacları onların dünyəvi ehtiyaclarından çox-çox böyükdür. Çünki dünya həyatından fərqli olaraq axirət həyatında insanlar yalnız saleh əməllərindən bəhrələnir.



---

١- [٢٢٥] Məhəmməd Dəşti, İmam Həsənin (ə) buyuruqları, səh.٤٢.

٢- [٢٢٦] Vəsailuş-şiə, ٦-cı cild, səh.٣٧٥.

Dinin yayılmasında şəriklik .۶

Bildiyimiz kimi, bütün işlərin həyata keçməsi üçün maddi dəstəyə ehtiyac var. Maddi dəstək olmadan hansısa işi gerçəkləşdirmək mümkün deyil. Müqəddəs İslam dini ümumbəşəri bir dindir. Onun bütün dünyaya hakim olması nəzərdə tutulur. Deməl, İslamın dünyaya yayılması üçün maddi dəstəyə ehtiyac var. İslamın ümumbəşəri .məqsədlərini həyata keçirmək üçün bu dəstək zəruridir

Qur`ani-kərimin bir çox ayələrində bildirilir ki, müqəddəs İslam dinini təbliğ edib yaymaq həzrət Məhəmmədin (s) öhdəsinə düşmüş bir vəzifədir. Və ona özünə canişin seçmək təklif olunur. Həzrət Peyğəmbər (s) ilahi vəhy əsasında pak imamları özünə canişin seçir. Peyğəmbər (s) və mə`sum imamların dini yetərincə təbliğ edə bilməsi üçün Allah-təala xümsü maddi dəstək qərar vermişdir. Demək xüms ödəyən insan dinin təbliğinə kömək etməklə onun yayılmasına şərik olur. Tarixdə oxuyuruq: İmam Rizanın (ə) yaxınlarından sayılan İran tacirlərindən biri həzrətə (ə) məktub yazdı və ödəyəcəyi xümsün ona bağışlanmasını xahiş etdi. Həzrət (ə) bu şəxsin cavabında buyurdu: "Rəhman və rəhim Allahın adı ilə. Həqiqətən, Allah vüs`ət verən və kərimdir. Yaxşı əməllərin əvəzində savab, pis əməllərin əvəzində cəza verir. Allahın halal etmədiyi mal halal olmaz. Xüms dinə, əhli-əyala və xidmətçilərimizə köməkdir. Biz abır-həyamızı qorumaq üçün ondan bağışlayır, xərcləyirik. Bizə xümsü əsirgəməyin və özünüzü bizim dualarımızdan məhrum qoymayın. Qüdrət tapmağımıza səbəb olan şeyi (xümsü) malınızdan ayırmaqla ruziniz üçün açar əldə edir, günahlarınızı yuyur, möhtac olacağınız gün üçün azuqə

yığırsınız. Müsəlman Allahla bağladığı əhdə vəfa qılır. Müsəlman o şəxs deyil ki, dili ilə cavab verib qəlbində müxalif ola."(١) Bəli, xüms mə`sumlar üçün maddi dəstəkdir, onlar xüms vasitəsi ilə dini yayır. Əgər bu işə şərik olsaq onun mə`nəvi savabından da .bəhrələnərik

## NƏTİCƏ

Əgər xümsə günün baxışı ilə nəzər salsaq görərik ki, xüms ödənişi bir çox təşkilati işlərin əsasını təşkil edir. Əgər cəmiyyət vahid bir təşkilat tərəfindən idarə olunsa, bu təşkilat büdcəyə ehtiyaclı olacaq. Bu gün müxtəlif ölkələrdə vergi adı ilə bu iş görülür. Əslindən xüms də uyğun problemi həll edir. Amma xümsün məqamı daha ucadır. Çünki o namaz, oruc, həcc kimi ibadətlərlə bir sırada dayanır. Hər halda xümsdən boyun qaçıran şəxs günaha yol verməklə yanaşı qeyri-ictimai bir fərd kimi özünü dinin .yayılmasındakı paydan məhrum edir

## ZƏKATIN TƏRKİ

## İŞARƏ

Qur`ani-məcidin "Maidə" surəsinin ١٢-ci ayəsində zəkat ödəmək zərurətindən danışılır və bildirilir ki, günahların bağışlanması, behiştə daxil olmaq zəkatdan asılıdır: "Əgər namazı bərpa etsəniz, zəkat ödəsəniz, mənim elçilərimə iman gətirsəniz, onlara yardım göstərsəniz, Allaha borc versəniz sizinləyəm, pis işlərinizdən keçərəm, sizi altından çaylar axan behiştlərə daxil edərəm." Fəqihlər hazırkı ayəyə və mə`sumlardan nəql olunmuş rəvayətlərə əsasən fətva vermişlər ki, zəkat dinin zərurətlərindəndir. Şəriətə əsasən doqquz



---

.Əl-Məqnə, səh.٢٨۴ [٢٢٧] -١

.şeyə zəkat düşür: Buğda, arpa, xurma, kişmiş, qızıl, gümüş, dəvə, inək, qoyun

Sadalananlardan birinə malik olan insan fiqh kitablarında göstərilmiş şərtlərə uyğun olaraq onun müəyyən hissəsini nəzərdə tutulmuş istiqamətdə sərf etməlidir. Zəkatdan boyun qaçıran şəxs günaha batır. Eyni zamanda, belə bir şəxs üçün dünya və axirət .əzabları nəzərdə tutulmuşdur

## a) Zəkatın xüsusiyyətləri

Vacib dini göstərişlər arasında zəkatın özünəməxsus səciyyələri var. Bu səciyyələr :onun əhəmiyyətini göstərir. Onlardan bə`zilərini nəzərdən keçirək

İslamın körpüsü –Həzrət Əli (ə) buyurur: "Sizə zəkat ödəməyi tapşırıram. . ١ Peyğəmbərinizdən (s) eşitmişəm ki, zəkat İslamın körpüsüdür, zəkat ödəyən kəs bu körpüdən keçir. Zəkat ödəməyən insan aşağıya yuvarlanıb Allahın qəzəbinə düçar (olur."(١

Ravi (rəvayətçi) deyir: Həzrət Əlidən (ə) belə eşitdim: "İslamın üç sütunu var. . ٢ Onlardan heç biri digər ikisi olmadan fayda verməz. Bu üç sütun namaz, zəkat və (vilayətdir."(٢

Zəkat ödəməyənlə mübarizə -Allahın rəsulu (s) buyurur: "Allah mənə xalqdan belə .٣ bir şəhadət alanadək onlarla mübarizə aparmağı əmr edib: (Şəhadət versinlər ki) Allahdan savayı mə`bud yoxdur, mən onun peyğəmbəriyəm, namaz qılacaqlar və (zəkat ödəyəcəklər."(٣



---

.Bihar, ٧٧-ci cild, səh.۴٠٧ [٢٢٨] -١

.Bihar, ۶٨-ci cild, səh.٣٨۶ [٢٢٩] -٢

.Kənzul-ummal, ۴-cü cild, səh.۵٢٧ [٢٣٠] -٣

Zəkat ödəməyən insanın müsəlman toplumdan qovulması –İmam Baqir (ə) nəql edir .۴ ki, həzrət Peyğəmbər (s) bir gün məsciddə müəyyən adamlara üz tutub buyurdu: "Məsciddən çıxın. Bir halda ki, zəkat ödəmirsiniz, bizimlə namaz qılmayın."(۱)

Mə`sumlardan nəql olunmuş rəvayətlərdə də zəkatın dünya və axirət nəticələrindən danışılmışdır. Onlardan bə`zilərini nəzərdən keçirək.

**b) Zəkat ödəməyin dünyəvi tə`sirləri**

Canın və malın sığortalanması –Həzrət Peyğəmbər (s) buyurur: "Öz xəstələrinizə .۱ sədəqə ilə çarə qılın, malınızı zəkat ödəməklə hifz edin."(۲)

Günahların bağışlanması –Əziz Peyğəmbərimiz (s) buyurur: "Zəkat günahları .۲ yuyar."(۳)

Ruzinin artması –İmam Baqir (ə) buyurur: "Ey Cabir, zəkat insanın ruzisini artırır."(۴ .۳

Yoxsulların ehtiyacının tə`mini –İmam Kazim (ə) buyurur: "Zəkat tə`yin olunub ki, .۴ yoxsulların ruziyə və mala olan ehtiyacı ödənsin."(۵)

Nəfsin paklanması –Həzrət Fatimeyi-Zəhra (s) buyurur: "Allah imanı sizin şirkdən .۵ paklanmağınız, namazı təkəbbürdən uzaqlaşmağınız, zəkatı canınızın paklanması və ruzinizin artması üçün vacib buyurmuşdur."(۶)



---

۱- [۲۳۱] Mən la yəhzuruhul-fəqih, ۲-ci cild, səh.۱۲.

۲- [۲۳۲] Vəsailuş-şiə, ۶-cı cild, səh.۶.

۳- [۲۳۳] Bihar, ۶۸-ci cild, səh.۳۳۲.

۴- [۲۳۴] Bihar, ۷۸-ci cild, səh.۱۸۳.

۵- [۲۳۵] Vəsailuş-şiə.

۶- [۲۳۶] Əl-İhticac, səh.۹۹.

۶. Zəkat malı əskiltmir –Bə`ziləri elə təsəvvür edir ki, zəkat ödəməklə mal azalır. Amma imamların buyuruqlarından başqa bir qənaət hasil olur. İmam Həsən (ə) buyurur: “Zəkat ödəmək heç vaxt malı azaltmır.”(۱) İmam Sadiq (ə) buyurur: “Zəkat ödəməklə kimsənin malı azalmayıb. Necə ki, onu ödəməməklə kimsənin malı çoxalmayıb!”(۲)

### v) Zəkat ödəməyin tə`sirləri

۱. Oğurluq damğası –İmam Sadiq (ə) buyurur: “Oğrular üç növ olur: Zəkata mane olanlar, qadınların mehriyyəsini halal sayanlar, qaytarmaq məqsədi olmadan borc alanlar.”(۳)

۲. Namazın qəbul olmaması –Həzrət Peyğəmbər (s) buyurur: “Üç dəstənin namazı qəbul olmaz. Onlardan bir dəstəsi zəkat ödəməkdən boyun qaçıranlardır.”(۴)

۳. Cəmiyyətdə yoxsulluğun genişlənməsi –İmam Sadiq (ə) buyurur: “Zəkat ödənməyən halda yoxsulluq və ehtiyac üzə çıxacaq.”(۵)

۴. İctimai bəlalar –İmam Sadiq (ə) buyurur: “Allah namaz qılan şiələr vasitəsi ilə namaz qılmayan şiələrdən bəlanı uzaqlaşdırar. Hamılıqla namazı tərk edənlər həlak olar. Allah, zəkat ödəyən şiələrə xatir zəkat ödəməyən şiələrdən bəlanı uzaqlaşdırar. Hamılıqla zəkatı tərk edənlər məhv olar.”(۶)



---

۱- [۲۳۷] Duaimul-İslam, ۱-ci cild, səh.۲۴۱.

۲- [۲۳۸] Vəsailuş-şiə, ۶-cı cild, səh.۱۲.

۳- [۲۳۹] Mizanul-hikmə, ۴-cü cild, səh.۲۲۱.

۴- [۲۴۰] Vəsailuş-şiə, ۶-cı cild, səh.۱۶.

۵- [۲۴۱] Üsuli-Kafi, ۱-ci cild, səh.۴۴۸.

۶- [۲۴۲] Həmin mənbə, ۲-ci cild, səh.۴۵۱.

İslamdan çıxmaq –Həzrət Əli (ə) buyurur: “Qur`anda “Maun” dedikdə vacib zəkat .۵ nəzərdə tutulmuşdur. Zəkat ödəməkdən boyun qaçıran insan sələmçi kimidir. Malının zəkatını ödəməyən müsəlman deyil.”(۱) İmam Sadiq (ə) buyurur: “Vacib olmuş zəkatdan bir karat (bir karat=۰,۲ qram) saxlayan insan yəhudi və ya məsihi dinində (ölcək.”(۲

(Heyvanların qırılması –Zəkat ödənməyən zaman heyvanlar qırılar.”(۳ .۷

Ric`ət dövründə faydasız peşmançılıq -Əbu Bəsir imam Sadiqdən (ə) belə eşitdiyini .۸ nəql edir: “Zəkat ödəməkdən boyun qaçıran insan öləndən sonra dünyaya qayıtmaq (istəyər. (O deyər:) Pərvərdigara, məni dünyaya qaytar, saleh iş görüm.”(۴

Bərəkətin kəsilməsi –Əziz Peyğəmbər (s) buyurur: “Zəkatdan boyun qaçırılan vaxt .۹ (torpaq bərəkətini kəsər.”(۵

## NƏTİCƏ

Zəkat da xüms kimi ictimai təkamülə dəstək vasitəsi sayılır. Amma zəkatın ,mə`nəviyyat və əxlaq sahəsində də mühüm rolu var. Deyilir ki, zəkat əfvin qələbəsi



---

.Bihar, ۹۶-cı cild, səh.۲۹ [۲۴۳] -۱

.Vəsailuş-şiə, ۶-cı cild, səh.۱۸ [۲۴۴] -۲

.Mən la yəhzuruhul-fəqih, ۱-ci cild, səh.۵۲۴ [۲۴۶] -۳

.Vəsailuş-şiə, ۶-cı cild, səh.۱۸ [۲۴۷] -۴

.Həmin mənbə [۲۴۸] -۵

nəsihətin dili, elm və bilikdir. Belə ki, mal zəkatı zəkatlardan biridir və əhəmiyyətinə görə dinin səkkiz vacibatından biri sayılır. Söhbətimizi Əmirəl-mö`mininin (ə) bir buyuruğu ilə başa çatdırırıq. Həzrət (ə) buyurur: "Allah sizə mal zəkatını vacib etdiyi kimi məqam zəkatını da vacib etmişdir. Din qardaşı üçün bir çətinlik yarandıqda öz (məqamından bu çətinliyi aradan qaldırmaq üçün istifadə et."(١)

## ƏMR BE MƏ`RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN TƏRKİ

(YAXŞILIĞA DƏ'VƏT VƏ PİSLİYƏ QADAĞANIN)

İslamda "əmr be mə`ruf və nəhy əz münkər" adı ilə tanınan ümumxalq nəzarəti ilahi bir vəzifədir. Bu vəzifə dinin əməli hökmlərindəndir və vacib sayılır. İlahi vəzifəyə əməl etməyən insan günaha batır və onun üçün axirət cəzası nəzərdə tutulur. Məsələn namaz, həcc, cihad, xüms və zəkat yaxşı iş, hicabsızlıq, oğurluq, rüşvətxorluq, adam öldürmək, sələmçilik, əskik satmaq və saxtakarlıq pis iş nümunələrindəndir. İnsanlar cəmiyyətə nəzarət etməyə və başqalarının rəftarlarına biganə qalmamağa borcludur. Hər bir müsəlman imkan həddində və müəyyənləşdirilmiş şərtlər əsasında insanları doğru yola çağırmalı, pis işlərdən çəkindirməlidir. Çünki əmr be mə`ruf və nəhy əz münkərin tərki cəmiyyətin fəsada sürüklənməsinə, din və şəriət hökmlərinin yaddan çıxmasına səbəb olur. Nəticədə pak insanlar da fəsada uğrayır. İslamda əmr be mə`ruf və nəhy əz münkərin tərki günah sayılır. Bu ilahi vəzifəyə əməl etməyənlər .dünya və axirətdə cəzalanır



---

.Bihar, ٧۴-cü cild, səh.٢٢٣ [٢۴٩] -١

Əziz İslam Peyğəmbəri (s) bu barədə buyurur: "Bir dəstə insan gəmiyə minir. Onların hər biri gəmidə öz yerini tutur. Bu vaxt bir şəxs öz oturduğu yeri deşməyə başlayır. Ondan nə etdiyini soruşurlar?! Cavab verir ki, bu yer mənimdir və istədiyimi edirəm! Bu adamın qollarını bağlasalar, həm onun özünü, həm də başqalarını xilas etmiş olarlar. Əgər onun əllərini tutmasalar həm özünü qərq edər, həm də başqalarını."(۱)

Rəvayətdən aydın görünür ki, ləyaqətsiz işlər qarşısında sükut etməyin əhatəli ağrıları var. Əgər gəmidə öz oturduğu yeri deşən insanın qarşısı alınmasa hamı suya qərq olar. Deməkد, cəmiyyətin hər bir üzvü vəzifəlidir ki, başqalarının əməlinə biganə qalmasın. Qur`ani-məcid buyurur: "Sizlərdən əmr be mə`ruf və nəhy əz münkərlə tanış olan bir ümmət xalqı yaxşı işə çağırmalı, pis işlərdən çəkindirməlidir. Bu iki işi yerinə yetirənlər nicat tapmışlardır."(۲)

Digər bir ayədə bir qrup günahkar lə`nətlənərkən buyurulur: "Bəni-İsraildən olan nankorlar Davud (ə) və İsa (ə) tərəfindən ona görə lə`nətləndilər ki, Allaha itaətsizlik göstərdilər, haqq hökmdən boyun qaçırdılar. Onlar öz çirkin işlərindən əl çəkmədilər. Nə pis idi onların gördüyü iş!"(۳) Növbəti ayədə yəhudi və məsihi alimləri əmr be mə`ruf və nəhy əz münkərə əməl etmədikləri üçün məzəmmət olunur: "Onlardan bir çoxunun günaha, sitəmkarlığa və haram yeməyə tələsdiyini görərsən. Nə pisdir onların gördüyü iş. Nə üçün alim və ruhanilər onları çirkin işlərdən, haram



---

۱- [۲۵۰] Səfinətul-Bihar, ۸-ci cild, səh.۳۸۸.

۲- [۲۵۱] Ali-İmran surəsi, ayə ۱۰۴.

۳- [۲۵۲] Maidə surəsi, ayə ۷۸.

yeməkdən çəkindirmir?! Əmr be mə`ruf və nəhy əz münkərdən boyun qaçıranlar çox pis iş görür."(۱) Başqa bir ayə təsdiqləyir ki, Peyğəmbərin (s) üstün sifətlərindən biri onun əmr be mə`ruf və nəhy əz münkəri qoruması idi. Ayədə oxuyuruq: "Əllərindəki Tövrat və İncildə adı və nişanələri bəyan olunmuş, oxumamış Peyğəmbərə (s) itaət edənləri həmin Peyğəmbər (s) yaxşılığa çağırıb, pislikdən çəkindirəcək. Onlara pak və xoş təamı halal, çirkin təamı haram buyuracaq. Cəhalətdən boyunlarında zəncir olmuş ağır hökmləri götürəcək. Ona doğru hərəkət edib, hörmət-izzətini saxlayıb yardım göstərənlər, onunla nazil olan nura əyilənlər, həqiqətən, aləmin nicat tapmışlarıdır."(۲)

Yaxşı olmazmı ki, özünü Peyğəmbərə (s) ardıcıl sayanlar "mənə nə" deməyib, cəmiyyətdəki rəftarlara diqqətli olalar?! Məgər Qur`an əmr be mə`ruf və nəhy əz münkəri həqiqi mö`min sifətlərindən saymamışdırmı?! Ayədə oxuyuruq: "Mö`min kişilər və qadınlar bir-birlərinin dostlarıdır. Onlar əmr be mə`ruf və nəhy əz münkər edir, namaz qılır, zəkat ödəyir, Allah və Onun rəsuluna itaət göstərirlər. Allah belələrini öz rəhmətinə qərq etdi. Allah iqtidar və hikmət sahibidir."(۳)

Əmirəl-mö`minin Əli (ə) əmr be mə`ruf və nəhy əz münkər vəzifəsinin əhəmiyyət və zərurəti haqqında buyurur: "Həqiqətən, Allah övliyalarına razılıq verməyib ki, yer üzündə günah baş verəndə onlar sakit dayansınlar, əmr be mə`ruf və nəhy əz münkərdən çəkinsinlər."(۴) İmam Baqir (ə) bu böyük ilahi vəzifə



---

۱- [۲۵۳] Maidə surəsi, ayə ۶۲, ۶۳.

۲- [۲۵۴] Ə`raf surəsi, ayə ۱۵۷.

۳- [۲۵۵] Tövbə surəsi, ayə ۷۱.

۴- [۲۵۶] Səfinə, ۲-ci cild, səh.۶۳۰.

haqqında buyurur: “Həqiqətən, əmr be mə`ruf və nəhy əz münkər peyğəmbərlərin yolu, salehlərin qaydasıdır. Bu böyük vəzifədir və onun vasitəsi ilə digər vacibatlar bərpa olur, yollar asayiş tapır, qazanclar halallaşır.”(١) Digər bir rəvayətdə imam Hüseyn (ə) buyurur: “Ey insanlar! Allahın öz dostlarına verdiyi öyüddən ibrət götürün. Allah-təala buyurur ki, mö`min kişilər və mö`min qadınlar bir-birlərinin dostlarıdır, yaxşılığa çağırır, çirkinlikdən çəkindirirlər. Allah-təala vacib bir hökm olaraq əmr be mə`ruf və nəhy əz münkərdən başlayır. Bilir ki, bu vəzifəyə əməl olunmasa istər asan, istər çətin bütün başqa vəzifələrin də yolu bağlanacaq. Çünki əmr be mə`ruf və nəhy əz münkər İslama də`vətdir. Bu yolla məzlumun haqqı qaytarılır, sitəmkara qarşı çıxılır, beytül-mal və qənimətlər ədalətlə bölüşdürülür...“(٢)

Allahın Rəsulu (s) buyurmuşdur: “Allahın, dini olmayan aciz mö`mindən xoşu gəlməz.” Soruşdular ki, dinsiz aciz mö`min kimdir? Həzrət (s) buyurdu: “O kəs ki, nəhy əz münkər etməz.”(٣)

Əmr be mə`ruf və nəhy əz münkərin əhəmiyyət və zərurəti ilə tanış olduqdan sonra onu tərk etməyin dünya və axirət tə`sirlərini araşdıraq:

١. Ümumi əzab –Allahın rəsulu (s) buyurmuşdur: “Hər bir günahkar qövm arasında onların qarşısını almağa gücü çatan, amma bu işi görməyən bir kəs var. Qorxu budur ki, Allah öz tərəfindən onların hamısına əzab göndərə.”(۴) Həzrət Peyğəmbər (s) digər bir



---

١- [٢۵٧] Vəsailuş-şiə, ١١-ci cild, səh.٣٩۵.

٢- [٢۵٨] Tuhəful-uqul, səh.٢٣٧.

٣- [٢۵٩] Vəsailuş-şiə, ١١-ci cild, səh.٣٩٩.

۴- [٢۶٠] Camius-səadət, ٢-ci cild, səh.١٨٠.

rəvayətdə belə buyurur: “Ya əmr be mə`ruf və nəhy əz münkər edin, ya da ilahi əzab hamınızı bürüyəcək.”(١)

٢. Ümumi bəla –Həzrət Peyğəmbər (s) buyurur: “Yəhudi və məsihi ruhaniləri əmr be mə`ruf və nəhy əz münkəri tərk etdiyindən Allah onları peyğəmbərlərinin dili ilə lə`nətlədi. Sonra bəla onların hamısını ağuşa aldı.”(٢) Başqa bir rəvayətdə oxuyuruq: “İnsanlara yaxşılığı əmr etməli, onların pis işlərinin qarşısını almalısınız. Yoxsa Allah üzərinə əcəm (yadelli) göndərər, boynunuz vurular. Onlar rəhimsiz, amansız və qorxub qaçmayan adamlardır.”(٣)

٣. Vəhy bərəkətindən məhrumluq –Həzrət Peyğəmbər (s) buyurur: “Mənim ümmətim dünyaya üz tutsa İslamın şövkətindən məhrum qalar. Əgər əmr be mə`ruf və nəhy əz münkərdən əl çəksələr vəhy bərəkətindən məhrum qalarlar.”(٤)

Digər bir rəvayətdə oxuyuruq: “La ilahə illəllah” zikri onu ardıcıl şəkildə deyənə faydalıdır. Bu zikr Allahın qəzəbini insandan uzaqlaşdırar. Bir şərtlə ki, haqqı yüngül sayılmasın.” (Soruşdular ki, ey peyğəmbər, haqqı yüngül saymaq nədir? Həzrət (s) buyurdu: “Allaha qarşı günaha yol veriləndə kimsə e`tiraz etməyə.”)(٥)

٤. Duaların qəbul olmaması, Allah yardımından məhrumluq –Həzrət Peyğəmbərin (s) zövcəsi Aişə deyir:

“Peyğəmbər (s) mənim yanımda idi. Çöhrəsindən bildim ki, nəsə olub. Peyğəmbər (s) dəstəmaz aldı və



---

١- [٢۶١] Vəsailuş-şiə, ١١-ci cild, səh.۴٧.
٢- [٢۶٢] Mizanul-hikmət, səh.٣٧١٠.
٣- [٢۶٣] Kənzul-ummal, ۵۵٢٧, ۵۵۶٣.
۴- [٢۶۴] Kənzul-ummal, ۶٠٧٠.
۵- [٢۶۵] Əl-tərğib vəl-tərhib, ٣, ٢٣١, ٢٣.

kimsə ilə kəlmə kəsmədi. Mən qulağımı otağa yapışdırdım ki, görüm o nə deyir. Peyğəmbər (s) minbərə qalxdı, həmd-səna deyib buyurdu: “Ey camaat! Allah sizə buyurur ki, nə qədər ki, dualarınızı rədd etməmişəm, istədiyinizi alırsınız, məndən yardım görürsünüz, yaxşılığa çağırın, pisliyə qadağa qoyun.”(١)

Həzrət Peyğəmbər (s) digər bir rəvayətdə buyurur: “İnsanlar nə qədər ki, yaxşılığa çağırır, pis işlərə qadağa qoyur, doğru işlərdə bir-birlərinə köməkçidirlər, xeyir içində olacaqlar. Belə etməsələr bərəkəti əldən verər, bir qismi o biri qisminə hakim olar, nə yerdə, nə də səmada yardımçı taparlar.”(٢)

٥. Zalımların cəmiyyətə hakimliyi -Əmirəl-mö`minin (ə) buyurur: “Əmr be mə`ruf və nəhy əz münkəri tərk etməyin. Yoxsa Allah şər bir qövmü sizə hakim edər, nə qədər dua etsəniz eşidilməz.”(٣) Həzrət Peyğəmbər (s) buyurur: “Əgər əmr be mə`ruf və nəhy əz münkər etməsəniz, mənim Əhli-beytimin (ə) yaxşılarına tabe olmasanız, Allah onların pislərini sizə hakim edər, həmin vaxt yaxşılarınızın duası qəbul olmaz.”(۴)

٦. Dindarların tamaşaçı mövqeyinin sonu –Həzrət Peyğəmbər (s) əsrlərcə əvvəl öz buyuruqlarında dindarların tamaşaçı mövqeyi tutmasının nəticəsi mövzusuna toxunmuşdur. Belə ki, uyğun buyuruqlar bu günkü İslam cəmiyyətlərinin əksəriyyətindəki vəziyyəti təsvir edir. Ümid edirik ki, məs`ullar və e`tiqadlı insanlar bundan artıq seyrçi mövqe tutmayacaq və İslam hökmlərinə biganə qalmayacaq. (Girami Peyğəmbər (s



---

١- [٢۶۶] Əl-tərğib vəl-tərhib, ٣, ٢٣١, ٢٣.

٢- [٢۶٧] Mizanul-hikmət, ٣٧١٠.

٣- [٢۶٨] Səfinətul-Bihar, ٢-ci cild, səh.۶٣٠.

۴- [٢۶٩] Səduq, “Əmali”, səh.٢۵۴.

buyurur: “Qadınlarınız əxlaqi fəsada sürükləndiyi, gəncləriniz günaha aludə olub əmr be mə`ruf və nəhy əz münkər vəzifəsini bir kənara qoyduğu zaman nə edəcəksiniz?!” Sual olundu ki, ey Allahın rəsulu, belə bir dövr gələcəkmi?! Həzrət (s) buyurdu: “Bəli, bundan da pisi gələcək. İnsanları günaha çağırıb, yaxşılıqdan çəkindirdiyiniz vaxt nə edəcəksiniz?!” Ərz etdilər ki, ey Allahın rəsulu, belə bir zaman olacaqmı? Həzrət (s) buyurdu: “Bəli, bundan da pisi olacaq. Gözünüzə yaxşılıqlar günah, pisliklər yaxşılıq kimi görünən vaxt nə edəcəksiniz?!”

## Nəticə

Ətrafdakıları yaxşı işə təşviq edib, pisdən çəkindirmək hər bir müsəlmanın vəzifəsidir. Əmr be mə`ruf və nəhy əz münkərin mə`nası budur ki, xeyir əməllər artsın, pis işlər azalsın. Amma unutmaq olmaz ki, bu olduqca həssas bir vəzifədir və başqalarının reaksiyasına səbəb olur. Onun öz şərtləri var və bu şərtlərə ciddi riayət etmək lazımdır:

a) Əmr və nəhy edən (əmr edib qadağa qoyan) insan yaxşı işi pis işdən seçə bilməlidir. Məbada, əmr be mə`ruf və nəhy əz münkər adı altında kiməsə pis iş əmr olunsun, yaxşı işdən çəkindirilsin.

b) Qarşı tərəf, yə`ni əmr və qadağa ünvanı olan kəs günahda israrlı olmalıdır. Bir şəxs pis iş görüb sonra

.tövbə edərsə, ona münasibətdə əmr be mə`ruf və nəhy əz münkər lazım deyil

.v) Əmr edən və ya qadağa qoyan kəs öz əmr və qadağasının tə`sirinə ümid etməlidir

q) Diqqətli olmalıyıq ki, bizim əmr və qadağamız özümüzə və ya cəmiyyətə zərərli .olmasın

İstənilən bir halda qeyd olunan şərtləri nəzərə almaqla əmr be mə`ruf və nəhy əz münkər vəzifəsini icra etmək cəmiyyətin islahına xidmət edir, ağıl və şəriət .baxımından bəyənilir

## TƏVƏLLA VƏ TƏBƏRRANIN TƏRKİ

### TƏVƏLLA VƏ TƏBƏRRANIN MAHİYYƏTİ

(ALLAH DOSTLARI İLƏ DOST, ALLAH DÜŞMƏNLƏRİ İLƏ DÜŞMƏNÇİLİYİN)

Şiəlikdə təvəlla və təbərra məzhəb üsullarından sayılır. Hər bir müsəlman təvəlla və .təbərra göstərişinə əməl etməlidir və bu vəzifədən boyun qaçıran günaha batır

Təvəlla" dedikdə Allah dostu Əli (ə) və onun mə`sum övladlarını dost bilmək nəzərdə"- .tutulur

Təbərra" dedikdə Allah dostu Əli (ə) və onun mə`sum övladlarını düşmən sayanlarla"- düşmənçilik nəzərdə tutulur. Əli (ə) və onun övladlarına dost olmaq

dedikdə sadəcə qəlb istəyi yox, ۱۲ mə`sum imama və onların hər birinin üç məqamına e`tiqad nəzərdə tutulur: Mərcəiyyət, qəzayi vilayət və siyasi vilayət məqamı (təkvini vilayət yalnız qəlb e`tiqadına aid olduğundan bu məqam qeyd olunmayıb; mərcəiyyət məqamı –dini rəhbərlik məqamı, qəzayi vilayət məqamı –mühakimə məqamı, siyasi (vilayət məqamı –siyasi rəhbərlik

Buna əsasən mə`sumları əməl və rəftarlarımızda nümunə götürmək vəzifəmizdir. Onların dini, siyasi məhkəmə və hüquqi göstərişlərini yerinə yetirmək vacibdir. Mə`sumların söz və əməlləri dəlil sayılmalıdır. Əgər belə etmiş olsaq təvəlla vəzifəsini .yerinə yetirmişik. Əks təqdirdə günaha batmışıq və cəzalandırılasıyıq

Təvəlla vəzifəsini bildikdən sonra təbərra vəzifəsi də aydınlaşır. Yə`ni hər bir müsəlman Allah dostu olan Əli (ə) və onun övladları ilə düşmənçilik edənlərə düşmən olmalıdır. Vilayət düşmənlərinin əməl və rəftarları heç bir sahədə dəlil ola bilməz və onlardan nümunə götürmək qadağandır. Təbərraya əməl etməsək günaha batmış .oluruq və buna görə cavab verəsiyik

Təvəlla və təbərra ilə müəyyən qədər tanış olduq. İndi isə təvəlla və təbərranın əhəmiyyət və tə`sirləri ilə daha yaxından tanış olmaq üçün mə`sumlardan nəql :olunmuş rəvayətlərə nəzər salırıq

## MƏ`SUMLARIN NƏZƏRİNDƏ TƏVƏLLA VƏ TƏBƏRRANIN ƏHƏMİYYƏTİ

Əziz Peyğəmbərimiz (s) buyurur: “Əli (ə) vilayəti (rəhbərliyi) Allahın vilayətidir, ona məhəbbət ibadətdir. Əli (ə) vilayətinə tabeçilik ilahi vacib göstərişdir. Onun dostları Allahın dostları, onun düşmənləri Allahın

(düşmənləridir. Onunla savaş Allahla savaşdır, onunla sülh Allahla sülhdür.”(۱)

Zürarə imam Baqirin (ə) dilindən belə nəql edir: “İslam beş əsas üzərində qurulub: Namaz, zəkat, həcc, oruc və vilayət.” Zürarə sual edir ki, bu beş şeydən ən üstünü nədir? Həzrət (ə) buyurur: “Vilayət daha üstündür. Çünki o biri dörd şeyin açarı (vilayətdir, vəliyy (imam) insanları onlara yönəldir.”(۲)

Əbuzər həzrət Peyğəmbərin (s) dilindən belə nəql edir: “Nuhun gəmisi onun qövmü üçün necə idisə, mənim Əhli-beytim (ə) da sizin üçün elədir. Ona süvar olan nicat (tapar, üz döndərən qərq olar.”(۳)

## SALEH ƏMƏLLƏRİN QƏBULUNDA TƏVƏLLA VƏ TƏBƏRRANIN ROLU

Şiəlikdə təvəlla və təbərra saleh əməllərin qəbulunda əsas şərtlərdən sayılır. Bu iki vəzifəyə əməl etməyən insanın heç bir əməli qəbul deyil. Bu mövzuda xeyli rəvayət nəql olunmuşdur. İmam Səccad (ə) həzrət Peyğəmbərin (s) dilindən belə nəql edir: “İbrahim (ə) ailəsi yad edilərkən sevinib Məhəmməd (s) ailəsi yad edilərkən qəlbi nifrətlə dolan qövmlərin halı necə olacaq?! And olsun Məhəmmədin (s) canı əlində olan kəsə, qiyamət günü yetmiş peyğəmbərin əməlini gətirən kəs mənim və mənim Əhli-beytimin (ə) vilayətindən uzaq olsa əməlləri qəbul olunmaz.”(۴) Əbu Həmzə Somali nəql edir ki, imam Baqirə (ə) dedim: “Ey peyğəmbər oğlu, sənə fəda olum, bir şəxs gündüz oruc tutub gecəni



---

۱- [۲۷۰] Səduq, “Əmali”, səh.۳۲.

۲- [۲۷۱] Vilayətul-fəqih, ۱-ci cild, səh.۱۳.

۳- [۲۷۲] Bihar, ۲۷-ci cild, səh.۱۱۲.

۴- [۲۷۳] Mustədrəkul-vəsail, ۱-ci cild, səh.۱۵۰.

ibadət etsə, sədəqə versə və sizin vilayəti qəbul etməkdən savay bütün xeyir işləri görsə necə olacaq? İmam (ə) gülümsünüb buyurdu: "Mən yer üzünün ən üstün yerlərində varam. Əgər bir bəndə ömrünün sonunadək daim rükn və məqam arasında səcdədə qalsa, amma bizim vilayəti tanımasa, ibadətdən bir fayda götürməz."(١)

İmam Sadiq (ə) buyurur: "Bəndə Allah-təalanın hüzurunda dayandığı vaxt ondan ilkin olaraq vacib namazlar, zəkat, oruc, həcc və biz Əhli-beytin (ə) vilayəti soruşular. Əgər bizim vilayəti qəbul edib bu e`tiqadla ölsə namazı, orucu, zəkatı, həcci qəbuldur. Əgər Allah hüzurunda bizim vilayəti təsdiqləməsə, Allah onun heç bir əməlini qəbul etməz."(٢)

İslam Peyğəmbəri (s) bu mövzuda buyurur: "Əgər bir şəxs ömrünün bütün gecələrini ibadətdə, bütün gündüzlərini oruc tutmaqla keçirsə, bütün sərvətini sədəqə versə, ömür boyu həccə getsə, amma Allah vəlisinin vilayətini tanımasa, Allahdan mükafat gözləməsin, o mö`minlərdən sayılmayacaq."(٣)

Yerin fələklərin qoynunda olsa,

Varlığın Kövsərdən əgər can alsa,

Miskinsən, fəqirsən, boşdadır əlin

Nəzərin Əlidən (ə) kənarda qalsa.

Digər bir rəvayətdə Allahın rəsulu (s) buyurur: "Hər kəs dövrünün imamını tanımamış ölsə, yə`ni itaəti vacib



---

١- [٢٧۴] Camei-əhadisi-şiə, ١-ci cild, səh.۴٢٧.
٢- [٢٧۵] Həmin mənbə, ١-ci cild, səh.۴٢٩.
٣- [٢٧۶] Səfinə, ٢-ci cild, səh.۶٩١.

olan imamı tanımasa cahiliyyət və bütpərəstlik dövrünün adamları kimi ölmüşdür.”(۱)

İmam Həsən Əsgəri (ə) buyurur: “Allah, Peyğəmbər (s) və Əli (ə) vilayətini tanımadan, onların düşmənləri ilə düşmən olmadan kimsənin ibadətlərini, yerlə ərş arası qədər Allah yolunda qızıl sədəqə versə qəbul etməz.”(۲)

Həzrət Əli (ə) Əhli-beyt (ə) haqqında buyurur: “Öz peyğəmbərinizin Əhli-beytinə (ə) diqqətli olun. Onların addım atdığı cəhətdən çıxmayın, onları izləyin. Onlar heç vaxt sizi doğru yoldan çıxarmaz, fəlakətə aparmaz. Onlar susan vaxt susun, ayağa qalxan vaxt qalxın. Onlardan qabağa keçməyin, yoxsa azarsınız. Onlardan dala qalmayın, yoxsa həlak olarsınız.”(۳)

İmam Riza (ə) imam Baqirdən (ə) nəql etdiyi rəvayətdə buyurur: “Allahla öz arasında pərdə olmamasını, Allahın onu, özünün Allahı görməsini istəyən kəs Məhəmməd (s) ailəsini dost bilməli, onun düşmənlərinə arxa çevirməli, onlardan olan imama iqtida etməlidir. Belə etsə, Allah ona, o da Allaha nəzər salar.”(۴)

## SÜNNƏ ƏHLİ ALİMLƏRİNİN NƏZƏRİNDƏ ƏHLİ–BEYT (Ə) MƏHƏBBƏTİ

Zəməxşəri, Fəxr Razi böyük sünni alimlərindən sayılır. Bu iki şəxs vilayət mövzusunda şiəliyə qarşı çıxanlardandır. Amma onlar bütün sə`ylərinə, bir çox hədisləri təhrif etmələrinə baxmayaraq növbəti hədisi mö`təbər saymağa məcbur olmuşlar. Həzrət Peyğəmbər



---

۱- [۲۷۷] Bihar, ۶۵-ci cild, səh.۲۳۹.

۲- [۲۷۸] Mustədrəkul-vəsail, ۴-cü cild, səh.۲۴۷.

۳- [۲۷۹] “Səlimi ibn Qeys”, səh.۷۱۵.

۴- [۲۸۰] Mustədrəkul-Səfinə, ۱۰-cu cild, səh.۴۴۵.

s) buyurur: “Məhəmməd (s) ailəsini sevən halda ölən şəhid ölmüşdür, Məhəmməd (s)) ailəsini sevən halda ölən bağışlanıb ölmüşdür, Məhəmməd (s) ailəsini sevən halda ölən tövbəkar ölmüşdür, Məhəmməd (s) ailəsini sevən halda ölən kamil imanla ölmüşdür... Məhəmməd (s) ailəsinə düşmən vəziyyətdə ölən kafir olaraq ölmüşdür; Məhəmməd (ailəsinə düşmən halda ölən behişt ətri duymayacaq.”(۱)

Bu iki alim də digər alimlər kimi hədisi ört-basdır edə bilmədiklərindən onun mə`nasını təhrif etmiş, bildirmişlər ki, hədisdə qəlb məhəbbəti nəzərdə tutulur. Hansı ki, həzrət Peyğəmbər (s) Əhli-beyt (ə) məhəbbəti dedikdə sadəcə qəlb məhəbbəti yox, itaət .nəzərdə tutmuşdur

## ƏHLİ-BEYT (Ə) ARDICILLARININ NƏZƏRİNDƏ VİLAYƏT

Əgər tarixi əsərlərə nəzər salsaq, görəcəyik ki, Əhli-beyt (ə) dostları vilayət məfhumunu mə`sumların baxışları əsasında əhatəli qəbul etmişlər. Həkim ibn Ətibə nəql edir ki, imam Baqirin (ə) xidmətində olduğum vaxt orada böyük cəmiyyət vardı. Bu vaxt əlində dəmir əsa bir kişi daxil oldu. O qapıda durub dedi: “Əssəlamu ələykə yəbnə rəsulillah və rəhmətullahi və bərəkatuh.” İmam (ə) buyurdu: “Ələykumus-səlam və rəhmətullahi və bərəkatuh.” Sonra qoca məclisdəkilərə üz tutub salam verdi, məclisdəkilər də onun salamını aldılar. Qoca üzünü imama (ə) tutub onun yanında yer ,istədi və dedi: “And olsun Allaha, Sizi də



---

.Təfsiri-Kəbiri-Fəxr Razi, ۲۷-ci cild, səh.۱۶۶; Əl-Kəşşaf, Zəməxşəri, ۴-cü cild [۲۸۱] -۱

Sizin dostlarınızı da sevirəm. Mənim bu məhəbbətim dünya malı üçün deyil. And olsun Allaha, sizin düşmənlərinizi də düşmən bilir, onlara nifrət edirəm. Allah şahiddir ki, bu düşmənçiliyimin səbəbi mənimlə onlara olan kin-küdurətim deyil. Sizin halal bildiyinizi halal sayıram, haram bildiyinizi haram. Sizin qiyamınız intizarındayam. Ey Peyğəmbər (s) övladı, sənə fəda olum, bu xüsusiyyətlərlə qurtuluşa ümid edə bilərəmmi?" İmam (ə) buyurdu: "Qabağa gəl." Həzrət (ə) onu yanında oturdub buyurdu: "Ey qoca, bir gün bir şəxs sənin mənə verdiyin sualla atam Səccada (ə) müraciət etdi. Atam onun cavabında buyurdu: "Əgər dünyadan getsən, Peyğəmbər (s), Əli (ə), Həsən (ə), Hüseyn (ə), Səccadla (ə) görüşərsən, qəlbin sərinləşər. Qəlbini fərəh bürüyər, şad olarsan, gözlərin işıqlanar. Sorğu mələkləri səninlə xoş rəftar edər. Canın buraya (imam (ə) əli ilə boğazını göstərdi) çatdıqda həyatda gözlərini işıqlandıracaq şeylər görərsən, ".bizimlə uca bir məqamda olarsan

Deyilənlər qocanı o qədər sevindirdi ki, onları ikinci dəfə eşitmək istədi. Ona görə sualını təkrarladı: "Ey Peyğəmbər (s) övladı, nə buyurdun?" İmam Baqir (ə) dediyi sözləri təkrarladı. Qoca ərz etdi ki, əgər ölsəm, Peyğəmbər (s), Əli (ə), Həsən (ə), Hüseyn (ə) və Səccadlamı (ə) görüşəcəyəm? Gözüm işıqlanacaq, qəlbim sərinləşəcəkmi? Yazan mələklər məni xoşluqlamı qarşılayacaq? Sağ qalsam Allah gözümə işıqmı verəcək? Sizinlə uca bir məqamda olacağammı?" O, bu sözləri deyib hönkürtü ilə ağladı. Onun halı hamıya tə`sir etdi, ətrafdakılar da ona qoşulub ağlamağa başladı. İmam (ə) ona nəvaziş göstərib mübarək əli ilə gözlərini sildi. Qoca başını qaldırıb ərz etdi: "Ey

Peyğəmbər övladı, mübarək əlini mənə ver.” Həzrət (ə) əlini qocaya tərəf uzatdı. Qoca onun əlini öpüb, gözlərinin üstünə qoydu. Yaxasını açıb imamın (ə) əlini sinəsinə çəkdi. .Sonra ayağa qalxıb sağollaşdı və getdi

İmam Baqir (ə) qoca gözdən itənədək onun arxasınca baxdı. Sonra üzünü ətrafdakılara tutub buyurdu: “Kim behişt əhli görmək istəyirsə, bu şəxsə baxsın.” Hədisi nəql edən Həkim ibn Ətibə deyir ki, heç bir əzadarlıq məclisi bu sayaq üzüntü və (göz yaşları ilə keçməmişdi.(۱)

## Nəticə

Mə`sum imamlara (ə), Əhli-beytə (ə) məhəbbət o qədər əhəmiyyətlidir ki, məzhəbdə əməli zərurətlərdən sayılmışdır. Şübhəsiz, təvəlla və təbərra kimi iki vəzifəni digər əməllərin qəbulu üçün şərt saymalıyıq. Əhli-beyt (ə) dostları ilə dostluq, onların .düşmənləri ilə düşmənçilik müsəlmana şəxsiyyət, hörmət gətirir

,Bülbülü tanıdan eşqidir inan

.Bir mücəssəmədir sevgisiz insan

## ("YAXINLARLA ƏLAQƏNİ KƏSMƏK ("QƏT`İ-RƏHİM

### İşarə

Allah qarşısında ən çirkin günahlardan biri yaxınlarla əlaqəni kəsməkdir. Həzrət Peyğəmbər (s) buyurur: “Yaxınlarla əlaqəni kəsən behişt üzü görməyəcək.”(۲) :Yaxınlarla əlaqəni kəsmək o qədər çirkindir ki, Qur`ani-məciddə bu barədə buyurulur



---

.Rozeyi-Kafi, ۸-ci cild, səh.۷۶ [۲۸۲] -۱

.Mizanul-hikmət, ۴-cü cild, səh.۸۸ -۲

Digər bir surədə də yaxınlarla əlaqəni kəsən insan ziyankar kimi tanıtdırılır: Əhd bağladıqdan sonra onu pozanlar, birləşdirilməsi əmr olunanı qıranlar, yer üzündə fəsad törədənlər, həqiqətən, aləmin ziyankarlarındandır."(۱)

Zikr olunmuş ayə və rəvayətlərdən "sileyi-rəhimin", yə`ni yaxınlarla əlaqənin əhəmiyyəti aydın olur. Yaxınlarla əlaqə saxlamaq, onlara yaxşılıq Allahın əmridir. Allahın rəsulu (s) buyurur: "Ümmətimin burada olanlarına və olmayanlarına, qiyamət gününədək kişilərin və qadınların sülbündəkilərə vəsiyyət edirəm ki, sileyi-rəhim etsinlər. Bu iş səfər və bir illik yol hesabına başa gəlsə belə yerinə yetirilsin. Çünki sileyi-rəhim dindəndir."(۲)

Yaxınlarla əlaqəni kəsməyin haramlığı, yaxınlarla əlaqənin əhəmiyyəti aydınlaşdıqdan sonra "rəhim" və "ərham" dedikdə nələrin nəzərdə tutulduğunu müəyyənləşdirək. Qət`i-rəhimin, yə`ni yaxınlarla əlaqəni kəsmək günahının ən bariz nümunəsi ata-ana ilə əlaqəni kəsməkdir. Yaxın qohumlarla əlaqənin kəsilməsi də qət`i-rəhim nümunələrindəndir. Bə`zi rəvayətlərdə uzaq qohumların "ərham" hökmündə olduğu bildirilir. Deməк insan "ərhamla", uzaq qohumlarla da əlaqəni kəsməməlidir. Qur`ani-kərim bir ailə daxilində ərlə



---

[۲۸۵] -۱ Bəqərə surəsi, ayə ۲۷.

[۲۸۶] -۲ Bihar, ۷۱-ci cild, səh.۱۱۴.

arvadı da yaxın və isti rabitəyə çağırır. Həyat yoldaşı ilə xoş rəftar etməyən insan da qət`i-rəhim günahına yol vermiş sayılır.(۱) Bə`zi təfsirçilər bir sıra digər halları da qət`i-rəhim saymışlar. Məsələn din qardaşları ilə rabitəni kəsmək, İslam ümməti ilə rabitəni kəsmək, müsəlmanların imamı (ə) ilə rabitəni kəsmək.(۲) Təfsirçilərin nəzərdə tutduğu üç qrupu ərham hesab etməsək də, uzaq qohumları yaxın qohumlar kimi yoxlamaq zəruridir. Bir sözlə, yaxınlarla əlaqəni kəsmək günahdır və bu günaha görə .cəza nəzərdə tutulur

Əlbəttə ki, sileyi-rəhim sadəcə qohumların evinə gedib, onları yada salmaq deyil. Əsas məsələ onların ehtiyaclarını aradan qaldırmaqdır. Əgər insan bir xeyir verə bilmirsə heç olmaya zərər verməsin. İmam Riza (ə) imam Sadiqin (ə) dilindən belə nəql edir: "Bir damla su ilə də olsa sileyi-rəhim et. Sileyi-rəhimin ən üstünü ziyarət etdiyin (qohumunun əzab-əziyyətini aradan qaldırmaqdır."(۳

Təəssüf ki, bu gün İslam cəmiyyətində hətta övlad-valideyn, bacı-qardaş rabitələri soyuyub. Bir çox qardaşlar və bacılar maddiyyat üstündə münaqişəyə qalxır, mövcud əlaqələri qırırlar. Çox övladlar dünya malına görə ata-ananı incidir. Ardıcıl şəkildə dili ilə :yaxınları incidənlər haqqında şair deyir

,Demə qohum, demə yaxın, demə can

.Bütün bunlar bir əjdaha, bir ilan

!?Daşdan da yaxını varmı şüşənin



---

.Təfsiri Təsnim, ۲-ci cild, səh.۵۵۹ [۲۸۷] -۱
.Təfsiri Təsnim, ۳-cü cild, səh.۵۵۸ [۲۸۸] -۲
.Səfinə, ۱-ci cild, səh.۵۱۴ [۲۸۹] -۳

!Zərər özündəndir, deyil özgənin

Yaxşı olmazmı ki, xalis peyğəmbər ayinlərindən faydalanaraq kin-küdurət yerinə !?məhəbbət toxumu əkək, hamımız sevgi-məhəbbət süfrəsi ətrafında toplanaq

,Məhəbbətdir acını şirinlədən

.Məhəbbətdir misi saf qızıl edən

,Məhəbbətlə dərdlər tapası şəfa

.Dərdə düşər canda gəzdirən cəfa

Məhəbbətdir zəhərli tikanları

.Çiçəyə döndərib, çağıran yarı

,Məhəbbətdən ağrı dönür ləzzətə

Hər gözəllik bağlıdır məhəbbətə

,Məhəbbətlə gülzar olur düzənlər

.Məhəbbətlə xoş ötüşəsi günlər

,Məhəbbət alovu döndərir nura

.Məhəbbət yol açır, yer qalmır zora

,Məhəbbətdən daş axıdır göz yaşı

.Məhəbbətdir muma döndərən daşı

,Məhəbbətlə son qoyulur qüssəyə

Məhəbbətdir darda gələn köməyə

,Məhəbbət döndərir qurdu quzuya

.Məhəbbət su səpir qaynar yağıya

,Məhəbbətdir asayişə yol açan

.Məhəbbətdir qaranlığa nur saçan

,Məhəbbətdir ölülərə verən can

.Məhəbbətlə boyun əyəsi sultan

**?Bəs sileyi–rəhimin xeyiri, qət`i–rəhimin zərərləri nədir**

**a) Qət`i–rəhimin tə`sirləri**

١. Korluq, karlıq, dəyərdən düşmə.(١)

٢. Yoxsulluq –Həzrət Əlinin (ə) dilindən belə nəql olunur: "Qət`i-rəhim yoxsulluq gətirir."(٢)

٣. Gənc yaşda ölüm –İmam Sadiq (ə) buyurur: "Qət`i-rəhim insanı məhvə aparan günahdır."(٣)

٤. Dünya dərdləri –İmam Baqir (ə) buyurur: "Üç xüsusiyyət insanı ölən günədək dərdə salar: Sitəmkarlıq, qət`i-rəhim, Allahla savaş olan yalan and. Həqiqətən, mükafatı ən tez verilən əməl sileyi-rəhimdir. Həqiqətən, bir-biri ilə mehribanlıq edib sileyi-rəhimi gözləyənlərin var-dövləti, sərvəti artır. Şübhəsiz, yalan and və qət`i-rəhim evləri viran qoyur, onun əhlini fənaya düçar edir."(٤)

٥. Ne`mətlərin zaya çıxması –Həzrət Əli (ə) buyurur: "Yaxınlarla əlaqəni kəsmək ne`mətləri puça çıxarır."(٥)

٦. Bəlaların nazil olması –Həzrət Əli (ə) buyurur: "Yaxınlarla əlaqəni kəsmək intiqama səbəb olur."(٦)

٧. Ölüm –Hüzeyfə ibn Mənsur imam Sadiqin (ə) dilindən belə nəql edir: "Qohumlarla əlaqəni kəsməkdən qorxun. Bu, insanların məhvinə səbəb olur."(٧)

٨. İmam Sadiq (ə) həzrət Peyğəmbərin (s) dilindən belə nəql edir: "Qohumlarla bağlılıq ömrü uzadır, gizli sədəqə Allahın qəzəbini soyudur. Həqiqətən, qohumlarla



---

١- [٢٩٠] Məhəmməd surəsi, ayə ٢٢, ٢٣.

٢- [٢٩١] Bihar, ٧۶-cı cild, səh.٣١۴.

٣- [٢٩٢] Həmin mənbə, ٧۴-cü cild, səh.٩۴.

۴- [٢٩٣] Tuhəful-uqul, səh.٢٣٨.

۵- [٢٩۴] Ğurərul-hikəm, ۴-cü cild, səh.۵٠٩.

۶- [٢٩۵] Həmin mənbə, səh.۵٠۵.

٧- [٢٩۶] Üsuli-Kafi, ٣-cü cild, səh.٣۶.

əlaqəni kəsmək, yalan and evləri boş və viran qoyur, qohumluq əlaqələrini ağırlaşdırır. Həqiqətən, qohumluq əlaqələrinin ağırlaşması ilə nəsillər kəsilir.”(1)

9. Şər insanların hakimliyi –İmam Baqir (ə) buyurmuşdur: “Qohumluq əlaqələri kəsilən zaman mal-mülklər pislərin əlinə düşəcək.”(2)

10. Tənhalıq –Həzrət Əli (ə) buyurur: “Qohumluq əlaqələrini kəsən kimsənin dost-yoldaşı qalmır.”(3)

11. Ömür və malın bərəkətsizliyi –Həzrət Əli (ə) buyurur: “Qohumluq əlaqələrini kəsən insanın ömrü və malı artmaz.”(4)

12. İmansızlıq –Həzrət Əli (ə) buyurur: “Qohumları ilə əlaqəni kəsən insanın Allaha imanı yoxdur.”(5)

13. Behiştdən məhrumluq –Allahın rəsulu (s) buyurur: “Qohumluq əlaqələrini kəsən insan behiştə daxil olmaz.”(6)

14. Qiyamətdə ilahi yardımdan məhrumluq – Allahın rəsulu (s) buyurur: “Allah-təala qiyamət günü iki dəstəyə lütf nəzəri yetirməz: Qohumluq əlaqələrini kəsənlər və pis qonşular.”(7)

15. Axirət mükafatından məhrumluq –Allahın rəsulu (s) buyurur: “Öz yaxınlarının ehtiyacını aradan qaldırmağa çalışan insanın əcr və mükafatı daha böyükdür. Yaxınları ilə əlaqəni kəsib zaya çıxaranı



---

1- [297] Səfinə, 1-ci cild, səh.514.

2- [298] Vəsailuş-şiə, 5-ci cild, səh.78.

3- [299] Ğurərul-hikəm, 5-ci cild, səh.78.

4- [300] Həmin mənbə, səh.73.

5- [301] Həmin mənbə, 6-cı cild, səh.74.

6- [302] Bihar, 71-ci cild, səh.91.

7- [303] Nəhcül-bəlağə, səh.11.

Allah xeyir əməl sahiblərinə mükafat verəcəyi gün yaxşı mükafatdan məhrum edər.”(١)

**b) Sileyi–rəhimin tə`sirləri**

١. Uzun ömürlük –İmam Sadiq (ə) həzrət Peyğəmbərin (s) dilindən belə nəql edir: “Sileyi-rəhim ömrü uzadar, gizli sədəqə Allahın qəzəbini soyudar.”(٢)

Digər bir rəvayətdə Allahın rəsulu (s) buyurur: “Ömrünün uzunluğunu, ruzisinin çoxluğunu istəyən insan sileyi-rəhim etsin. Çünki bu yaxınlıq qiyamət günü dilə gəlib deyər: “Pərvərdigara, mənimlə bağlanana rəhmindən əta et və mənimlə əlaqəni kəsəndən rəhmət və lütfünü kəs.”(٣) İmam Riza (ə) buyurur: “İnsan ömrünün sonuna üç il qalmış sileyi-rəhim etsə (qohumlara yoxlasa,) Allah bu üç ili otuz ilədək uzadar. Allah istədiyini edəndir.”(٤)

٢. Axirət hesabının asanlaşdırılması–İmam Sadiq (ə) buyurur: “Həqiqətən, sileyi-rəhim və xeyirxahlıq qiyamət hesabını asanlaşdırar, insanın günahını yuyar. Beləsə, sadəcə salam verməklə olsa da sileyi-rəhim edin, qardaşlarınıza qarşı xeyirxah olun.”(٥)

٣. Bəlaların dəf`i –İmam Sadiq (ə) buyurur: “Həqiqətən, sileyi-rəhim işləri paka çıxarar, mal-mülkü artırar, qiyamət hesabını yüngülləşdirər, bəlanı dəf edər, ömrü uzadar.”(٦)



---

١- [٣٠٤] Vəsailuş-şiə, ۶-cı cild, səh.٥۶٥.
٢- [٣٠٥] Səfinə, ١-ci cild, səh.٥١۴.
٣- [٣٠۶] Səfinə, ١-ci cild, səh.٥١٥.
۴- [٣٠٧] Bihar, ١-ci cild, səh.١٠٨.
٥- [٣٠٨] Səfinə, ١-ci cild, səh.٥١٥.
۶- [٣٠٩] Həmin mənbə, səh.٥١۴.

۴. Var-dövlətin artması –İmam Baqir (ə) buyurur: “Qohumlarla əlaqə işləri paka çıxarar, ömrü uzadar, bəlaları dəf edər, mal-mülkü artırar, ölümü tə`xirə salar, ruzini artırar, ailədə dostluq yaradar. Beləsə, Allah qorxusundan sileyi-rəhim edilməlidir.”(۱)

۵. Yüz şəhidin savabı –Həzrət Peyğəmbər (s) buyurur: “Hər kəs malı və canı ilə qohumlara doğru addım atıb onlarla əlaqə saxlasa Allah-təala ona yüz şəhidin mükafatını verər, hər addımına ۴۰ min savab əta edər, ۴۰ min günahını bağışlayar, ۴۰ min dərəcə yüksəldər. O yüz il səbr və dözümlə, Allah savabını əldə etmək intizarında ibadət etmiş kəs kimidir.”(۲)

۶. Yoxsulluqdan uzaqlıq –İmam Riza (ə) həzrət Peyğəmbərin (s) dilindən nəql edir:. Həqiqətən, xeyir əməl pis işlərin qarşısını alır, sədəqə Allahın qəzəb odunu söndürür, sileyi-rəhim ömrü uzadır və yoxsulluğu aradan qaldırır. “La hovlə və la quvvətə illa billah” sözlərinin zikri ۹۹ dərdin dərmanıdır və bu dərdlərin ən kiçiyi qəm-qüssədir.”(۳)

۷. Nəfs paklığı –İmam Sadiq (ə) buyurur: “Sileyi-rəhim əxlaqı gözəlləşdirir, ələ səxavət verir, nəfsi paklaşdırır, ruzini artırır, ölümü tə`xirə salır.”(۴)

۸. Allah-təalaya yaxınlaşma vasitəsi –İmam Sadiq (ə) buyurur: “Xeyir əməl zəkatdan fərqli bir işdir. Xeyir əməl və sileyi-rəhim vasitəsi ilə insan Allaha yaxınlaşır.”(۵)



---

۱- [۳۱۰] Üsuli-Kafi, ۳-cü cild, səh.۲۳۰.

۲- [۳۱۱] Vəsailuş-şiə, ۶-cı cild, səh.۲۸۷.

۳- [۳۱۲] Bihar, ۷۴-cü cild, səh.۸۸۷.

۴- [۳۱۳] Üsuli-Kafi, ۳-cü cild, səh.۲۳۰.

۵- [۳۱۴] Rövzətul-vaizin, səh.۴۳۲.

Əməllərin paklığı –İmam Baqir (ə) buyurur: “Sileyi-rəhim işləri paka çıxarır, xeyir .۹ əməli artırır, bəlaları dəf edir, qiyamət gününün hesabını yüngülləşdirir, ölümü tə`xirə (salır.”(۱

Asan ölüm –Həzrət Musa (ə) Allahdan soruşur: “Sileyi-rəhim edənin (qohumluq .۱۰ əlaqələrinin möhkəmləndirənin) mükafatı nədir?” Allahdan xitab olur: “Əcəli tə`xirə ”.düşür, ölüm sıxıntıları onun üçün asanlaşır

Pis ölümlərin qarşısının alınması –İmam Sadiq (ə) həzrət Peyğəmbərin (s) dilindən .۱۱ belə nəql edir: “Sileyi-rəhim qiyamət günü hesabını yüngülləşdirir, pis ölümün qarşısını (alır.”(۲

Əcəlin tə`xirə düşməsi –İmam Baqir (ə) və ya imam Sadiq (ə) buyurmuşdur: “Ey .۱۲ Məysir (şiələrdən birinin adı) güman edirəm ki, sən atanın övladları (yaxınları) ilə yaxşı münasibət saxlayırsan.” Məysir ərz edir: “Bəli, sənə fəda olum, mən bazarda bir şəxsin qulamı idim və iki dirhəmini muzd alırdım. Bu pulun bir dirhəmini bibimə, o biri dirhəmi xalama verirdim.” İmam (ə) buyurdu: “Agah ol, and olsun Allaha, ölüm iki dəfə sənin (sorağına gəlib və hər dəfə tə`xirə düşüb.”(۳

Mal-mülkün hifzi - Əmirəl-mö`minin Əli (ə) buyurur: “Ne`mətlər qohumlara yaxınlıq .۱۳ (vasitəsi ilə hifz olunur.”(۴



---

.Muhəccətul-bəyza, ۳-cü cild, səh.۴۲۰ [۳۱۵] -۱

.Səfinə, ۱-ci cild, səh.۵۱۴ [۳۱۶] -۲

.Vəsailuş-şiə, ۱۵-ci cild, səh.۲۴۵ [۳۱۷] -۳

.Ğurərul-hikəm, ۲-ci cild, səh.۵۱۳ [۳۱۸] -۴

## NƏTİCƏ

Qət`i-rəhim” dedikdə yaxınlarla əlaqəni kəsmək nəzərdə tutulur. Bu iş mənfur günah“ sayılmışdır. Şəriətdə yaxınlarla əlaqəyə xüsusi diqqət verilir. Yaxınlarla əlaqəni kəsmək ümmətin vəhdətini pozur, ailə bünövrəsini dağıdır. Qohumlar bir-biri ilə əlaqə saxlamasa İslam ümməti vəhdətdə olub öz varlığını sübuta yetirə bilməz. Qohumlarla əlaqənin əxlaqi və ictimai faydalarından əlavə siyasi-fəlsəfi əhəmiyyəti də var. Ətrafındakılarla əlaqəsi olmayan insan bir növ qınına çəkilir və ülfətin şirinliyini dadmır. Həyata mə`na verən mehribanlıq və ülfətdir. Uyğun əlaqələri qıran insan dünya evinin !?möhnətlərinə necə tab gətirər

İkiüz lalələr, bivəfa güllər

!?Çəməndən-çiçəkdən nə qayğı gözlər

### (SPİRTLİ İÇKİLƏR (ŞƏRABXORLUQ

İslam peyğəmbəri (s) mə`nalı və qısa bir kəlamda buyurur: “Şərab bütün çirkin işlərin anasıdır.” Həzrətin (s) uyğun buyuruğu şərabdan qaynaqlanan bütün problemləri işıqlandırır. Hazırkı kəlam İslam ümmətlərinin bütün dini-ictimai sferalarının .sərlövhəsidir

əsr öncə, bəşər cəmiyyəti cəhalət qaranlığında uyuyarkən hər şeyə səthi baxılır, ۱۴ .dərdlərin kökü araşdırılmırdı

İslam Peyğəmbəri (s) qısa və mə`nalı bir cümlə ilə şərabı bütün çirkin əməllərin anası kimi tanıtdırdı, içki düşkünlüyünü cəmiyyətdəki bütün çirkinliklərin qaynağı kimi təqdim etdi. Bu gün İslam hökmlərindən və

Peyğəmbər (s) buyuruqlarından xəbərsiz olan dünyada baş verən cinayətləri, fəsadları, qətl-qarətləri, təcavüzkarlıqları və digər çirkin işlərin statistikası ilə tanış olsaq, İslam hökmləri və Peyğəmbər (s) sünnəsinin həqiqəti üzə çıxar. Bütün bu .gerçəkliklər İslamın həyatverici qanunlarının ilahi mö`cüzə olduğunu təsdiqləyir

## İÇKİ DÜŞKÜNLÜYÜNÜN ACI NƏTİCƏLƏRİ

### İşarə

Bugünkü dünyada spirtli içkilərdən qaynaqlanan cinayətlərlə bağlı rəqəmləri təkrarlamaq fikrində deyilik. Bu sayaq araşdırmalarla maraqlananlar beynəlxalq məcmuələrə müraciət edə bilər. Müasir elmi tədqiqatlarda yaranış fəlsəfəsi düzgün müəyyənləşdirilmədiyindən onların dedikləri və yazdıqları şəxsi təcrübədən başqa bir .şey deyil. Onların bütün sə`y və təlaşları insan təfəkkürü çərçivəsindən kənara çıxmır

Spirtli içkilərin ümumbəşəri zərərlərini yalnız qeybi mə`lumatlardan faydalanan peyğəmbərlər və imamlar düzgün qiymətləndirə bilər. Yalnız bu mə`sum insanlar .bəşəriyyəti çulğamış təhlükəni yetərincə təsvir etməyə qadirdir

İndi isə mə`sum imamların (ə) spirtli içkilərin viranedici fəsadlarından danışan .rəvayətlərini nəzərdən keçirək

### Abırsızlıq, iffətsizlik .١

Bə`zi rəvayətlərə əsasən şərab, spirtli içkilər insanın şəxsiyyətini alçaldır, onun həya-abırını əlindən alır. Spirtli içki qəbul etmiş insan ictimai-dini, əxlaqi dəyərlərə e`tinasızlıq göstərir, nəticədə istənilən cinayətə

əl atır. İmam Səccad (ə) buyurur: “İçki düşkünlüyü və qumarbazlıq iffət pərdəsini yırtan, şəxsiyyəti alçaldan günahlardandır.”(١)

## Həqiqəti anlamamaq .٢

İnsanı heyvandan üstün edən onun ağıl və düşüncəsidir. İnsan heyvandan fərqli olaraq həqiqətləri dərk edir, haqqı batildən seçir. Hansı ki, şərab insanın bu imtiyazını əlindən alır. Şərab içmiş insan heyvandan da aşağı alçalır. Çünki şərab insanı süstləşdirib ağlını dumanlandırır, həqiqəti dərk edib haqqı batildən seçməsinə mane olur. İmam Riza (ə) buyurur: “Allah şərabı haram etmişdir. Çünki şərab fəsad qaynağıdır. Bundan əlavə, o ağılın həqiqətləri dərketmə gücünü alır, insanı xalq qarşısında abırdan salır, üzündəki həyanı aparır.”(٢)

## Bütün pisliklərin kökü .٣

Söhbətimizin əvvəlində həzrət Peyğəmbərin (s) buyuruğuna istinad edərək bildirdik ki, şərab bütün pisliklərin anasıdır. İndi isə bu mövzuda mə`sumların digər rəvayətləri ilə tanış olaq. Bir zındıq (Allahı inkar edən şəxs) imam Sadiqin (ə) xidmətinə gəlib soruşdu: “Nə üçün Allah şərabı haram edib, axı onun böyük ləzzəti var?” Həzrət (ə) buyurdu: “Allah şərabı ona görə haram buyurub ki, şərab pisliklərin anası, bütün çirkin işlərin köküdür. Şərab içən insan məst halda ağlını əlindən verir, Allahı tanımır, istənilən günaha yol verir, hörmətsizlik edir, qohumlardan uzaqlaşır, hədyan



---

.Bihar, ١۶-cı cild, səh.١۶٢ [٣١٩] -١

.Mustədrəkul-vəsail, ٣-cü cild, səh.١٣٧ [٣٢٠] -٢

danışır. Məst insanın ixtiyarı şeytanın əlindədir. Şeytan əmr etsə ki, ona səcdə etsin, edər. Şərabxor şeytanın onu çəkdiyi tərəfə gedir."(۱) Digər bir rəvayətdə imam Baqir (ə) buyurur: "Allaha qarşı heç bir günah sərxoşluq kimi deyil. Ağlını itirmiş məst insan vacib namazı tərk edər, ana və bacısı ilə zinaya yol verər."(۲) Oxşar məzmunla həzrət Əlinin (ə) buyuruğunda rastlaşırıq: Həzrət Əliyə (ə) deyildi: "Siz düşünürsünüz ki, şərab oğurluq və zinadan pisdir?" Həzrət (ə) buyurdu: "Bəli. Zinakar başqa günaha yol verməyə də bilər. Amma şərab içib məst olan insan həm zina edir, həm adam öldürür, həm namazı tərk edir."(۳)

Allahın rəsulu (s) buyurur: "Şərab bütün çirkinliklərin kökü və ən böyük günahdır. Şərab içən insan ağlını itirib anasına, bibisinə və xalasına da təcavüz edə bilər."(۴) İmam Sadiq (ə) Müfəzzəlin şərabın haram olma səbəbi ilə bağlı sualına belə cavab verir: "Allah şərabı onun tə`sirlərinə görə haram buyurmuşdur. Çünki şərab insanı çaşdırır, insaniyyət nurunu əldən alır, alicənablığı viran qoyur, insanı günaha çəkir, onu qan tökməyə, zinaya vadar edir. Məst insanın öz məhrəmlərinə təcavüz etməyəcəyinə zəmanət yoxdur. Şərab içən bədbəxtlikdən savayı heç nə qazanmır."(۵) Başqa bir rəvayətdə imam Sadiq (ə) şərabın, yoxsa namazı tərk etməyin böyük günah olması ilə bağlı buyurmuşdur: "İçki düşkünlüyü namazı tərk etməkdən



---

۱- [۳۲۱] Vəsailuş-şiə, ۱۷-ci cild, səh.۲۵۳.

۲- [۳۲۲] Vəsailuş-şiə, ۱۷-ci cild, şərab babı.

۳- [۳۲۳] Fürui-Kafi, ۶-cı cild, səh.۴۳.

۴- [۳۲۴] Kənzul-ummal.

۵- [۳۲۵] Bihar, ۷۹-cu cild, səh.۱۲۳.

(də pisdir. Şərab içən elə bir hala düşür ki, nə böyük Allahı, nə də özünü tanıyır."(١)

### Sağlamlığa zərəri .۴

Spirtli içkilər təkcə insanın düşüncəsinə yox, orqanizminə də mənfi tə`sir göstərir. İmam Riza (ə) bu barədə buyurur: "Şərab ürək xəstəliklərinə səbəb olur. Onun tə`sirindən dişlər qaralır, ağız pis qoxu verir. Bütün bunlardan əlavə, daxili orqanları (zədələyir."(٢)

### Təfriqə və ayrılıq .۵

Cəmiyyət üçün ən böyük üstünlük onun fərdlərinin birliyidir. Cəmiyyətdə vəhdət nə qədər möhkəm olarsa, izzət və kəramət də bir o qədər yüksələr. İstənilən bir təfriqə və parçalanma isə cəmiyyəti süquta uğradır. Qur`an aşkar şəkildə şərabı təfriqə və ayrılıq amili sayır. Surələrdən birində oxuyuruq: "Həqiqətən, şərab, qumar, bütlər və fal oxları şeytan əməlindən olan çirkinliklərdir. Onlardan uzaq olun, bəlkə nicat tapasınız. Həqiqət budur ki, şeytan şərab və qumar vasitəsi ilə sizin aranıza kin-küdurət salmaq istəyir. Bununla sizi Allah zikrindən və namazdan uzaqlaşdırmağa çalışır. Yoxsa hələ də (Allahın qadağasını qəbul etmirsiniz?!"(٣)

### Şəfaətdən məhrumluq .۶

Şiələrin iftixarlarından biri pak Peyğəmbər (s) ailəsinə bağlılıqdır. Onlar bu bağlılığa görə qiyamətdə şəfaətə ümid edirlər. Amma aşağıda nəql olunmuş



---

.Bihar, ۷۹-cu cild, səh.۱۳۳ [۳۲۶] -۱
.Fürui-Kafi, ۳-cü cild, səh.۱۳۷ [۳۲۷] -۲
.Maidə surəsi, ayə ۹۰, ۹۱ [۳۲۸] -۳

rəvayətlərdən görünür ki, içki düşkünü bundan məhrumdur. Həzrət Peyğəmbər (s) buyurur: “And olsun Allaha, şərabxor qiyamət günü mənim şəfaətimə nail olmaz və Kövsər kənarında mənə yaxınlaşmaz.”(١) Digər bir rəvayətdə imam Sadiq (ə) buyurur: (“Şərabxor bizim şəfaətimizdən məhrumdur və nifrətimizi qazanıb.”(٢

### Namazın qəbul olunmaması .٧

Həzrət Peyğəmbər (s) buyurur: “Şərab bütün çirkinliklərin köküdür. Hər kəs şərab içsə, qırx gün namazı qəbul olunmaz. Canında şərab ölən insan cahiliyyət dövründə ölmüş (kimidir.”(٣

### Evin viran qalması və bərəkətsizliyi .٨

Həzrət Peyğəmbər (s) buyurur: “Dörd şeydən biri evə daxil olsa, həmin ev elə viran qalar ki, heç bir bərəkət onu abad etməz. Bu dörd şey xəyanət, oğurluq, şərabxorluq (və zinadır.”(٤

## ŞƏRAB İÇƏNİN CƏZASI

Şiə fəqihlərinin ümumi rə`yinə əsasən, şərabxora səksən çubuq vurulmalıdır. Burada .şərabın az və ya çox içilməsinin, xalis və ya qatqılı olmasının heç bir fərqi yoxdur

İki dəfə şərab içib cəzalandırılmış insan üçüncü dəfə bu işə yol versə şəriət onun ölümünə hökm verir. Sərxoşluğu ilə tanınmış, amma heç vaxt şərab içməsi



---

١- [٣٢٩] .Mustədrəkul-vəsail, ٣-cü cild, səh.١٣٧

٢- [٣٣٠] .Fürui-kafi, ۶-cı cild, səh.۴٠٠

٣- [٣٣١] .Kənzul-ummal, ۵-ci cild, səh.١٣١٨٣

۴- [٣٣٢] .Bihar, ٧٩-cu cild, səh.١۴٨

(sübuta yetirilməmiş şəxs birinci dəfə sərxoş halda tutulduqda ona bir hədd qoyulur.(١)

Əgər bir müsəlman şərab içməyi və ya onu satmağı halal sayarsa müqəddəs şəriət (onun üçün e`dam hökmü nəzərdə tutur.(٢)

Əgər bir şəxs mübarək ramazan ayında və ya müqəddəs məkanlardan birində şərab .içsə, barəsində hədd icrasından (səksən qamçıdan) əlavə də bə’zi tədbirlər görülür

## ŞƏRABXOR ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ İCTİMAİ CƏZALAR

İslamda şərbxoru qamçılamaqla yanaşı onun üçün ictimai cəzalar da nəzərdə tutulmuşdur. Bu mövzuda bir neçə rəvayətə nəzər salaq. Əziz İslam Peyğəmbəri (s) buyurur: “Allah mənim vasitəmlə şərabı haram buyurduqdan sonra hər kəs şərab içsə, elçi getdikdə ona qız verməmək, şəfaət istədikdə onu qəbul etmək, bir söz danışdıqda onu təsdiqləmək, onu e`tibarlı saymaq bəyənilmir. Bir şəxs qarşı tərəfin şərab içdiyini bilərək ona əmanət tapşırsa, Allah bu əmanətə zamin deyil. Bu əmanət itsə Allah nə əcr verər, nə də əvəzini ödəyər.”(٣) Digər bir rəvayətdə imam Sadiq (ə) buyurur: “Şərabxor ərə təslim olan qadın göydəki ulduzlar qədər günaha batmışdır. Bu ərdən vücuda gələn övlad pak deyil. Allah bu qadının tövbə və fidyəsini qəbul etməz. Yalnız bu kişi öldükdən və ya həmin qadını azad buraxdıqdan sonra qadının tövbəsi (qəbuldur.”(۴)

səh:۱۵۹

---

.Təhrirul-vəsilə, ٢-ci cild, səh.۴٨٠ [٣٣٣] -١

.Camei-Əbbasi, səh.۴٢٣ [٣٣۴] -٢

.Vəsailuş-şiə, ۵-ci cild [٣٣۵] -٣

.Ləaliyul-əxbar, səh.٢۶٧ [٣٣۶] -۴

## ZİYALI VƏ ŞƏRAB

Spirtli içkilərin fitnə-fəsadı, zərər-ziyanı ədəb ictimaiyyətində diqqət mərkəzində olmuşdur. Hicri V əsrdə yaşamış həkim Sənai, batil dövr şe`r ustadlarından İrəc Mirza kimi mütəfəkkirlər şərabın düşüncəyə zərəri haqqında dəyərli əsərlər yazmışlar. Bu :əsərlərdən bə`zi nümunələri nəzərdən keçirək

,Alimin, aqilin gücü ağılda

!?Ağıl söz kəsərmi məst olan halda

,Sərxoşun gözündə hər şey başayaq

.Oyaqlar yuxuda, yatmışlar oyaq

,Sərxoş əta etsə, meydan görərlər

.Əli qana batsa, özün sürərlər

Qaranlıq bir gecə amansız İblis

.Bir gəncin evində düzəltdi məclis

Dedi ki, ölüməm, aman istəsən

.Üç yoldan birini seçməlisən sən

,Ya öldürməlisən qoca atanı

.Ya da tökülməli bacının qanı

,Üçüncü bir yol var içəsən şərab

.Təşnə varlığını edəsən sirab

,Titrətdi cavanı ölüm qorxusu

.Silkəndi, gözünün qaçdı yuxusu

,Düşündü ata da, bacı da əziz

.Onları öldürmək qəlizdən qəliz

,Qərara gəldi ki, nuş etsin şərab

.Bununla ölümə versin rədd cavab

Amma içib ağlın itirən kimi

.Oldu doğma ata, bacı qənimi

,Ya Rəbb, lütf göstər bəşəriyyətə

.Bir yol son qoyulsun bu şər adətə

## OĞURLUQ

### İŞARƏ

Oğurluq əksər cəmiyyətlərdə müxtəlif şəkillərdə özünü biruzə verən və ictimai bünövrələri dağıdan ən çirkin və ən mənfur günahlardan biridir. Tarix boyu bütün dinlər, məzhəblər, toplumlar və qanunlar oğurluğa görə ağır cəzalar nəzərdə tutmuşlar. Belə bir reaksiya ilə təkcə müasir dövrümüzdə yox, ən ibtidai quruluşlarda da rastlaşmaq olur. Keçmiş qəbilə və tayfalarda ağsaqqallar və tayfa başçıları .oğurluğa görə cəzaya məhkum edirdi

Sadəcə qədim dövrlərdə oğru tənbeh olunur, ondan intiqam alınırdı. Malı əldən getmiş insan isə özü bu malı axtarmağa məcbur idi. O öz malını bir başqasının əlində tapdıqda yalnız zorla onu geri qaytara bilirdi. Bu səbəbdən də ibtidai quruluşlarda oğrunun cəzalandırılması kin-küdurət yaradır, qan davalarına səbəb olurdu. Bə`zən isə bir .oğurluq səbəbindən bir ailə, bütöv bir tayfa əziyyət çəkirdi

Təbii ki, bir cəmiyyətdə xalqın malına təcavüz edib onun rahatlığını pozan oğru cəzalandırılmazsa, hərc-mərclik yaranar, cəmiyyətdə anarxist təfəkkür hakim olar. Oğurluq da digər günahlar kimi xalq arasında yayıla bilir. Malına təcavüz olunan insanlar oğrunun cəzalandırılmadığını gördükdə əlləri işdən soyuyur. Belə bir cəmiyyətdə zəhmətkeş insanlar gündəlik ruzisini qazanmaqla kifayətlənir. Nəticədə .cəmiyyətdə tənbəllik yaranır, istehsal süquta uğrayır

Digər bir tərəfdən, insanlar zəhmətlə əldə etdikləri malı asanlıqla əldən vermək istəmədiklərindən intiqam

almağa çalışır, imkan həddində qarşı tərəfi cəzalandırırlar. Belə bir cəmiyyətdə tədricən oğurluq genişlənir, halal zəhmət arxa plana keçir. Bəli, hər bir cəmiyyət intizam və əmin-amanlıq arzusundadır. Bütün normal insanlar əxlaqi və insani dəyərlərin hakim olduğu cəmiyyətdə yaşamağa üstünlük verir. Bu sayaq istəklərin həyata keçirilməsi üçün ilk növbədə oğurluğun qarşısı alınmalı, oğru cəzalandırılmalı, .dəymiş zərər ödənməlidir

## İSLAMDA OĞURLUĞUN CƏZASI

İslam oğurluğun məqsəd və nəticəsini nəzərə alaraq onu ən ciddi ictimai fəsadlardan sayır, oğru üçün əl və ayağın kəsilməsi, oğurluq təkrarlandıqda isə e`dam kimi cəzalar nəzərdə tutur. Qur`anda oğurluğun cəzası aşkar şəkildə bəyan olunur və bildirilir ki, oğrunun əli kəsilməlidir: “Oğru kişinin və oğru qadının etdiyi işə görə, Allah tərəfindən cəza olaraq əlini kəsin. Allah qüdrət və hikmət sahibidir.”(١) İmam Riza (ə) buyurur: “Allah oğurluğu haram buyurub. Əgər oğurluq halal olsaydı bu iş qətl-qarətə səbəb olardı. İnsanların bir-birlərinin malını qəsb etməsi qətl, savaş, kin-küdurətlə nəticələnir. Bundan əlavə, ticarət və sənətkarlıq tərk olunur, haqsız mal-mülk əldə .edilir

Oğrunun sağ əli ona görə kəsilir ki, o sağ əli ilə əşyaya toxunur və bu əl bədənin ən işlək üzvüdür. Əlinin kəsilməsi oğru üçün cəza, haram yolla mal əldə etmək istəyənlər üçün ibrətdir. Bəli, oğru daha çox sağ əli ilə günaha yol verdiyi üçün onun bu üzvü (kəsilir.”(٢



---

.Maidə surəsi, ayə ٣٨ [٣٣٧] -١

.Vəsailuş-şiə, ١٨-ci cild, səh.۴٨١ [٣٣٨] -٢

## OĞURLUĞUN DÜNYA VƏ AXİRƏT TƏ`SİRLƏRİ

۱. Bərəkətsizlik və evin viran qalması

Həzrət Peyğəmbər (s) buyurur: “Dörd şeydən biri evə daxil olarsa həmin ev viran qalar, bərəkətdən düşər: Xəyanət, oğurluq, şərabxorluq və zina.”(۱)

۲. Saleh əməllərin qəbul olunması

İmam Baqir (ə) buyurur: “Hiylə, sələm, xəyanət və ya oğurluq yolu ilə mal əldə edən insan həmin malı zəkata, sədəqəyə, həcc və ya ümrəyə xərcləsə ondan qəbul olunmaz.”(۲)

۳. Bütpərəstliyə oxşarlıq

İmam Sadiq (ə) buyurur: “Daim zina edən, oğru və şərabxor insan bütpərəst kimidir.”(۳)

۴. Rüsvayçılıq

İmam Riza (ə) buyurur: “Bir şəxs o vaxta qədər oğurluq edir ki, oğurladığı malın qiyməti əlin diyəsi həddinə çatsın. (O vaxtadək onun oğurluğu məxfi qalır.) Həmin vaxt Allah (oğurluğu) aşkarlayır (oğru rüsvay olur).”(۴)

۵. Halal ruzinin əskilməsi

Allahın yanında hər bir insan üçün ruzi ayrılmışdır. İnsan halal yolla bu ruziyə çatasıdır. Amma günah yola üz tutub haram qazanca əl atan insanın Allah yanındakı halal ruzisi kəsilir. Həzrət Peyğəmbər (s) bu barədə buyurur: “Cəbrail qəlbimə çatdırdı ki, kamil ruzisini alanadək heç bir insan ölməz. Təqva yolunu seçin, həddi



---

۱- [۳۳۹] Bihar, ۷۶-cı cild, səh.۱۸۷.

۲- [۳۴۰] Şeyx Səduq, “Əmali”, səh.۴۲۲.

۳- [۳۴۱] Bihar, ۷۶-cı cild, səh.۱۸۷.

۴- [۳۴۲] Uyuni-əxbarur-Riza, ۱-ci cild, səh.۲۸۹.

aşmadan ruzi ardınca gedin. (Çox ruzi əldə etmək üçün özünüzü məşəqqətə salmayın.) Ruzinizin az olması sizi haram yola sövq etməsin. Çünki Allah öz bəndələri arasında ruziləri haram yox, halal şəkildə bölüşdürmüşdür. Təqva yolunu seçib, səbirli olan insanın ruzisi halal yolla yetişər. Amma ilahi pərdəni yırtıb haram yolla mal əldə edən insanın halal ruzisi əskilər və onunla hesab aparılar."(١)

۶. Əməllərin puça çıxması

Namaz, oruc, həcc, cihad kimi əməllərin qəbul olunma şərti insanın ilahi əmr və qadağalara diqqət göstərməsidir. Yə`ni bəndə Allahın halalını halal, haramını haram kimi qəbul etməlidir. Bu çərçivədən çıxan insan xeyir iş görməmiş kimidir. Mə`sumlar bunu "əməllərin puça çıxması" adlandırır. Yə`ni namaz qılıb oruc tutan insan ilahi qadağaları pozarsa bu ibadətləri yerinə yetirməmiş kimidir.

Əziz İslam Peyğəmbəri (s) bu qəbil əməllər haqqında buyurur: "Qiyamət günü bir dəstə insan Məkkə bağları boyda savaba malik olduğu halda oda göndərilər." Peyğəmbərdən (s) soruşurlar ki, məgər bu insanlar namaz qılmayıb? Həzrət (s) buyurur: "Bəli, namaz qılırdılar, oruc tuturdular, gecə yarısı ibadətə məşğul olurdular. Amma qarşılarında dünya cilvələndikdə (halal-haram gözləmədən) ona can atırdılar."(٢)

٧. Daha ağır günahlar üçün vasitə

Oğurluq cinayətlərini araşdırdıqda mə`lum olur ki, öncə tamahını cilovlaya bilməyib xalqın malını



---

١- [٣۴٣] Üsuli-Kafi, ۵-ci cild, səh.٨٣.

٢- [٣۴۴] İddətud-dai, səh.٢٩۵.

mənimsəmək fikrinə düşən oğru hadisələrin gedişində canını qurtarmaq üçün başqa cinayətlərə də sürüklənir. Bu nöqtəni aydınlaşdırmaq üçün bə`zi cinayət işlərini :nəzərdən keçirək

a) İki yeniyetmə bir villadan oğurluq etmək üçün öncə silah əldə edirlər. Evə daxil olduqları vaxt qəfildən ev sahibi ilə üzbəüz gəlirlər. Yeniyetmələr düşdükləri tələdən canlarını qurtarmaq üçün onu qətlə yetirirlər. Beləcə, evdən heç nə götürmədən oranı .tərk edirlər

b) Gənc bir zabit avtomobilini evinin qarşısında saxlayıb mənzilə daxil olur. Pəncərədən bayıra baxanda bir şəxsin onun avtomobilinin təkərini açdığını görür. Zabit tələsik bayıra çıxır. Onun həyat yoldaşı pəncərədən küçəyə baxdıqda öz ərini avtomobilin kənarında qanına qəltan vəziyyətdə görür. Sonradan ələ keçən oğru məhkəmədə bildirir ki, heç vəchlə avtomobil sahibinin əlindən qurtula bilmədiyi üçün onu qətlə .yetirib

v) İki orta yaşlı kişi gecə yarı taksiyə oturub yola düşürlər. Bir həftə ötsə də taksidən xəbər çıxmır. Nəhayət, polis işə qatışır. Bir neçə gün sonra taksi sürücüsünün meyidi yol kənarından tapılır. Məhkəmə zamanı oğrular bildirirlər ki, onların məqsədi !avtomobili qaçırmaq olub. Göründüyü kimi, avtomobil oğurluğu qətllə nəticələnib

Statistikadan mə`lum olur ki, bir çox oğurluqlar daha ağır cinayətlərlə nəticələnir. Amma oğurluq tarixində nadir hadisələr də baş verir. Şeyx Əttarın nəql etdiyi bir :hadisəni yada salaq

## SÖZƏ BAXAN OĞRU

Bir oğru Əhməd Xizruyənin evinə girib axtarışa başlayır. Amma evdə oğurlanası bir şey tapmır. Geri dönmək istədikdə qəfildən ev sahibinin səsi eşidilir. Əhməd oğruya deyir: "Ey cavan, mən bir şey axtarım, sən də dəstəmaz al, namaz qıl. Məbada, buradan əliboş gedəsən!" Oğru ev sahibinin sözünə əməl edib dəstəmaz alır, namaza başlayır. .Və beləcə, səhərə qədər qalır

Səhər Əhmədin qapısı döyülür. Bir şəxs ۱۵۰ dinar təqdim edib, ona hədiyyə göndərildiyini bildirir. Əhməd oğruya üzünü tutub deyir: "Götür bu dinarları, get. Bu sənin bir gecə qıldığın namazın mükafatıdır." Oğrunun halı dəyişir, canına üşütmə düşür. Ağlaya-ağlaya şeyxə yaxınlaşıb deyir: "Bu günədək əyri yolda olmuşam. Bir gecə ibadətim müqabilində Allah mənim ehtiyacımı ödədi. Məni qəbul et, sənin yanında (qalıb savab yolunu öyrənim." Sonradan bu oğru Şeyx Əhmədin müridlərindən oldu.(۱

## .MALIN OĞURLUQ OLDUĞUNU BİLİB ONU SATIN ALAN KƏS OĞRU HÖKMÜNDƏDİR

Həzrət Peyğəmbər (s) buyurur: "Bir malın oğurluq olduğunu bilib onu alan kəs onu oğurlamış kimidir. Onun günahı oğurluq günahıdır. Müsəlmana xəyanət edən bizdən (deyil, bizim dünya və axirətdə onunla yaxınlığımız yoxdur."(۲



---

۱- [۳۴۵] .Təzkirətul-əvliya, səh.۳۵۱

۲- [۳۴۶] .Bihar, ۷۳-cü cild, səh.۲۶۵

## ZİNA

### İŞARƏ

Cəmiyyəti süquta sürükləyən ən geniş yayılmış və zərərli günahlardan biri zinadır. Zina kəbirə (böyük) günahdır. Bu barədə həm Qur`ani-məciddə, həm də mə`sumların rəvayətlərində ciddi xəbərdarlıqlar var. Bəşər cəmiyyətini, xüsusi ilə modern ölkələri ağuşuna almış ən böyük bəlalardan biri qeyri-qanuni cinsi əlaqələrdir. Hətta hökumət orqanları bu fəsadla mübarizə aparmaqda acizdir. Zina cəmiyyəti fəsada uğradır və heç bir güc bu günahın qarşısını almağa qadir deyil. Əgər digər günahlara qanun və məntiq yolu ilə sədd qoymaq olursa, bu üsulla zinakarlığa heç bir maneçilik törətmək olmur. Heç vəchlə bu ağacı kökündən qoparmaq mümkün deyil. Amma İslam qanunları ۱۴۰۰ ildən çoxdur ki, zinanın qarşısını almaq üçün tə`sirli yollar göstərir. Bu qanunlar düzgün və dəqiq yerinə yetirilərsə zina və istənilən cinsi azğınlığın qarşısını almaq olar. Məhz İslam dini cəmiyyəti çirkinliklərdən təmizləyib paklığa çıxarmağa qadirdir. Qur`ani-məciddə zinanın çirkinliyi haqqında buyurulur: "Zinaya yol verməyin, (bu əməl olduqca çirkin və pisdir."(۱)

Ayədə zinanın çirkinliyini dəqiq ifadə edən tə`birlər bütün şübhələri aradan qaldırır. Yetərli bir araşdırma insanın cinsi istəklər baş qaldırarkən vəzifəsini, azğın istəklərini necə cilovlamasını aydınlaşdırır. Azca süstlük və qəflət zina və fəsada yol açır. Cinsi meyllər və şəhvət bir sıra ruhi həyəcanlar yaratmaqla iki cinsi bir-birinə qarşı rəğbətləndirir və nəhayətdə, bəşər cəmiyyətində



---

۱- [۳۴۷] Maidə surəsi, ayə ۴۲.

təbii çoxalma baş verir. Bu həyəcanlar qanuni yolla tə`min olunarsa, insan ali məqsədlərə yaxınlaşar, ailə ocağı isinər və paklaşar. Cinsi istəklərin qanuni tə`mini cəmiyyətin sağlamlığını sığortalayır. Ancaq əksinə, bu istək qeyri-qanuni yolla tə`min olunduqda insanlar arasında fəsad yaranır, ailələr dağılır, körpələr himayəsiz qalır, qeyri-qanuni uşaqlar doğulur, cəmiyyət iffətsizliyə yuvarlanır. Zina insan sağlamlığı üçün də çox təhlükəlidir. Bu gün milyonlarla insan cinsi xəstəliklərdən əziyyət çəkir. Zöhrəvi xəstəliklərin müalicəsi, himayəsiz qalmış körpələrə qəyyumluq milyardlarla .xərc tələb edir

Birləşmiş Ştatlarda aparılmış tədqiqatlara əsasən ölkə əhalisinin doxsan faizi cinsi xəstəliklərdən əziyyət çəkir. Bu ölkədə ۶۵۰ ixtisaslaşmış xəstəxana yalnız zöhrəvi xəstələrin müalicəsi ilə məşğuldur. Əksər xəstələrin şəxsi həkimlərə müraciət etməsinə baxmayaraq, zöhrəvi xəstəxanalarda ۳۶۰ mindən çox xəstə müalicə (olunur.(۱

Rəsmi statistikaya əsasən Amerika Birləşmiş Ştatlarında ildə ۳۰-۴۰ min körpə cinsi xəstəliklər səbəbindən həlak olur. Bu rəqəm QİÇS istisna olmaqla bütün digər (xəstəliklərin ümumi sayından böyükdür.(۲

Londonun cənub hissəsində təbabətlə məşğul olan doktor Molnter yazır ki, Londonda hər il ۵۰ min qeyri-qanuni abort həyata keçirilir. Doğulan iyirmi uşaqdan biri qeyri-(qanunidir.(۳



---

.Fərid Vəcdi, “Dairətul-məarif, ۲۹-cu cild, səh.۴۵ [۳۴۸] -۱
.Cinsi qanunlar məcmuəsi, səh.۳۴۴ [۳۴۹] -۲
.Keyhan, ۵۳۵۶-cı say [۳۵۰] -۳

ci ildə Amerikada doğulan qeyri-qanuni uşaqların sayı ٢٠١٧٠٠ nəfərə çatırdı. Bu-١٩٥٧ rəqəm ٢٠ il ərzində iyirmi faiz artmışdır. Həmin il rəsmi nikahsız hamilə olmuş qadınların sayı ۴۴٠٠٠ nəfərə çatıb. Onların əksərinin yaşı ١٨-dən aşağıdır. Parisdə ۴٣۵٠٠ uşaqdan ۴١٠٠ uşaq qeyri-qanuni doğulmuşdur. İsveçrədə isə hər il ١٧٠٠٠ qeyri-qanuni (uşaq doğulur.(١)

## a) Zinanın tə`sirləri ilə bağlı İslamın baxışı

İslam Peyğəmbəri (s) vəhyə əsaslanaraq zinanın aqibəti haqqında buyurur: "Zinadan çəkinin, onda dörd xüsusiyyət var: İnsanın abır-həyasını aparar, ruzini kəsər, Allahı (qəzəbləndirər, oda sürükləyər."(٢)

İmam Sadiq (ə) buyurur: "Bir şəxs müsəlman, yəhudi, məsihi, azad məcusi və ya kənizlə zina edib tövbə etməmiş dünyadan getsə, Allah onun qəbrinə ٣٠٠ qapı açar və hər qapıdan oddan ilanlar, əqrəblər və əf`ilər daxil olar. Bu şəxs qiyamət gününədək yanar. Qəbrindən qaldırıldığı vaxt onun üfunətindən xalq əziyyət çəkər. Həmin gün zinakar pis qoxusu ilə tanınar, bilinər ki, dünyada nə iş görüb. Bu şəxs oda atılanadək həmin hal davam edər. Agah olun ki, Allah nələri haram buyurub və hədlər tə`yin edib. Kimsə Allahdan qeyrətli deyil. Allah qeyrəti səbəbindən zinanı haram buyurub."(٣) İmam (ə) digər rəvayətdə belə buyurub: "Allah zinanı ona görə haram buyurub ki, qətlə, nəsillərin kəsilməsinə, körpələrin pis tərbiyə olunmasına, irslərin qatışmasına səbəb olur."(۴) Başqa bir rəvayətdə imam (ə) zinanın dünya və axirət tə`sirləri haqqında buyurur: "Zinanın altı



---

١- [٣۵١] İttilaat, ١٠۴١۴-cü say.
٢- [٣۵٢] Nəhcül-fəsahə, səh.١٩٩.
٣- [٣۵٣] Vəsailuş-şiə, nikah kitabı.
۴- [٣۵۴] Vəsailuş-şiə, nikah kitabı, səh.٢٩.

tə`siri var. Onlardan üçü dünyada, üçü axirətdə zinakarı yaxalayar. Dünyəvi tə`sirlər bunlardır: Abır-həyanı aparar, ruzini əskildər, ölümü yaxınlaşdırar. Axirət tə`sirləri bunlardır: Allahın qəzəbi, ağır hesab, oda daxil olub orada əbədi yanmaq."(١)

İslam Peyğəmbəri (s) zinanın dünyəvi tə`sirləri haqqında buyurur: "Ümmətim arasında zina artan vaxt qəfil ölümlər çoxalar. Zina yoxsulluğa və mədəniyyətlərin məhvinə səbəb olar."(٢) Digər bir rəvayətdə həzrət (s) buyurur: "Allah qarşısında şirk istisna olmaqla, zinadan böyük günah yoxdur."(٣) Zinanın dünyəvi tə`sirləri haqqında imam Sadiq (ə) buyurub: "Allah-təala Musaya belə vəhy etdi: "Övladlara atalarının təlaşlarının mükafatını verərəm. Ataları saleh olmuşsa, övladlar yaxşılıq görər, atalar günahkar olmuşsa, övladlar pislik görər. Zina etməyin, yoxsa öz qadınlarınızla zina olunar. Başqasının qadınına təcavüz edən kəsin öz qadınına təcavüz olunar. Nə iş görsəniz onun öz mükafatı və cəzası var."(۴) Növbəti rəvayətdə oxuyuruq: "Zina edən insanın ailəsində zina baş verər. Bu işin növbəti nəsillərdə baş verməsi mümkündür."(۵) Öncə zikr etdiyimiz digər bir rəvayətdə həzrət (ə) zinanın başqa bir təhlükəsindən danışır: "Dörd şeydən biri evə daxil olarsa həmin ev viran qalar və bərəkətdən düşər: Oğurluq, xəyanət, şərabxorluq və zina."(۶)



---

١- [٣۵۵] Fürui-Kafi, zina babı.

٢- [٣۵۶] Vəsailuş-şiə, nikah kitabı, səh.٣٩.

٣- [٣۵٧] Mustədrəkul-vəsail, ٢-ci cild, səh.۵۴٧.

۴- [٣۵٨] Rövzətul-muttəqin, ٩-cu cild, səh.۴٣٨.

۵- [٣۵٩] Şərhi-Nəhcül-bəlağə, ١٩-cu cild, səh.٣١١.

۶- [٣۶٠] Bihar, ٧۶-cı cild, səh.١٩; Xisal, səh.١٨٢.

İmam Sadiqin (ə) buyuruğuna əsasən zina səbəbindən viranedici zəlzələlər baş verər. (Həzrət (ə) buyurur: “Zina çoxalan vaxt yerdə çoxlu silkələnmələr olar.”(١)

Rəvayətdə oxuyuruq: “Allah-təala Musaya (ə) buyurdu: Ey Musa! Ailən üçün xeyir istəyirsənsə, zinaya “yox” deməlisən.”

Zinanın dünya və axirət zərərləri haqqında danışdıq. Bəs zina haqqında fiqh nə deyir?

a) Zinaya görə cəza növləri

Zinanın və ona yol verənin vəziyyətindən asılı olaraq bu günah üçün beş növ cəza müəyyən olunub:

**١. E`dam**

Bu hallarda zinakar e`dam olunur:

Bir şəxs ana, bacı, qız, bibi, xala, qardaşqızı, bacıqızı, qaynana, qızlıq, atanın arvadı-kimi məhrəmlərlə zina etsə;

Qeyri-müsəlman bir şəxs razılıq olub-olmamasından asılı olmayaraq müsəlman-qadınla zina etsə;

-Bir şəxs məcburən bir qadınla zina etsə;

-Subay kişi və subay qadın dördüncü dəfə zinada ittiham edilsə;



---

١- [٣٦١] Bihar, ٧٦-cı cild, səh.٢١.

İslam zimməsində olan kişi razılığın olub-olmamasından asılı olmayaraq müsəlman-;qadınla zina etsə

.Kafir kişi müsəlman qadınla zina etsə-

.Yuxarıda sadalanan beş halda zinakarın qoca və ya cavan olması üzr sayılmır

Daşqalaq .٢

Əgər ərli qadın və evli kişi müəyyənləşmiş şərtlər daxilində zina edərsə, qadın .sinəyədək, kişi qurşağadək çalada basdırılır və daşqalaq olunur

Qamçı və daşqalaq .٣

Evli kişi ilə ərli qadın zinaya yol verərsə, öncə ١٠٠ qamçı vurulur, sonra çalada .basdırılaraq daşqalaq edilirlər

qamçı zərbəsi ١٠٠ .٤

:Aşağıdakı hallarda zinakar qadınla kişiyə ١٠٠ qamçı vurulur

;Qadın və kişi subay olsa

;Əri ilə yaxınlıqda olmamış azad qadın zina etsə

;Evli kişi həddi-büluğ olmamış qızla və ya divanə qadınla zina etsə

(Yetkin və ağıllı qadın qeyri-yetkin uşaqla zina etsə (əri olsa da, olmasa da

qamçı, sürgün və başın qırxılması ١٠٠ .٥

Evli kişi öz qanuni arvadı ilə yaxınlıq etməmiş bir başqası ilə zina etsə ona ١٠٠ qamçı .vurulur, bir il sürgün edilir, başı qırxılır

### c) Zinadan yaranan qadağalar

:Zinadan sonra müəyyən qadağalar da yarana bilər

Bir kişi bir qadınla zina etsə, həmin qadının anası və qızı həmişəlik olaraq bu kişiyə

haramdır və onlarla

səh:۱۷۲

.evlənə bilməz. Zina edən kişinin atası oğlunun zina etdiyi qadını ala bilməz

Bir kişi ərli qadınla zina etsə (onun ərli olub-olmamasını bilməsindən asılı olmayaraq) bu qadın həmişəlik olaraq zinakar kişiyə haramdır. Belə ki, zina edən qadının əri ölsə .və ya əri tərəfindən boşansa həmin qadın öncə zina etdiyi kişiyə ərə gedə bilməz

Əgər bir qadın "ric`i" təlaq iddəsi dövründə bir kişi ilə zina etsə, onlar əbədilik bir- .٣ .birinə haram olur.(١) İddə başa çatdıqdan sonra da kişi həmin qadınla evlənə bilməz

### v) İslam qanunlarında zina

İslam qanunları baxımından zina dedikdə kişinin qadınla qeyri-şər`i yaxınlığı nəzərdə .tutulur. Zina əməli dörd dəfə e`tirafla sübuta yetirilir

### q) Zinanın səbəbləri

Bu gün zina təkcə imperialist qərb ölkələrində mədəniyyət sayılmır. Onların nüfuz dairəsində olan ölkələrdə də zinakarlıq qarşısıalınmaz bir faciəyə çevrilmişdir. Bu fəsad .günbəgün genişlənib cəmiyyətləri məhvə sürükləyir

Bir çox tanınmış tədqiqatçılar və düşüncə sahibləri sosioloji və psixoloji baxımdan zinakarlığın səbəblərini müəyyənləşdirib, onu aradan qaldırmaq üçün çarə tapmağa çalışmışlar. Amma zina və zinakarlıq o qədər dəhşətli və viranedicidir ki, bu istiqamətdə aparılan araşdırmalar nəticəsiz qalmış, çıxış yolu tapılmamışdır. Əksinə, .bəşər cəmiyyəti hər gün bu fəsadın daha da vüs`ət aldığına şahiddir



---

.Təhrirul-vəsilə, ٢٤-cü cild, səh.۴۶٣, ۴۶۶ [٣۶٢] -١

Bizə elə gəlir ki, tədqiqatçılar dini yönümə və insanların e`tiqadına lazımınca diqqət ayırmamışlar. Hətta din xalq üçün tiryək, gerilik nişanəsi və fanatizm adlandırılmışdır. Cəmiyyətin dinə bağlılığı zəiflədikcə azğın nəfs istəkləri tüğyan qoparmış, zina və .zinakarlıq cəmiyyəti qarşısıalınmaz bir şəkildə çulğamışdır

Düşünürük ki, müsəlmanlıq, İslam prinsiplərinə e`tiqad, cəmiyyətdə dini e`tiqadın genişlənməsi, İslam mədəniyyətinin yayılması zinanın qarşısını almaq üçün yeganə tə`sirli amildir. Kitabın bu fəslində zinaya meylin bir sıra səbəbləri bəyan olunacaq. Əlbəttə ki, bu səbəblər də məzhəb və dinə diqqətsizlikdən qaynaqlanır. Hər halda tarixin acı təcrübələrindən istifadə etməklə zinaya meylin müəyyən amilləri haqqında danışacağıq. Ümid edirik ki, Allahın yardımı ilə İslam hökmləri cəmiyyətdə .möhkəmləndikcə bu kimi mənfi təzahürlər aradan qalxacaq

### :Zina amilləri

#### Atalar, analar və övladlar arasında məhəb–bətin yetərsizliyi .۱

Bir çox oğlanlar və qızlar məhz ailə münasibətlərinin yetərsizliyindən, ailədə mehr-məhəbbətin olmaması səbəbindən cinsi azğınlığa düçar olur. Belə hallarda ata-anaların vəzifəsi olduqca ağırdır. İslam tə`limlərində bu qəbildən olan vəzifələr yetərincə aydındır. Bir tərəfdən ata-anaya ehtiram baxımından övlad üçün ağır vəzifələr qoyan, valideynə hörmətsizliyi ağır günah, ağvalideynlik sayan və bu günah müqabilində axirət əzabı və`d edən İslam dini digər bir tərəfdən valideyn üçün də övlad qarşısında ağır vəzifələr müəyyənləşdirir. Dinimiz fürsət düşən kimi hər iki tərəfə vəzifələrini xatırladır. Valideynlərin nəzərinə çatdırılır ki, maddi ehtiyacların tə`minindən tutmuş dini

tə`limlərin verilməsinədək övlad qarşısında vəzifəlidirlər. Bəli, valideyn qarşısında olduqca mühüm vəzifə qoyulmuşdur. Aydın məsələdir ki, övladın ruhi və psixoloji durumuna diqqət olduqca əhəmiyyətlidir. Övlad hətta onun üçün seçilmiş qeyri-münasib ada görə valideyni bağışlamır. Bəli, valideyn övlada elə bir ad seçməlidir ki, bu .ad gələcəkdə onun üçün xəcalətə çevrilməsin

İslamın əxlaqi tə`limləri hökm edir ki, ailədə gözəl rəftar, xoş əxlaq, mehribanlıq və məhəbbət hakim olmalı, daxili hisslərə diqqətlə yanaşılmalıdır. Amma İslam tə`limlərindən xəbərsiz və bu tə`limlərə diqqətsiz valideynlər uyğun vəzifənin öhdəsindən gələ bilmir. Onlar uyğun halda mehribanlıq və məhəbbətdə də düzgün yol .seçə bilmir, övladlarını başqaları ilə müqayisə edirlər

Gənc qız və oğlanlar həssas yaşları səbəbindən başqalarından daha çox mehr-məhəbbətə ehtiyaclıdır. Onların bu ehtiyacını ən yaxşı şəkildə ata-ananın məhəbbəti tə`min edə bilər. Ailə məhəbbətindən yetərincə faydalana bilməyən övladlarda pərişanlıq yaranır və onlar məhəbbət axtarışına çıxır. Axtardığı məhəbbəti ailədə tapa bilməyən övlad ehtiyacını ödəmək üçün böyük acgözlüklə evdən xaricə göz gəzdirir. Bəli, övlad ata-anadan gözlədiyi məhəbbəti tapa bilmədikdə onu yadlarda axtarmağa məcburdur! Nəticədə, evdən kənarda istənilən bir şəxsin qayğısı onun diqqətini cəlb edir. Məhəbbət acılığı çəkən övlad belə bir məqamda istənilən fırıldaqçının toruna düşə .bilər. Qarşı tərəfin mehriban bir baxışı onu ovsunlayıb tora salır

Beləcə, gənc oğlan onun diqqətinə cavab verəsi ilk qadına əsir olur. Gənc qız özünü ona ilk təbəssüm

göstərən kişiyə təslim edir. Bəli, gənc oğlan və qızları aldadan ilk növbədə məhəbbət aclığıdır. Bu yolla gənc qız və gənc oğlan tədricən yolunu azıb, haram cinsi yaxınlığı .həqiqi eşq və məhəbbət kimi qəbul edir

Övladına yetərincə diqqət və məhəbbət göstərməyən valideyn nəinki onu günaha sürükləyir, hətta cəmiyyət üçün təhlükəli bir mikrob yetişdirir. Yolunu azmış belə .övladlar bütün cəmiyyəti azğınlığa sürükləyir

### Ərlə arvad arasında məhəbbətin yetərsizliyi .۲

Məhəbbətin yetərsizliyi məsələsi təkcə valideyn-övlad münasibətlərinə aid deyil. Ərlə arvad arasındakı münasibətlərdə də uyğun vəziyyətlə qarşılaşmaq olar. Ailədəki soyuq münasibət tərəfləri günaha sövq edən əsas amillərdəndir. Amma ərlə arvad arasındakı məhəbbət çatışmazlığı ailə ilə övlad arasındakı məhəbbət çatışmazlığından formaca fərqlənir. Bə`zi qadınlar ərdə olduğu halda özünü subay kimi aparır, bə`zi kişilər evli olduğu halda qeyri-qanuni yaxınlıq sorağında olur. Adətən, ərlə arvadın bir-birini qoyub kənara göz dikməsi onlar arasındakı məhəbbətin yetərsizliyindən .qaynaqlanır

Zinakar qadınların əksəri ərindən narazı olanlardır. Zinakar kişilər də belədir. Onlar adətən öz həyat yoldaşlarından razı olmurlar. Unutmaq olmaz ki, ərlə arvad arasındakı razılıq dedikdə təkcə cinsi baxımdan razılıq nəzərdə tutulmur. Ən mühümü ərin arvad, arvadın ər tərəfindən ruhi və mə`nəvi cəhətdən tə`minatıdır. Hər iki tərəf bu nöqtəyə diqqətli olmalı, bir-birlərinin mə`nəvi istəklərinə cavab verməlidirlər. Bəli, ruhi və mə`nəvi tələblər ödənmədən ailədəki soyuqluğun qarşısını almaq mümkünsüzdür. Belə bir

yetərsizlik istər qadın, istər kişini çaşdırır, onlardan istənilən biri hansısa məqamda .zinakarlığa üz tutur

Burada başqa bir maraqlı nöqtə də var. Belə bir məqamda qadınlar üçün zina təhlükəsi daha böyükdür. Çünki kişilərin ikinci arvad almaq imkanı olduğu halda qadınların ikinci ər seçmək imkanı yoxdur. Belə bir imkandan məhrumluq qadınları günaha daha çox sövq edir. Qadınlar kişilərdən hissiyyatlı olduqlarından daha tez sarsıntı keçirir və pərişanlığa düçar olurlar. Kişilərin ən ağır vəzifələrindən biri qadınların bu hisslərinə .cavab verməkdir

### Xasiyyət fərqlərinə diqqətsizlik .٣

Ailədə birləşən kişi və qadın istənilən baxımdan fərqlidirlər. Təbii ki, onlar hər şeydən öncə genetik baxımdan bir-birindən seçilirlər. Eyni zamanda fərqli ailələrdə doğulub və tərbiyə alıblar, qan qrupları başqadır. Təbii ki, bu halda onlar ruhi və əxlaqi baxımdan da fərqlənəsidirlər. Amma ailənin xoşbəxtliyini tə`min etmək üçün ərlə arvadın fədakarlıq göstərib, mövcud durumla razılaşması zəruridir. Ailə ocağının ilkin bəhrəsi məhz bu uyğunlaşmadır. Az olar ki, müxtəlif mühitlərdə ərsəyə çatmış iki şəxs bir-biri ilə asanlıqla uyğunlaşa. Təbii ki, fərqli tərbiyə fərqli şəxsiyyətlər formalaşdırır. Onlar imkan həddində mövcud xarakter fərqləri ilə barışmalı, övladlarının tərbiyəsi üçün .ailədə münasib şərait yaratmalıdırlar

Xarakter fərqlərinin müxtəlif təzahürləri ola bilər. Amma ən çox nəzərə çarpan fərq tərəflərdən birinin hissiyyatlı və mə`nəviyyatçı, digərinin kobud və maddiyyatçı olmasıdır. Belə bir məqamda ər arvadın və ya arvad ərin iç xüsusiyyətlərini nəzərə almazsa, ailə

həyatı əziyyətə çevrilər. Bu halda ər də, arvad da evdən kənarda ünsiyyət axtarasıdır. .Ailədə ehtiyacları tə`min olunmayan insanın evdən bayıra üz tutması təbiidir

### Həyat yoldaşını unutmaq .۴

Ərlə arvadın bir-birinin varlığını yaddan çıxarması vəziyyəti ilə əsasən bünövrəsi kövrək ailələrdə tez-tez rastlaşmaq olar. Bəli, belə olur ki, bə`zən ər arvadı və ya arvad əri uzun müddət yada salmır. Beləlikləri, adətən, neçə gündən bir cinsi ehtiyaclar səbəbindən bir-birlərini yada salırlar. Qalan vaxtlarda isə hərə öz işilə məşğul olur və qarşı tərəfdən xəbərsiz qalır. Sanki ər üçün arvad və ya arvad üçün ər əvvəlcədən mövcud olmamışdır. Bu hal ailə bünövrəsi ciddi zərbə alanadək davam edir. Çünki ərin arvadı, arvadın əri ardıcıl şəkildə yada salmaması onların fikrini evdən bayıra yönəldir, onları başqalarına rəğbətləndirir. Bu sayaq münasibətlər də zinakarlıqla nəticələnə .bilər

### Məcburi və qeyri-münasib evlənmə .۵

Zina və zinakarlıq məcburi şəkildə qurulmuş ailələrdə daha çox müşahidə edilir. Təəssüf ki, bu tip ailələr hazırkı dövrdə də az deyil. Öz övladlarının, xüsusi ilə qızlarının istəyini nəzərə almadan addım atan ata-analar ciddi səhvə yol verir. Bə`zən valideynlər qohumluq əlaqələri, var-dövlət, uşaq vaxtı verilmiş və`d əsasında övladlarını izdivaca məcbur edir və beləliklə, yeni ailəni möhkəm bünövrədən məhrum .qoyurlar

Bə`zən məcburiyyət, bə`zən həyat yoldaşı seçimində diqqətsizlik, bə`zən qarşı tərəfin var-dövlətinin nəzərə alınması səbəbindən insan tamamilə özündən fərqli biri ilə ailə həyatı qurur. Belə bir ailə

həyatı qısa müddətdən sonra zəhərə dönür. Ardıcıl küsüşmələr, inciklikler daha çox ümidsizləşmiş tərəfi evdən bayıra rəğbətləndirir və o, məhəbbət acılığını çöldə təmin etmək istəyir. Bu sayaq rabitələr adətən qeyri-qanuni cinsi əlaqələr və zinakarlıqla .sonuclanır

### İnadkarlıqlar və haqsız rəftarlar .۶

İnsanı zinaya sürükləyən amillərdən biri də ailədəki inadkarlıq və əsassız rəftarlardır. Bə`zən müşahidə edirik ki, bir o qədər də əhəmiyyətli olmayan məsələlər səbəbindən ərlə arvad arasında yaranmış pis münasibət uzun illər davam edir, ailənin başı üstünü qara bulud alır. Belə hallarda kişi və qadınlardan bə`ziləri, xüsusilə gənc ər-arvadlar problemə düşüncəli yanaşmaq əvəzinə, onu inadkarlıq bahasına aradan qaldırmağa çalışır. Xüsusi ilə əxlaqi və dini baxımdan zəif insanlar inadkarlığını davam etdirib .süquta uğrayır. Bəli, zinaya inadkarlıq da səbəb ola bilər

Belə bir hadisə baş vermişdi. Gənc bir qadın əri qarşısında inadkarlıq səbəbindən yad kişi ilə görüşmüşdü. Qadının bu hərəkətinə görə şər`i məhkəməyə müraciət etmiş gənc ər təhsilli, xoş simalı, iş-güc sahibi idi. Onu kamil bir ər hesab etmək olardı. Qadının belə bir əri olduğu halda başqa bir kişiyə üz tutması insanı heyrətə gətirirdi. Əslində qadın da gözəl, savadlı bir qadın idi. Bu cütlüyə baxdıqda onlar arasında ixtilaf olduğunu, hətta qadının xəyanətə əl atdığını təsəvvür etmək olmurdu. Amma bu hadisə baş vermişdi. Gənc ər öz həyat yoldaşından şikayət etmişdi. Araşdırmalardan mə`lum oldu ki, bu qadını günaha sürükləyən yalnız və yalnız inadkarlığı olmuşdu. O öz izahatlarında bildirmişdi: “Aramızda kiçik bir ixtilaf səh:۱۷۹

olmuşdu. Amma heç birimiz güzəştə getmirdik. Həmin kiçik ixtilaf böyük davaya çevrildi. Mən öz paklığımı, vəfadarlığımı, hər əziyyətə dözdüyümü ərimə xatırladırdım. Bir gün o mənə belə bir cavab verdi: “Sənin mənə vəfalı qalmağının səbəbi budur ki, məndən başqa heç bir kişi sənə baxmaz. Sən məni də təsadüfən ovlamısan.” Ərimin bu sözləri ruhumu sarsıtdı. O qədər narahat oldum ki, həmin an ərimə onun səhvə yol verdiyini sübut etmək qərarına gəldim. Mən bildirmək istəyirdim ki, asanlıqla istənilən bir kişinin diqqətini cəlb edə bilərəm. Elə həmin günün səhəri dediklərimi sübuta yetirdim. Qarşıma çıxan ilk kişi ilə tanış oldum. Amma and içirəm ki, onunla aramızda heç bir yaxınlıq olmayıb. Sadəcə, görüşüb söhbət etmişik. Çünki mənim məqsədim ”!ərimə xəyanət etmək yox, ona səhvini anlatmaq idi

Zənnimcə nəql olunan hadisə inadkarlığın nə qədər böyük bəla olduğunu aydın şəkildə göstərir. Bəli, ərlə arvad arasındakı inadkarlıq, təkəbbür olduqca acı nəticələrə gətirib çıxara bilər. Ağıllı yanaşma ilə asanca həll olası bir məsələ ciddi bir problemə çevrilə .bilər və ailə ilə yanaşı cəmiyyət böyük zərbə alar

### Təhqir .۷

İnsanı zina və fəsada sürükləyən digər bir amil ailədəki kobudluqdur. Bu məsələ inadkarlıq və əsassız rəftarlardan daha təhlükəlidir. Ailədə təhqirə yol verilməsi hazırda daha çox müşahidə olunur və ailə üzvlərini haram əlaqələrə sövq edir. Ailədə ərin arvadı, arvadın əri, eləcə də, ata-ananın övladı təhqiri tez-tez müşahidə olunan bir haldır. Amma aparılan araşdırmalar göstərir ki, bu sayaq təhqirlərin qurbanı adətən gənc

oğlanlar və qızlar olur. Ər-arvadlardan daha çox gənclər qeyri-qanuni yaxınlıqlara meyl edir. Çünki ailəli insanlar adətən ailə ocağını qorumaq, ictimai qınaqdan uzaq qalmaq, övladlar üçün narahatlıq yaratmamaq, mövcud rahatlığı pozmamaq xatirinə təhqirə dözür, günaha asanlıqla təslim olmurlar. Gənc oğlanlar və qızlar isə həm təcrübəsizlikdən, həm də daha az məhdudiyyətlə üzləşdiklərindən tez süquta uğrayır, .hətta kiçik bir təhqir səbəbindən günaha qucaq açırlar

Buna görə də elə təsəvvür edilməməlidir ki, yalnız ciddi təhqirlərdən çəkinmək lazımdır. Həssas insanları kiçik bir kobudluq o qədər sarsıdır ki, onlar yeganə çıxış .yolunu ailəyə arxa çevirməkdə görürlər

Şəxsiyyətini gözləyən gənc qız və ya gənc qadın atanın və ya ərin "sən adam olmayacaqsan", "səndə yaşamaq ləyaqəti yoxdur" kimi sözlərindən dərin iztirab keçirir .və nəticədə onların şəxsiyyətini dəyərləndirəcək insanların sorağına gedir

Gənclərin ailədə təhqir olunmasından sui-istifadə edib onları xoş sözlərlə özünə cəlb edən və günaha sürükləyənlər də var. Əlbəttə ki, təhqir olunan insan dərhal zina etmək fikrinə düşmür. O sadəcə dərdinə şərik olacaq bir dost axtarır. Amma bu axtarış adətən uğursuzluqla nəticələnir. Sarsıntı keçirmiş gənci ovlayan azğın ovçu onu tədricən günaha çəkir. Bu istiqamətdə cinsi ləzzətlərin də öz rolu var. Məhəbbət aclığından başlayan görüşlər tədricən qeyri-qanuni cinsi əlaqələrlə əvəzlənir və .adiləşir. Belə bir insan üçün gündə bir şəxslə yaxınlıq etmək çətin olmur

### Müvəqqəti ayrılıq .۸

Bə`zən ərlə arvadın həyati ehtiyaclardan bir müddət ayrı qalması onların zinaya yol verməsi ilə nəticələnir. Bu yaxınlarda baş vermiş məhkəmə prosesi deyilənlərə bariz nümunə ola bilər. Rifah və xoşbəxtlik içində yaşayan bir qadın həkim əri başqa bir şəhərdə mə`zuniyyətdə olarkən yaxınları ilə danışmaq üçün telefonun dəstəyini qaldırır. O bilmədən başqa bir ünvana düşür və dəstəyi gənc bir oğlan götürür. Qarşı tərəfin şirin danışığına aldanan qadın əri mə`zuniyyətdə olduğu dövrdə həmin şəxslə təkrar zəngləşir. Nəhayət, bu münasibətlər cinsi yaxınlıqla nəticələnir. Qadın və gənc oğlan bu görüşlərlə kifayətlənməyib, mövcud maneəni, yə`ni qadının ərini birdəfəlik aradan götürmək üçün plan cızır. Amma bu plan baş tutmur və nəticədə qadın öz !mə`şuqu ilə məhkəmə qarşısında dayanmalı olur

### ğ) İslamın tövsiyələri

İslam əksər fərdi və ictimai problemləri aradan qaldırmaq üçün yetərli tövsiyələr verir. Zinakarlıqdan çəkinmək üçün də müəyyən tövsiyələr mövcuddur. İnsan İslam hökmlərinə əməl etməklə əxlaqi və cinsi fəsadlardan çəkinib, zinakarlıq təhlükəsindən .amanda qala bilər

İslam cəmiyyətində hər fərd təklikdə və ya ictimaiyyət içində əxlaq normalarına əməl etməlidir. Eləcə də, ailənin hər bir üzvü ailədə İslam göstərişlərinə riayət etməlidir. Paklıq, nəcabət, göz və qəlbin hifzi, azğın nəfsin cilovlanması, haram əlaqələrdən uzaqlıq prinsipləri üzərində qurulmuş İslam əxlaqı insanı çirkin

.işlərdən çəkindirir və günah girdabına düşməkdən qoruyur

Heç bir din və ideologiya təbii cinsi istəklərin tə`mini məsələsinə İslam qədər diqqət verməmişdir. İslamda Allahın verdiyi bu təbii qüvvənin düzgün istiqamətə yönəldilməsi üçün yetərli qanunlar mövcuddur. Dinimizdə cinsi istəklərin qanuni tə`mini üçün şər`i .halal yollar nəzərdə tutulur

Əvvəla, İslam insanların ailə həyatı qurmasına mane olan dəbdəbə və harınlığa qarşı çıxır. Təəssüf ki, bu gün də uyğun hallarla rastlaşırıq. Evlənmək asan olduqda hər bir gənc ailə həyatı qurub öz cinsi ehtiyacını qanuni yolla tə`min edə bilirlər. Amma .mövcud dəbdəbələr səbəbindən insanlar qanuni yola arxa çevirib günaha qucaq açır

Digər bir tərəfdən İslam təbii prinsiplər əsasında çoxzövcəliliyə icazə verir. Hətta şəhvət gücü çox olanlar bunu bəhanə edib zina yoluna qədəm qoya bilməz. Onlar şər`i və əxlaqi prinsiplər əsasında, cəmiyyətin ehtiramını hifz edərək ikinci qadınla da evlənə bilər. Əlbəttə ki, İslam kişiyə dörd arvad almaq icazəsi verərkən onun qarşısında şərtlər qoyur. Belə bir qanun həm güclü şəhvəti olan kişilər, həm də ərə .getmək arzusunda olan qadınlar üçün yol açır və onları zinadan çəkindirir

Bundan əlavə, İslamda "mut`ə" adlanan müvəqqəti evlənmə nəzərdə tutulur. Əgər daimi evlənmədə insanlar müəyyən maneələrlə rastlaşırsa, müvəqqəti evlənmədə bu sayaq çətinliklər yoxdur. İslamda nəzərdə tutulmuş bu qanunlar qəti bir göstəriş verir: Heç vəchlə zinaya yol vermək olmaz! İslam istənilən bir şəraitdə kişi və subay qadınlar üçün evlənmə yolu qoyur. Bu gün

çoxzövcəliliyə və müvəqqəti nikaha qarşı çıxanlar müəyyən suallar qarşısında aciz qalırlar: Uzun müddət mə`zuniyyətdə olan kişi nə etməlidir? Həyat yoldaşı yatağa düşmüş kişi şəhvətini necə söndürməlidir? Qazancı və evlənmək imkanı olmayan tələbə nə etməlidir? Bu qəbildən olan insanların ehtiyacını İslamdan savayı heç bir din və ideologiya nəzərə almır. İslam qanunlarına əməl etməyən şəxs uyğun hallarda .yalnız zinaya üz tuta bilər

Aydın olur ki, yalnız İslam dini əxlaq prinsiplərini gözləməklə fərdi, ictimai problemlərə, ailə müşküllərinə də yetərincə diqqət ayırır və hər bir çətinliyin həlli üçün qanuni yol .göstərir. Heç bir şəxs heç bir halda zinaya məcbur edilmir

Deyilənlərdən belə bir ümumi nəticəyə gəlmək olar ki, İslam insanın daxili meyllərini, təbii və ruhi ehtiyaclarını nəzərə almaqla bu ehtiyacların ödənməsi üçün ən asan yol !göstərir. Beləcə, istənilən bir halda zina və zinakarlığa aparan yol bağlanmış olur

## QADINLAR ARASINDA HƏMCİNSBAZLIQ

Qərb dünyasında mədəniyyət və modernizm qiyafəsində zühur etmiş rüsvayçı əməllərdən biri də qadınlar arasında həmcinsbazlıqdır. Qərb belə bir biabırçılıqla dünyaya rəhbərlik iddiasındadır. Əsasən qərbdən zühur etmiş azğınlıqlardan olan bu .rüsvayçı əməl dünya imperializminin hiylələri ilə sərhəd tanımadan genişlənməkdədir

Ən dəhşətlisi odur ki, bu rüsvayçı əməl qərb cəmiyyətlərində inkişaf və müasirlik göstəricisi kimi təqdim olunur. Şübhəsiz ki, dünya imperializmi hazırladığı xüsusi planlarla bəşəriyyətin insani

şəxsiyyətini puça çıxarmaq əzmindədir. Çünki şərəf və paklığını itirmiş bir cəmiyyət üçün müqəddəs heç nə qalmır. Dünya imperializminin, xüsusi ilə qərb təfəkkürünün son istəyi elə budur! Onların məqsədi insanları şərəf və ləyaqətdən məhrum etmək, bəşərin insani simasını süquta uğratmaqdır. Onlar dəyərləri puça çıxarmaq, bütün gözəllikləri ayaq altına atmaq arzusundadırlar. Belə bir cəmiyyət təbii olaraq mə`sumluqdan və müqəddəslikdən uzaqdır. O yalnız günah və şər yolunu tuta bilər. Dünya imperializmi bəşəriyyətin insani ləyaqətini əlindən aldıqdan sonra öz yükünü ona yükləyib süvar ola bilər. Sadəcə miniyə çevrilmiş cəmiyyəti istənilən bir istiqamətə .yönəltmək asandır

Qadının bu qədər süqut etdiyi cəmiyyətdə hansı qadın şəxsiyyətindən danışmaq olar?! Həmcinsbazlığa uğramış qadın daim xəlvət bir məkan axtarıb özü kimisi ilə şəhvət oyunlarına məşğul olmaq istəyindədir. Təbii ki, belə qadınlar adətən özünə cüt axtarmaqla məşğuldurlar. Onlar bir rüsvayçı yaxınlığı başa çatdırmamış növbəti günah .haqqında düşünürlər. Onların fikri-düşüncəsi yalnız bu çirkin işlə məşğul olmaqdır

Doğrudanmı, belə bir qadın layiqli ana, layiqli həyat yoldaşı ola bilər? Bu sayaq qara qəlbli və qara düşüncəli qadın öz evində pak mühit yarada bilərmi? Onun qəlbində ər məhəbbətinə yer varmı? Bu qadın əri ilə olduğu vaxt öz qaranlıq düşüncəsində əri ilə ?sədaqətə yer verə bilərmi

Həmcinsbaz qadın övladının tərbiyəsi haqqında düşünür, yoxsa başqa bir qadının ağuşunda olmaq barədə? Övlad məhəbbəti kimi pak bir hisslə rüsvayçı

!?həmcinsbazlıq istəyini bir araya gətirmək mümkündürmü

Bəli, belə bir qadın nə ərinə, nə də övladına layiqincə qayğı göstərmək gücündə deyil. Belə bir qadında mö`min müsəlman qadının batini nurundan bir əsər-əlamət varmı?! Şübhəsiz ki, bütün bu suallar mənfi cavablandırılasıdır. Həmcinsbaz qadının evi səadət ocağı yox, bədbəxtlik yuvası olasıdır. Onun vücudu nur əvəzinə zülmətə qərq olasıdır. .O, ailə ocağını isitmək əvəzinə bu ocağı günah alovunda yandırasıdır

Cəmiyyət ailə bünövrəsi üzərində möhkəmlənmişdir. Bu sayaq qadınların varlığı cəmiyyəti süquta aparır, məhvə düçar edir. Azğın imperialist dünyası cəmiyyəti bu sayaq günahlara sürüməklə hörmət-izzətə son qoyur. Günaha sürüklənmiş cəmiyyətin yeganə istəyi yemək, yatmaq və şəhvətdir. Onlar bu üç şeyin müqabilində boyunlarına qul zənciri salır, öz heyvani istəklərini tə`min edib qul olurlar. Səbəbsiz deyil ki, imperializm bu çirkin əməlləri bütün dünyaya yaymaq istəyir. Unutmayaq ki, onlar qadınlar arasında həmcinsbazlığı bütün dünyaya yaymaq üçün var qüvvələrini sərf edirlər. Zahirən gözəl qadınları aldadıcı kinolara çəkərək azğın bir mədəniyyətin bünövrəsini qoyurlar. Bu qadınlar o qədər xoşbəxt göstərilir ki, tamaşaçılar da bu cür azğın ləzzətlərdən dadmaq fikrinə düşür. Bu sayaq filmləri bütün dünyada yaymaqla qadınları tora salır, eləcə də, televiziya tamaşaları ilə uyğun rüsvayçılığı mədəniyyət adı ilə ixrac edirlər. Onlar şəhvətamiz kitablar, jurnallar və qəzetlər çap edir, bu işdə bütün təbliğat vasitələrindən faydalanırlar. Onlar uyğun əməlləri təbii hal kimi göstərməyə çalışır və hətta mədəniyyət nümunəsi kimi

təqdim edirlər. Tamaşaçıda belə bir fikir yaranır ki, uyğun azğınlıqlardan uzaq qadın geri qalmışdır, fanatikdir. Guya öz təbii istəyini qeyri-qanuni yolla tə`min etməyənlər !və bu işə mane olanlar əsil ləzzətlərdən məhrum olur, insan haqlarını pozurlar

Təəccüblüdür ki, bu sayaq zəhərli və bəşərə zidd təbliğatlar necə də sür`ətlə yayılır və nə çox qadına tə`sir göstərir! Nəticədə ailələr şər ağuşuna çəkilir. Bir tərəfdən, əlaltı dövlətlər ağalarının əmrlərini yerinə yetirməkdən başqa vəzifə tanımır, imperialist təbliğatlarına yer verir, hətta daxili imkanları bu quldurların ixtiyarında qoyur. Digər bir tərəfdən, zəif imanlı sadəlövh qadınlar bu təbliğatlara əsir olur, kor-koranə düşmənin maraqlarına xidmət edirlər. Dünya imperializmi əlaltı dövlətlərin köməyi ilə beyinləri elə dəyişir ki, insanlar gözübağlı halda qərb dünyasını özünə nümunə götürür. Onlara elə gəlir ki, qərbdə nə varsa nümunədir. Hətta cinayət, xəyanət, həmcinsbazlıq və zina da mədəniyyət kimi qəbul olunur. Əgər qərb bir dəyərdən imtina edirsə onlara elə gəlir ki, bu pisdir. Dini dəyərlər və Allaha iman olsa belə! Onlar hər vəchlə ictimai həyatın .bütün sahələrində qərb standartlarını tətbiq etmək istəyirlər

Bütün deyilənləri və cinsi azğınlıqların viranedici tə`sirlərini nəzərə alsaq, İslamın bu bəlalarla bağlı hökmlərinin fəlsəfəsi aydınlaşar. Bu hökmün məqsədi qadını süqutdan xilas etmək, cəmiyyəti fəsad caynağından qurtarmaqdır. Bu səbəbdən fiqhdə ."Qadınlar arasında həmcinsbazlıq və onun cəzası" adlı fəsil nəzərdə tutulur

## İŞARƏ

İslam şəriətində müxtəlif cinayətlər üçün fərqli cəzalar nəzərdə tutulur. Bu cəzalar silsiləsi sadə məzəmmətdən daşqalaq və e`damadək davam edir. Qeyd etməliyik ki, İslamda cəza müəyyənləşdirilərkən onun ictimai təsiri hər şeydən çox nəzərə alınır. Cinayət fərdiləşdikcə, onun cəmiyyətə tə`siri azaldıqca cəza da yüngülləşir. Əksinə, günahın ictimai fəsadı genişləndikcə cəza da ağırlaşır. Bu səbəbdən də İslamda intiqam yox, daha çox cəmiyyətin islahı nəzərdə tutulur. Cinayətkar e`dam olunarsa, məqsəd cəmiyyətdəki əmin-amanlığı qorumaqdır. İslam cinayətkarı öldürməklə bir növ cəmiyyəti qurtarır. Zinakar və ya həmcinsbaz ona görə öldürülür ki, cəmiyyətin .namusu amanda qalsın

Bütün bunları nəzərə alaraq İslam şəriətində həmcinsbaz qadın üçün ağır cəza nəzərdə tutulmuşdur. Qazi bu günaha dördüncü dəfə yol vermiş qadını e`dama məhkum edə bilər. Təbii ki, insan haqlarından dəm vuran imperialist nökərləri bu hökmə qarşı səsini ucaldır, guya qadına canıyananlıq göstərirlər. Onların bu sayaq e`tirazları təəccüb doğurmur. Özləri günahda qərq olmuş nökərlər başqa ölkələrdə bu sayaq fəsadları yaymaq əzmindədirlər. Onlar gecə-gündüz planlar cızır, zəhərli təbliğat aparırlar. Hətta bu sayaq azğınlıqlar qanuniləşdirilir, azadlıq adı altında azğın kişi və qadınlara “seksual azlıq” adı verilir. Hansı ki, bütün bu təlaşlar uca məqama malik qadından zövcəlik və analıq haqqını alır. Axı həmcinsbazlıqla məşğul olan qadını !?kim ana və ya zövcə kimi qəbul edər

Əslində belə azğın qadınlar öz gənc qızlarını da uyğun yola sürükləyir. Analarının zəhərli təlqinləri ilə

qızlar öz ehtiraslarını qeyri-təbii yolla söndürür və onlarda ərə meyl qalmır. Belə ailələrdə e`tinasızlıq və şəhvətdən savayı hakim yoxdur. Belələri hətta ərlərini sıxıntıya salmaqla günaha sövq edir, özlərinə tay tapmaq üçün onlardan faydalanır. .Beləcə, zina, həmcinsbazlıq cəmiyyəti bürüyür

Əgər bu qəbil qadınların öz ailəsinə tə`sirini nəzərə alsaq, onların bütöv bir cəmiyyət üçün nə qədər təhlükəli olduğunu anlayarıq. Bəşər hüququndan dəm vuran amerikapərəst və qərbpərəstlərin belə qurd xislətli qadınların müdafiəsinə qalxması onların iç üzünü açır. Qoy dünya imperializmi nə deyir desin, e`tiraz etsin, göz yaşı axıtsın, İslamın yolu yalnız Allah yoludur və müsəlmanlar bu yolu gedəsidir. Heç vaxt !fərdə icazə verilməyəcək ki, cəmiyyətin ziddinə addım atıb, onu fəsada sürükləsin

## QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN TARİXİ

Qadınlar arasında həmcinsbazlıq bu gün Avropada rəvac tapsa da hələ qədimdən mövcud olub. Hələ İslamdan öncə tarixdə qadınlar arasında həmcinsbazlığın nişanələri görünür. Rəss əshabının macərası deyilənlərə misal ola bilər. Bu qövm öz çirkin əməlindən əl çəkmədiyi üçün Allahın qəzəbinə gəldi. Yer üzündə kükrəmiş dəhşətli bir vulkan, səmada görünən qara bulud, əzəmətli şimşəklər bu qövmün kökünü kəsdi. Onların adı tarixə qadınları arasında həmcinsbazlıq rəvac tapmış ilk (qövm kimi düşdü.(١



---

.Vəsailuş-şiə, ٧-ci cild, səh.٢۶٣ [٣۶٣] -١

## QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN MƏFHUMU, BU GÜNAHIN DÜNYA VƏ AXİRƏT CƏZALARI

Qadınlar arasında həmcinsbazlıq dedikdə fiqhdə iki qadının cinsiyyət üzvlərinin təması və onların bir-birindən ləzzət alması başa düşülür. Bu əməl kəbirə günahlardandır və onun üçün hədd (cəza) müəyyənləşdirilmişdir. Qadınlar arasında həmcinsbazlıq müqabilində ١٠٠ qamçı, bu əməl dördüncü dəfə təkrarlandıqda e`dam cəzası nəzərdə .tutulur

İslam Peyğəmbəri (s) buyurur: "Qadınlar arasında həmcinsbazlıq kişilər arasında livat kimi bir günahdır. Bu günaha yol verən qadını öldürün!"(١) Bir qadın imam Sadiqdən (ə) bu günah haqqında soruşdu. Həzrət (ə) buyurdu: "Bu günaha görə zinanın cəzası verilir. Qiyamət günü belə qadınlar səhnəyə gətirilər, onlara oddan biçilmiş libaslar geyindirilər. Başlarına od parçası bağlanar, bədənlərinə od sarıyar, aralarına oddan əmudlar qoyular və bu halda cəhənnəmə atılarlar. Ey qadın! Bu günaha ilk dəfə Lut qövmü yol verdi. Onların kişiləri livat, ərsiz qadınları həmcinsbazlıqla məşğul idi. Onlar da kişilər kimi bir-birlərindən ləzzət alırdılar."(٢) İmam Sadiq (ə) uyğun günahla bağlı digər bir sorğuya belə cavab verir: "Bu sayaq qadınlar qiyamət günü odda olar, onlar oddan çadırlara bürünər, başlarına və ayıb yerlərinə oddan əmudlar endirilər və bu halda cəhənnəmə atılarlar." Bir qadın Qur`anda bu günah haqqında bir söz deyilib-.deyilməməsi barədə soruşur



---

.Vəsailuş-şiə, ١٨-ci cild, səh.۴٢۵ [٣۶۴] -١

.Vəsailuş-şiə, ٧-ci cild, səh.٢۶١ [٣۶۵] -٢

(İmam (ə) buyurur: “Qur`anda bu məsələyə toxunulub. “Və adən və əshabərrəss.”(١)

## QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN CƏZASI

Bu günaha yol vermiş şəxsin subay və ya ailəli, müsəlman və ya qeyri-müsəlman- olmasına fərq qoyulmadan ona ١٠٠ qamçı vurulur;

Bu əməl üç dəfə təkrarlandıqdan və hər dəfə şər`i cəza yerinə yetirildikdən sonra- dördüncü dəfə günahkar e`dam olunur;

Əgər bir qadın əri ilə yaxınlıqdan sonra bakirə bir qızla həmcinsbazlıq etsə və həmin- qız hamilə olsa, körpə həmicinsbazlıq etmiş qadının ərinə məxsusdur. Həmcinsbazlıq etmiş qadına ١٠٠ qamçı vurulmaqdan əlavə, bakirə qızın mehrini ödəməyə məhkum olunur, bakirə qız öz istəyi ilə həmcinsbazlıq edərsə, hamiləlik başa çatdıqdan sonra ona ١٠٠ qamçı vurulur.

## QANUN MƏCƏLLƏSİNDƏ QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞA...

QANUN MƏCƏLLƏSİNDƏ QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞA GÖRƏ NƏZƏRDƏ TUTULMUŞ MADDƏLƏR

Qadınlar arasında həmcinsbazlıq dedikdə onların cinsi orqanlarının təması ilə bir-- birindən ləzzət alması nəzərdə tutulur.

-Qadınlar arasında həmcinsbazlıq livatın sübut yolları ilə isbat edilir.

-Həmcinsbazlıq etmiş qadınların hər birinə ١٠٠ qamçı vurulur.



---

١- [٣٦٦] Əl-Muxtəsərun-Nafi, səh.٢٩٧.

Həmcinsbazlıq cəzası həddi-büluğ, aqil, azad, bu işi öz istəyi ilə görmüş kəsə tətbiq-olunur. Cəzanın tətbiqində təklif edənlə qəbul edənə, müsəlmanla qeyri-müsəlmana .fərq qoyulmur

.Üç dəfə bu günaha görə cəzalandırılmış şəxs dördüncü dəfə qətlə yetirilir-

Bu günaha yol verən şəxs şahidlər şəhadət verməzdən öncə tövbə edərsə, ona cəza-.verilmir. Günah sübuta yetirildikdən sonra qılınan tövbə cəzanı aradan qaldırmır

Əgər həmcinsbazlıq bir şəxsin e`tirafı ilə sübuta yetirilərsə və bu şəxs e`tirafdan-.sonra tövbə edərsə, qazi vəliyyi-əmrdən günahkar üçün əfv istəyə bilər

Aralarında qohumluq olmayan iki qadın zərurət olmadan çılpaq vəziyyətdə bir örtük-altına girərsə, onlara ۱۰۰-dən aşağı qamçı vurulur. Bu əməl təkrarlandıqda cəza .təkrarlanır və üçüncü dəfə ۱۰۰ qamçı vurulur

## KİŞİLƏR ARASINDA HƏMCİNSBAZLIQ

Qərb dünyası bu iddiadadır ki, seks (çərçivəsiz cinsi ləzzət) bəşəriyyətin adi təbii meyllərindəndir və bu olmadan həyatın davamı mümkünsüzdür. Onlar anlamırlar ki, Allah insan daxilindəki hər bir meylin tə`mini üçün qanuni yol müəyyən edib. Məgər İslam qanuni yolla ləzzətə qadağa qoyurmu? İnsanları ailə həyatına İslam qədər təşviq edən ikinci bir din yoxdur. Məgər İslamda xristianlıqda olduğu kimi ailə həyatından imtinaya icazə verilirmi?! Təbii ki, bütün bu həqiqətləri qərb dünyasında çox yaxşı bilirlər. Sadəcə, qərb dünyası fəsad yaymaq, İslam isə fəsadın qarşısını .almaq əzmindədir

Bəs qərbdə kişinin kişi ilə cinsi əlaqəsinə necə baxırlar? Heç olmaya bu rüsvayçı əməli qeyri-təbii sayırlarmı? Təəssüf ki, qərbdə nəinki kişinin kişi, qadının qadınla cinsi .əlaqəsini qeyri-təbii saymır, hətta "seksual azlıq" ünvanı ilə onlara azadlıq verirlər

Tarixə əbədilik həkk olunub ki, İngiltərə parlamenti dünyada ilk dəfə həmcinsbazlığı qanuniləşdirmiş parlamentdir. Bəli, həmin İngiltərə ki, dünənədək istismarla, müstəmləkəçiliklə, qanlı savaşlarla məşğul idi! Təsəvvür edin ki, bir ölkədə həmcinsbazlığı qanuniləşdirmək üçün layihə hazırlanır, bu layihə xüsusi komissiyada işlənilir və təsdiq üçün parlamentə göndərilir. Zülmə düçar olmuş irlandiyalılara bir dəqiqə vaxt ayırmaq imkanı tapmayan İngiltərə deputatları illərcə vaxt sərf edib !həmcinsbaz kişilər üçün hüquqlar müəyyənləşdirir

## HƏMCİNSBAZLIQ VƏ İLAHİ ƏZAB

Qur`ani-kərimdə bildirilir ki, uzaq keçmişdə azğın Lut qövmündə kişilər arasında həmcinsbazlıq rəvac tapmışdı. Bu günah səbəbindən Lut qövmü ilahi əzaba düçar oldu. Qur`anda oxuyuruq: "Lut peyğəmbər qövmünə dedi ki, siz dünyada misli görünməmiş çirkin işə, günaha yol vermisiniz. Siz şəhvətinizi söndürmək üçün qadınların əvəzinə (kişiləri seçmisiniz."(١



---

.Ə`raf surəsi, ayə ٨٠, ٨١ [٣٦٨] -١

Azğın Lut qövmü mövcud günahlarla kifayətlənməyib tarixdə görünməmiş yeni bir günahın bünövrəsini qoydu. Onlar qadınlardan üz çevirib şəhvətlərini söndürmək üçün kişilərə üz tutdular. Ən dəhşətlisi budur ki, onlar bu günahla xalqın gözü qarşısında məşğul olurdular. Belə ki, bu azğınlıq açıq-aşkar yayılıb cəmiyyəti öz cənginə aldı. Allah-təala Lut vasitəsi ilə bu qövmü doğru yola də`vət etdi. Amma onlar Lutun də`vətinə göz yumub öz azğın nəfslərinə tabe oldular və peyğəmbəri sürgün etmək qərarına gəldilər. Lut öz qövmünü Allahın əzabı ilə qorxutdu, amma onun qövmü bu xəbərdarlıqlara məhəl qoymadı. Hətta peyğəmbərə istehza edərək ilahi əzabın tezləşməsini istədilər. Qövmünün hidayətindən ümidini üzən Lut onlar üçün cəza istədi. Allah-təala həzrət Lutun duasını qəbul etdi. Mələklərə əmr olundu ki, bu qövmü məhv etsinlər. Mələklər Lutun yaşadığı şəhərə getməzdən öncə həzrət İbrahimə (ə) qonaq olaraq onu bir övladla müjdələdilər. Öncə qonaqlarının qəribəliyindən qorxu keçirən İbrahim (ə) onları tanıdıqdan sonra sakitləşdi. İbrahim (ə) Lut qövmü üçün də şəfaət istədi. Amma mələklər bu əzabın qarşısıalınmaz olduğunu bəyan etdilər. Bununla belə, nazil olmuş bəladan həzrət Lut və onun ailəsi (zövcəsi istisna olmaqla) amanda qaldı. Mələklər İbrahimin (ə) evindən çıxıb gözəl gənclər surətində Lutun (ə) şəhərinə daxil oldular. Şəhər əhalisinin gənclərə təcavüzündən qorxan Lut (ə) onları gizlincə qəbul etdi. Ancaq Lutun (ə) arvadı azğın camaata öz qonaqları haqqında xəbər

verdi. Çox keçmədi ki, azğınlar Lutun (ə) evini dövrəyə aldılar. Onlar Lutdan (ə) qonaqları tələb edirdilər. Lut (ə) nə qədər nəsihət etdisə, bunun bir faydası olmadı. Öz qonaqlarını müdafiə etmək istəyən Lut (ə) hətta gələnlərə zövcə olaraq qızlarını təklif etdi. Lutun (ə) narahatlığını görən mələklər bildirdilər ki, onlar bu xalqa əzab gətirmiş mə`murlardır. Çox keçməmiş əzab nazil oldu və Lut qövmü məhv edildi.(١)

## RƏVAYƏTLƏRDƏ HƏMCİNSBAZLIĞIN MƏZƏMMƏTİ

Huzəyfə ibn Mənsur imam Sadiqin (ə) dilindən belə nəql edir: "Bu əməl küfrdür, Allah və Onun rəsulunun gətirdiklərinin inkarıdır." Digər bir rəvayətdə İslam Peyğəmbəri (s) buyurur: "Oğlanla cinsi yaxınlıq edən kişi qiyamət günü səhnəyə cənabətli halda gətirilər. Dünyanın suyu onu pak etməz. Bir şəxsin həmcinsbazlıq etməsi Allahın ərşini titrədər. Allah həmcinsbazlıq edəni dünya əhlinin hesabı başa çatanadək cəhənnəm kənarında saxlayıb, sonra cəhənnəmə atar. Bu şəxs cəhənnəmdə təbəqə-təbəqə cəzalandırılar. Nəhayət, ən aşağı təbəqəyə endirilib daim əzab içində qalar."

Digər bir rəvayətdə mə`sum imamın (ə) dilindən belə nəql olunur: "Zina və həmcinsbazlıqdan çəkinin. Həmcinsbazlıq zinadan, zina isə həmcinsbazlıqdan pisdir. Bu iki günaha yol verənlər dünya və axirətdə ٧٢ dərdə mübtəla olar."(٢)



---

١- [٣٦٩] Bəlaği, "Qisəsul-Qur`an", səh.٧۴, ٧٩.

٢- [٣٧٠] Bihar, ٧٩-cu cild, səh.۴٩.

Bəli, ۱۰۰۰ il bundan öncə tibb bu günkü səviyyədə deyildi. Amma mə`sumlar zina və həmcinsbazlığın dəhşətləri haqqında öncədən mə`lumat verirdi. Bu, bir daha təsdiqləyir ki, Allahın əmr və qadağaları doğrudan da bəşəriyyətin xeyrinədir. Bu gün kütləvi informasiya vasitələrinin bir sərlövhəsi var: "Qiçs xəstəliyinin kökü həmcinsbazlıq və qeyri-qanuni cinsi əlaqələrdədir." Ağrılıdır ki, hər gün QİÇS qurbanlarının sayı artır!

## HƏMCİNSBAZLIĞIN HƏDLƏRİ

İslam fiqhində həmcinsbazlığın iki həddi nəzərdə tutulur: Orqanın sadəcə təması ilə həmcinsbazlıq və orqanın daxil olması ilə həmcinsbazlıq.

Birinci halda həmcinsbazlıq edən tərəflər müsəlman olarsa, onların hər birinə ۱۰۰ qamçı vurular. Fail (edən) kafir, məf`ul (edilən) müsəlman olduqda isə fail qətlə yetirilir. Müsəlman müsəlmanla üç dəfə bu günaha yol verib cəzalandırılarsa, bu işi görən şəxs dördüncü dəfə qətlə yetirilir."(۱)

İkinci halda həmcinsbazlıq edən şəxs nəzərdə tutulmuş altı vasitədən biri ilə e`dam olunur: Şəmşirlə boynu vurulur, əl-ayağı kəsilir və yüksəklikdən atılır ki, ölsün, diri-diri yandırılır, daşqalaq edilir, üstünə divar uçurulur. Həmcinsbaz yuxarıda nəzərdə tutulmuş vasitələrdən biri ilə öldürülüb sonradan yandırılır.



---

۱- [۳۷۱] Təhrirul-vəsilə, ۲-ci cild, səh.۴۷۰.

### HƏMCİNSBAZLIQDAN YARANAN QADAĞALAR

Həmcinsbazlıq edən fail ikinci tərəfin, məf`ulun anası, bacısı və qızı ilə evlənə bilməz. Bu şəxslər əbədi olaraq failə haramdır. İkinci tərəf, məf`ul isə failin anası, bacısı və ya (qızı ilə evlənə bilər.(١

### ?BÜTÜN BU RÜSVAYÇILIQLARDAN QURTULUŞ YOLU VARMI

Mərhum Şeyx Səduq dəyərli "Fürui-Kafi" kitabında həzrət Əlinin (ə) hökuməti dövründə baş vermiş bir hadisəni nəql edir: Bir şəxs həzrət Əlinin (ə) hüzuruna gəlib bildirdi ki, həmcinsbazlıq edib və paklanmaq istəyir. (Yə`ni cəzasını tələb etdi) Həzrət (ə) buyurdu: "Get evinə, olsun ki, təbində bir sevda var." Kişi növbəti gün də gəldi və xahişini təkrarladı. Həzrət (ə) əvvəlki sözləri bir daha bəyan etdi. Nəhayət, kişi üçüncü və dördüncü dəfə həzrətə (ə) uyğun istəklə müraciət etdi. Dördüncü dəfə həzrət Əli (ə) buyurdu: "Peyğəmbər (s) bu barədə üç hökm buyurub. Onları deyirəm, istədiyini seç: Əl-ayağın kəsilməsi ilə dağdan atılma, qılıncla öldürülmə, odda yandırılma." Həmin şəxs bu cəzaların hansının ağır olduğunu soruşdu. Həzrət (ə) buyurdu ki, yandırılmaq daha ağırdır. Həmin şəxs ən ağır cəzanı seçdi. Cəzalandırılmadan öncə iki rəkət namaz qılıb Allahla raz-niyaz etdi. Günahları qorxusundan belə bir ağır cəza ilə razılaşan kişinin ah-naləsi ətrafdakıları kövrəltdi. Gözlərindən yaş süzülən həzrət Əli (ə) buyurdu: "Qalx, ey kişi! Sən göylərin və yerin



---

.Təhrirul-vəsilə, ٢-ci cild, səh.۴٧٠ [٣٧٢]-١

mələklərini ağlatdın! Həqiqətən, Allah sənin tövbəni qəbul etdi. Get, amma bir də bu günaha yol vermə."(١)

**NƏTİCƏ**

Şübhəsiz ki, həmcinsbazlıq kimi heyvani və qeyri-təbii əməl ən ağır cəzaya layiqdir. İslami qanunlar məcəlləsində bu günahla əlaqədar maddələr nəzərdə tutulur. Bu maddələr həmcinsbazlığın birinci və ikinci həddi üçün cəzaları bəyan edir və bütün qaranlıq nöqtələri işıqlandırır.

**"QƏZF"**

**İŞARƏ**

Günahlar arasında ən çirkin günahlardan biri "qəzf", yə`ni böhtan, iftira, söyüş, təhqir yolu ilə insanların şəxsiyyətini alçaltmaqdır. Həzrət Peyğəmbər (s) buyurur: "Mö`min insanı küfrdə ittiham etmək onu öldürmək kimidir."(٢)

Həzrətin (ə) buyuruğundan aydın olur ki, İslamda böhtan atmaq, iftira yaxmaq, layiq olmayan sözlər demək, şayiə yaymaq, ləkələmək insanı öldürməklə bir tutulur. Bu hərəkət bir növ terrordur. Uyğun hərəkət həm fərdin, həm də cəmiyyətin asayişini pozur, e`tibarsızlıq yaradır. İslamda bu günaha yol verən üçün dəqiq cəzalar nəzərdə tutulur: Əgər bir şəxs qəzf əməli ilə bir başqasının şəxsiyyətini alçaltsa, ٨٠ qamçı ilə cəzalandırılır. Bu iş dörd dəfə təkrar olunsa onun qətli nəzərdə tutulur.



---

١- [٣٧٣] Fürui-Kafi.

٢- [٣٧٤] Nəhcül-bəlağə, səh.٦١١.

## QUR`ANIN NƏZƏRİ

İslam dini cəmiyyətin iffət və izzətinin qorunması üçün yersiz ittihamlara qarşı çıxır və bu günaha görə cəza tə`yin edir. Qur`anda oxuyuruq: “Mö`minlər haqqında pis söz yaymağı xoşlayanları dünya və axirətdə ağrılı əzab gözləyir. Allah bilir, siz isə bilmirsiniz.”

## QƏZFƏ GÖRƏ CƏZANIN SƏBƏBİ

İmam Riza (ə) buyurur: “Allah ərli qadınların zinada suçlanmasını haram saymışdır. Çünki bu əməldə bir neçə acı nəticə var: Qohumluq əlaqəsi qırılır, övladlar atadan ayrı düşür, irs puça çıxır, övladların tərbiyəsi unudulur. Şəxsiyyətlər alçaldılır, cəmiyyətdə fəsad yaranır.”(۱) İslam Peyğəmbəri (s) əsassız böhtanların nəticələri haqqında buyurur: “Pak kişi və ya qadını zinada ittiham edən kəsin yaxşı əməlləri Allah tərəfindən puça çıxarılar. Qiyamət günü ۷۰ min mələk onu qabaqdan və arxadan qamçılayar, sonra o oda atılar.”(۲)

## QƏZFİN CƏZASI

Qur`ani-kərimə əsasən qəzf edən şəxsə səksən qamçı cəzası nəzərdə tutulur. Ayədə oxuyuruq: “Pak qadınları zinada suçlayanlar dörd şahid gətirməsələr onlara səksən qamçı vurulsun. Heç vaxt onların şəhadətini qəbul etməyin, onlar fasiqdirlər. Sonradan



---

۱- [۳۷۵] Vəsailuş-şiə, ۱۸-ci cild, səh.۴۳۱.

۲- [۳۷۶] Vəsailuş-şiə, ۱۸-ci cild, səh.۴۳۱.

(tövbə qılıb islah olanlar istisnadır. Allah bağışlayan və mehribandır.”(١)

Bu iki ayədə əvvəla qəzf həddi bəyan olunur. Bildirilir ki, bu günaha yol verənlər fasiqlərdir və məhkəmədə onların şəhadəti məqbul deyil. Yalnız tövbə edib özün islah edənlər istisnadır. Növbəti ayələrdə öz çirkin ittihamları ilə insanların şəxsiyyətini ləkələyənlər məzəmmət olunur, onlara dünya və axirət əzabı və`d edilir. Ayədə oxuyuruq: “Günahdan xəbərsiz iffətli qadınları zinada ittiham edənlər dünya və axirətdə lə`nətlənmişdir və onlar üçün böyük əzab var. Dilləri, əlləri, ayaqları, gördükləri işlər əleyhlərinə şəhadət verən gün Allah onların layiqli cəzasını verər. (Bilsinlər ki, aşkar haqq bir olan Allahdır.”(٢)

## QƏZFDƏN DOĞAN QADAĞALAR

Ayələrdən göründüyü kimi bu günaha yol verən insan səksən qamçı ilə cəzalandırılmaqla yanaşı məhkəmədə şəhadət vermək hüququndan məhrum olunur. Yunus bu günaha yol verib cəzalandırılan və tövbə qılan şəxsin şahidliyi haqqında imam Sadiq (ə) və ya imam Baqirdən (ə) soruşur. Həzrət (ə) təsdiq cavabı verir. Yunus həmin günahkarın necə tövbə etməsi haqqında sual verir. İmam (ə) buyurur: “Bu şəxs imamın (qazinin) yanına gəlməli, deməlidir ki, filankəsə böhtan atmışam, dediklərimi ”.geri götürürəm və tövbə edirəm



---

١- [٣٧٧] Nur surəsi, ayə ۴.

٢- [٣٧٨] Nur surəsi, ayə ٢٣.

## GÜNAHA VASİTƏÇİLİK

### İŞARƏ

İslam fiqhində zinaya, həmcinsbazlığa vasitəçilik etmək günah sayılır. Kişi ilə qadın arasında zinaya, iki kişi və ya iki qadın arasında həmcinsbazlığa vasitəçilik edən şəxs Allaha qarşı çıxmış olur. Bu gün adətən belə vasitəçilik hətta peşə şəklini alır. Bu iş iki :məqsədlə həyata keçirilir

Bə`zi rahattələb və tənbəl insanlar asan qazanc əldə etmək üçün bu yolu seçir. .١ .Onlar üçün insanların bədəni gəlir mənbəyi kimidir

Bə`ziləri isə düçar olduqları şəhvət xəstəliyi səbəbindən cinsi yaxınlıq qabiliyyətini .٢ .itirdiklərindən iki nəfəri görüşdürərək bu yaxınlığa tamaşa etməkdən zövq alır

Təəssüflər olsun ki, beləlƏri arasında hətta öz ailəsini, yaxın adamlarını əyri yola sövq edənlər var. Bə`zən ərin öz arvadını, atanın öz qızını bu sayaq çirkin işə sövq etməsi ilə .rastlaşırıq

### İSLAMIN TƏQDİM ETDİYİ ÇIXIŞ YOLU

İslam dini insanların pak fitrətini, sağlamlığını, fitri təmizliyini qoruyur. Bütün bu dəyərləri hifz etmək üçün yollar təklif olunur. İnsan yalnız şeytana uyub bu yollardan imtina edə bilər. İslam insanlara halal qazanc yolları göstərir. İnsanın halal yolla əldə etdiyi qazanc kommunist təfəkkürünə zidd olaraq, dövlətə yox, onun özünə aiddir. Deməк, çox çalışan insan daha çox rahatlıq imkanı qazanır. Tənbəlliyə adət edən insanlar asayiş və firanvanlıqdın məhrum olur. Qazanc üçün çirkin yollara əl atanları .İslam açıqlanan dəlillər əsasında cəzalandırır

İslamda həm də cinsi yaxınlıq qabiliyyətindən məhrum xəstələrə münasibətdə qanunlar nəzərdə tutulur. Əgər kişidə bu qabiliyyət yoxdursa qadının boşanmaq haqqı var. Əgər qadının bu qabiliyyəti yoxdursa, kişi onu boşaya bilər. Amma cinsi yaxınlıq qabiliyyətindən məhrumluq insana əsas vermir ki, o vasitəçilik edib çirkin yaxınlıqlara tamaşa etməklə öz meyllərini tə`min etsin.

## VASİTƏÇİLİYİN CƏZASI

١. Zinaya vasitəçiliyin cəzası ٧٥ qamçıdır. Vasitəçi kişi olduqda onun başı qırxılır, xalq arasında tanıtdırılır. Sonra şər`i hakimin nəzəri əsasında şəhərdən çıxarılır.(١)

٢. Vasitəçiliyə görə müsəlman, kafir, kişi və ya qadın eyni dərəcədə cəzalandırılır. Amma vasitəçi qadının başı qırxılmır, o xalqa tanıtdırılmır və şəhərdən sürgün olunmur. İmam Xomeyninin (r) fətvasına əsasən, ehtiyata görə vasitəçi kişi ikinci dəfə məhkum olunduqda sürgün edilir.

٣. Əgər bir şəxs dəfələrlə vasitəçiliyə görə məhkum olunsa, dördüncü dəfə şər`i hakim onu tövbəyə vadar etməlidir. Tövbə edənə ٧٥ qamçı vurulur, tövbə etməyən e`dama məhkum olunur. Əgər vasitəçi dördüncü dəfə mühakimə olunub tövbə etsə, növbəti dəfə tövbəsini pozduqda tövbə edib-etməməsindən asılı olmayaraq e`dam olunur.



---

١- [٣٧٩] Təhrirul-vəsilə, ٢-ci cild, səh.٤٧١.

## QANUNLAR MƏCƏLLƏSİNDƏ VASİTƏÇİLİYİN CƏZASI

:İslami qanunlarda vasitəçiliklə bağlı maddələr mövcuddur

.Vasitəçilik iki və ya daha çox şəxsin zina və ya həmcinsbazlığı üçün əlaqə yaratmaqdır

Vasitəçilik iki dəfə e`tirafla sübuta yetirilir. Bir şərtlə ki, e`tiraf edən həddi-büluğ, aqil, .azad və məqsədli olsun

.Vasitəçilik iki ədalətli kişinin şəhadəti ilə sübuta yetirilir

Vasitəçiliyə görə kişiyə ۷۵ qamçı vurulur, üç ay və ya bir illik sürgün edilir. Qadına isə ۷۵ .qamçı vurulur

## PEYĞƏMBƏR VƏ YA İMAMLARIN TƏHQİRİ

### İŞARƏ

İslam fiqhində e`damla cəzalandırılan günahlardan biri də peyğəmbərin təhqiridir. Bütün şiə alimlərinin rə`yi budur ki, peyğəmbər və imamları təhqir edənlər e`damla cəzalandırılmalıdır. “Təhrirul-vəsilə”də oxuyuruq: “İslam Peyğəmbərini (s) təhqir edən :şəxsi öldürmək müəyyən şərtlər daxilində hər bir müsəlmana vacibdir. Şərtlər

;Qətli icra edəcək müsəlmanın canına və namusuna zərər olmasın-

.Digər bir mö`minin canına və namusuna zərər toxunulmasın-

Bu iki şərt yerində olarsa İslamın hökmünü yerinə yetirmək üçün imamın (ə) və ya imam naibinin icazəsinə ehtiyac yoxdur. Mə`sum imamlardan birini və ya Fatimeyi-Zəhranı (s) təhqir edən şəxs də eyni cür cəzalandırılır. Amma öz canı və namusu və ya bir

mö`minin canı və namusu üçün təhlükə və ya zərər olarsa, təhqirə yol vermiş şəxsi (öldürmək caiz deyil.”(١

## YADDAŞ

Deyilənlərdən aydın oldu ki, peyğəmbərin və ya imamın təhqirinə yol vermiş şəxsi cəzalandırmaq üçün imam və ya imamın naibinin icazəsinə ehtiyac yoxdur. Günahkarı cəzalandırmaq hər bir müsəlmanın vəzifəsidir. Amma İslamın bu hökmü xarici və daxili düşmənlərin sui-istifadəsinə yol açmamalıdır. Düşmənlər bu hökmdən istifadə edib .ölkədə qarışıqlıq sala bilərlər

## İSLAM QANUNÇULUĞUNDA PEYĞƏMBƏRİ TƏHQİRİN CƏZASI

İslam qanunlarına əsasən bir şəxs İslam müqəddəsliklərini, həzrət Peyğəmbər (s) və ya mə`sum imamlardan (ə) birini, eləcə də xanım Fatiməni (ə) təhqirə yol verərsə, “peyğəmbəri təhqir” maddəsinə əsasən e`dam olunur, başqa hallarda bir ildən beş .ilədək həbsə alınır

## ALLAH EVİ KƏ`BƏYƏ HÖRMƏTSİZLİK

## İŞARƏ

Kə`bəyə qarşı hörmətsizlik İslamda müəyyənləşdirilmiş böyük günahlardandır. Belə bir təhqirə yol vermiş şəxs cəzalandırılmalıdır. Bu məsələ o qədər mühümdür ki, müəyyən hallarda Kə`bəni təhqir etmiş insan e`damla cəzalandırılır. İmam Sadiq (ə) buyurur: “Həqiqətən izzət və cəlal sahibi olan Allah üçün üç şey olduqca əzizdir: Allahın hikmət və nuru



---

.Təhrirul-vəsilə, ٢-ci cild, səh.۴٧۶ [٣٨٠] -١

olan ilahi kitab, insanlar üçün qiblə seçilmiş Allah evi, peyğəmbər ailəsi."(١) İmam (ə) digər bir məqamda buyurur: "Allah üçün ən əziz yer Məkkədir. İzzət və cəlal sahibi olan Allahın qarşısında heç bir torpaq Kə`bə torpağından, heç bir daş Məkkə daşından, heç bir ağac Məkkə ağacından, heç bir dağ Məkkə dağından, heç bir su Məkkə suyundan (əziz deyil."(٢

:İslam fiqhində Kə`bəni təhqir edənlər üçün iki növ cəza nəzərdə tutulur

E`dam .١

Bir şəxs bilərəkdən sidiyə getmək və ya bayıra çıxmaqla bu yeri murdarlasa onun hökmü e`damdır. İmam Sadiq (ə) buyurur: "Bir şəxs bilərəkdən Kə`bədə sidiyə getsə (və ya bayıra çıxsa, Kə`bədən və hərəmdən çıxarılır, boynu vurulur."(٣

Cəza və qadağalar .٢

Əgər bir şəxs müqəddəs Kə`bə evində günaha yol versə, həmin günahın cəzasından .əlavə cəzaya mə`ruz qalır. Onun üçün müəyyən qadağalar da nəzərdə tutulur

## MÜQƏDDƏS YERLƏRDƏ GÜNAH

Qadağalar təkcə Kə`bə evinə aid deyil. İslam fiqhi istənilən bir müqəddəs məkanda hörmətsizliyə görə cəza nəzərdə tutur. Deməк, günahkar həm günahına görə cəzalandırılır, həm də bu günaha müqəddəs yerdə yol verdiyi üçün ona qadağalar ,tətbiq olunur. Necə ki



---

.Vəsailuş-şiə, ٣-cü cild, səh.٢١٨ [٣٨١] -١
.Mən la yəhzuruhul-fəqih, ٢-ci cild, səh.١۵٧ [٣٨٢] -٢
.Təhrirul-vəsilə, ١-ci cild, səh.٣۴۵ [٣٨٣] -٣

mübarək ramazan ayında şərab içən insan ۸۰ qamçı yeməklə yanaşı qadağalara mə`ruz qalır. "Təhrirul-vəsilə"də oxuyuruq: "Bir şəxs ramazan ayı, cümə günləri, dini bayramlar kimi şərafətli vaxtlarda və ya məscid kimi müqəddəs yerlərdə zinaya yol versə, onun üçün zina cəzası ilə yanaşı əlavə cəza tə`yin olunur."(۱)

## İCTİMAİ RƏ'Y BAXIMINDAN KƏ`BƏYƏ HÖRMƏTİN ZƏRURƏTİ

Fiqhi hökmləri nəzərə almasaq belə, ictimai rə`y baxımından Kə`bə kimi müqəddəs yerlərə hörmət olunmalıdır. Kə`bə milyonlarla insanın göz dikdiyi bir məkandır. Kə`bə Allah aşiqlərinin diqqət mərkəzidir. Buna görə də Allah evinin təhqirinə nə ağıl, nə məntiq, nə şəriət, nə də mədəniyyət icazə verir. Bəli, müqəddəs məkanları paxıl baxışlardan və çirkin dillərdən qorumaq zəruridir. Buna görə də Kə`bəni həm Allah, həm də Onun məxluqu qoruyur.

## SEHR–CADU

### İŞARƏ

Cadugərlik cahiliyyət dövrünün yadigarlarındandır. Qur`an buyuruqlarına əsasən, bu iş yəhud qövmü arasında yayılmışdır. Maraqlıdır ki, cadugərlik bu gün Avropa və Amerikanın özünü mütərəqqi sayan cəmiyyətləri tərəfindən də həvəslə qarşılanır. Qur`ani-məcid bu barədə buyurur: "Allah tərəfindən əllərindəki kitabı təsdiq edən peyğəmbər gəldikdə onlardan bir qismi xəbərsizmiş kimi üz çevirdi; yəhudilər Süleymanın səltənətinə aid şeytanların oxuduqlarına təslim oldular. Süleyman kafir olmadı. Amma şeytanlar



---

۱- [۳۸۴] Həmin mənbə.

sehr-cadunu, Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Hansı ki, o iki mələk öyrətməzdən qabaq deyirdi: “Biz imtahanıq, gəl kafir olma.” Yəhudilər isə ər-arvad arasında nifaq salan işləri onlardan öyrənirdilər. Lakin Allahın izni olmadan onlar kimsəyə ziyan vura bilməz. Onlar yalnız faydasız və zərərli şeyləri öyrənirdilər. Ancaq yaxşı bilirlər ki, belə şeyləri satın alanların axirətdə payı yoxdur. Kaş ki, nə qədər yaramaz bir şeyə satıldıqlarını biləydilər; əgər onlar iman gətirib pis işlərdən çəkinsəydilər, Allah tərəfindən əldə edəcəkləri savab daha xeyirli olardı. Kaş bunu dərk edəydilər!”(۱)

### ?SEHR–CADUNU NECƏ TANIMALI

Mərhum İsfəhani sehri belə izah edir: “Sehr dedikdə xüsusi yazılar yazıb oxumaq, müəyyən əşyaları yandırıb tüstüsünü vermək, düyün üfürmək, müəyyən şeyləri xüsusi yerlərdə basdırmaq və bu yolla kiminsə bədəninə, qəlbinə və ya düşüncəsinə tə`sir göstərmək nəzərdə tutulur. Uzaqda olanı yaxına gətirmək, kimisə yatızdırmaq, dostluq və ya düşmənçilik yaratmaq, ayrılıq salmaq sehrdə nəzərdə tutulan tə`sirlərdəndir. Sehrdə cinlər tutulub saxlanılır, ruhlar çağırılır və ram olunur. Olmayan işi olmuş kimi göstərmək də (gipnoz) sehr-cadu hökmündədir.(۲)



---

۱- [۳۸۵] Bəqərə surəsi, ayə ۱۰۱, ۱۰۳.

۲- [۳۸۶] Lümeyi-dəməşqiyyə, ۳-cü cild, səh.۲۱۴.

## MƏHƏBBƏT DUASI

İslam hər bir işi üçün təbii yol nəzərdə tutduğundan insanı təbii yoldan çıxaran istənilən bir iş haram sayılır. Həzrət Əli (ə) Peyğəmbərin (s) yanında baş vermiş bir hadisəni belə nəql edir: “Bir qadın Peyğəmbərin (s) yanına gəlib belə ərz etdi: Ey Allahın rəsulu, ərim mənə qarşı soyuq və kobuddur. Mən onun mehribanlaşması üçün bir iş görmüşəm.” Həzrət Peyğəmbər (s) buyurdu: “Vay olsun sənə! İslamı dolaşıq salmısan, cadugərliyi din saymısan. Yerin və göyün xoş rəftarlı mələkləri sənə lə`nət ediblər.” Bu qadın gündüzlər oruc tutur, gecələr ibadət edirdi. Peyğəmbər (s) buyurdu: “Əri ondan razı olmasa, gördüyü işlərin heç bir faydası yoxdur.”(١)

## SEHR–CADUNUN BƏLALARI

Mə`sumlardan nəql olunmuş rəvayətlərdə sehr-cadunun bəlalarından danışılır. İbn Xalid Nabili imam Səccadın (ə) dilindən belə nəql edir: “Sehr-caduya yol vermək, öncə görmələrə e`tiqad dünyanı zülmətə bürüyür.”

## SEHRBAZ VƏ CADUGƏRİN CƏZASI

İslam fiqhində sehr-cadu ilə məşğul olanlar üçün aşağıdakı cəzalar nəzərdə tutulmuşdur:

١. Müsəlman sehrbaz və ya cadugər vurduğu ziyanı ödəməklə yanaşı qətlə yetirilir.(٢)

٢. Kafir sehrbaz və ya cadugər bu işdə dördüncü dəfə ittiham olunduqda qətlə yetirilir.(٣)



---

١- [٣٨٧] Vəsailuş-şiə, ١٠٣-cü cild, səh.٢٥٠.
٢- [٣٨٨] Vəsilətun-nicat, ٢-ci cild, səh.۶.
٣- [٣٨٩] Təhrirul-vəsilə, ٢-ci cild, səh.۴٧٧.

İnsanların arzu-istəklərinin həddi-hüdudu yoxdur. Adəm övladı öz istəklərini həyata keçirmək üçün daim köməkçi axtarışındadır. Çətinliklər, ehtiyaclar, məhəbbətlər, arzular insanı bir an olsun rahat buraxmır. Bəşəriyyət, adətən yer varlıqları metafizik qüvvələr arasında çaşqın vəziyyətdə qalır. Onlar metafizik qüvvələr haqqında yetərli mə`lumata malik olmadıqlarından çətinliklər zamanı kimlərisə vasitəçi seçməyə çalışırlar. Rəmmallar, dua yazanlar, falçılar, münəccimlər, güzgüyə baxanlar, cin tutanlar, alın oxuyanlar, düyün açanlar, tilsim sındıranlar, bəxt açanlar, cadugərlər, ovsunçular insanlarla metafizik qüvvələr arasında vasitəçiliyə çalışırlar. İnsan isə qarşısına çıxan problemləri aradan qaldırmaq üçün yuxarıda adı çəkilənlərə müraciət edir. Amma onlar adətən qarşı tərəfin cahilliyindən sui-istifadə edərək, fırıldaqçılıqla məşğul olur. Vəziyyət elə bir həddə çatmışdır ki, hətta şairlər uyğun mövzuya müraciət :etmişlər

,Adəm oğlu dərdinə gəzib dəva

.Dağlarda, dənizdə axtarır şəfa

,Elə ki, təbiət qopardı tufan

.Göz tikib səmaya, istəyir aman

,İşə düşür rəmmal, sahir, münəccim

.Onların tarixi qədimdən qədim

,Kim vird oxuyur, kimi zər atır

.Kimi imanını İblisə satır

,Şübhəsiz, dərd verən vermiş dərmanı

.Əfsus tamah tələsdirir insanı

,Həqiqi həkimi qınamaq olmaz

.Hikmət əhli sehr-cadu tanımaz

,Dərdlərin açarı alim əlində

.Bir hikmət gizlənir onun dilində

,Alim yox, cahildir qınanan işdə

.Xurafatdan tutur o hər gedişdə

,Daranıb geyirlər dərviş libası

.Düyünlərdə axtarırlar xilası

,Şöhrət, libas aldadır avamları

.Daim əyri yoldadır addımları

,Vird oxuyub yerə səpir darını

.Guya gəzir qızın bəxt açarını

,Həkim hikmət gəzir, rəmmal zər qovur

.Alim işindədir, cahil göz ovur

,Aldanmayın cadugərə, sahirə

.Vurulmayın bərbəzəkli zahirə

Bir anlıq göz yumsan oğru çapası

.Tovlayaraq əlindəkin qapası

,Ayıq dayan hər avaza uyma sən

!Aman xurafat əhlinin əlindən

## XÜSUSİ BİR TÖVSİYƏ

Bir tövsiyəmiz var. Fırıldaqçıların qapısını döyməmiş, həkim libası geyən hoqqabazlardan çarə istəməmiş, xurafatçıların bəh-bəhinə aldanıb mal və namus oğrularının sorağına getməmiş yolumuzu yaxından salıb bütün dərdlərin dərmanı əlində olan mehriban və bağışlayan Allaha üz tutaq! Onun zikri qəlblərə təskinlik, dərdlərə şəfa verir. O, qadir, bilən və görən Allahdır!

## HARAM YEMƏK

## İŞARƏ

Müqəddəs İslam dini şəxsin mülkiyyət hüququnu tanıyır və var-dövlət üçün hansısa hədd

müəyyənləşdirmir. Amma sərvətin necə, hansı yolla əldə olunması şərtdir. Fiqh .elmində uyğun mövzu ətraflı şəkildə araşdırılmış, saysız-hesabsız kitablar yazılmışdır

Biz öncə haramxorluq nümunələri ilə tanış olacaq, sonra mə`sumların buyuruqlarından faydalanaraq haram yeməyin tə`sirlərini nəzərdən keçirəcəyik. Ümid edirik ki, əziz oxucular haramın acı nəticələri ilə tanış olduqdan sonra bu işdən çəkinməyə çalışacaqlar. Rəvayətlərdə və fiqh kitablarında haramxorluq "əklus-suht" tə`biri ilə yad edilir. İmam Sadiqdən (ə) nəql olunmuş mö`təbər rəvayətə əsasən haramxorluq kəbirə günahlardan sayılır.(١) Qur`ani-məciddə də "əklus-suht" tə`birindən istifadə olunmuş, haramxorluq şiddətli şəkildə məzəmmət edilmişdir: "Onların əksərini günaha, həddi aşmağa, haram mal yeməyə tələsən görərsən. Həqiqətən, pis iş görürlər. Nə üçün məsihi və yəhudi alimləri onları günah (danışmaqdan və haram yeməkdən çəkindirmir?! Necə də pisdir onların gördüyü iş!"(٢

## HARAM YEMƏYİN – HARAMXORLUQ MƏFHUMU

İnsanın qeyri-şər`i yolla əldə etdiyi istənilən mal haram sayılır. Məsələn, müqəddəs İslam dini spirtli içkiləri haram sayır. Eyni zamanda spirtli içkilərin satışından əldə olunan pul haramdır və ondan istifadə etmək olmaz. Müqəddəs İslam şəriətində haram buyurulmuş yollarla əldə olunan istənilən pul və mal haramdır və ondan istifadə caiz deyil. Fiqh kitablarında "məkasibu muhərrəmə" başlığı ilə təqdim olunmuş



---

.Vəsailuş-şiə, ١۵-ci cild, səh.٣٣١ [٣٩٠] -١

.Maidə surəsi, ayə ۶٢, ۶٣ [٣٩١] -٢

haram qazanc yollarını nəzərdən keçirək: oğurluq, oğurlandığı bilinən malı satmaq, fırıldaqçılıq, əskik satmaq, qatqıçılıq, möhtəkirlik, qumarbazlıq, qumar alətlərinin satışı, sələmçilik, rüşvətxorluq, saxta pul kəsmək, azdırıcı kitab və jurnalların satışı, sehr-cadu, İslam düşmənlərinə silah satışı, küfrü gücləndirən istənilən bir iş, narkotik maddələr satışı, murdar ət satışı, bütpərəstliyə aparan heykəllər düzəltmək, şərab istehsalı üçün üzüm və xurma satmaq, yırtıcı heyvanların dərisini satmaq, müftə almaq, “ariyənin” (əmanət qoyulmuş şeyin) sərfi, yetimin malını yemək, zinadan qazanmaq, kişinin həmcinsbazlıqdan qazanması, qadının həmcinsbazlıqdan qazanması, rəqqasəlikdən qazanmaq, çal-çağırdan qazanmaq, ğina oxumaqdan, ğina öyrətməkdən qazanmaq, halal işlərdə istifadəyə yararlı olmayan haram işlər üçün alətlər satmaq, şərab satmaq, şərab düzəltmək, sahibindən icazəsiz mal satmaq, sahibindən icazəsiz bir maldan istifadə etmək, şərab saxlamaq, şərab düzəltmək və şərab satmaq üçün yer icarəyə vermək, şərab daşımaq üçün gəmi və ya avtomobil icarəyə vermək, bə`zi həşaratlar kimi heç bir faydası olmayan şeylər satmaq, Qur`an satmaq, Tövrat, İncil, Zəbur kimi səmavi kitablar satmaq, ovda istifadə olunmayan .vəhşi heyvanlar satmaq və s

## HARAM YEMƏYİN TƏ`SİRLƏRİ

.Haram yeməyin iki növ tə`siri var: dünya və axirət tə’sirləri

a) Dünyəvi tə`sirlər

Duaların qəbul olunmaması .١

Rəvayətlərdən mə`lum olur ki, haram yeyənin duaları qəbul olunmur. Qüdsi bir :hədisdə deyilir

Yalnız haram yeyənin duası mənim dərgahıma yetişməz."(۱) Başqa bir hədisdə" buyurulur: "Allah həzrət İsaya (ə) vəhy etdi ki, Bəni-İsrail zalımlarına de: "Bir halda ki, haram maldan istifadə edirsiniz, evlərinizdə büt var, məni çağırmayın. And içmişəm ki, məni çağıranın duasını qəbul edim. Haramxorların duasının qəbul etməyim onlara lə`nət və nifrindən ibarətdir."(۲) İslam Peyğəmbəri (s) buyurur: "Bir tikə haram yeyənin duası ۴۰ gün qəbul olunmaz."(۳) Rəvayətdə deyilir: "Həzrət Musa (ə) ağlar halda əllərini səmaya açıb dua edən bir şəxs gördü. Allah tərəfindən Musaya vəhy olundu: "O nə "...qədər çalışsa da duası qəbul olunmaz. Çünki onun qarnında haram var

Bir şəxs həzrət Peyğəmbərin (s) yanına gəlib ərz etdi: "Dualarımın qəbul olmasını istəyirəm." Əziz Peyğəmbərimiz (s) buyurdu: "Yediklərin pak olsun, qarnına haram qida daxil etmə." Başqa bir hədisdə həzrət (s) buyurur: "Duasının qəbul olmasını istəyən (şəxs qidasını, gəlir yolunu və qazancını pak etsin."(۴

Saleh əməllərin qəbul olunmaması .۲

Təqva saleh əməllərin qəbulu üçün şərtdir. Haramxor insan ilahi təqvanı ayaq altına aldığından onun saleh əməlləri qəbul olunmur. Çoxsaylı rəvayətlərdə bəyan olunur ki, haramxorun namazı, həcci, sədəqəsi qəbul deyil. İslam Peyğəmbəri (s) bu barədə buyurur: "Haram yeyib ibadət etmək çınqıl daş üstə ev tikmək kimidir."(۵) Başqa bir rəvayətdə həzrət



---

.Vəsailuş-şiə, ۷-ci cild, səh.۱۴۵ [۳۹۲] -۱

.Vəsailuş-şiə, ۷-ci cild, səh.۱۴۵ [۳۹۳] -۲

.Bihar, ۶۳-cü cild, səh.۱۴۴ [۳۹۴] -۳

.Səfinətul-bihar, ۱-ci cild, səh.۴۴۸ [۳۹۵] -۴

.Bihar, ۱۰۰-cü cild, səh.۱۶ [۳۹۶] -۵

Peyğəmbər (s) digər səmavi kitablardan belə nəql edir: “Haram yeyib xeyir iş görmək xəlbirlə su daşımaq kimidir.”(۱)

Bir rəvayətdə İslam peyğəmbəri (s) buyurur: “Bir tikə haram yeyənin ۴۰ gecə namazı qəbul olmaz. Bədəninin haramdan yaranan yeri oda daha çox layiqdir. Çünki bir tikədən də ət yaranır.”(۲) Həzrət Peyğəmbər (s) haram tikənin həccə tə`sirini elə şəkildə bəyan edir ki, insan lərzəyə gəlir. Həzrət (s) buyurur: “Hər kəs haram malla həccə getsə və “ləbbəykə Allahummə ləbbəykə” deyərək Allahı eşitdiyini bildirsə, Allah ona buyurar: “La ləbbəykə və la sə`dəykə”, yə`ni bu həcc sənin özünün olsun!”(۳)

İslamda sədəqə ən üstün əməllərdən sayılır. Amma şərt budur ki, insan halal maldan sədəqə versin. Haram maldan sədəqə verən insan haqqında Peyğəmbər (s) buyurur: “Bir şəxs haram qazanc əldə etsə Allah onun sədəqəsini qəbul etməz, qul azad etməyin, həcc və ümrəsinin savabını verməz. Allah gördüyü işlər həddində ona günah yazar. Ölümündən sonra ondan qalan şeylər oda doğru hərəkətində azuqəsi olar.”(۴)

Ağzına qoyduğun haram bir tikə

Əlbət ki, ruhuna salası ləkə.

Əlinlə əkdiyin bu şər toxumu

Şəksiz, savabların qırar çoxunu

İbadətlərini alar əlindən,

Din evinə dolar ağrı, qüssə, qəm.

səh:۲۱۴

---

۱- [۳۹۷] Bihar, ۶۸-ci cild, səh.۲۸۶.

۲- [۳۹۸] Bihar, ۶۳-cü cild, səh.۳۱۴.

۳- [۳۹۹] Kənzul-ummal, ۵-ci cild, səh.۲۷.

۴- [۴۰۰] Bihar, ۱۰۰-cü cild, səh.۱۷.

Çeşidli süfrəyə uzadanda əl

.Yaxşı düşün, sonra qalma məəttəl

Daşqəlblilik .۳

İslam elmlərində və təcrübi elmlərdə sübuta yetirilmişdir ki, insanın qəbul etdiyi qida təkcə onun bədəninə yox, həm də ruhuna tə`sir göstərir. Zəhərli qida insan orqanizminə mənfi təsir göstərdiyi kimi haram tikə də insan ruhunu puça çıxarır. Bütün niyyətlər insan qəlbindən qaynaqlanır. Qəlb insanın komandanlıq mərkəzidir. Pak qəlb .xeyir işlərə, çirkin qəlb isə haram işlərə sövq edir

Kərbəlada imam Hüseyn (ə) İbn Sə`d qoşununa üz tutaraq buyurur: "Qarınlarınız haramla dolub, qəlbləriniz möhürlənib. Vay olsun sizə, yoxsa insafınız kəsilib, eşitmək (gücünüz yoxdur?!"(۱

Tövbənin qəbul olmaması .۴

Haram malın mənfi tə`sirlərindən biri də tövbənin qəbul olunmamasıdır. "Nəhcül-bəlağə"də nəql olunur ki, bir şəxs həzrət Əlinin (ə) hüzurunda diqqət yetirmədən "əstəğfirullah" söylədi. Həzrət (ə) buyurdu: "Anan əzanda otursun, bilirsənmi istiğfar nədir? İstiğfarın altı şərti var..." Həzrət Əli (ə) istiğfarın (tövbənin) beşinci şərtini belə bəyan edir: "(Beşinci şərt budur ki,) haramdan yaranmış ətini nigarançılığınla əridəsən. (Belə ki, onun yerinə təzə ət gələ."(۲

İlahi tövfiqdən (yardımdan) məhrum olmaq .۵

Böyük şəxsiyyətlərdən birinin dilindən belə nəql olunur: Qəribə bir haldaydım. Gecə namazından, namazı əvvəl vaxtda qılmaqdan, ümumiyyətlə, ibadət



---

.Bihar, ۴۵-ci cild, səh.۸ [۴۰۱] -۱

.Nəhcül-bəlağə, h.۴۱۷ [۴۰۲] -۲

ləzzətindən məhrum olmuşdum. Düşünürdüm ki, axı nə üçün? Nə qədər ağlayırdımsa, nalə çəkirdimsə tə`siri olmurdu. Nəhayət, yuxuda mənə deyildi: "Haram xurma yeyən kəs ibadətdən ləzzət almaz." Yuxudan oyandım. Yadıma düşdü ki, dükandan xurma alanda xurmaların arasında biri yetişməmişdi. Mən dükan sahibindən icazəsiz həmin (xurmanı dəyişdim."(١

Digər günahlara sövq olmaq .۶

Mehdi Abbasi xilafəti dövrünün tanınmış qazisi Şərik ibn Abdullah haqqında yazırlar ki, bu şəxs öncə təqvalı bir fəqih olmuşdur. Mehdi Abbasi onu həbs etdirib, sonradan azad olmaq üçün üç yoldan birini seçməyi təklif etmişdir: ya qazilik mənsəbi, ya xəlifə övladlarının tərbiyəsi, ya da xəlifənin təamlarından dadmaq. Şərik xəlifənin son təklifini seçmiş və o biri təklifləri münasib saymamışdı. Xəlifə öz aşbazına göstəriş verir ki, çeşidli təamlar hazırlasın. Xəlifənin süfrəsindən təam dadan fəqih sonradan dəyişmiş, (həm qaziliyi, həm də xəlifə övladlarının tərbiyəsini öhdəsinə götürmüşdü.(٢

Bərəkətsizlik .٧

Haram tikə malın bərəkətini aparır. İmam Sadiq (ə) buyurur: "Qeyri-şər`i yolla mal əldə edən insana tikili, su və torpaq hakim olar. (Var-dövlət onu məhv edər)" Yə`ni bu şəxs var-dövlətini suya-torpağa sərf edər və heç bir fayda götürməz. Sanki torpağa .əmr olunub ki, onun var-dövlətini udsun



---

.Əxlaqi öyüd-nəsihətlər, səh.١٢٢ [۴٠٣] -١

.Səfinətun-nicat, ١-ci cild, səh.۶٩۶ [۴٠۴] -٢

Digər bir rəvayətdə imam Sadiq (ə) buyurur: "Çox haram yemək insanı ruzidən məhrum edər."(١) Həzrət Əli (ə) buyurur: "Çox olar ki, bir tikə insanı çox tikədən məhrum edər."(٢)

b) Axirət tə`sirləri

Müxtəlif rəvayətlərdə haram yeyənə müxtəlif axirət əzabları və`d olunur. Onlardan bə`zilərini nəzərdən keçirək:

١. Haramxorun daxilində od qalanması

İslam Peyğəmbəri (s) buyurur: "İnsanın oğurladığı şey qiyamət günü oddan olan boyunbağı ilə boynundan asılar. İnsan haram yesə qəbirdən qaldırıldığı vaxt daxilində od alovlanar. Bu od şö`lələrindən hamını qorxudan səs ucalar. Nəhayət, Allah bəndələr arasında hökm verər."(٣)

٢. Behiştə girişə qadağa

Əziz İslam Peyğəmbəri (s) buyurur: "Kə`b ibn Əcrə, haramdan yaranmış ət heç vaxt behiştə daxil olmaz."(۴) Digər bir rəvayətdə həzrət (s) buyurur: "Əti napak olan kəs heç vəchlə behiştə daxil olmaz. (Napak ətin nə olması barədə soruşulduqda həzrət (s) buyurur.) Elə bir ət ki, haramdan cücərmiş (yə'ni, yaranmış) olsun."(۵)

٣. İslam Peyğəmbəri (s) haramxor insanın ətini oda layiq bilir: "Əti haramdan cücərmiş kəsə od daha çox layiqdir."(۶)

۴. Hesab zamanı pərişanlıq

səh:٢١٧

---

١- [۴٠۵] Bihar, ٧۵-ci cild, səh.٢۵۶; Tuhəful-uqul, səh.٣٧٢.

٢- [۴٠۶] Nəhcül-bəlağə, h.١٧١.

٣- [۴٠٧] Uqubəti əhlil-kəbair, səh.۵١.

۴- [۴٠٨] Sünəni-Darəmi, ٢-ci cild, səh.٣١٨.

۵- [۴٠٩] Uqubəti əhlil-kəbair, səh.۵٠.

۶- [۴۱۰] Mustədrəkul-vəsail, ۱۳-cü cild, səh.۳۳۲.

Həzrət Peyğəmbər (s) haram yeməyi hesab zamanı qəm-qüssə səbəbi kimi təqdim edir: “Dörd şeyə sevinən insan dörd şeyə qəmlənər... Haram mal yeməkdən xoşhal olan insan hesab zamanı qəm-qüssəyə qərq olar.”(١)

٥. Sirat körpüsünün atəşin itləri ilə üzləşmə

Həzrət Peyğəmbər (s) buyurur: “Sirat körpüsündə atəşin itlər var. Boynunda haram bir dirhəm olan kəsin iki ayağından bu itlər yapışar. Belə ki, bu şəxs bir addım ata bilməz. Nəhayət, savab əməllərindən həmin dirhəmin sahibinə olan borcunu qaytarar. Əgər qaytara bilməsə, ağır günah yükü onu oda çəkər.”(٢)

## BİR ARİFİN BUYURUĞU

Məşhur arif Molla Mehdi Mərağı ٢٠٠ il bundan öncə öz əsərində halal malın tapılmamasından və xalqın haram mala üz tutmasından danışır: “Dövrümüzdə Fərat suyu və çöllərin otundan savay halal qalmayıb. Çünki zalımlar və haram alış-verişlər hər şeyi şübhəli edib.”(٣)

## HALAL TİKƏNİN VƏ HARAMDAN ÇƏKİNMƏYİN ƏHƏMİYYƏTİ

Müqəddəs İslam ayinlərində halal yeməyə xüsusi diqqət yetirilmişdir. İslam Peyğəmbəri (s) Əbuzərə buyurur: “Ey Əbuzər! Haramdan qazandığına əhəmiyyət verməyən kəsin cəhənnəmə haradan daxil olmasına Allah əhəmiyyət verməz.”(٤) İmam Baqir (ə) buyurur: “Ən üstün ibadət haram maldan çəkinmək və



---

١- [٤١١] İsna əşəriyyə, səh.٢١٤.
٢- [٤١٢] Uqubəti əhlil-kəbair, səh.٥١.
٣- [٤١٣] Cameus-səadət, ٢-ci cild, səh.٢٩.
٤- [٤١٤] Vəsailuş-şiə, ١٦-cı cild, səh.٩٨.

(paklıqdır."(۱) İmam Səccad (ə) buyurur: "Haram maldan qorunmaq qarının haqqıdır."(۲)

Allah-təala öz peyğəmbərinə (s) buyurur: "Ey Əhməd! İbadət on qisimdir: Onun doqquz qismi halallıq tələbidir. Əgər, yediyin içdiyin pak olsa, mənim tərəfimdən qorunacaqsan."(۳) Digər bir rəvayətdə həzrət (s) buyurur: "Dirhəmin altıda biri qədər haram tikədən imtina Allah yanında haram malla yerinə yetirilən ۱۰۰ həcdən üstündür."(۴) İmam Baqir (ə) buyurur: "Bütün günahlar təhlükəlidir. Amma ən təhlükəli günah haram ət və qan yaradan günahdır."(۵) Allah-təala Qur`ani-kərimdə saleh əməli pak qidadan asılı tanıtdırır: "Ey ilahi peyğəmbərlər, pak qidalardan istifadə edin .və saleh işlər görün."(۶) Allah-təala bu ayədə halal qidanı saleh əməldən öndə zikr edir

## Nəticə

İnsan müxtəlif vasitələrlə var-dövlət əldə edə bilər. Bu yollardan biri də insanın üzərinə düşən məs`uliyyətdən sui-istifadə etməsidir. Xalqın əmanətçisi olan dövlət .mə`murlarından bə`ziləri onlara tapşırılan mülkiyyətdən oğurluq edirlər

Haramxorluq nümunələrindən biri insanın öz nüfuz və məqamından istifadə edib .hədiyyə almasıdır. Çoxları bu yolla böyük var-dövlət ələ keçirmişlər



---

.Kafi, ۲-ci cild, səh.۷۹ [۴۱۵] -۱

.Məkarimul-əxlaq, səh.۴۱۹ [۴۱۶] -۲

.Bihar, ۷۴-cü cild, səh.۲۷ [۴۱۷] -۳

.Tənbihul-xəvatir, ۲-ci cild, səh.۱۲۰ [۴۱۸] -۴

.Bihar, ۷۳-cü cild, səh.۳۱۷ [۴۱۹] -۵

.Mö`min surəsi, ayə ۵۱ [۴۲۰] -۶

Bə`zən dövlət müqavilələrinə məs`uliyyət daşıyanlar üstəlik qeyri-qanuni faizlər .almaqla ağılasığmaz məbləğlər əldə edirlər

Haram qazanclardan biri də rüşvətdir. Təəssüf ki, bu qeyri-bəşəri vərdişin nəinki kökü kəsilməyib, əksinə, o öz əhatə dairəsini daha da genişləndirib. Rüşvətin qarşısını almaq .üçün tə`sis olunmuş qurumlar heç vəchlə bu işin öhdəsindən gəlmir

Hər halda Allahın və onun məxluqunun haqlarının tapdanması bahasına əldə olunan var-dövlət haramdır və bu əməllər cəmiyyətin sütunlarını laxladır. Xalqın bu nöqtəyə diqqət yetirməsi zəruridir. İnsanlar ruzi verən Allaha bağlanmaq, Ona təvəkkül etməklə haram tikədən çəkinə bilər. Bəli, insan yüngül yüklə son aqibətdə onu !gözləyən dar cığırdan daha asanlıqla ötüşər

ƏLHƏMDU LİLLAHİ RƏBBİL-ALƏMİN

## MÜNDƏRİCAT

MÜQƏDDİMƏ ... ٣

HÜSEYN KƏRİMİ ZƏNCANİ ........... ٨

GÜNAHIN TƏ`SİRLƏRİ ......... ٩

NÖV GÜNAHIN NƏTİCƏSİ HAQQINDA İMAM SƏCCADIN (Ə) NƏZƏRİ ...... ٧٥ ٤٣

NƏTİCƏ ٤٥

ŞİRK (ALLAHA ŞƏRİK QOŞMAQ) ........... ٤٦

İBADƏTDƏ ŞİRKİN İRFANİ TƏ`RİFİ ...... ٤٨

İLKİN GÜNAH ٤٩

TÖVHİDİN (BİR ALLAHA PƏRƏSTİŞİN) BƏRƏKƏTLƏRİ .. ٥٠

GÜNAHI KİÇİK SAYMAQ .. ٥٧

NƏTİCƏ ٦٢

DAVAMLI GÜNAH ... ٦٢

GÜNAHIN DAVAMI NƏTİCƏSİNDƏ RUZİNİN AZALMASI ٦٤

GÜNAHIN DAVAMI NƏTİCƏSİNDƏ AXİRƏTDƏ SALEH ƏMƏLLƏRİN RƏDD OLUNMASI . ٦٤

ALLAH RƏHMƏTİNDƏN ÜMİDSİZLİK . ٦٥

MƏ`SUMLARIN TÖVSİYƏLƏRİ ... ٦٧

HAQQIN LÜTFÜ HAQQINDA TARİXİ BİR HADİSƏ .. ٦٩

HAQQIN LÜTFÜ HAQQINDA DİGƏR BİR MACƏRA ٧٠

ALLAHIN ƏKS-TƏDBİRİNDƏN ASAYİŞ HİSSİ ........... ۷۳

A) CƏZA ........ ۷۴

İSTİDRAC" SÖZÜNÜN LÜĞƏT VƏ TERMİNOLOJİ MƏ`NASI .......... ۷۵"

NAMAZIN TƏRKİ ...... ۸۲

NƏTİCƏ ۸۷

ORUCUN TƏRKİ ........ ۸۸

NƏTİCƏ ۹۷

CİHADIN TƏRKİ VƏ ONUN TƏ`SİRLƏRİ ......... ۹۸

CİHADIN DÜNYƏVİ TƏ`SİRLƏRİ.......... ۱۰۱

CİHADIN QİSMLƏRİ .......... ۱۰۲

NƏTİCƏ .......... ۱۰۵

HƏCCİN TƏRKİ ........ ۱۰۶

səh:۲۲۱

HƏCCİN FƏLSƏFƏ VƏ SİRLƏRİ HAQQINDA HƏZRƏT ƏLİNİN (Ə) BUYURUQLARI ........ ۱۰۷

KƏ`BƏ . ۱۰۹

NƏTİCƏ .......... ۱۱۴

XÜMSÜN TƏRKİ ..... ۱۱۵

NƏTİCƏ .......... ۱۲۵

ZƏKATIN TƏRKİ ..... ۱۲۵

NƏTİCƏ .......... ۱۲۹

ƏMR BE MƏ`RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN (YAXŞILIĞA DƏ'VƏT VƏ PİSLİYƏ QADAĞANIN) TƏRKİ . ۱۳۰

NƏTİCƏ .......... ۱۳۶

TƏVƏLLA VƏ TƏBƏRRANIN (ALLAH DOSTLARI İLƏ DOST, ALLAH DÜŞMƏNLƏRİ İLƏ DÜŞMƏNÇİLİYİN) TƏRKİ . ۱۳۷

TƏVƏLLA VƏ TƏBƏRRANIN MAHİYYƏTİ ... ۱۳۷

MƏ`SUMLARIN NƏZƏRİNDƏ TƏVƏLLA VƏ TƏBƏRRANIN ƏHƏMİYYƏTİ .......... ۱۳۸

SALEH ƏMƏLLƏRİN QƏBULUNDA TƏVƏLLA VƏ TƏBƏRRANIN ROLU ......... ۱۳۹

SÜNNƏ ƏHLİ ALİMLƏRİNİN NƏZƏRİNDƏ ƏHLİ-BEYT (Ə) MƏHƏBBƏTİ ۱۴۱

ƏHLİ-BEYT (Ə) ARDICILLARININ NƏZƏRİNDƏ VİLAYƏT ۱۴۲

NƏTİCƏ .......... ۱۴۴

YAXINLARLA ƏLAQƏNİ KƏSMƏK ("QƏT`İ-RƏHİM") ..... ۱۴۴

NƏTİCƏ .......... ۱۵۳

SPİRTLİ İÇKİLƏR (ŞƏRABXORLUQ) ... ۱۵۳

İÇKİ DÜŞKÜNLÜYÜNÜN ACI NƏTİCƏLƏRİ . ۱۵۴

ŞƏRAB İÇƏNİN CƏZASI ... ۱۵۸

ŞƏRABXOR ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ İCTİMAİ CƏZALAR ...... ۱۵۹

ZİYALI VƏ ŞƏRAB . ۱۶۰

OĞURLUQ ..... ۱۶۱

İSLAMDA OĞURLUĞUN CƏZASI ......... ۱۶۲

OĞURLUĞUN DÜNYA VƏ AXİRƏT TƏ`SİRLƏRİ .... ۱۶۳

SÖZƏ BAXAN OĞRU ......... ۱۶۶

MALIN OĞURLUQ OLDUĞUNU BİLİB ONU SATIN ALAN KƏS OĞRU HÖKMÜNDƏDİR. ..... ۱۶۶

ZİNA .... ۱۶۷

səh:۲۲۲

QADINLAR ARASINDA HƏMCİNSBAZLIQ ... ١٨۴

İSLAMIN SƏRT MÜNASİBƏTİ .... ١٨٨

QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN TARİXİ ....... ١٨٩

QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN MƏFHUMU, BU GÜNAHIN DÜNYA VƏ AXİRƏT CƏZALARI ...... ١٩٠

QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞIN CƏZASI ...... ١٩١

QANUN MƏCƏLLƏSİNDƏ QADINLAR ARASINDA HƏMCİNSBAZLIĞA GÖRƏ NƏZƏRDƏ TUTULMUŞ MADDƏLƏR.. ١٩١

KİŞİLƏR ARASINDA HƏMCİNSBAZLIQ ......... ١٩٢

HƏMCİNSBAZLIQ VƏ İLAHİ ƏZAB ..... ١٩٣

TARİX NƏ DEYİR? .. ١٩۴

RƏVAYƏTLƏRDƏ HƏMCİNSBAZLIĞIN MƏZƏMMƏTİ .... ١٩۵

İLAHİ ƏMRLƏRİN HƏQİQƏTİ VƏ QİÇS (SPİD) ƏZABI ...... ١٩۶

HƏMCİNSBAZLIĞIN HƏDLƏRİ . ١٩۶

HƏMCİNSBAZLIQDAN YARANAN QADAĞALAR.. ١٩٧

BÜTÜN BU RÜSVAYÇILIQLARDAN QURTULUŞ YOLU VARMI? .......... ١٩٧

NƏTİCƏ .......... ١٩٨

QƏZF” ........... ١٩٨“

QUR`ANIN NƏZƏRİ ١٩٩

QƏZFƏ GÖRƏ CƏZANIN SƏBƏBİ ......... ١٩٩

QƏZFİN CƏZASI ...... ١٩٩

QƏZFDƏN DOĞAN QADAĞALAR ........ ۲۰۰

GÜNAHA VASİTƏÇİLİK ... ۲۰۱

İSLAMIN TƏQDİM ETDİYİ ÇIXIŞ YOLU ......... ۲۰۱

VASİTƏÇİLİYİN CƏZASI .. ۲۰۲

QANUNLAR MƏCƏLLƏSİNDƏ VASİTƏÇİLİYİN CƏZASI ۲۰۳

PEYĞƏMBƏR VƏ YA İMAMLARIN TƏHQİRİ ........... ۲۰۳

YADDAŞ ......... ۲۰۴

İSLAM QANUNÇULUĞUNDA PEYĞƏMBƏRİ TƏHQİRİN CƏZASI ........... ۲۰۴

ALLAH EVİ KƏ`BƏYƏ HÖRMƏTSİZLİK ......... ۲۰۴

MÜQƏDDƏS YERLƏRDƏ GÜNAH ........ ۲۰۵

İCTİMAİ RƏ’Y BAXIMINDAN KƏ`BƏYƏ HÖRMƏTİN ZƏRURƏTİ ..... ۲۰۶

SEHR–CADU .. ۲۰۶

SEHR–CADUNU NECƏ TANIMALI? ...... ۲۰۷

səh:۲۲۳

MƏHƏBBƏT DUASI ........... ۲۰۸

SEHR–CADUNUN BƏLALARI ..... ۲۰۸

SEHRBAZ VƏ CADUGƏRİN CƏZASI ... ۲۰۸

NƏTİCƏ .......... ۲۰۹

XÜSUSİ BİR TÖVSİYƏ ...... ۲۱۰

HARAM YEMƏK ..... ۲۱۰

HARAM YEMƏYİN – HARAMXORLUQ MƏFHUMU ........... ۲۱۱

HARAM YEMƏYİN TƏ`SİRLƏRİ ........... ۲۱۲

BİR ARİFİN BUYURUĞU .. ۲۱۸

HALAL TİKƏNİN VƏ HARAMDAN ÇƏKİNMƏYİN ƏHƏMİYYƏTİ .......... ۲۱۸

NƏTİCƏ .......... ۲۱۹

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər surəsi, ayə ۹

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ۲۰۰۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.۱

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.۲ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .۳ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.۱

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik


:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
WWW
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109